**SƏDAQƏT MƏMMƏDOVA**

# MƏDƏNİYYƏTŞÜNASLIQ

(Ali məktəblərin bakalavr pilləsi üçün dərs vəsaiti)

Dərs vəsaiti Azərbaycan Respublikası
Təhsil Nazirliyi Elmi-Metodiki Şurasının
"Sosial-siyasi elmlər" bölməsi tərəfindən
təsdiq edilmişdir. (12 oktyabr 2001-ci il
tarixli iclasın 01 saylı protokolu)

**"Kooperasiya"nəşriyyatı**
**Bakı-2001**

**Elmi redaktoru:** **Alxan Bayramoğlu,**
filologiya elmləri doktoru.

**Rəyçilər:** **Nizami Cəfərov,**
filologiya elmləri doktoru, əməkdar elm xadimi, professor, Azərb. MEA-nın müxbir üzvü.

**Qoşqar Əliyev,**
fəlsəfə elmləri doktoru.

S.K.Məmmədova. "Mədəniyyətşınaslıq",(dərs vəsaiti)
Bakı, "Kooperasiya" nəşriyyatı-2001, 202 səh.

Filologiya elmləri namizədi Sədaqət Məmmədovanın bu kitabında "Mədəniyyətşünaslıq" fəlsəfə elminin müstəqil bir sahəsi kimi təqdim olunur. Kitabda mədəniyyətin formalaşma tarixinə nəzər salınır, dünya və Azərbaycan filosoflarının irsinə istinadən Azərbaycanda milli-mədəni şüurun formalaşması, mədəniyyət və sivilizasiya, dövlət və mədəniyyət, mədəniyyət və cəmiyyət problemlərinin ətraflı şərhi verilir.

Dərs vəsaiti əsasən ali məktəblərin bakalavr mərhələsi üçün nəzərdə tutulsa da, ondan magistrlər, aspirant və doktorantlar, ümumiyyətlə geniş oxucu kütləsi də istifadə edə bilərlər.

$$\mathbf{M}\frac{050302090703-03}{124-2001}$$ qrifli nəşr

© "**Kooperasiya"nəşriyyatı**

# XALQLARIN MİLLİ MƏNLİK SİMASI-MƏDƏNİYYƏT

**Ayinəsi işdir kişinin, lafə baxılmaz,**
**Şəxsin göriiniir surəti-əqli əsərində.**

**Ziya paşa.**

*Mədəniyyət geniş anlayışdır. O, bəşər övladının yarandığı vaxtdan bəri yaratdığı və getdikcə təkmilləşdirdiyi maddi, mənəvi, ruhani, ideoloji, bədii-estetik və digər sərvətləri özündə ehtila edir. Yəni, insanlığı şərtləndirən yaddaş, dünyagörüş, elm, davranış, ünsiyyət, incəsənət, məişət və s. bu kimi keyfiyyətlər mədəniyyətin komponentlərindəndir. Mədəniyyətşünaslıq isə, mədəniyyətin inkişaf xüsusiyyətlərini, hər xalqda onun təzahür formalarını, qarşılıqlı faydalanma və təsir vasitələrinin özgünlüklərini öyrənir. Bu öyrənmə yeni nəslin və bəşəriyyətin mədəni və intelektual səviyyəsinin inkişafı üçün zəruridir.*

*Bütövlükdə mədəniyyət şəxsiyyətin və xalqların fərdi intelektinin, yaradıcılıq potensialının göstəricisidir. Təsadüfi deyil ki, hər bir xalqın və şəxsiyyətin xarakterik xüsusiyyətlərinə, daxili dünyasının mənzərəsinə və potensial imkaniarına bələd olmaq istəyənlər birinci növbədə onun yaratmış olduğu mədəni sərvətə, əsərlərinə və abidələrə müraciət edirlər. Çünki, mədəniyyəti yaradan xalq (şəxsiyyət) eyni zamanda bu prosesdə özü formalaşır. Ona görə də xalqın xarakteri onun öz əsərində-mədəniyyətində üzə çıxır, necə deyərlər,* ***"şəxsin görünür surəti-əqli əsərində".***

*Mədəni sərvətlərin yaradılmasında məişət, qida, geyim, təşərrüfat, adət-ənənə və s. həyat səraiti, genetikyaddaşdan və tarixi inkişafdan gələn dünyabaxışı, qarşılıqlı əlaqələr və ünsiyyət bu və ya başqa şəkildə iştirak edir. Bir sözlə, onu yaradanların tanınması mədəniyyətin, mədəni sərvətin bütövlükdə mənimsənilməsi əslində insanlığın inkişaf və formalaşma prosesinin dərki (və idarə edilməsi) deməkdir. Odur ki, mədəniyyətşünaslıq fəlsəfənin mühüm ideya-estetik tərkib hissəsidir. Məhz bu səbəbdən də Sədaqət xanım Məmmədova onun elmi, dini, ideoloji, mənəvi və estetik*

*(incəsənət baxımından) komponentləri ilə yanaşı dil, məişət və sairlə bağlı cəhətlərini şərh edərkən, haqlı olaraq, mədəniyyətə, xalqların mədəni sərvətlərinə bütöv bir orqanizm kimi nəzər salmağa çalışır. Nəticədə xalqların mədəniyyət tarixlərinin, yaratmış olduqları mədəni sərvətlərin təsvir və təqdimi onların milli mənliyinin şərhi təsiri bağışlayır. Təbii ki, bu zaman bəşər mədəniyyəti sərvətinin yaradılmasında hər kəsin (xalqın) yeri, xidməti göz önündə canlanır. Mədəniyyətlərin qarşılıqlı təsiri və bəhrələnməsinə həsr olunan səhifələr haqqında danışılan xalqların intelektual potensialı barədə oxucuda yaranmış təəssüratı daha da dərinləşdirir.*

*Müəllif dünya mədəniyyətinin inkişafında ayrı-ayrı dövrlərin, tarixi proseslərin və xalqların rolunu aydınlaşdırarkən diqqəti qürurla Azərbaycan xalqının dünya mədəni sərvətləri içərisindəki payına, verdiyi töhfələrə yönəldir. Bu qürur onun mənsub olduğu Azərbaycan xalqının istedad, qabiliyyət və mədəni sərvət cəhətdən qabarıq fərdi siması ilə özünü göstərməsindən doğur. Yəni, bir daha təsdiqlənir ki, Azərbaycan xalqının mədəni-mənəvi potensiyası güclü, özü istedadlı olduğu üçündür ki, bəşər mədəniyyəti sərvətinə verdiyi töhfənin çəkisi də kifayət qədər tutumludur.*

*Xalqın mənəvi sərvətcə zənginliyi, potensial imkanının tükənməzliyi, haqlı olaraq, onun dövlət müstəqilliyinə etibarlı dayaq hesab edilir. Təsadüfi deyil ki, Azərbaycan xalqının dövlət müstəqilliyi əldə etməsində özgün rol oynayan mədəni, mənəvi sərvətlərlə yanaşı milli dövlət atributları da kifayət qədər geniş şərh olunur. Bu şərh kulturoloji xarakter daşımayıb, ilk dəfə olaraq, məhz mədəniyatşünaslıq çərçivəsində həyata keçirilir. Odur ki, dərs vəsaitinin gənc nəslin (təiəbələrin) milli ruhda, yüksək intellektual qürurda tərbiyə edilib formalaşmasına və inkişafına əhəmiyyətli təsir göstərəcəyi şəksizdir.*

***Alxan Bayramoğlu***
***filologiya elmləri doktoru***

# *GİRİŞ*

Hər bir kəsin mənəvi ehtiyacları onu yetişdirən milli-mədəni mühütin xüsusiyyətləri ilə müəyyənləşir. Ona görə də yetişməkdə olan gənc nəslə xalqımızın sosial-mənəvi mənşəyini, mədəniyyətini, mədəniyyət tarixini öyrətmədən onların mədəni təlabat meyllərini, estetik zövq oriyentasiyasını müəyyənləşdirmək mümkün deyildir. Onlar bu bilikləri qazanaraq dərk etməlidirlər ki, Azərbaycan xalqı elə bir mədəniyyətə malikdir ki, bu mədəniyyət müxtəlif zamanlarda həm müxtəlif sivilasiyaların nailiyyətlərindən faydalanmış, həm də onların bəzilərinin önündə getmiş elə mürəkkəb və zəngin bir fenomendir ki, ona sadə şəkildə yanaşmaq olmaz.

Azərbaycan qazandığı müstəqilliyə tamamilə yiyələnmək üçün xalqımız öz mənəvi və maddi mədəniyyətini dünya mədəniyyətinin təcrübəsi və nailləyyətlərindən faydalanmaqla, öz köklərindən ayrılmamaq şərtilə daha da inkişaf etdirməlidir.

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq dərs vəsaitində mədəniyyətin tarixi inkişaf meyllərinin xarakterini, mərhələlərini, mədəniyyət və sivilizasiyasının daxili vəhdətini, qarşılıqlı əlaqə və fərqini, ona yanaşma metodlarını əks etdirməyə çalışdıq. Mövzular bir neçə il öncə tərtib etdiyimiz proqrama uyğun olaraq daxili bağlılıq, ünsiyyət və münasibət sistemi ilə şərh edilmişdir. Belə münasibətin üstünlüyü ondadır ki, o tədris olunan mövzuları dolğun şəkildə qavramağa, seçim etməyə, tarixi keçidləri proses kimi mənimsəməyə imkan verir.

Dərs vəsaitinin "mədəniyyət və dövlət" fəsli də bizcə, milli dövlətçiliyimizin tələbə gənclərə öyrədilməsi baxımından uğurlu sayıla bilər. Belə ki, bu fəsildə mədəniyyət-dövlətvətəndaş münasibətlərinin dialektikası, dövlət rəmzlərinin mənasının tədqiqatla bağlılığı, dövlət bayrağımızın ideloji ünsürləri, dövlət himnimizdəki mənəvi paklıq və ucalıq, əzəmət öz əksini tapmışdır. Konstitusiyamızdakı millilik keyfiyyətlərinin tamlığı bütövlüyü,

millilikla beynəlmiləlçiliyin əlaqəsi dərs vəsaitini də geniş şəkildə şərh olunur.

Təqdim olunan dərs vəsaitində əsasən beş amilə üstünlük verilir;

1) təbii-coğrafi mühit
2) genetik kod.
3) sosial mühit.
4) tarixi şərait
5) mədəni mübadilə

Göstərilən bu amillər mədəni tərəqqinin əsas istiqamətlərini və müasir dövrün mədəniyyətinin strukturunu müəyyənləşdirməyə imkan yaradır.

Mədəniyyət ruhun qidasıdır. Hələ 1990-cı illərin əvvələrində ali məktəblərdə etika, estetika, məntiq fənləri tədris olunurdu. Sonralar bu fənlər əsaslandırılmadan tədris planından çıxarıldı. Həmin fənlərin mövzuları içərisində elələri var idi ki, onların gənclərə öyrədilməsi böyük əhəmiyyət daşıyırdı. İndi yaşlı nəsil bü biliklərdən məhrum edilmiş gənclərə milli zövqlərinin olmamasını, Avropaya daha çox meyl etmələrini irad tuturlar. Buradan belə bir sual meydana çıxır:

- Biz onlara (gənclərə) bu istiqamətdə nə öyrədirik? Yalnız "Azərbaycan tarixi"ni, "Konstitutsiya"nı öyrətməklə, tələbələrdə, gənc nəsldə milli xüsusiyyətlər formalaşdırmaq mümkündürmü?

Bizcə, bu sualın ancaq bir cavabı var: - Xeyr!

Ona görə də, qismən də olsa, bu boşluğu doldurmaq üçün dərs vəsaitində milli mədəniyyətdə mənəviyyatımıza olan bağlılığı, yaşarı və əbədi olan insana inam, müstəqil dövlətçiliyimizin bu sahədəki uğurları haqqında məsələləri əks etdirdik.

Dərs vəsaiti haqqında öz fikirlərini bildirən həmkarlarımıza əvvəlcədən təşəkkürümüzü bildiririk.

## *I FƏSİL*
## *MƏDƏNİYYƏT VƏ TƏRƏQQİ*

### *§ 1. MƏDƏNİYYƏTŞÜNASLIQ VƏ ONUN BİR ELM KİMİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ*

Mədəniyyətin ümumbəşəri məna və məzmununu tədqiq edən, onun cəmiyyətin bütün sahələrində yerini və rolunu göstərən mədəniyyətşünaslıq ifadəsi "kulturologiya" sözünün tərcüməsidir. Latınca "culture", yunanca "logos" (təlim, elm) sözlərinin birləşməsindən yaranan "Mədəniyyətşünaslıq" termini "mədəniyyət haqqında elm" mənasını ifadə edir. Elmi və publisistik ədəbiyyatda "mədəniyyət" termininin ilk dəfə kim tərəfindən işlənməsinə dair müxtəlif fikirlər vardır. Lakin "Kultur" termininin ilk dəfə Qədim Romada işlənməsi həqiqətdir. Belə ki, bu mənada qeyd etdiyimiz termin Roma siyasətçiləri və filosoflarından əvvəlcə Katon, sonralar isə Mark Tullis Sisseron (e.ə.3.1.106 Arpinum - e.ə. 7.12.43. Kayeta yaxınlığında, indiki Qasta) tərəfindən işlənmişdir, Maraqlıdır ki, M.T.Sisseron özünün 58 məhkəmə və siyasi nitqində ritorikaya, fəlsəfəyə, siyasətə aid 19 traktatında, o cümlədən, 800 məktubunda bu termindən dəfələrlə istifadə etmişdir. Avropada "mədəniyyət" termini bəşər tarixinin keçdiyi üç dövrün - vəhşilik, barbarlıq, sivilizasiya - üçüncü mərhələsini bildirmək üçün qəbul olunmuşdur və onu bu mənada ilk dəfə 1767-ci ildə Şotland filosofu A.Fergüson işlətmişdir. Sonralar görkəmli Amerika etnoqrafı, arxeoloqu, ibtidai icma cəmiyyəti üzrə tarixçi Lüis Henri Morqan (21.11.1818. Orora, Nyu-York, -17.12.1881. Roçester, Nyu-York) bu bölgünü daha da əsaslandırmışdır.

İslam Şərqində "mədəni" termini ərəblərdən alınmış və aşağıdakı mənaları ifadə etmişdir:

1. şəhərli, qəsəbəli
2. oturaq, yəni, köçəri olmayan

3. mədəniyyətin yüksək səviyyəsində olan; elmli, oxumuş,

4. mədəniyyətə mənsub olan.

Müxtəlif dövrlərdə yuxarıda qeyd etdiyimiz alim və mütəfəkkirlər tərəfindən işlənməsinə baxmayaraq bu termin keçən əsrin əvvəllərində Amerika alimi Lesli Uayt (1900-1975) tərəfindən elm kimi tədqiq olunmağa başlanmışdır. Öz təlimini "kulturologiya" adlandıran alim bildirdi ki, bu termin həm insan cəmiyyətini, həm də onun mədəniyyətini əks etdirir.

Deməli, "Mədəniyyətşünaslığ"ın predmetini mədəniyyət, cəmiyyətdə onun yeri və rolu, inkişaf istiqamətləri, hansı səviyyələrdə mövcudluğu və s. təşkil edir.

Bəşər tarixində elə bir dövr olmamışdır ki, mədəniyyət məsələləri orada öz əksini tapmasın. Çünki, mədəniyyət kainatda insanın yaranması ilə bir zamanda meydana gəlmişdir. İbtidai insanın hər hansı yeni bir xüsusiyyət qazanması mədəniyyətə doğru irəliləyiş olmuşdur. Dəyişən hər bir əsr insanların şüur və fəaliyyətində dəyişikliklər yaratdıqca onların maddi həyat tərzi də dəyişmiş, dünyagörüşləri, həyata baxışları dövrün tələbinə uyğun şəkildə inkişaf etmişdir. Söz yox ki, insanların tarixi inkişafı ilə cəmiyyətdə yaranan dəyişikliklər mədəniyyətdə də öz ifadəsini tapmışdır. Hər bir tarixi dövr, cəmiyyətin hər bir özünəməxsus forması bu mənada özgün mədəniyyətə malik olmuşdur.

Marksizmə görə mədəniyyət ibtidai icma quruluşunun dağılması, sinifli cəmiyyətin və xüsusi mülkiyyətin təşəkkül tapması ilə meydana çıxmışdır.

F.Engels "Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi" əsərində mədəniyyəti cəmiyyətin xüsusi inkişaf mərhələsi kimi göstərmişdir.

Mədəniyyətin bir çox formaları vardır: bədii mədəniyyət, əxlaq mədəniyyəti, hüquq mədəniyyəti, istehsal mədəniyyəti, xidmət mədəniyyəti, siyasi mədəniyyət, nitq mədə-

nivyəti və s. Eyni zamanda bu formaların hər birinin oxşar və fərqli cəhətləri vardır. Oxşar cəhət ondan ibarətdir ki, hər hansı forma insan fəaliyyəti ilə şərtlənir. Fərqli cəhət isə bu formaların hər birinin özgün məzmununda ifadə olunur.

Mədəniyyətin aşağıdakı inkişaf mərhələləri vardır;

a) Qədim Şərq mədəniyyəti;

b) Antik mədəniyyət;

v) Orta əsrlər mədəniyyəti;

q) İntibah dövrünün mədəniyyəti;

d) Yeni dövr (burjua) mədəniyyəti;

e) Sosialist mədəniyyəti;

ə) Müstəqillik dövrünün mədəniyyəti.

Məqsədindən və yerinə yetirdiyi vəzifələrdən asılı olaraq mədəniyyətin bu növləri meydana çıxır; milli mədəniyyət, beynəlmiləl mədəniyyət, dini mədəniyyət, etnik mədəniyyət və s.

Göründüyü kimi, mədəniyyət insanın yer üzərində mövcudluğunun bütün tərəflərini, onunla rəngarəng əlaqə və münasibətləri əhatə edən mürəkkəb və çoxsahəli bir fenomendir. Onun mahiyyət və mənasındakı qiymətli xüsusiyyətlərin ən əsasını belə aydınlaşdıra bilərik: mədəniyyət insanın bacarıq və əlaqələrinin, insan tərəfindən yaradılanların, insan əməyi və zəkasının nəticələrinin tam vəhdətinin zahiri əksini ifadə edən ictimai subyekt kimi insanın özünün fəaliyyətini müəyyənləşdirən tarixi inkişaf prosesidir.

Deməli, mədəniyyətin əsas vəzifəsi insanın ictimai fəaliyyət subyekti kimi inkişafına əsaslanmaqla bərabər, bu inkişafı şərtləndirir. Mədəniyyətin obyektləri isə geniş mənada təbiət və cəmiyyətdir.

Şərti və nisbi olaraq mədəniyyətin tam sisteminin strukturu iki sahəyə ayrılır:

1. İnsanın təbiəti dəyişdirmək prosesində özünün dəyişməsi ilə əlaqədar olan maddi mədəniyyət;

2. İnsanın mənəvi aləminin və sosial varlığının dəyişməsi ilə əlaqədar olan mənəvi mədəniyyət.

Eyni zamanda bu sahələrin hər ikisi bir-biri ilə qarşılıqlı əlaqədədir, biri digərinin inkişafına imkan yaradır, kömək edir.

İnsan ilkin olaraq əməyin təsiri ilə formalaşır, inkişaf edir. Maddi istehsalda əməyin "insandəyişdirici" mahiyyəti mədəniyyətin əsası kimi marksizm klassikləri tərəfindən əhatəli şəkildə əsaslandırılmışdır. "Marks mədəniyyət tarixində əməyin böyük əhəmiyyətini onun hər şeyə qalib gələn qüvvəsini bütün dünyaya göstərmişdir..." (M.Qorki).

Mədəniyyətin yuxarıda qeyd etdiyimiz sahələrinin hər biri insanın ictimai varlıq kimi inkişafına özünəməxsus təsir göstərir. Yəni, insanın maddi-dəyişdirici fəaliyyətinin məqsədi, hər şeydən əvvəl, öz təlabatını ödəmək üçün lazım olan maddi nemətlər yaratmaqdır. Söz yox ki, bu fəaliyyət prosesində insanlar özləri də inkişaf edir, təcrübələri artır, bilikləri zənginləşir, müəyyən bacarıqları üzə çıxır.

Mədəniyyətin spesifik xüsusiyyətləri aşağıdakılardır:

l. Mədəniyyət formasına görə milli, məzmununa görə isə beynəlmiləl və ümumbəşəri xarakterə malikdir. Hər hansı bir mədəniyyət nümunəsi milli zəmində yaransa da, onun nəticəsi bəşəriyyətə məxsus olur.

2. Mədəniyyət humanist xarakterə malikdir. İnsan öz yaratdığından zövq alır.

3. Mədəniyyət varislik xüsusiyyətinə malikdir. Müasir nəsillər keçmiş nəsillərin təcrübəsindən faydalanaraq onu daha da inkişaf etdirirlər.

4. Mədəniyyət vahid və bölünməzdir,

5. Mədəniyyət mentalitet vasitəsilə gerçəkləşir və s.

Cəmiyyətin mədəni inkişaf səviyyəsi həmin cəmiyyətdə yaradılan mədəni sərvətlərin həm həcmi, həm yayılma miqyası, həm də insanlar tərəfindən mənimsənilməsi ilə əlaqələndirilir. Mənəvi sərvətlərin yaradılması, yayılması və isti-

fadə olunması üsulları isə cəmiyyətin sosial-mədəni təşkilindən asılıdır. Mənəvi istehsalın məzmununun dəyişməsi özünü ilk növbədə mənəvi sərvətlərin yaradılması, mübadilə edilməsi, bölgüsü və istifadə üsullarının dəyişməsi və inkişafında nəzərə çarpdırır. Cəmiyyətin mədəni inkişafının tempi vüsəti və faydalılığı ona doğru istiqamətləndirilmiş insanların yaradıcı fəallığının dərəcəsindən, onların əhatə dairəsinin genişliyindən asılıdır. Elə buna görə də mədəni tərəqqinin əsas meyarlarından biri xalqın tarixi prosesdə şüurlu iştirak dərəcəsi, onun mənəvi fəaliyyətə cəlb olunma dairəsi ilə əlaqədardır.

## *§2. MƏDƏNİYYƏT VƏ SİVİLİZASİYA*

Sivilizasiya latınca "sivilis" sözündən alınıb və mülki, ictimai mənasını bildirir. Bu söz bir neçə məna ifadə edir. Belə ki, marksist ədəbiyyatda maddi mədəniyyəti, ictimai inkişafın səviyyəsini, bəşər tarixinin barbarlıqdan sonra gələn mərhələsini bildirmək üçün sivilizasiya anlayışından istifadə olunur.

Tarixin müxtəlif mərhələlərində xalqların və mədəniyyətlərin taleyi elm, sənət xadimlərini həmişə narahat etmişdir. Müxtəlif dövrlərdə mədəniyyət və sivilizasiya anlayışlarına görkəmli şəxsiyyətlər tərəfindən bir-birindən fərqli münasibətlər bildirilmişdir. Məs., İ.Kantın fikrincə, insan öz əxlaq və davranış qaydalarını müəyyən etdikdən sonra sivilizasiya yaranır.

"Sivilizasiya" dedikdə, bir tərəfdən, cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, digər tərəfdən isə mədəni dəyərlərin (maddi və mənəvi) mənimsənilməsi səviyyəsi nəzərdə tutulur ki, bu da bütün ictimai həyatı və onun spesifikasını göstərir. Şübhəsiz, müəyyən sivilizasiyadan söhbət gedərkən, sivilizasiyanı mədəniyyətdən fərqləndirən iki əlamət əsas hesab oluna bilər. Sivilizasiyanın birinci əlaməti – onun

cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi kimi başa düşülməsi etnoqrafik, tarixi, sosioloji və fəlsəfi ədəbiyyatda geniş tədqiq olunmuşdur. Əslində elə bu əlamətin öyrənilməsi zamanı sivilizasiyanı çox vaxt mədəniyyətlə eyniləşdirirlər. E.Teylor öz tədqiqatlarında belə də yazmışdır: “Mədəniyyət və yaxud sivilizasiya”. Lakin o, eyni zamanda bəzi fərqləri də göstərə bilmişdir.

Sivilizasiyanın ikinci əlaməti-mədəniyyətin mənimsənilməsi üsulu elmi ədəbiyyatda çox az işlənmişdir... Bəşər tarixi bir daha göstərir ki, mədəniyyətin mənimsənilməsi üsulu necədirsə, sivilizasiya da elədir. Məsələn, təsadüfi deyildir ki, biz Qərb və Şərq sivilizasiyasını bir-birindən fərqləndiririk.

Qərb-Şərq münasibətlərinin tarixi qədimdir. Misir, Finikiya, Karfagen Qərb dünyasına çox şey bəxş etmişdir. Farslar yunan aləmi ilə qarşılaşmış, Makedoniyalı İsgəndər dünyanı fəth etmək məqsədilə Şərqə yürüş etmişdir.

Xristianlıq Şərqdə yaransa da Qərbi fəth etmiş və Bibliyanı Qərbə töhfə vermişdir. Silah gücünə Şərqi fəth etsə də, Şərq aləmi tərəfindən mənəvi baxımdan fəth olunmuş Roma, həm öz dini həyatına Şərq, o cümlədən fars Mitri ibadətini tətbiq edir, həm də Hindistandan qiymətli sərvətləri talan edib aparırdı. Vizantiya Romanı əvəz etdi və Şərqlə Qərbin əlaqəsi daha da möhkəmləndi. Cənubda ərəblərin fəthləri nəticəsində Siciliya, xüsusilə də İspaniya onların təsirini xeyli müddət saxladı və onu Avropanın başqa dövlətlərinə ötürdü. Yunan elmi irsinin qorunmasında ərəblərin və yəhudilərin Avropaya əhəmiyyətli dərəcədə köməyi olmuşdur.

1096-cı ildə Fələstindəki müqəddəs yerləri müsəlmanların hakimiyyətindən qurtarmaq şüarı altında katolik kilsəsinin təşəbbüsü ilə Qərbi Avropa feodallarının Şərqdə işğalçılıq müharibələri - Xaç yürüşlərinin başlanması Şərq-Qərb əlaqələrini daha da artırdı. 1270-ci ilə qədər davam

edən bu vəziyyət Şərq sözlərinin qərb dilinə keçməsinə, Şərq mədəniyyətinin qərbdə yayılmasına şərait yaratdı.

"Böyük elm əsri adlandırılan XVII əsrdə şərqşünaslıq elminin əsası qoyulur, Qərb Şərqi öyrənməyə başlayır. XVIII əsrdən Avropa "1001 gecə nağılları"na heyran qalır. Bu nağıllar bitib-tükənməyən təqlidlər yaradır. Hindistanın möcüzəli aləmi Qərb qarşısında açılır, missionerlər həvəslə Çini öyrənir, Tibetdə Dalay Lamanı ziyarət edirlər. Qərb alimləri qədim fars dilini öyrənir, fransız entuziast-tədqiqatçısı sayəsində "Avesta" məlum olur.

XIX əsrdə müqayisəli dilşünaslığın qələbəsi Asiya və Avropanın bir çox xalqlarının yaxın qohumluğunu aşkara çıxarır. Misir heroqlifləri və mixi yazılara aid edilən kəşflər qədim Şərqin nəhəng yeni dünyasını açır və xalqların minillik tarixinə dair söz açmağa imkan yaradır (Bu barədə irəlidə ətraflı danışacağıq). Şərq və onun müxtəlif dilləri, xalqları sürətlə öyrənilir, illər keçdikcə bu sahədə yeni-yeni nailiyyətlər qazanılır. Araşdırmalar nəticəsində hər iki tərəfdə analogiyanın, oxşarlığın, bəzən isə eyniliyin olduğu aydınlaşır. Bütün bunlar isə nəticəsi eyni hadisələrə, eyni inkişaf qanunlarına malik ümumbəşəri dünyadır.

Yalnız mənəvi sahədə deyil, maddi mədəniyyətin-sivilizasiyanın mükəmməlləşməsində də yüksək səviyyə qazanmış Şərq mədəniyyətinin minillık inkişafına baxmayaraq, Şərqin qazandığı bütün uğurlar dəqiq və təbiət elmlərinin zəif inkişafı şəraitində təzahür etmişdir.

Mənəvi yaradıcılıq: fəlsəfə, incəsənət, hətta texnika sahəsində Şərqin əldə etdiyi qeyri-adi nailiyyətlərin mümkünlüyü üçün Şərqin nə qədər nəhəng, demək olar ki, fövqəlbəşəri gərginlik çəkdiyi, müstəsna əhəmiyyətə malik olan intiusiyaya qadirliyi məlumdur. Bu sahədə o, zəif inkişaflı nəzəriyyəni böyük təcrübə ilə əvəzləmişdir.

Maraqlıdır ki, elmi ədəbiyyatlarda çox vaxt sivilizasiyanı Qərblə bağlayır, Şərqin nailiyyətlərini isə bir növ köl-

gədə saxlayırlar. Biz bu mövzunu işləyərkən sivilizasiya və mədəniyyəti Şərq-Qərb kontekstində araşdırmağa çalışdıq. Və məlum oldu ki, yuxarıda qeyd etdiyimiz sahələrdə Şərqin uğurları Qərbin nailiyyətlərindən heç də az deyil, bəzən daha çoxdur. Lakin onu demək lazımdır ki, bu nailiyyətlərin əsasları müxtəlifdir. Çünki, hər hansı mədəni inkişaf, bu nailiyyətləri qazanmaq üçün göstərilən fəaliyyətlər bir-birindən müəyyən qədər fərqli olmuşdur. Yalnız mənəvi nailiyyətlərin çox az hissəsi eyni yollarla qazanılmışdır.

Öz intellekti ilə öyünən Şərqlə elm yolunda qarşılaşan Avropa anladı ki, Şərq dünyasına qədim məftunluq ədalətlidir, onun müdrikliyi bəşəriyyətə lazımdır. Eyni zamanda bəşəriyyətin sayca böyük hissəsini Şərq təşkil edir. Odur ki, Qərb Şərqi nə qədər fəth etsə də, Şərq öz qədimliyini, adət-ənənəsini mühafizə edib saxlaya bilir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində elm və texnika sahəsində edilən kəşflər dünyanın dərk olunmasında, yenidən qurulmasında, istehsal və həyatın maddi bazasının əsaslı dəyişdirilməsi və təkmilləşdirilməsində yeni dövrə keçidi zəruriləşdirdi. Dəqiq və təbiət elmləri sahəsində böyük kəşflər, maye yanacaq, radio dalğaları, rentgen şüalarının alınması və istifadə edilməsində qazanılan uğurlar istehsalda ciddi elmi-texniki inqilaba imkan yaratdı. II Dünya müharibəsindən sonra bəşəriyyət elm, texnika və istehsalı intensiv şəkildə əlaqələndirən ETİ dövrünə qədəm qoydu. Bu dövr elmi-texniki yaradıcılığı, mədəniyyəti, maddi istehsalı, tədavül və məişət sahəsini elektron avtomatlaşdırılmasını və ETİ-nin uğurlarının geniş tətbiqi nəticəsində məhsuldar qüvvələrdə yeni inqilabi dəyişmə prosesini keyfiyyətcə yeni səviyyəyə qaldırdı. Kosmik fəzanın fəthi və atomun sülh məqsədləri üçün istifadəsi dövrümüzün fərqləndirici xüsusiyyətlərindən biri oldu.

Dünyanın, o cümlədən Şərq-Qərb əlaqələrinin əsas mühərriki olan iqtisadi mexanizm dünya dövlətlərinin

bir-birindən asılılığını daha da gücləndirmiş, dünya bazarı genislənmiş və yeni mərhələyə çatmışdır. Keçən əsrlərdə Qərbdə baş vermiş elmi-texniki və iqtisadi irəliləyişlər Şərqin geridə qalmış ölkələrinin müstəmləkə və yarımmüstəmləkəyə çevrilməsinə şərait yaratmaqla bərabər, obyektiv surətdə dünya əlaqələrini daha da möhkəmləndirmiş, Şərqlə Qərbin iqtisadi baxımdan bir-birinə daha mükəmməl bağlanmasına gətirib çıxarmışdır.

Elmi-texniki və iqtisadi cəhətdən belə əlaqələr həm Şərqdə, həm də Qərbdə həyatın digər sahələrinə də öz təsirini göstərmişdir.

Avropanın keçən əsrlərdə Şərqdən və yunanlardan necə faydalanması, müasir dövrdə bizim onlardan faydalanmağımız üçün klassik nümunədir.

Avropada çağdaş tərəqqiyə gətirən yol iki heyrətdən baş alıb: "rıtsar orta əsrləri" islam mədəniyyətinə, XVI əsrin intibah zirvələri isə antik mədəniyyətə "qayıdışın" əlaməti altından keçib. Lakin Avropa hər iki mənbədən yalnız özünə faydalı və doğma olan, Şərqdən və yunanlardan zirvələrə qalxmaqda ona kömək olan dəyərləri götürürdü.

Dövrümüzün görkəmli filosoflarından olan Albert Kamyunun fikrincə, nəticə etibarilə ədəbiyyat, mədəniyyət "tarixi idarə edənlərə xidmət edə bilməz, o, bu tarixdən əzab çəkənlərə xidmət etməlidir". Onun vəzifəsi: "birincisi-həqiqətə xidmət etməkdir, ikincisi-azadlığa xidmət etməkdir. Ümumiyyətlə, insani dəyərlərə xidmət etməyən sənət, əslində milli və bədii dəyərlərdən məhrumdur.

Yalnız şəxsiyyət və ziyalın deyil, dövrü də öncə mənəvi-əxlaqi dəyərlər, sonradan isə "elm, texnika, kibernetika" və başqa texnogen atributlar səciyyələndirir. Əgər bu axrıncılar nəticə etibarilə insan (bəşər) haqlarında humanitar kamilliyə, qlobal rifaha, təbiət-cəmiyyət çərçivəsində saflığa, təmizliyə xidmət göstərmirsə, sivilizasiyadan danışmaq mənasızdır. Məhz Şərqdə sivilizasiya ilə mənəvi kamillik,

qlobal inkişafla insan haqları arasında əbədi birlik hələ qədimdə dərk edilib və öz klassik əksini keçən əsrin əvvəllərində M.Ə.Sabirin aşağıdakı məşhur beytində tapıb:

Kim ki, insanı sevir, aşiqi-hürriyyət olur,
Bəli, Hürriyyət olan yerdə də insanlıq olur.

## §3 *DÜNYA VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ. ŞUMERAKKAD MƏDƏNİYYƏTİ*

Hər bir ictimai-iqtisadi formasiya özünə müvafiq mədəniyyət tipi yaratmışdır. Həmin formasiyalar bir-birini əvəz etdikcə mədəniyyətin tipləri də dəyişmişdir. Bu proses-müxtəlif xalqlarda və ölkələrdə bir-birindən fərqli olmuşdur.

İkiçayarası (Mesapotomiya) ən qədim mədəniyyət ocaqlarından biridir. İkiçayarası mədəniyyətini şumerlər yaratmışlar. Özünəməxsus inkişaf yolu keçmiş bu mədəniyyət Yaxın Şərqin bir çox xalqlarının mədəniyyətinə öz təsirini göstərmişdir.

İkiçayarasında yaranan əfsanələr şifahi xalq yaradıcılığının ilkin nümunələrindən hesab olunur. Bu əfsanələr Şumer və Akkadlar tərəfindən yazıya köçürülmüşdür. Dünyanın və insanın yaranması haqqında əfsanələr, bu yaranışla əlaqədar allahların əməlləri Şumer və Akkad əsatirlərinin əsasını təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, əfsanələr sinifli cəmiyyətdə formalaşmış və insan cəmiyyətinə aid olan qayda-qanunlar onlarda (əfsanələrdə ) öz əksini tapmışdı.

Babil əfsanələrinin birində deyilir ki, dünyanı və insanları Marduk adlı allah yaratmışdır. Guya, allahlar Kainat okeanında olan dəhşətli əcdahalarla mübarizədə gücsüz imişlər. Bu əcdahalara qorxunc dəniz ilahəsi Tiamat başçılıq edirmiş və allahlar ona qarşı çıxmağa cürət etmirmişlər. Kiçik allahlardan olan Marduk Tiamata qarşı çıxmağı

qərarlaşdırır və bunun müqabilində allahlar tərəfindən ona ali hakimiyyət vəd olunur. Tiamata qalib gələn Marduk onu iki yerə parçalayaraq bir hissəsindən göyü, o biri hissəsindən isə yeri yaradır, planet və ulduzları yerləşdirir. Gecə və gündüzü Ay və Günəş arasında bölür. Tiamatın sərkərdəsi Kinqunu öldürərək, onun qanını gilə qatmaqla insan düzəldir, ancaq onlara əbədi həyat vermir.

Şumer əfsanəsində də buna bənzər çalarlar vardır. Orada isə allah Enlilə[1] insanı iki sənətkar Allahın qanından gillə yoğurmaq təklif olunur. Sonralar isə dünyanın və insanın yaranması ilə bağlı bu əfsanələr kiçik dəyişikliklə müxtəlif dini mənbələrdə öz əksini tapmışdır.

Şumerlər arasında yazı təxminən 5 min il bundan əvvəl meydana gəlmişdir. Ən qədim yazı növü piktoqrafiya (şəkli yazı) olmuşdur. Şəkil və şərti işarələrdən ibarət olan bu yazı vasitəsilə fikri tam şəkildə ifadə etmək mümkün deyildi. Piktoqramların köməyi ilə yalnız sadə sənədlər tərtib olunurdu. Bunlar əsasən təsərrüfat sənədləri idi. Gəlir hesablamalarında ancaq əşyanın, rəqəmlərin və anbarın işarələri qeyd olunurdu. İlk dövrlərdə bu yazı özlüyündə əhəmiyyətli idi. Lakin zaman keçdikcə dövlət quruluşunun bərqərar olması yeni yazı növünə təlabat yaratdı. Və şumerlər yeni ixtira etdikləri yazını "mixi yazı" adlandırdılar. Misirdə olan daş və papirus Mesapotomiyada olmadığı üçün şumerlər bu yazıları gil üzərinə həkk edirdilər. Gildən müxtəlif formalarda (əsasən dördbucaqlı) lövhələr düzəldərək onun üzərində çubuqla şəkil-sözlər yazırdılar. Qədim Şumer yazıları Misir heroqliflərinə bənzəyir. Şumerlərlə qonşu olan bir çox xalqlar şumer yazılarından istifadə etmişlər.

Ümumiyyətlə, 500-dən artıq işarəyə malik olan bu yazı sistemini oxumaq olduqca çətindir. Bir çox alimlər bu sahədə

---

[1] Şummer əsatirlərində hava allahı Enlil əsas yer tutur. Şummerlər onu allahların atası, yerin və göyün hakimi, bütün kainatın hökmdarı adlandırmışlar.

illərlə fəaliyyət göstərmişlər. Mixi yazıları oxumaq üsularını ilk dəfə alman fıloloqu Qrotefend Georq Fridrix kəşf etmiş, sonralar ingilis alimi Ruulinson bu yazını əsaslı şəkildə müəyyənləşdirmişdir.

Ön Asiya xalqları mixi yazını müəyyən qədər öz dil xüsusiyyətlərinə uyğunlaşdırmışlar. Mixi yazılar üç min il dövr etmiş, e.ə. I minilliyin sonunda sıradan çıxmışdır. Həmin minilliyin əvvəlində İki çay arasında samidilli arami tayfalarının gətirdiyi arami əlifbasından istifadə olunmağa başlanmışdır.

Şumerlər müxtəlif bədii əsər növləri də yaratmışlar. Şumer ədəbiyyatı e.ə. III-II minilliyin əvvəllərində inkişaf mərhələsinə qədəm qoymuşdur. O dövrə aid olan təxminən 150 ədəbiyyat nümunəsi aşkar olunmuşdur. Buraya yazıya alınmış şifahi xalq yaradıcılığı nümunələri, o cümlədən əfsanələr (əsasən "Tufan"əfsanəsi) allahların və hökmdarların şərəfinə deyilmiş himnlər, atalar sözü və zərbi-məsəllər, təmsillər, qəhrəmanlıq dastanları (Tarixi hadisələri əks etdirən 9 belə dastan məlumdur. Bu dastanlarda iştirak edən qəhrəmanlardan bəziləri, məsələn, I Uruk sülaləsinin hökmdarları Enmerkar, Luqalbanda və Gilqamış tarixi şəxsiyyətlərdir), məhəbbət nəğmələri və s. daxildir.

Şumerlərdən əvvəl akkadlar da müxtəlif ədəbiyyat nümunələri yaratmış, şumer ədəbi nümunələrini akkad dilinə çevirmiş, hətta bəzən onların bir çoxlarını təkmilləşdirmişlər.

Elmi, biliyi yüksək qiymətləndirən şumerlər ana dilini bilməyi hər şeydən üstün tutmuşlar. Bir şumer ibarəsində deyilir: "Bu necə mirzədir ki, şumer dilini bilmir!" (Bu ibarə bu gün bizim ana dilimizi, adət-ənənəmizi bilməyən bəzi ziyalılarımıza da aiddir.)

İkiçayarası ədəbiyyatı bir çox Şərq xalqlarının ədəbiyyatına (hetlərin, yəhudilərin, aramilərin və s.), ümumiyyətlə antik dünya mədəniyyətinə öz təsirini göstərmişdir.

Göy cisimlərinin hərəkətini öyrənən elmin, yəni astronomiyanın əsası Şumer və Babil kahinləri tərəfindən qoyulmuşdur. Onlar göydə ulduzların necə yerləşməsinə və hərəkət istiqamətlərinə yaxşı bələd olduqları üçün nə zaman daşqın olacağını müəyyənləşdirə bilirdilər.

Babil ili 12 aydan, ay isə yeddi günlük 4 həftədən ibarət idi. Həftənin hər gününə göy allahlarından birinin adı verilmişdi. Sonralar Şərq ölkələrini zəbt edən romalılar Babil təqviminin əsaslarını götürmüş və bu əsaslar başqa xalqlara romalılardan keçmişdir.

Qədim şumerlərin təsərrüfata dair məlumatları bəzi əsərlərdə əks olunmuşdu. Bu əsərlərə nümunə olaraq, "Əkinçi təqvimi" və "Bağçılıq" kitablarını göstərə bilərik. Bu kitablarda əkin, suvarma və biçinin başlanması, bağların becərilməsi, suvarma kanallarının təmizlənməsinə dair məlumatlar verilir.

Sənədlərə əsaslanaraq "Babil və Xald tarixi" əsərini yazan ilk İkiçayarası tarixçisi Bersol olmuşdur. O, e.ə. IV-III əsrlərdə Babil şəhərlərində yaşamışdır.

İkiçayarasında başqa sahələr kimi, memarlıq və heykəltəraşlıq da inkişaf etmişdir.

Yuxarıda şumer yazılarından danışarkən göstərdiyimiz kimi, ikiçayarasında təbii ehtiyatlar çox az idi. Ona görə də, yazıda olduğu kimi, memarlıqda və heykəltaraşlıqda da gildən daha çox istifadə olunurdu. Tikinti işlərində çiy kərpic əhəmiyyətli rol oynayırdı. E.ə. III minillikdə şumer şəhər dövlətlərinin mərkəzində ibadət üçün tikililər -məbədlər inşa olunur və onların ətrafına xüsusi divarlar çəkilirdi. Bununla yanaşı İkiçayarası memarlığına məxsus olan qülləli məbədlər (zikkurat) də yaradılırdı.

Qəbir memarlığı əsasən hökmdar məqbərələrindən ibarət idi. Tədqiqatlar nəticəsində bu qəbirlərdə çoxlu incəsənət nümunəsi aşkar edilmişdir.

İkiçayarasının e.ə. III minilliyə aid heykəltəraşlığına qısa, ağır çəkili fiqurlar daxildir. Bu üslubda hökmdar Qudeanın və Hammurapinin heykəlləri hazırlanmışdır. Belə heykəllər içərisində ucaboylu heykəllərə də təsadüf olunur.

İkiçayarasında müxtəlif tətbiqi incəsənət növləri - zərgərlik, silahqayırma, daşdan əşyalar hazırlama və s. geniş tərəqqi etmişdi. Zərgərlikdə müxtəlif rəng çalarları əks olunurdu. Bu çalarlar göy, açıq yaşıl, sarı, qırmızı rənglərdən ibarət idi.

Ümumiyyətlə, İkiçayarasında yaşayan xalqların yaratdıqları mədəniyyət nümunələri dünya mədəniyyətinin inkişafına müəyyən təsir göstərmişdir.

## *§4. QƏDİM MİSİR MƏDƏNİYYƏTİ*

Misirdə yazı e.ə. IV minilliyin sonlarında meydana çıxmışdır. Müxtəlif dövrləri əks etdirən Misir yazı abidələri indiyə qədər qalmaqdadır. Misirdə də ilk yazı növü şumerlərdə olduğu kimi piktoqrafiya, yəni şəkli yazı olmuşdur.

Burada yazılar əsasən papirus üzərində cızılırdı ki, bu da onlar üçün kağızı əvəz edirdi. Yazı "lövhəsi" düzəltmək məqsədilə misirlilər papirusun qabığını hissə-hissə kiçik zolaqlarla kəsir, sonra onları sıra ilə bir-birinə yapışdırırdılar.

Papirus hissələrinin uzunluğu bəzən 40 metrə çatırdı. Yazılmış papirusu burur və iplə bağlayırdılar.

Misir yazısı qarışıq yazı hesab olunur. Bu yazıda 700 işarə ilə yanaşı, 21 heroqlif də vardır ki, onlar ayrı-ayrı hərfləri ifadə edirlər.

Misir yazılarını ilk dəfə 1822-ci ildə fransız alimi Şampolon oxumuşdur.

Misir yazısını öyrənmək olduqca çətin idi. Məktəbdə oxuyan şagirdlər sərbəst və asan yazmağı 5-6 il müddətinə öyrənirdilər. Təlim prosesində şagirdləri müxtəlif şəkildə cəzalandırırdılar. Baxmayaraq ki, məktəblərdə oxuyanlar var-

lıların və adlı-sanlı adamların övladları idi, mirzəlik çox hörmətli sənət hesab olunduğundan valideynlər bu münasibətə (övladlarının mirzələr tərəfindən cəzalandırılmasına) pis yanaşmırdılar. Papiruslardan olan Misir dəftərlərinin kənarlarında çox vaxt belə bir atalar sözü yazılırdı: "Uşağın qulaqları belindədir, ancaq döyüldüyü zaman qulaq asır".

Misir yazı sistemi təkmilləşdikcə, onun dil quruluşu da minilliklər ərzində dəyişmişdir. III-VII əsrlərdə qədim Misir dili artıq ölü dillərdən hesab olunurdu. Həmin dövrdə Misirdə çipti dilindən istifadə olunurdu.

Bildiyimiz kimi, VII əsrdən başlayaraq ərəb dili yayılmağa başlanmışdır (İslamla bağlı). Hazırda Misir ərazisində dörd milyon yerli çipti yaşayır. Onlar xristian olsalar da, ərəb dilində danışır, ancaq öz ibadətlərini çipti dilində edirlər.

Qədim Misirdə bədii ədəbiyyatın əsasında şifahi xalq yaradıcılığı dayanır. Ən qədim əsərlər e.ə. V minilliyə aiddir. Qədim misirlilər üç min il ərzində müxtəlif janrlarda zəngin bədii ədəbiyyat nümunələri yaratmışlar. Şifahi xalq yaradıcılığına daxil olan nağıllar əsasən əkinçi həyat tərzini, dünyagörüşünü əks etdirirdi. Belə nağıllarla yanaşı fironlar və əyanlara həsr edilmiş nağıllar da geniş yayılmışdı. Fironlar üçün onların sevdiyi nağıllar yazılırdı və adətən mumiya ilə birlikdə sərdabələrinə qoyulurdu. Qədim misirlilər nağıl vasitəsilə müdrikliyi, humanistliyi tərənnüm edir, sadə insanların əqlini, mübarizliyini, dönməzliyini göstərməyə çalışırdılar. Belə nağıllardan "Gəmi qəzasına uğrayan adam", "Düz və əyri haqqında nağıl", "Firon Xufu və cadugərlər", "İki qardaş haqqında nağıl" və s. göstərmək olar.

Qədim misirlilər təbiətdə və insan həyatında olan hadisələri dini ideologiya ilə izah edirdilər. Misirlilərin ölən və yenidən dirilən təbiət allahı hesab etdikləri Osiris haqqında əfsanə bu baxımdan səciyyəvidir.

Orta və Yeni səltənət dövründə ədəbiyyatda mövcud dövlət və ictimai quruluşu müdafiə edən nəsihətlərə təsadüf olunur. Belə nəsihətlərdə sosial ziddiyyətlər, yuxarıların aşağıdakılara münasibəti, xalq üsyanlarının xoşagəlməz nəticələri və s. öz əksini tapır. Bu nəsihətlərə misal olaraq, "Heraklopol hökmdarı Axtoyun oğlu Merikaya nəsihəti", "I Amenemxetin nəsihəti", "Duauf oğlu Axtoyun nəsihəti", "İpuserin kəlamı", "Nefertifin nəsihəti" və s. göstərə bilərik.

Sinifli cəmiyyətin meydana çıxması ilə bağlı incəsənət firon hakimiyyətinin güclənməsinə xidmət etməyə başladı.

Qədim Misir memarlağında dinin təsiri aydın hiss olunur. Ehramların klassik nümunəsi Sakkarada təmsil olunmuşdur. Buradakı pilləli ehram firon Coserə həsr olunmuşdur. IV sülalə fironlarından Xufu (hündürlüyü 147 m.), Menkauha (hündürlüyü 6 m.), Xafra (hündürlüyü 140 m.) gözəl ehramlar tikdirmişlər. Məbədlərin divarlarında ilahiləşdirilmiş firon həyatı ilə yanaşı sadə insanların, məsələn, dalaşan qayıqçılar, işləyən sənətkarlar, dəfn mərasimləri və s. təsvirlər həkk olunmuşdur.

Yeni səltənət zamanında incəsənət və memarlıq özünün daha yüksək inkişaf dövrünü yaşayır. Belə ki, qayalar yarılıb yeraltı dəfn sərdabələri yaradılır. Məsələn, I Setinin yeraltı sərdabəsində yüzdən çox otaq vardır. Ən əzəmətli memarlıq nümunəsi Fivadakı (Karpak və Lüksorla) Ason məbədi hesab olunur. Bu məbədin böyük salonu 16 cərgədə ucaldılmış 134 sütundan ibarət imiş. Həmin salonun 12 mərkəz sütununun hündürlüyü 21 metr imiş. Salonun sahəsi isə 5 min kv/m-dən çox imiş.

Misir memarlığının əsas sahəsini heykəltəraşlıq təşkil edirdi. Bütün məbəd və saraylar heykəllərlə dolu olmuşdur. Əsasən misir allahlarından və fironlardan ibarət olan bu heykəllər içərisində sadə insanlara həsr olunmuş heykəllər də var idi.

Dini təsəvvürlər Misirdə cəmiyyətin bütün təbəqələrində özünü göstərdiyi kimi, mədəniyyətdə də izini qoymuşdur. Qədim misirlilərin ideologiyasını din təşkil edirdi. Dini təsəvvürlərin sadə formaları-fetişizm (əşyalara sitayiş) və totemizm (heyvanlara sitayiş) qədim Misir tarixində mövcud olmuşdur. Misirdə dini sistem getdikcə inkişaf edərək Yeni səltənət dövründə daha da mükəmməlləşdi. Allahlar haqqında təsəvvürlər müxtəlif təbiət qüvvələrinin və ictimai hadisələrin təcəssümü kimi yaranmışdı. Dini təsəvvürlərin əsasında yerli, vilayət və ümummisir ibadətgahları möhkəmlənirdi.

Misirin ən qədim dövründə əcdadlara və mərhumlara ibadət mövcud olmuşdur. İbadətdə də təbəqələşmə özünü göstərirdi. Zaman keçdikcə Misirdə ibadətin məzmun və forması dəyişir.

Qədim misirlilər fironun şəxsiyyətini ilahiləşdirmişdilər. Əvvəlcə onu allahın oğlu, daha sonra isə allah adlandırdılar. Firona kainatın allahı kimi sitayiş və ibadət olunurdu. İncəsənətdə də hökmdarın allah oğlu olması fikri təbliğ edilirdi. Firona ibadət üçün məbədlərdə xüsusi otaqlar təşkil olunmuşdu. Bu otaqlara "böyük ev" adı verilmişdi. XVIII sülalə zamanı "firon" sözü artıq hökmdar mənasında işlənirdi.

Dinin bu şəkildə təsirinə baxmayaraq, bu dövrdə insanlarda "bilik" haqqında təsəvvürlər də mövcud idi. Məktəblər fəaliyyət göstərir, verilən biliklər tətbiqi mahiyyət kəsb edirdi. Misirlilər hesab və həndəsə sahəsində sadə biliklərə malik idilər. Biliklər zəruri tələbatdan yaranırdı. Riyaziyyatda ən böyük müvəffəqiyyət onluq say sisteminin yaradılması idi. Yazıda 1, 10, 100, 1000, 10000, 1000000 kimi işarələrdən istifadə olunurdu.

Astronomiyada da bəzi nailiyyətlər qazanılmışdı. Belə ki, artıq misirlilər planeti ulduzdan fərqləndirirdilər. Bu, onların ulduzlar haqda tərtib etdikləri ilkin xəritədən də

görünür. Onlar xüsusi təqvim yaradaraq ili hər bir ayı 30 gündən ibarət olan 12 aya bölmüşdülər. İl 365 günə bərabər idi. Misir təqvim ili tropik ildən dörddə bir sutka geri qalırdı. Bu fərq 120 ildə bir aya bərabər olurdu.

Su və günəş saatlarının ixtirası da misirlilərin nailiyyətləri sırasına daxil idi.

Təbabət də digər elm sahələrindən geridə qalmırdı. Bəzi xəstəliklərin müalicəsi müəyyənləşdirilmişdi. Həkimlər insan anatomiyası ilə bağlı tədqiqatlar aparırdılar.

Misir Qədim Şərqin inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri hesab olunurdu. Sivilizasiyaya uyğun dövlət sistemi, iqtisadiyyat, mədəniyyətin müxtəlif sahələri üç min il ərzində öz mövcudluğunu qorumuş və digər ölkələrə də təsirini göstərmişdir. Misir Qədim Şərqdə ən uzunömürlü dövlətlərdən biri olmuşdur.

## *§5. HETT MƏDƏNİYYƏTİ*

E.ə. 18-12-ci əsrlərdə Kiçik Asiyada Hett adlı qədim dövlət mövcud olmuşdur. Bu e.ə. 20-19-cu əsrlərdə hettlər, hattilər və etnik qrupların təmsil olunduğu şəhər dövlətlərinin (Kanes, Hattuşinaş və s.) birləşməsi nəticəsində yaranmışdır. E.ə. təqribən XVIII əsrdə Kussar padşahı Anittas Anadolunun bəzi vilayətlərini birləşdirmiş, e.ə. 17-ci əsrin əvvəllərində isə digər Hett sülaləsinin əsasını qoyan Labarna Hett dövlətinin ərazisini daha da genişləndirmişdir. E.ə. 17-ci əsrin ortalarında I Hattuşilis Kiçik Asiyanın cənub-şərq vilayətlərinin işğalını sona çatdıraraq, paytaxtı Hatuşaş şəhərinə köçürmüşdü. I Mursilis dövründə (e.ə. 17-ci əsrin sonunda) Hett dövlətinin hərbi qüdrəti ən yüksək səviyyəyə çatmışdı.

Arxeoloji qazıntılar zamanı əldə edilmiş bəzi maddi-mədəniyyət nümunələri, Boğazgöydə (Hattuşa) tapılmış Hett hökmdarlarına məxsus yazılı sənədlər Hett mədəniyyə-

tinə dair fikir söyləməyə imkan yaradır. Bu mədəniyyətin təşəkkülündə bəzi etnik qrupların təsirinin izləri də hiss olunur. Lakin Hett mədəniyyətində əsasən Hatt ənənələri üstünlük təşkil edir. Şumer-Akkad mədəniyyətinin bəzi cəhətləri də Hett mədəniyyətində öz əksini tapmışdır. Bir vaxtlar Hett aləmində prototürk etnik tayfalarının iştirakı haqqında fikirlər səslənsə də, çox təəssüf ki, Hett etnik və dil dünyası ciddi tədqiq olunmamışdır.

Bildiyimiz kimi, Sarqon (2316-2261) və Naram-Suen (2236-2200) Akkad sülaləsinin ən görkəmli nümayəndələri olmuşlar. Onlarla bağlı rəvayətlər Hett ədəbiyyatında da öz əksini tapmışdır. Onu da qeyd edək ki, Şumer-Akkad ədəbiyyatının təsiri Hett ədəbiyyatının digər sahələrində də özünü göstərir. Eyni zamanda onların mixi yazı sistemindən hetlər də istifadə etmiş, hətta "Gilqamış haqqında dastan" Hett dilinə tərcümə olunmuşdur. Hetlər Şumer-Akkad yazılı nümunələrindən asan istifadə etmək üçün üçdilli lüğət Şumer-Akkad-Hett lüğəti də tərtib etmişdilər.

İlkin ədəbiyyat nümunələrindən sayılan III Hattuşilinin həyat və fəaliyyəti haqqında mətn dövrümüzə qədər gəlib çatmışdır. Mətnin sonunda III Hattuşilinin belə bir müraciəti verilmişdir: "Gələcəkdə kim olursa olsun-oğlum, nəvəm yaxud da nəticəm-hakimiyyətə irsən yiyələnərsə, qoy allahlar içərisində Samuxi şəhərinin ilahəsi İştara ehtiram göstərsin". Buradan aydın olur ki, dini dünyagörüşü baxımından akkadlar da hetlər kimi İştar ilahəsinə sitayiş etmişlər.

Hett hökmdarlarının kitabələri və salnamələri də ilkin ədəbiyyat nümunələrindən hesab olunur. Buraya "Anitanın kitabəsi", I Hattuşilin, I Suppiluliumun "Salnamələri" və s. daxildir.

Bütün qədim xalqların ictimai həyatında olduğu kimi, hetlərin də məişətində və ideologiyasında din və dini təsəvvürlər mühüm əhəmiyyət daşımışdır. Təbii ki, hetlərdə də

çoxallahlılıq mövcud olmuş və allahların da əksər hissəsi Hatt mənşəli hesab edilmişlər. Arinna şəhərinin Günəş ilahəsi Vurusem, Səma tufan allahı və onun qadını Hett panteonunda baş allahlardan hesab olunur. Eyni zamanda, Hett panteonunda Hatt, Hurri, Akkad, Hind-Avropa (luvi, nesi, pala, Hind İran), prototürk və hələ də mənşəyi məlum olmayan etnos və xalqların dini baxışları da öz ifadəsini tapmışdır.

Hett dövlətinin hər bir vilayət və icmasında yerli ibadətgahlar olmuşdur. Allah və ilahələrə isə xüsusi ibadətgahlarda sitayiş edilmişdir.

Dini təsəvvürlər kimi ibtidai insan cəmiyyətində ovsun (maqiya) da mövcud idi. Bildiyimiz kimi, ovsun ömürlük insan həyatına daxil olaraq ən qədim təfəkkür tərzini özündə hələ də saxlayır. Hetlərin ictimai-iqtisadi həyatına dərin nüfuz etmiş ovsun Hett ədəbiyyatında da müəyyən iz qoymuşdur. Hetlər həyatın müxtəlif sahələrində-ailə münasibətlərində, dolanışıq arzusunda, düşmənə nifrət, dosta uğur arzulamaqda ovsuna müraciət etmişlər.

Hetlərə qədərki memarlıq saxsı-gil qablar və əşyalar istehsalından ibarət olmuşdur. Yeni Hett padşahlığı dövründə isə artıq əzəmətli daş heykəllər yaradılmışdır. Belə maddi-mədəniyyət nümunələrini hökmdar saraylarında və yaxud qayalıqlarda hazırlayırdılar. Heykəllərin çoxu Hett hökmdarlarını təsvir edirdi.

Hetlər maraqlı möhürlər də hazırlayırdılar. Dairəvi və yaxud dördbucaq şəklində olan bu möhürlərin üzərində hökmdar təsvirləri, kənarlarında isə heroqlif işarələri həkk olunurdu. Hett möhürləri həm forma, həm də məzmun baxımından şumer-akkad möhürlərindən fərqlənirdi.

Hetlərin spesifik və bənzərsiz mədəniyyəti digər Şərq xalqlarının da mədəniyyətinə öz təsirini göstərmişdir.

## *§6. HİND MƏDƏNİYYƏTİ*

Başqa Şərq ölkələri kimi Hindistanda da mədəniyyətin müxtəlif sahələri inkişaf etmişdi. Burada ədəbiyyat, incəsənət, memarlıq, təbiət elmləri sahəsində bəzi nailiyyətlər qazanılmaqla yanaşı, müxtəlif dini ehkamlar və təsəvvürlər də mövcud idi. Hindistanda əhali qədim dövrlərdə bitkilərə, aya, günəşə və çaya sitayiş edirdi. Hind-İran birliyi dövründə hindlilərin iranlılarla oxşar dini anlayışları olmuşdur. Belə ki, həm hind, həm də irandilli etnik birləşmələri oda, suya, əcdadlara, eyniadlı ilahi qüvvələrə inam bəsləyirdilər. Hindlilərin ilkin dini təsəvvürləri Riqvedada öz əksini tapmışdı. Burada qədim hind panteonunun başında hindlilərin yerin və göyün allahı hesab etdikləri İndra dayanırdı. Eyni zamanda, ilkin dini təsəvvürlərdə od və ev himayədarı Aqni, günəş allahı Surya da təmsil olunurdu. E.ə. I minilliyin axırlarında Brahma, Vişna və Şiva allahlarına ibadət genişlənir. Allahların əksəriyyəti hətta qədim hind allahı Krişna da Vişnanın özünü onun yeni təcəssümü kimi göstərmişdi. Bu hind Allahı haqqında yayılan əfsanələrdə Krişnanın uşaqlıq və gənclik illəri öz əksini tapmışdır. Həmin əfsanələrdə, o həm də məhəbbət aşiqi, özünə qarşı sevgi hissləri təlqin edən allah təcəssümü kimi də ifadə olunur. “Mahabharata” dastanında isə Krişna hərbi bacarıq və qabiliyyətə malik cəsur bir döyüşçü kimi təsvir olunur.

Qədim Hind panteonunda təmsil olunan yüzlərlə allahlar insanlar kimi həyat sürürdülər.

Qədim Hindlilər axirət dünyasına da inam bəsləyirdilər. Hindlilərin dini təsəvvürlərinə görə ölülər allahı hesab olunan Yama mərhumları qəbul edir, sağlıqlarındakı fəaliyyətlərinə görə onlara təyinat verirdi. (Cənnət yaxud cəhənnəm). Getdikcə axirət-dünyasına dair təsəvvürlər dəyişdi və hindlilər insanların həmişəyaşarlığını qəbul etdilər. Yəni,

guya, insan öləndən sonra ruh yaşayır və başqa görkəmdə yenidən yaranır.

Yuxarıda qeyd etdiyimiz ilkin dini təsəvvürlər Hindistanda sonralar yaranmış digər dini cərəyanların ehkamlarına da öz təsirini göstərmişdir. Xüsusən də brahmanizmin formalaşmasında qədim dini təsəvvürlərin əhəmiyyətli rolu olmuşdur. Bu din öz təlimində cəmiyyətin müəyyən dərəcələrə (varna) bölünməsini əsas götürürdü. Qədim Hindistanda silk (varna) brahman, kşatri, vayşya və şudra - olmuşdur. Cəmiyyətdə sosial bərabərsizliyin inkişafı, ali və zadəgan təbəqələrinin qüvvətlənməsi, əsarət altına düşən əhalinin sayının çoxalması varna (silk) ictimai sistemini möhkəmləndirirdi. Bir sözlə, cəmiyyət üzvlərinin sosial bölgü ilə fərqləndirilməsi brahmanizm təliminin əsasını təşkil edirdi.

E.ə. I minilliyin ortalarında brahmanizmlə bərabər bəzi dini təlimlər də meydana çıxmışdı. Lakin bu dinlərin ehkamları yeni yaranan dövlətlərin təlabat və mənafelərinə uyğun gəlmədiyi üçün, müxtəlif dini təsəvvürlərlə qarşıdurma şəraitində buddizm yaranmağa başladı.

Buddizmin banisi, mənşə etibarilə kşatri silkinə mənsub olan Sidharth Qautama (e.ə. 566-486) öz təliminə Şimali Hindistanda başlamışdır.

29 yaşmda öz ailəsini tərk edən Quatama, zahid olmus və bəşəriyyətin əzablardan xilas yolunu axtarmışdır. Yeddi ildən sonra o, Budda (nurlanmış) adlandırılmışdır. Budda, (Quatama) öz təlimini 40 il müddətində yaymaqla məşğul olmuş və sözsüz ki, bu fəaliyyətində onun tərəfdarlarının da mühüm rolu olmuşdur. Nəticədə çoxlu sayda rahib icmaları yaranmışdır. Eramızın I əsrində buddizmdə 2 qol: hinayana (xilaskarlığın dar yolu) və mahayana (xilaskarlığın geniş yolu) əmələ gəlmişdir. Onu da qeyd etmək lazımdır ki, bu qonların meydana çıxmasına Hindistanın ayrı-ayrı hissələrində mövcud olan sosial-siyasi şəraitin müxtəlifliyi səbəb olmuşdur.

Buddizmdə əsas yeri dörd müqəddəs həqiqət haqqında təlim tutur:

1. Yaşamaq əzab çəkməkdir.
2. Əzabların səbəbi arzulardır.
3. Əzablardan xilas olmaq üçün arzulardan çəkinmək lazımdır.
4. Arzulardan çəkinməyin çarəsi Buddanın təliminə əməl etməkdir.

Brahmanizmdən fərqli olaraq, buddizm silkləri qəbul etmirdi. Buddizimə görə ictimai və silki vəziyyətindən asılı olmayaraq hər bir kəsin nirvanaya (nicata) çatmaq hüququ vardı.

Eramızın VI-VII əsrlərində Hindistanda şəhərlərin əhəmiyyətinin azalması və feodal pərakəndəliyinin güclənməsi ilə əlaqədar buddizmin tənəzzülü başlayır. XII-XIII əsrlərdə isə o, Asiyanın başqa rayonlarına keçərək, meydana gəldiyi ölkədə mövqeyini itirdi.

Buddizm onu qəbul edən digər ölkələrin mədəniyyətində də öz izini qoymuşdur. Belə ki, buddizmin yayılması incəsənətin bir çox sahələrində-memarlıq, heykəltəraşlıq, rəssamlıq və ədəbiyyatda, elm və sxolastik təhsildə xüsusi sinkretik mədəni komplekslərin-Budda mədəniyyətinin yaranmasına səbəb olmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, qədim Hindistanın yüksək inkişaf etmiş mədəniyyəti vardır.

Hindlilər piktoqrafiyaya bələd idilər. Bu ölkədə başlıca əsərlər sanskrit dilində yazılmışdır. Daha doğrusu, “Veda”, “Manu qanunlar məcəlləsi” və iki iri həcmli dastan: “Mahabharata” və “Ramayana” bu dildə yazılmışdır. Həmin dastanlarda qəhrəmanların igidliyi, onların səfər və istilaları təsvir olunur.

Hindistanda memarlıq da çox inkişaf etmişdir. Qayalarda yonulmuş məbədlərin, heykəl və digər şəkillərin gü-

nümüzə qədər çatmış qalıqları bu fikiri söyləməyə əsas verir.

1526-cı ildə Böyük Moğollar imperiyasının yaradılması ilə Hindistanda memarlığın sürətli inkişafı başlanır. l569-1584-cü illər ərzində Aqrada inşa edilmiş qala, Fatihnur-Sikri qala şəhəri və s. şəhərsalma və fortifikasiya sənətinin gözəl nümunələrindəndir. Mərkəzi künbəzli məqbərənin klassik tipini isə 1565-ci ildə azərbaycanlı memar Mirək Mirzə Qiyas yaratmışdır. Bu Böyük Moğollar sülaləsinin hökmdarı (1530-1539, 1555-1556) Hümayunun şərəfinə Dehlidə inşa olunmuş Humayun məqbərəsidir.

Hind memarlığının dəyərli nümunələrindən biri də Böyük Moğollar dövrünə aid olan Tac-Mahal abidəsidir ki, Aqra şəhəri yaxınlığında Camna çayının sahilində tikilmişdir. Bu türbəni Moğol hökmdarı Cahan şah arvadı Mümtaz Mahal Banu Bəyimin qəbri üstündə inşa etdirmiş və sonralar özü də həmin türbədə dəfn edilmişdir.Türbəni türk memarı Ustad Məhəmməd İsa əfəndi səmərqəndli Məhəmməd Şərif, istanbullu Xan Rumi ilə birlikdə tikmiş, kitabə və bəzək işlərinin yaradılmasında isə Şiraz, Lahor, Təbriz, Dəməşq, Bağdad və Buxara ustaları iştirak etmişlər. Böyük bağ içərisində salınmış məscid, mehmanxana və s. ibarət olan bu geniş memarlıq ansamblının əsas hissəsi olan Tac-Mahal türbəsi hündürlüyü təqribən 74 metrə çatan beşguşəli möhtəşəm binadan və küncləri hündürlüyü təqribən 45 metrə çatan dörd minarədən ibarətdir. Türbənin divarları cilalanmış ağ mərmərdən tikilmiş, üzəri əqiq, mirvari, sədəf, kəhrəba, zümrüd, yaqut və s. kimi əlvan və qiymətli daşlarla bəzədilmişdir.

İngilis müstəmləkəçiliyi dövründə (XVIII əsr-1947) Hindistanda Avropa mədəniyyətinin təsiri güclənmiş, milli incəsənət tənəzzülə uğramışdır. Bu dövr ərzində köhnə şəhərlər-Kəlkətə, Mədrəs, Bombey genişləndirilmiş, Avropa memarlığı üslublarında yeni tikililər yaradılmışdır.

Hindistanda elmlər də xeyli inkişaf etmişdi. Riyaziyyat ən ali elmlərdən biri hesab olunurdu. Təkçə onu deyək ki, ərəblər "ərəb rəqəmləri" adlandırdıqları rəqəmləri Hindistandan alaraq Avropaya ötürmüşlər.

Hind musiqi mədəniyyəti də qədim ənənələrə malikdir. Belə

klassik musiqi nümunələrindən e.ə. II minilliyə aid olan “Samaveda” ovsun nəğmələri məcmuəsini, eramızın I əsrinə aid teatr sənətindən, musiqi və rəqsdən bəhs edən “Natyaşastra” traktatını və s. göstərmək olar.

Azərbaycanla Hindistan arasında müxtəlif istiqamətli əlaqələr bütün dövrlərdə mövcud olmuşdur. İki ölkə arasındakı mədəni əlaqələrin inkişafı bəzən ləngimiş, bəzən bir müddət dayanmış, bəzən də sürətlə davam elmişdir. Lakin bu əlaqələr hər zaman işgüzar və dinc xarakterli olmuşdur.

Azərbaycan-Hindistan mədəni əlaqələri ədəbiyyatda da öz əksini tapmışdır. Tarixi məlumatlara görə Azərbaycan-Hindistan mədəni əlaqələrinin banilərindən biri məşhur Azərbaycan şairi Nizami Gəncəvi olmuşdur. Nizami Hind xalqının həyat və məişətini dərindən öyrənmiş və əsərlərində bu ölkəni “kamil həkimlər ölkəsi” adlandırmışdır. Nizaminin əsərlərində Hindistanın təbiəti, adət-ənənəsi, geyim tərzi, fəlsəfəsi və s. də öz əksini tapmışdır. Onun “Yeddi gözəl” poemasındakı gözəllərdən biri də məhz Hindistandan seçilmişdir. N.Gəncəvi, Xaqani Şirvani farsdilli Hind poeziyasına, xüsusən də böyük Hind şairi Əmir Xosrov Dəhləviyə (1262-1325) güclü  təsir göstərmişlər. Dəhləvi  Nizaminin təsiri ilə öz “Xəmsəsini yaratmışdır. Bəzi Orta əsr şairləri, o cümlədən Məsihi, Saib Təbrizi və s. müəyyən müddət Hindistanda yaşayıb-yaratmışlar. Bundan əlavə XIII əsrin sonlarında iki min illik tarixə malik Hind ədəbi abidəsi “Pəncə-tantra” (“Kəlilə və Dimnə”) bütünlüklə Azərbaycan dilinə

tərcümə edilmişdir. Bu dastandan götürülmüş təmsillər, atalar sözləri əsasında Azərbaycan ədəbiyyatında çoxlu sayda bədii nümunələr meydana çıxmışdır. Respublika Əlyazmaları İnstitutunda saxlanılan "Kəlilə və Dimnə" dastanının iki əlyazmasından biri XVIII əsr rəssam-miniatürçüsü, tərcüməçi muğanlı Əvəz Əli Səfiqulu tərəfindən yazılmışdır.

Görkəmli Azərbaycan alimi, coğrafiyaşünas səyyahı, tarixçi-etnoqrafı, filosofu, ədəbiyyatşünası Hacı Zeynalabdin Şirvani (1780-1837) 36 il ərzində Şərq ölkələrini, o cümlədən Hindistanı səyahət etmiş və təəssüratlarını farsca "Riyazüs-səyahə" ("Cənnət bağı səyahətləri", I hissə 1821-22, II hissə 1826-27-ci illərdə tamamlanmışdır), "Hədayüqüs-səyahə" ("Səyahət bağları" 1826-27), "Büstanüs-səyahə" ("Səyahət bağı" 1832) adlı əsərlərdə ifadə etmişdir.

Hacı Zeynalabdin Şirvani Hindistanı səyahət edərkən Pəncabda, Dehqanda və Kəşmirdə olmuş, Dehli, Calalabad. Heydərabad, Allahabad və s. böyük Hind şəhərlərini əsərlərində təsvir etmişdir. O, Hindistanın Hind, Qanq, Braşaputra, Damodar və s. böyük və orta çay hövzələrini tədqiq edib öyrənmiş və özünün təəssüratlarını ümumiləşdirərək qələmə almışdır.

H.Z.Şirvani öz əsərlərində eyni zamanda Hindistanın tarixindən, məişətindən, adət və dinindən də bəhs edir. O, hindlilərin səyyahlara və qonaqlara xüsusi qonaqpərvərlik göstərmələrini, bu əməksevər xalqın musiqi mədəniyyətinin yüksək dərəcədə inkişaf etdiyini qeyd edir.

XIX əsrin görkəmli Azərbaycan filosofu və maarifpərvəri M.F.Axundov öz materialist və demokratik dünyagörüşünü "Hind şahzadəsi Kamalüddövlənin İran şahzadəsi Cəmalüddövləyə üç məktubu" adlı fəlsəfi əsərində daha dolğun surətdə ifadə etmişdir. M.F.Axundov Hindistanla əlaqə saxlayırdı və hind fəlsəfəsi sahəsində tədqiqat aparırdı.

Maraqlı bir tarixi faktı da qeyd etmək lazımdır ki, bu da 1530-39 və 1555-56-cı illərdə Hindistanın padşahı olmuş

Nəsirəddin Hümayunun (1508-1556) ikinci dəfə Dehli taxtına çıxması ilə bağlıdır. Nəsrəddin Humayun atasından-Böyük Moğollar sülaləsinin banisi Baburdan irs qalan dövləti genişləndirmək məqsədilə öz qardaşları və qonşularına qarşı mübarizəyə başlamışdı. Onun mübarizə apardığı ən güclü rəqiblərdən biri də Bihar və Benqaliyanın qüdrətli hökmdarı Şerxan olmuşdur. Şerxan sonralar 1545-ci ilə qədər Hindistana şahlıq etmişdir.

Nəsrəddin Humayun 1939-cu ildə məğlubiyyətə uğrayaraq taxtdan salınır. Öz malikələrini tərk etmək məcburiyyətində qalan məğlub şah Qərbi Hindistan və Əfqanıstanı gəzdikdən sonra Azərbaycanın Səfəvilər sülaləsinin ikinci nümayəndəsi I Təhmasib Şahın (1524-1576) yanında qalmağı qərarlaşdırır. 1555-ci ildə yaranan əlverişli vəziyyətdən istifadə edən Humayun I Təhmasib Şahın hərbi köməyi ilə Pəncabda, Dehlidə və Aqrda öz hökmranlığını bərpa edir. Onun qoşun komandiri-sərkərdəsi də azərbaycanlı Bayram xan Baharlı olmuşdur.

Hind mədəniyyətinin özünəməxsus inkişafı ölkəni qədim dünyanın mədəniyyət mərkəzlərindən biri səviyyəsinə yüksəlmişdir. Bu mədəniyyətin Şərqi Asiya ölkələrinə də böyük təsiri olmuşdur.

## *§ 7. ÇİN MƏDƏNİYYƏTİ*

Qədim Çin mədəniyyəti müxtəlif istiqamətlərdə inkişaf etmişdi. Bu ölkədə fəlsəfə, riyaziyyat, astronomiya və tibb elmləri sahəsində müvəffəqiyyətlər qazanılmışdı. Astronomiya elminə xüsusi diqqət yetirilir, Çin padşahları təqvim düzəltmək, günün və ayın tutulacağı vaxtı müəyyənləşdirmək üçün xüsusi komissiyalar təşkil edirlərdi. Onlar maqnit sahəsinin mövcudluğuna və maqnit əqrəbinin xüsusiyyətlərinə də bələd idilər. Eyni zamanda barıtı ixtira edib fişəng üçün istifadə edirdilər.

E.ə. VI-III əsrlərdə fəlsəfi fikrin sonrakı inkişafında mühüm rol oynamış konfusiçilik, moizm, legizm, daosizm məktəblərinin formalaşdığı dövrdə Çində fəlsəfə meydana çıxmışdır. Qədim Çin fəlsəfəsi daha çox etnik-siyasi xarakterə malik olmuş, onda qneseoloji və ontoloji məsələlərin tədqiqinə az yer verilmişdir. Filosoflar dövlət işlərində təmsil olunmuş, Si padşahlığında fəlsəfə akademiyası yaradılmışdı.

İdarəçilik prinsipləri haqqında ilk təlimin banisi Konfusinin fəlsəfi görüşlərinə dair məlumatlar onun şagirdləri tərəfindən "Lunyuy", ("Söhbətlər və mühakimələr") traktatında öz əksini tapmışdır. Çinlilərin göylərin ilahi gücünə ənənəvi etiqadı Konfusinin nəzəriyyəsində də əsaslandırılırdı. Baş allah Göy çinlilərdə əsas qüvvə və yer üzündəki bütün nemətlərin mənbəyi hesab olunurdu. Kahin və məmurlar Çin dövlətini "Göyaltı imperatorluğu" adlandırırdılar. Çinlilərin təsəvvürünə görə Çin dövləti Göy allahı tərəfindən idarə olunurdu. Onlar Göy allahı üçün künbəz şəkilli məbədlər tikir və kümbəzləri göy rəngli çini və ya saxsı kirəmitlə örtürdülər.

Çinlilərdə əcdadlara sitayiş də inkişaf etmişdi. Qədim Çində adlı-sanlı adamların dəfn mərasimində bəzən insan qurbanları da verilirdi (bu qurbanlıq insanlar mərhumla bərabər diri dəfn olunurdular.)

Qədim Çində fəlsəfi fikrin inkişafına "inyan" naturalist fəlsəfi məktəbi də əhəmiyyətli təsir göstərmişdir. Bu təsir zəif qadın qüvvəsi "in" və güclü kişi qüvvəsi "yan" arasındakı qarşılıqlı əlaqə haqqında qədim baxışlarla bağlı olmuşdur. Sonradan bu ideyalar ilkin beş ünsürün-metal, ağac, su, od və torpağın qarşılıqlı çevrilməsi təlimi ilə birləşərək əzəli "si" (buxar, efır) ilk ünsürü ilə nəticələnərək bütün fəlsəfi məktəblər tərəfindən mənimsənildi. E.ə. III əsrdə isə moistlər materialist idrak nəzəriyyəsini inkişaf etdirdilər.

Böyük Çin materialist filosofu Van Çunun (I əsr) fikrincə, dünyanın əsası əbədi mövcud olan “yuan si” maddi substansiyasıdır; yüngül hissəciklər (“yan si”) - göyü və kosmosu, qatı hissəciklər (“in si”) - torpağı və göy cisimlərini yaradır. Onların qarşılıqlı təsiri isə bütün mövcudatı meydana çixarır. Çində buddizm fəlsəfəsi Çin fəlsəfi ideyasının ünsürlərini mənimsəməklə inkişaf etmiş, buddizmdə bəzi cərəyan və təriqətlərin yaranmasına səbəb olmuşdur.

Çin yazısı da qədim tarixə malikdir. Bu, öncə çox sadə, getdikcə mürəkkəbləşən Çin heroqliflərinin inkişafından aydın görünür.

Qədim Çin yazısında iki minə qədər işarə olmuşdur. Onlar yazı yazmaq üçün xüsusi firçalar işlətmişlər. E.ə. III-I əsrlərdə “Erya”, “Fanyan”, “Dialektlər” lüğətləri tərtib olunmuşdur. Syuy Şenin heroqliflər lüğəti hələ də öz əhəmiyyətini itirməmişdir.

Dünyanın ən qədim ədəbiyyat nümunələri içərisində Çin ədəbiyyatının da özünəməxsus yeri vardır. “Şitszin” ilk Çin ədəbi abidəsidir. E.ə. IV əsrin ortalarında Çu çarlığı zamanı əsasını xalq yaradıcılığından götürən “Çu şeri” janrı yaranır. Bu janrın görkəmli nümayəndəsi Tsyuy Yuanın yaradıcılığında zülmə, haqsızlığa nifrət, onlarla mübarizə, xalqa məhəbbət hissləri öz əksini tapmışdır. E.ə. V-III əsrlərdə fəlsəfi və tarixi məzmunlu nəsr əsərləri - “Qo yuy” (“Çarlıqların tarixi”), “Çuntsyu” (“Salnamə”), “Çjuan tszı”, “Syun tszı”, “Men tszı” və s. traktatlar geniş yayılmışdı. E.ə. I əsrdə Sım Tsyanın “Şi tszi” (“Tarixə aid qeydlər”) əsəri xan sülaləsi dövrünün parlaq nümunələrindəndir.

Çinin ən qədim incəsənət abidələri e.ə. III minilliyə aiddir. E.ə. I minilliyin ortalarında burada memarlıq və şəhərsalma təşəkkül tapdı.

Qədim mədəniyyət abidələri içərisində “Böyük Çin səddinin (uzunluğu 2500 km-ə qədər) böyük əhəmiyyəti vardır. Böyük Çin səddinin əsas hissəsi Sin dövləti dövründə

(e.ə. 221-207) tikilmişdir. O, əvvəlcə gil və torpaq qarışığından tikilmiş, sonralar divar səddin üzünə kərpic və böyük yastı daşlar çəkməyə başlamışlar. Bu divar Xuanxe çayını bir neçə yerdən kəsərək düzənlik və dağlardan keçir. Böyük Çin səddinin hündürlüyü 10 metrə, qalınlığı 6 metrə çatır. Divarın bütün uzunluğu boyu bir-birindən müəyyən məsafədə dördbucaqlı möhkəm bürclər və onların altında qapılar tikilmişdir. Bu sədd şimaldan gələn hunların hücumlarından müdafiə məqsədilə çəkilmişdir.

Çin musiqi və teatr mədəniyyəti də qədim köklərə malikdir. Əsasən bir səsli olub e.ə. VII əsrdə yaradılan, pentatonika üzərində qurulan Çin xalq musiqisi sonralar 7 və 12 səsli sistemlərə çevrilmişdir.

Çin teatrının əsası Xalq mahnı - rəqs yaradıcılığı və sirk janrları elementlərini birləşdirən "bay si" ("yüz tamaşa") formaları ilə əlaqədardır.

Beləliklə, deyilənrləndən aydın olur ki, digər Şərq dövlətləri kimi Çinin də çox yüksək mədəniyyəti olmuşdur. Çin mədəniyyətinin bəzi nailiyyətləri qədim dövrlərdə başqa ölkələrə - Hindistana, Ərəbistana daha sonralar Avropaya keçmişdir.

## *§8. YUNAN MƏDƏNİYYƏTİ*

Məlumdur ki, Yunanıstan mədəniyyətin bütün sahələrində bəşər mədəniyyəti xəzinəsinə əvəzsiz töhfələr bəxş etmişdir. Yalnız yunan mədəniyyətinin deyil, həm də dünya mədəniyyətinin sonrakı inkişaf tarixində VIII-VI əsrlər yunan mədəniyyətinin müstəsna rolu olmuşdur. Bu dövr yunan mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən biri-dindən elmə, mistik baxışlardan materialist təlimə, incəsənət sahəsində isə şərtilikdən realizmə keçid olmuşdur. Qeyd etdiyimiz xüsusiyyətlər klassik dövr yunan mədəniyyətində öz inkişafının ən uca zirvəsinə çatmışdır. Yunan mədəniyyətinin

tərəqqisinin ən yüksək inkişaf mərhələsini klassik dövr təşkil edir.

Müxtəlif sahələrdə qədim Şərq mədəniyyəti ilə əlaqədar olan və Egey mədəniyyətindən yaranan yunan mədəniyyəti e.ə. VIII-VI əsrlərdə böyük tərəqqi dövrü keçirmişdir. Bu dövr eyni zamanda yunan əlifbasının yaranması, ilk elmi və ədəbi nümunələrin meydana çıxması ilə səciyyəvidir. Başında Zevs allahının durduğu Olimp dini də əsasən bu dövrdə formalaşmış, materializm ilə idealizmin, dialektika ilə metafizikanın mübarizəsi də e.ə. VIII-VI əsrlərdə başlanmışdır.

Quldarlıq cəmiyyətinin təkmilləşdiyi və quldarlıq dövlətinin təşəkkül tapdığı dövrdə yunan fəlsəfəsi yaranmışdır. İlk yunan alimlərinin vətəni İoniya idi. İoniyanın ardınca digər Hellin ölkələrində-Siciliya, Cənubi İtaliya, Egey dənizi adalarında olan şəhər dövlətlərində müxtəlif sahələrdə tədqiqat aparan alimlər meydana çıxır. İoniya filosoflarının ilk görkəmli nümayəndəsi isə e.ə. təxminən 624-547-ci illərdə yaşamış Miletli Fales olmuşdur.

İoniya fəlsəfəsinin banisi olan Fales bütün mövcudatın maddi əsasının sudan təşkil olduğu fikrini əsaslandırırdı. Onun fikrincə, su daimi hərəkətin, bütün yaşayışın, eyni zamanda insanın həyat mənbəyinin əsasını təşkil edir.

İoniyada yaradılmış riyaziyyat məktəbinin başında Falesin dostu və şagirdi Anaksimandr (e.ə. 610-546) dayanırdı. O, “Təbiət haqqında” əsərində əbədi hərəkətdə olan opeyronu (sonsuz)-əbədiyaşar materiyanı dünyanın əsası, başlanğıcı hesab edirdi. Onun təliminə görə, apeyron dörd ibtidai başlanğıcı (torpaq, su, od, hava) özündə əks etdirir. Anaksimandrın fəlsəfi sisteminin əsasında üzvi aləmin mənşəyi və inkişafının araşdırılması dayanırdı.

Yunanıstanda idealist təlimin banilərindən biri olan Pifaqor (e.ə. təxminən 580-500) ədədi bütün olanların başlanğıcı hesab edirdi. Ona da Anaksimandr və Anaksimenin

güclü təsiri olmuşdur. O, kainatı ahəngdar ədədlər və onların tənasüb sistemi kimi təsəvvür edirdi.

Qədim Yunanıstanın görkəmli filosoflarından olan Pifaqorun müasiri Efesli Heraklit (e.ə. təxminən 530-470) materialist dialektikanın banisi sayılır. Onun fikrincə, kainatın daimi və fasiləsiz hərəkət qanunu həm ictimai həyatı, həm də təbiəti idarə edən bir qüvvədir. O, kainat və onun qanunlarının nə allahlar, nə də insanlar tərəfindən yaradıldığı fikrini qəbul edirdi. Heraklit təbiətdən öyrənməyə səsləyərək vurğulayırdı ki, "Kainat" həmişə qanunauyğun alovlanan və sönən canlı bir od olmuş, oddur və od olaraq da qalacaqdır.

F.Engelsin fikrincə, qeyd etdiyimiz dövrün fəlsəfəsi "bir-birinə əks olan iki keyfiyyətlə-böyük dərinliyi və eyni zamanda sadəlövhlüyü ilə insanı heyran edir".

Yunan alimləri təbabətdə də diqqətəlayiq nailiyyətlər qazanmışdılar. Dünya təbabət elmi tarixində xüsusi yeri olan Hippokrat da (e.ə. 460-377) məşhur Kos (Kiçik Asiya sahili yaxınlığında ada) təbabət məktəbinin görkəmli nümayəndəsi olmuşdur. Onun təbabət sahəsində böyük xidməti ondan ibarətdir ki, xəstəliyi tədqiq metodunu naturalist filosofların qeyri-elmi spekulyatif fikirlərinə qarşı qoymuşdur.

V əsr yunan fəlsəfəsinin inkişafı daha çox Emkedokl, Anaksaqor, Levkipp və Demokritin adı ilə bağlıdır. Onlar materiyanın quruluşuna dair bir çox nəzəriyyələr təklif etmişlər. Məsələn, Levkipp ilk dəfə materiyanın bölünməz hissəsi-atom haqqında təlim hazırlamışdır. Bu təlimi onun tələbəsi Demokrit öz əsərlərində daha da təkmilləşdirmişdir. Onun (Demokritin) fikrincə, kainat keyfiyyətcə həmcins, yalmz öz həcm və forması ilə bir-birindən fərqlənən atomlardan və boşluqdan ibarətdir. Bu boşluqda mexaniki şəkildə hərəkət edən atomlarm toqquşması, dəf olunması, birləşməsi və ayrılması nəticəsində şeylər əmələ gəlir. Bir çox

Şərq ölkələrini gəzərək qədim Şərq fəlsəfəsinə yaxşı bələd olan Demokritin fikrincə, kainatı təşkil edən çoxlu sayda dünyaların yaranması və məhv olması atomların boşluqdakı fasiləsiz hərəkəti ilə şərtlənir. Eyni zamanda, təbiətdəki bütün cisimlərin və onların mahiyyətinin müxtəlifliyi atomların müxtəlif birləşmə və ayrılması ilə izah olunur.

Haqqında danışdığımız dövrün materialist təlimlərini Epikür (e.ə. 341-270) sona çatdırmışdır. "Epikür bağı" adlı fəlsəfi məktəb (e.ə. 306) yaradan Epikür ömrünün sonunadək Afinada yaşamışdır. Yaradıcılığı ərzində yazdığı 300-ə qədər əsərin az bir hissəsi bizə gəlib çatmışdır. Onun fikrincə, Kainat sonsuz və əbədidir. Atomlar öz-özünə başlanğıc düzxətli hərəkət vəziyyətindən çıxmaq və əyrixətli hərəkət etmək iqtidarmda deyillər.

Epikürün ateist təlimi Platonun "İdeyalar aləmi", Aristotelin isə "İlk mühərrik" əsərlərindəki ideyanın tam əksidir. Epikür dünyanı dərk etməyin mümkünlüyünü bildirirdi. Duyğuların, hisslərin və anlayışların idrakın meyarı olduğunu göstərən Epikür duyğuları eyni zamanda biliklərin mənbəyi, idrakın başlanğıcı hesab edirdi.

Yunanıstanda idealist fəlsəfənin banilərindən olan Sokratın (e.ə. 469-399) fəlsəfi təlimi və həyatı haqqında məlumatlar onun tələbələri və davamçıları olan Platonun, Ksenofontun, Aristotelin əsərlərində öz əksini tapmışdır. - Bu filosof da yunan sofistləri (yunanca hikmət müəllimləri deməkdir. Məsələn, Qorgi e.ə. 483-376, Protaqor e.ə. 481-411 və s. b.) kimi fəlsəfi məsələlərdə əsasən təbiətşünaslığa deyil, mənəviyyata, insan əxlaqına diqqət yetirir.

Sokratın tələbəsi və həmfikri Platonun (e.ə. 427-347) da fəlsəfi görüşləri obyektiv idealizmin bariz göstəricisidir. Onun fəlsəfi təliminə əsasən duyulan, hiss olunan varlıq, maddi aləm həqiqi aləmin yalnız kölgəsidir, həqiqi varlıq isə əbədi və dəyişməz ümumi ideyalardır.

Cəmiyyətdəki bərabərsizliyi, yuxarı təbəqənin (istismarçıların) aşağıdakılara qeyri-insani münasibətini görən Platon "ideal dövlət nəzəriyyəsi" tərtib edir. Bu layihəsinin əsasında Platonun idealist fəlsəfəsi dayanır. Təəssüf ki, Platonun da əsərlərinin çoxu haqqında məlumatımız yoxdur.

Qədim dünyanın məşhur filosoflarından biri də Aristotel (e.ə. 384-322) olmuşdur. Dünyanın böyük bir hissəsinin Makedoniya tərəfindən işğal edilməsi və İsgəndərin möhtəşəm imperiyasının yarandığı dövrdə yaşamış Aristotel klassik yunan fəlsəfəsini yekunlaşdırmışdır. O, materializm ilə idealizm arasında-Platon xətti ilə Demokrit xətti arasın da tərəddüd etməsinə baxmayaraq, maddi aləmi "deyalar kölgəsi" deyil, öz-özlüyündə mövcud olub, ideyaların, mənvhumların, hisslərin və sairin əsası hesab edirdi. Bu isə yalnız Platonun mistik fəlsəfəsinə deyil, eyni zamanda bütün idealizmə böyük zərbə idi.

Aristotelin teoloji (teos-ilahiyyat) və teleloji (teleo-məqsəd) müddəalarından orta əsrlərdə və sonrakı dövrlərdə yaşamış hətta ona əks baxışlı filosoflar da bəhrələnmişlər.

Aristotel yalnız fəlsəfə sahəsində deyil, məntiq, ədəbiyyat nəzəriyyəsi, təbiətşünaslıq, siyasət və tarix sahəsində də maraqlı əsərlər yazmışdır. Zoologiya və botanika elmlərinin inkişafında da onun böyük xidmətləri olmuşdur. Yunan elm tarixində xüsusi rol oynayan Ligey məktəbini (Afina yaxınlığında) də Aristotel yaratmış və bu məktəb səkkiz əsrə qədər fəaliyyət göstərmişdir.

Bəhs etdiyimiz dövrdə yunan ədəbiyyatının da sürətli inkişafı müşahidə olunur. Maraqlıdır ki, eyni zamanda epik və dramatik poeziya ilə yanaşı lirik poeziya da yaranır. Belə ki, lirik şairlərdən Tirtey, Kallin, Feoqnid, Alkey, Sapfo, Anakreont, Arxllox, Pindar və başqalarının əsərləri cəmiyyətdə yayılmağa və sevilərək, qəbul olunmağa başlayır.

Yunanıstanda yaranan ədəbiyyat mövzu baxımından tragikliyi ilə diqqəti cəlb edir. Yunan tragediyasının banisi isə Fespid (e.ə. VI əsr) hesab olunur.

Tragediya öz yaranışı etibarilə Dionis allahı (üzüm və şərab allahı) şərəfinə keçirilən bahar bayramı ilə bağlıdır. Dionis ayinindən yaranmış yunan dramı, sonralar bu ayindən ayrılaraq yunan qəhrəmanlarını öz süjet dairəsinə salır. İlk yunan dramaturqları olan Fespid, Pratin, Xeris və Frinixin əsərləri dövrümüzə gəlib çatmasa da, Frinixin "Miletin alıması" və "Finikiyalı qadınlar" əsərləri haqqında müəyyən məlumatlar günümüzə qədər gəlib çatmışdır. Həmin məlumatlar o dövrün yunan dramaturgiyası haqqında fikir söyləməyə imkan verir.

Dünyanın digər mədəniyyət mərkəzlərində olduğu kimi, teatr Yunanıstanın ictimai həyatında da mühüm rol oynamış və olduqca populyarlaşmışdı. Qədim yunan teatrı üç hissədən-orxestra[1], teatron[2] və skenedən[3] ibarət olmuşdur.

Böyük Attika tragikləri-Esxil, Sofokl və Evripidin yaradıcılığında Afina demokratiyası tarixindəki üç ardıcıl dövr öz əksini tapmışdır. F.Engelsin haqlı olaraq "Tragediyanın atası" adlandırdığı Esxil demokratik dövrün bərqərar olması, Sofokl quldarlıq demokratiyasının yüksəlişi, Evripid isə bu demokratiyanın böhranı dövrünün şairləri hesab olunurlar.

Yunanların iranlılara qarşı apardıqları azadlıq mübarizəsi dövründə yaşamış Esxilin özü də məşhur Marafon döyüşündə iştirak etmişdir. Mənbələrin verdiyi məlumata görə, Esxil zəngin yaradıcılıq irsinə malik olmuşdur. Təəssüf ki, bu ədəbi irsin ancaq az bir hissəsi dövrümüzə çatmışdır.

---

[1] Orxestra-yunanca orxensthay(rəqs etmək) sözündən alınıb. O dövrdə xorun əsas vəzifələrindən biri rəqs etmək idi.

[2] Teatron- yunanca theasshay (tamaşa etmək) sözündən alınıb mənası tamaşa yeri deməkdir.

[3] Skene- yunanca çadır mənasındadır. İfaçıların geyim otağı hesab olunur.

Onlardan “Farslar”, “Xahiş edən qadınlar”, “Fiv əleyhinə yeddi adam”, “Zəncirlənmiş Prometey”, “Oresteya” trilogiyasını – “Aqamemnon”, “Xoeforlar”, “Evmenidlər”- əsərlərini göstərmək olar.

Yunan teatrının inkişafında Esxilin böyük rolu olmuşdur. Əgər Hellinizm dövrünə qədər yunan dramının ayrılmaz hissəsi olan xordan hələ VI əsrin II yarısında xüsusi ifaçı-aktyor ayrılırdısa (o da müəllifin özü olurdu), Esxil ifaçının sayını ikiyə çatdırır. Onun dünya ədəbiyyatına, eyni zamanda müasir ədəbiyyata güclü təsiri olmuşdur. Enni, Aksi, Seneka (Roma şairləri) və başqaları onun yaradıcılığından bəhrələnmiş, yeni dövr şair və yazıçıları - Kalderon, Milton, Volter, Göte, Bayron, Şiller və s. Esxilin əsərlərinə nəzirələr yazmışlar.

Öz siyasi görüşləri baxımından mühafizəkar olan, Peloponnes müharibəsi dövründə sinfi ziddiyyətlərin kəskinləşdiyi bir şəraitdə zadəganların tərəfində dayanan Sofoki (e.ə. 496-406) 123 əsərin müəllifi olmuşdur. Bu əsərlərdən ancaq yeddi tragediya “Ayaks”, “Elektra”, “Filoktet”, “Çar Edip”, “Edip Kolonada”, “Antiqona” və “Traxiniyalı qadınlar” bizə məlumdur. Bunlardan “Çar Edip” və “Antiqona” əsərləri dəfələrlə Azərbaycan teatr səhnəsində nümayiş etdirilmişdir.

Yunan teatrının inkişafında Sofoklun da müstəsna xidmətləri olmuşdur. Belə ki, o, teatr dekorasiyası yaratmış tragediyada aktyorların sayını ikidən üçə, xor ifaçılarının sayını isə on ikidən on beşə qaldırmışdır.

Öz dövrünün böyük romantik şairi olan Evripidin (e.ə. 484-406) isə doxsandan artıq əsərindən yalnız on səkkizi bizə məlumdur “Troyalı qadınlar”, “Elektra”, “Orest”, “Hippolit”, “Finikiyalı qadınlar”, “İon”, “Herakl”, “Medeya” və s. Evripid də öz sələflərindən fərqli olaraq, qədim yunan mifologiyasından istifadə etdiyi əfsanəvi rəvayətlərə tənqidi yanaşmış, onları həyat həqiqətlərinə uyğun hesab

etmişdir-Əgər Sofokl insanları "necə olmalı" kimi təsvir edirsə, Evripid onları olduğu kimi təqdim etmişdir.

Komediya isə bir ədəbi janr kimi tragediyadan xeyli sonra (e.ə. 487-ci il) formalaşsa da, öz tarixi kökləri baxımından o da Dionis şərəfinə həsr olunmuş oyunları müşayət edən nəğmələrlə əlaqədardır. İlk komediya ustalarından biri Koslu Epixarın (VI əsrin II yarısı və V əsrin əvvəlləri) olmuşdur. Onun komediyaları mifoloci parodiyalardan ibarət idi. Epixarmın məişət məzmunlu komediyalarına misal olaraq "Kəndçi", "Zəvvarlar", "Ümid" və s. göstərmək olar.

Qədim Yunanıstan mədəniyyətində komediya janrına bənzəyən mim,[1] fliak[2] və pantamima[3] kimi kiçik formalı komik tamaşalar da özgün yer tutur. Həmin janrın nümayəndələri isə siciliyalı Sofron (e.ə. V əsr) və onun oğlu Ksenarx (e.ə. IV əsr) olmuşdur. Onu da qeyd edək ki, bu janr son zamanlar Azərbaycan teatrında da inkişaf etməkdədir. Pantamimo teatrı formalaşaraq uğurla öz fəaliyyətini davam etdirir.

Qədim Yunanıstanın müxtəlif yerlərində ibtidai şəkildə nəzərə çarpan komediya e.ə. V əsrdə Attikanın ictimai-siyasi həyatında meydana çıxan dəyişikliklərdən yaranan ehtiyaclarla bağlı getdikcə daha da inkişaf edərək dolğunlaşmışdı. O dövrün Afina komedioqraflarından Xionid, Maqnet, Kratin və b. əsərlərindən bəzi hissələr zəmanəmizə gəlib çatmışdır.

Klassik dövr Yunan mədəniyyətində incəsənətin digər növləri ilə yanaşı musiqi də inkişaf etmişdi. Yunanıstanın ictimai həyatında özünəməxsus yer tutan musiqi xüsusi mənəvi-tərbiyəvi əhəmiyyətə malik idi. Yunanların uşaq tərbiyə sisteminə musiqi də daxil idi. Musiqinin insan xarakterinin formalaşmasına göstərdiyi güclü təsir öz əksini

---

[1] Mim-yunan sözü olub, mənası təqlid deməkdir.

[2] Fliak-yunan sözüdür, mənası zarafat deməkdir

[3] Pantamimo da yunan sözüdür və panta hamı, hər şey, mimos təqlidçi sözlərindən alınmışdı.

yunan mifalogiyasında da tapmışdır. Belə ki, əfsanəvi obrazlar içərisində öz bənzərsizliyi ilə seçilən Orfey obrazı da məhz müğənni və lira ifaçısı olmuşdur. Bildiyimiz kimi yunan musiqisinin əsası xalq yaradıcılığından ibarət idi. Yunanıstanda üç növ musiqi aləti geniş yayılmışdı: simli, nəfəsli və zərb. Simli alətlərdən lira, kitara, arfa və s. nəfəsli alətlərdən avlos, zərb alətlərindən isə kimbal və timkanı göstərmək olar. Yunanlar simli musiqini insanın hisslərində ahəngdarlıq yaradan bir qüvvə, nəfəsli musiqini isə "barbar" musiqisi, hiddətləndirici bir qüvvə hesab edirdilər.

Getdikcə musiqi müstəqü bir sənət sahəsinə çevrilirdi. Yunan sənətkarları musiqi tonları qammasını işləyib hazırlayırdılar. Filosof və riyaziyyatçı Pifaqor (e.ə. VI əsr) və görkəmli riyaziyyatçı Evklid (e.ə. III əsr) musiqiyə dair xüsusi əsərlər yazmışlar.

Yunanlar yalnız ədəbiyyat, teatr və musiqidə deyil, mədəniyyətin digər sahələrində də uğurlar qazanmışdılar Onların ən mükəmməl memarlıq əsəri Afina akropolunun başında tikilmiş İlahə Afinanın məbədi Parfenondur. Afina Propileyası adlı akropola gedən böyük yol və əfsanəvi Afina padşahı Erextey və Gefestə həsr olunmuş məbədlər yunan memarlıq sənətinin nadir incilərindəndir.

Yunan memarlığında üç üslub-ən qədim və formaca lap sadə dori üslubu, qeyri-adi incəliyi ilə məşhur olan ionı üslubu və mürəkkəb ornamentli Korinf üslubu xüsusilə nəzərə çarpır. Bəzən bu üç üslub bir abidədə cəmlənirdi. Fikrimizə, dori və ioni üslublarının birləşməsindən ibarət olan ilahə Afinanın məbədi Parfenonu misal göstərmək olar.

Bizim e.ə. VI-V əsrlərdə Yunan heykəltəraşlığı da öz inkişafının ən yüksək zirvəsinə çatmışdı. Yunan incəsənətinin ən zəngin dövrü Fidinin (e.ə. V əsrin 432-431-ci illəri) adı ilə bağlıdır. Yalnız yunan mədəniyyəti deyil, o cümlədən bəşər mədəniyyəti tarixində silinməz iz qoymuş Fidi Afina

Akropolunun tikilməsinə rəhbərlik etmiş və burada ucaldılan əsrarəngiz gözəlliyə malik heykəllərin müəllifi olmuşdur. Hellin xalqının qırılmaz birliyinin təsdiq edilməsi və yunan quldar demokratiyası mədəniyyətinin mərkəzi olan Afinanın mədhi Akropolun əsas ideyasını təşkil edir.

Bu dövrün görkəmli heykəltəraşları arasında Polikletin, Praksitelin və Lisippin də xüsusi yeri vardır. Onların əsərlərində sağlam insan bədəninin gözəlliyi sənətkarlıqla əks olunurdu. Onu da qeyd etmək lazımdır ki, bu sənətkarlar insan bədəninin sağlamlığının səbəbini qədim Yunanıstanda tez-tez keçirilən idman məşqləri və yarışları ilə əlaqələndirirdilər.

Yunanıstanda rəssamlıq heykəltəraşlıqla əlaqədə inkişaf edirdi. Yunan rəssamları içərisində b.e.ə. V əsrin I yarısında yaşamış Poliqnot və bu əsrin II yarısında yaşamış Apollodor məhşur olmuşdur. Rəssamlıqda diqqəti cəlb edən cəhətlərdən biri də qablar üzərində yunan əfsanələrindən götürülmüş mövzuların çəkilməsi idi. Rəssamlar bu sahədə böyük uğurlar qazanmışdılar.

Ümumiyyətlə, K.Marksın qeyd etdiyi kimi, V-IV əsrlər yunan mədəniyyətindən danışarkən göstərmək lazımdır ki, bu dövrdə insan ətraf aləmin dərk olunmasmda, o cümlədən özünün bədiı düşüncə tərzinin inkişafı baxımmdan xeyli irəliyə getmışdir. Sinfi xarakter daşımasına baxmayaraq, kökləri xalqla bağlı oian yunan mədəniyyətinin tamlığı, harmoniyası, nikbinliyi onun bir çoxu indiyədək əvəzsiz bir sənət nümunəsi kimi qalmaqda olan ən yaxşı abidələrini əbədiləşdirmişdir.

Yunan mədəniyyəti Roma mədəniyyətinin, daha sonralar isə bütün Avropa mədəniyyətinin gələcək inkişafı üçün bir əsas təşkil etmişdir.

## *§9. ROMA MƏDƏNİYYƏTİ*

Roma Qədim Yunanıstandan sonra antik dünyanın ən böyük quldar dövləti olmuşdur. E.ə. I əsrdə Balkan yarımadası və Kiçik Asiya ölkələri Roma imperiyasının tabeliyində olduğuna görə Roma mədəniyyətində yunan mədəniyyətinin güclü təsiri müşahidə olunur.

E.ə. 88-ci ildə diktator Sulla Apellikonun kitabxanasının Afinadan Romaya köçürülməsi nəticəsində Aristotelin əsərləri aşkar olundu və getdikcə onun fəlsəfi baxışları sönməz bir maraq obyektinə çevrildi. Bir çox elm sahələri tədqiqata cəlb olundu. Göy cismlərini planlı şəkildə müşahidə edən isgəndəriyyəli Menelay həm də sferik həndəsə və triqonometriyaya aid əsərlər yazdı. Onun həmyerlisi Heron isə (e.ə. 1-ci əsr) tətbiqi mexanikaya, həndəsi optikaya aid əsərlər yaratdı. Heronun elmi-nəzəri fikirləri Ptolemeyin yaradıcılığında daha da inkişaf etdirildi. Ptolemey özünün məşhur "Almagest" əsərində dünyanın geosentrik sisteminə dair geniş izahat verdi.

Eyni zamanda bu dövrdə kənd təsərrüfatına, memarlığa, hidrotexnikaya, hərbi texnikaya və s. aid əsərlər yazıldı. botanika, tibb sahəsində mühüm nailiyyətlər qazanıldı. Dövrün məşhur təbiətşünaslarından Senekanın "Təbii-elmi məsələlər" adlandırdığı 7 kitabında meteorologiya və s. məsələlər, Plininin 37 kitabdan ibarət "Təbii tarix" adlı əsərində bir çox ölkələrin heyvanat aləmi haqqında məlumat verilmişdir.

Varronanın qramatika, məntiq, ritorika, həndəsə, hesab, astronomiya, musiqi nəzəriyyəsi, tibb və memarlığa həsr edilmiş 9 kitabdan ibarət külliyyatı da bu dövrün əhəmiyyətli elm və mədəniyyət nümunəsidir. Dövr haqqında tam məlumatı isə Strabonun "Coğrafiya"sından almaq mümkündür.

Ptolemeyin “Coğrafiya” əsəri isə bütünlüklə kartoqrafiyaya həsr olunmuşdur. Belə ki, bu əsərdə Kanar adalarından Çinə qədər yer kürəsi səthinin bütün hissələrini izah edən iyirmi yeddi xəritə öz əksini tapmışdır.

Qədim Romada tarix elmi isə öz başlanğıcını salnamələrdən götürmüşdür.

Əsərlərini latın dilində yazmış ilk Roma tarixçisi Böyük Katondur. O, əfsanəvi zamanlardan başlamış yeni eradan əvvəl 149-cu ilə qədər davam edən Roma tarixi haqqında “Mənşə” adlı əsərin müəllifidir. Katonun eyni zamanda “Kənd təsərrüfatı haqqında” adlı bir əsəri də vardır.

Roma tarixşünaslığının daha mükəmməl, dolğun dövrünün ilk nümayəndəsi isə Polibidir. Əslən yunan olan Polibi Yunanıstan və Romanın ellinizm dövründən bəhs edən “Ümumi tarix” adlı çox qiymətli bir əsərin müəllifidir. 40 kitabı əhatə edən bu əsərdən yalnız beşi bizə gəlib çatmışdır.

Roma tarixinin daha bir nümayəndəsi Tit Livi isə bədii-didaktik cərəyanın nümayəndəsi olmuşdur. Onun 142 kitabdan ibarət olan “Roma tarixi” adlı əsərinin yalnız 35-i bizə məlumdur.

Yuli Sezarın “Qalliya müharibəsi haqqında qeydlər”, “Vətəndaş müharibəsı haqqında qeydlər” əsərləri isə tarixi memuar ədəbiyyatı janrının nümunələridir.

Tit Livinin əsasını qoyduğu bədii-didaktik cərəyanı imperiya dövründə Korneli Tasit (təqr. 55-120) daha da inkişaf etdirdi. O, öz əsərlərini tiranlığa və despotizmə nifrət ruhunda yazmışdı. III-II əsrlərdə yunan ədəbiyyatının təsiri altında Roma ədəbiyyatı meydana çıxmağa başlayır.

- IV-III əsrlərdə Roma yazılı ədəbiyyatının əsasını Anni Klavdi qoymuşdur.

Romanın ilk yazarları azad edilmiş qullar olmuşdur. Qul Livi Andronik “Odisseya” ilə bərabər digər yunan faciə və komediyalarını da latın dilinə çevirmişdir.

Milli eposun banilərindən sayılan Kvint Enni yunan ədiblərinin əsərlərini latın dilinə çevirir və bu əsərlər əsasında latınca əsərlər yaradırdı. O, "İlliada" və "Odisseya"nı təqlid edərək "Salnamə" adlı böyük həcmli bir mənzumə yazmışdı. Bu mənzumədə əfsanəvi dövrlərdən eradan əvvəl II əsrə qədər olan Roma tarixindən bəhs olunur.

Onu da qeyd etmək lazımdır ki, Romada böyük şöhrət qazanan komediya janrında da mövzu və ideya cəhətdən yunan komediyaları təqlid edilirdi. Romada ilk faciə müəllifləri Pakuvi və Aktsi, ilk komedislər isə Plavt və Terensi idilər. Plavt yunan komediyalarını Roma şəraitinə uyğun dəyişdirir, öz zəmanəsinin adət və əxlaqında müşayiət olunan gerilik və eybəcərlikləri gülüş obyektinə çevirirdi. O, öz əsərlərini canlı xalq dilində yazmışdı.

Klassik dövr Roma ədəbiyyatının ən görkəmli nümayəndələri M.P.Vergili, Horatsi və Ovidi olmuşdur. Bu dövrdə Roma ədəbiyyatının şöhrəti yalnız Roma imperiyasında deyil, bütün İtaliyada geniş yayılmışdı.

Maron Publi Vergili (e.ə. 70. Mantuya - e.ə. 19) yaradıcılığa şerlə başlamışdır. Bukolik şerlər məcmuəsinə (yunanca bykolos - çoban mənasındadır. Bukolik poeziya antik janrdır. Bu janr yeni Avropa ədəbiyyatında da inkişaf etmişdi. Burada kənd həyatı, təbiət cizgiləri, çoban həyatı idealizə edilərək, şəhər mədəniyyətinə qarşı qoyulur. Həmin janrın banisi Feokritdir. E.ə. IV əsrin sonu III əsrin I yarısında yaşamış bu yunan şairinin 90-a yaxın şeri bizə gəlib çatmışdır.) daxil edilmiş "Çoban nəğmələri", "Georgiklər" ("Əkinçilər haqqında poema" e.ə. 36-29) əsərlərində çoban həyatı, təbiət gözəllikləri və sadə kəndli əməyi tərənnüm olunur. Vergiliyə dünya şöhrəti qazandıran Homerin "İliada"sının təsiri ilə yazdığı "Eneida" poeması olmuşdur. İmperator Avqustun əfsanəvi əcdadı hesab olunan troyalı Eneyin səyahət və müharibələrindən danışılan bu əsərdə Romanın aktual siyasi problemləri öz əksini tapmışdır.

E.ə. I əsrin II yarısında imperator Avqustun hakimiyyəti dövründə Roma ədəbiyyatı ən yüksək inkişaf mərhələsinə çatdı. Bu dövr Roma ədəbiyyatının "qızıl dövrü" adlandırılır. Lakin imperiya dövrü Roma ədəbiyyatının gələcək inkişafı üçün həm əsas olmadı, həm də onun tənəzzülünə səbəb oldu. Belə ki, imperator Avqustun Ovidini sürgün etdirməsi bu prosesi daha da sürətləndirdi.

Klassik dövrdən sonrakı Roma ədəbiyyatı üç mərhələyə ayrılır:

1. Eramızdan əvvəl I əsrin I yarısı və ortaları;
2. Eramızın I əsrinin sonu, II əsrinin əvvəli;
3. Eramızın II əsri və III əsrinin əvvəli.

Eramızın IV-V əsrlərində xristian ədəbiyyatı geniş yayılır. VI əsrin sonlarında isə Roma ədəbiyyatı zəifləyir və tarixin keçmiş səhifəsinə çevrilir.

Roma musiqisi ellinizm mədəniyyətinin təsiri altında inkişaf edərək, məişətə əsaslanan musiqili poetik janrlar (toy, yas, ziyafət və s.) yaranırdı.

İmperiya dövründə musiqi mədəniyyəti xüsusilə rəngarəng olmuşdur. Roma musiqi aləmində yunan kifaraçıları, İsgəndəriyyə müğənniləri, Əndəlis rəqqasələri fəaliyyət göstərmişlər.

Eramızın I əsrinin sonunda imperator Domisian "Kapitoli yarışları"nın əsasını qoymuşdur. Burada həm şairlər, həm də musiqi xadimləri təmsil olunmuşlar. Bu dövrdə müğənni Tigelli, aktyor-müğənni Apelli, kifaraçı Kritli Mesomed və s. şöhrət qazanmışdır.

Roma incəsənəti Antik bədii mədəniyyətin inkişafında sonuncu mərhələdir. (E.ə. VIII-IV əsrlərdə, yəni qədim Roma bədii mədəniyyətinin formalaşdığı dövrdə Roma memarlığında etruskların güclü təsiri olmuşdur. Etrusklar e-ə. I minillikdə Apennin yarımadasının şimal-qərbində, indiki Toskanada yaşamış tayfadır. Onlar romalılardan əvvəl zəngin bir mədəniyyət yaratmışlar. E.ə. VII əsrdə Etruskla-

rın yazısının, mədəniyyətlərinin çiçəkləndiyi dövrdə onların dini və dünyəvi ədəbiyyatları olmuşdur. Təxminən 10 min etrusk yazılı abidəsi elmə məlumdur.)

E.ə. II əsr, I əsrin I yarısında qədim Roma tikililərinin əsas tipləri, yəni bazilika, term, tağlı körpülər, su kəmərləri və s. yaradılmış və getdikcə təkmilləşdirilmişdir. E.ə. III-I əsrlərdə təsviri sənətdə portret-heykəllər və büstlər əsas yer tutmuşdur.

Memarlığın əsas müvəffəqiyyəti imperiyanın yüksəlişi dövrünə, yəni e.ə. I əsrin 20-ci illəri və eramızm II əsrinə təsadüf edir. Memarlıqdan imperatoru şöhrətləndirmək və imperiyanın qüdrətini təbliğ məqsədilə daha geniş istifadə etmişlər. I əsrin ortalarında möhtəşəm memarlıq kompozisiyaları yaradılmışdır. Roma şəhərində "Qızıl ev" adlandırılan Neron sarayı, Flavilər sarayı, Flavilər dövründə Kolizey, Adrianın zamanında Panteon abidələri gözəl memarlıq nümunələridir.

Son dövr Roma incəsənətində yaradılmış bədii formalar orta əsr Avropa bədii mədəniyyətinin təməli sayılır.

## §10. ƏRƏB MƏDƏNİYYƏTİ

VI-VII əsrlərdə Ərəbistan yarımadası ərazisində təqribən dörd milyon oturaq, üç milyon köçəri ərəb yaşamışdır. Lap qədimdən onlar iki böyük etnik qrupa bölünmüşlər: erkən orta əsrlərdə himyərilər adlandırılan cənublular və yarımadanın qalan hissələrində yaşayan b.e.ə. VII əsrdən ərəb adlandırılan köçərilər.

Hər iki etnik qrup sami-hami dilləri ailəsinə daxil olan eyniköklü dillərdə danışmalarına baxmayaraq, bir-birini çətinliklə başa düşür və buna görə də özlərini müxtəlif xalqlar hesab edirdilər. Onların həyat tərzində öz əksini tapmış fərq isə cənub və şimal ərəbləri arasındakı təzadı daha da dərinləşdirirdi. Onu da deməliyik ki, cahilliyyə (nadan-

lıq) adlandırılan islama qədərki dövr ərəblərinin həyat və niəişəti haqqında əsas mənbə kimi qiymətləndirilən qədim ərəb poeziyası nümunələrində də Ərəbistan sakinlərinin özlərini ərəb adlandırmasına dair elə bir məlumat yoxdur. Ətraf qonşularının “ərəb” adlandırdıqlan Ərəbistan sakinləri bir xalq kimi yalnız VII əsrin I yarısında islam bayrağı altında birləşə bilmişdir.

Onu da qeyd edək ki, “ərəb” sözü əvvəllər etnik mənsubiyyəti bildirməmiş, yalnız “quraqlıq, xam torpaq” və onun sakinlərinə işarə kimi işlənmişdir. Sonralar bu sözün məna dairəsi genişlənmiş, “ərəb”, “Ərəbistan”, “ərəb dili” terminləri meydana çıxmış və nəhayət “ərəb” sözü böyük bir xalqın adının ifadəçisinə çevrilmişdir.

Dilimizin, dinimizin, mədəniyyətimizin formalaşmasında müəyyən təsiri olmuş ərəb mədəniyyəti Azərbaycan alimlərini həmişə maraqlandırmışdır.

Ərəb mədəniyyətinin formalaşması əsasən VII əsrə təsadüf edir. Bu dövr tarixdə islam dininin meydana çıxdığı və ərəb istilaları nəticəsində Xilafət kimi böyük dövlətin yaranması ilə xarakterizə olunur. Xilafətə daxil olan xalqların mədəniyyətində ümumi formaların bərqərar olmasına həm dövlət, siyasət, həm də din, bəzi yerlərdə isə dil birliyi geniş imkan yaratdı. Ərəb mədəniyyətinin inkişafında islamı qəbul etsələr də, milli müstəqilliklərini saxlayaraq, sonradan dövlət müstəqilliyini də qazanmış xalqların-Orta Asiyanın, İranın və Qafqaz xalqlarının da mühüm rolu olmuşdur.

Ərəblər ərəb mədəniyyətini islam dini, ərəb dili və bədəvi poeziyası ənənələri ilə daha da inkişaf etdirdilər.

VII əsrin sonundan VIII əsrin ortalarına qədər Əməvilərin paytaxtı Dəməşqlə bərabər Ərəbistanda Məkkə, Mədinə, İraq ərazisində Kufə və Bəsrə şəhərləri ərəb mədəniyyət mərkəzləri olmuşdur. 750-ci ildə Abbasilər xilafətinin yaranması ilə ərəb mədəniyyəti mərkəzi Suriyadan İraqa-Bağdad şəhərinə keçmişdir. Bu şəhərdə üç əsr müsəlman

Şərqi mədəniyyətinin görkəmli nümayəndələri bir-birini əvəzləyərək fəaliyyət göstərmişlər.

Ərəb mədəniyyətinin daha da tərəqqi etdiyi dövr IX-X əsrlərdir. Belə ki, bu dövrdə bir çox elmlər, o cümlədən, fəlsəfə, təbabət, fizika, riyaziyyat, astronomiya, coğrafiya, tarix və s. inkişaf etmişdir. Yaradılan gözəl abidələr maddi mədəniyyət xəzinəsini daha da zənginləşdirirdi.

X əsrin ortalarında Abbasilər xilafətinin parçalanması və onun ərazisində müstəqil dövlətlərin yaranması ərəb mədəniyyətinin əhatə dairəsini, dünya mədəniyyətinin inkişafındakı rolunu getdikcə azaldır. Belə ki, hələ VIII əsrdə Xilafətdən ayrılmış müsəlman İspaniyasında ayrıca ərəb-ispan mədəniyyəti, IX əsrin sonlarında xilafətin şəhər əyalətlərində İran mədəniyyəti və intibahı formalaşmağa başlayır. Fars dili getdikcə daha çox öz əhatə dairəsini genişləndirərək, öncə ədəbiyyat və poeziya sahəsində, sonralar isə digər elm sahələrində də ərəb dilini sıradan çıxarır. Ancaq ərəb dili Quran dili, dini-hüquq və bəzi təbiətşünaslıq elmlərində, fəisəfədə hələ də öz əhəmiyyətini saxlayırdı.

VIII-X əsrlər ərəb mədəniyyətinin dünya mədəniyyəti tarixindəki yerini onu yaradanların dünyanın və insanın elmi-dini və bədii cəhətdən dərk olunması və yeni metodlar kəşf etməsi ilə müəyyənləşirdi. Sonralar ərəb mədəniyyəti nümayəndələrinin təşəbbüsü ilə bu irsin sistemləşdirilməsi və daha ətraflı tədqiqi başlandı. Ərəb mədəniyyətində elmi və bədii ənənələrin inkişafına baxmayaraq, XIII əsrin II yarısında epiqonçuluq geniş yayılmağa başlandı. Bəzi təşəbbüslər göstərilsə də, bu, ümumi mənəvi durğunluğa və bir sıra müsəlman ölkələrində - XIV-XV əsrlərdə İran və Orta Asiyada, XVI əsrdə Osmanlı Türkiyəsində və Avropada ərəb mədəniyyətinin inkişafının mədəni yüksəlişin sürətindən getdikcə geri qalmasına təsir edə bilmədi.

Ərəb-ispan mədəniyyətinin tərəqqi dövrü X-XV əsrlərdir. Bu mədəniyyətin mərkəzləri Kordova, Sevilya,

Malağa və Qranada şəhərləri idi. Təbiətşünaslıq elmləri sahəsində böyük nailiyyətlər əldə edilmişdi. İbn Rüşdün əsərlərində ərəb fəlsəfəsinin mütərəqqi qolu inkişaf etdirilirdi. Bu dövrdə poeziya və ədəbiyyatda sonralar ərəb mədəniyyətinə daxil edilmiş əvəzsiz nümunələr yaradıldı. Maddi mədəniyyətdə İspaniya Mavritaniya memarlığı və tətbiqi sənəti şöhrət qazandı.

İbn Xəldunun ictimai inkişafa dair tarixi-fəlsəfi nəzəriyyəsi ərəb mədəniyyətinin böyük müvəffəqiyyəti idi.

Tarixdən məlumdur ki, XVI əsrdə ərəb ölkələri Osmanlı imperiyasının əyalətlərinə çevrilmişdir. Suriya, İraq və Misir qədim mədəniyyət mərkəzləri kimi müsəlman alimlərinin diqqətini cəlb etsə də, artıq ərəb mədəniyyəti tənəzzülə başlamışdı.

XIX əsrin I yarısından isə Ərəb mədəniyyətinin yeni inkişaf dövrü başlayır. Yeni və ən yeni tarixi dövrdə ərəb ölkələrinin həm iqtisadi və siyasi cəhətdən oyanması, milli azadlıq hərəkatının genişlənməsi, həm də müstəqil ərəb dövlətlərinin yaranması ilə müasir ərəb mədəniyyətinin təşəkkülü başlayır.

Abbasilər xilafəti dövründə Bağdad öz kitabxana və təhsil müəssisələri ilə beyük elm mərkəzinə çevrilmişdi. Sonralar bu sıraya Dəməşq, Hələb, Qahirə, Marağa, Səmərqənd, Qəznə və s. şəhərlər də əlavə olundu.

Hindlilərdən alınmış onluq say sistemi geniş yayılmağa başladı. Ərəb dilində hesaba dair ilk əsərin müəllifi Xarəzmidir. Cəbrin riyazi fənn kimi formalaşmasında Xarəzminin və Ömər Xəyyamın mühüm rolu olmuşdur.

Ptolemey və hind alimlərinin astronomiyaya dair əsərləri tərcümə edilərək öyrənildi və astronomiyanın inkişafı başlandı. Ərəblər göy cisimlərinin koordinatlarını təyin etməyi, istifadə olunan üç koordinat sisteminin birindən digərinə keçidi işlədilər.

Yerin ölçülərini təyin etmək üçün dərəcə ölçməsi isə Xəlifə Məmunun dövründə aparıldı. Biruni, Xarəzmi, ər-Razi və s. mineralogiyaya dair əsərlər yazdılar. Biruninin "Məsudun qanunu", "Mineralogiya" və İbn Sinanın "Bilik kitabı"nda atmosfer fizikasına və geofizikaya aid elmi müddəalar irəli sürülürdü. Heysəmin "Optika" əsəri isə hətta Qərbi Avropada da şöhrət qazanmışdı.

Tibb sahəsində də nailiyyətlər əldə edilmişdir. İbn Sinanın - Tibb elminin qanunu" orta əsr Şərq aləmində və Qərbi Avropada uzun illər tibbi praktikaya aid əsas vəsait olmuşdur.

Bütün xalqların ədəbiyyatı kimi ərəb ədəbiyyatı da öz təməlini şifahi xalq yaradıcılığından - götürmüşdür. İslama qədər yaradılmış ərəb ədəbiyyatı nümunələrinin yalnız az bir hissəsi dövrümüzə gəlib çatmışdır. Bunlar da VIII X əsrlərdə yazıya alınmışdır.

Məlumdur ki, cahiliyyə adlanan həmin dövrdə əsas poeziya janrı qəsidə olmuşdur. Bu janrın yeddi əsas nümayəndəsinin - İmrəul - Qeys, Tərəfə ibn əl-Əbd, Naqibə əz-Zubyani, Zuheyr ibn Əbi Sulma, Əntərə ibn Şəddad, Əşa və Ləbid Rabiənin qəsidələrindən ibarət külliyyat dövrün qiymətli ədəbi abidəsidir.

Lukman Ad, Əksəm ibn Seyfiyin, Kuss ibn Səidə, Əmr ibn Gülsüm ət-Təqlibi isə cahiliyyə dövrü nəsrinin baniləri hesab olunur.

İslam dininin meydana gəlməsi və çox geniş ərazidə yayılması ərəb ədəbiyyatının daha da inkişafına səbəb oldu. Nəsrin inkişafında Quranın müəyyən rolu olsa da, ədəbiyyatın əsas janrı poeziya idi. Lakin bu dövrün poeziyasında qruplaşma meyli nəzərə çarpırdı. Belə ki, yaranan poeziya nümunələrinin çoxu bəzi siyasi və dini qrupların mənafeyini ifadə edirdi. Dövrün ictimai satirasının dəyərli nümunələri isə Azərbaycan şairi Musa Şəhəvatin qələminə məxsus idi.

Tədqiqatçılar Abbasilərin hakimiyyət illərini ədəbiyyatın “qızıl dövrü” adlandırırlar. Çünki bu dövrdə xilafətdə yaranan yeni ictimai-siyasi şərait ədəbiyyatda daha böyük dəyişikliyə səbəb olur. Dövrün tələbinə uyğun olaraq, yaranan ədəbiyyat (əsasən poeziya) ərəbdilli idi. Ancaq bu poeziyanın inkişafında Azərbaycan şairlərindən İsmayıl ibn Yəssarın, Abbas əl-Əmanın, Musa Şəhəvatın, Əbu Nəsr Mənsur ibn Mümkan Təbrizinin və b. mühüm xidmətləri olmuşdur.

Yaranan poeziya nümunələri musiqi əsərlərində də öz əksini tapırdı. Ərəb musiqisi əsasən ərəb incəsənəti ilə bərabər işğal olunmuş ölkələrin incəsənətinin vəhdəti nəticəsində formalaşmışdır. İslam dininin qəbul edilməsi, Yaxın və Orta Şərq, Şimali Afrika, cənub-qərbi Avropa ölkələrinin işğalı və Xilafətin yaranması musiqi mədəniyyətinin inkişafında mühüm rol oynadı. Belə ki, yunan musiqi nəzəriyyəsinin əsasları qəbul edildi, fars və Bizans musiqisinin təsiri altında ərəb musiqisinin səsdüzümü genişləndi, farsların not yazısı, əsas musiqi alətləri ərəbləşdirildi. 7 pərdəli 12 məqama əsaslanan ərəb musiqisi üçün spesifik kolorit, rəngarəng melizmlər, məqamdan yaranan ifa tərzi və zəngin ritm xarakterikdir. Klassik ərəb musiqisi, əsasən vokal musiqisi ilə təmsil olunur.

Orta əsrlərin görkəmli musiqi nəzəriyyəçilərindən sayılan əl-Kindi, İsfəhani, Fərabi, o cümlədən Azərbaycan musiqişünasları Səfiəddin Urməvi və Əbdülqadir Marağayinin əsərlərində Şərq musiqisinə dair mühüm məlumatlar öz əksini tapmışdır. Bu dövrdə İspaniya, Portuqaliya musiqisinə, Avropanın bəzi musiqi alətlərinin formalaşmasına ərəb musiqisinin böyük təsiri olmuşdur.

## *§11. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ*

Tarixdən məlumdur ki, qədim Azərbaycan ərazisində yerli qəbilələrin ilk siyasi təşəkkülü eramızdan əvvəl IX-IV əsrlərə təsadüf edir. O dövrdə paytaxtı Urmiya gölünün cənubunda olan ilk Manna dövləti yaranmışdır. Qədim yerli qəbilələrin iqtisadi-siyasi və mədəni həyatında mühüm rol oynamış bu dövlət eradan əvvəl VIII əsrin ortalarına bütün Cənubi Azərbaycanı əhatə etmiş və eramızdan əvvəl VI əsrin axırlarına qədər müstəqil bir dövlət kimi yaşaya bilmişdir. E.ə. VIII əsrin axırlarında Manna dövlətinə tabe olan Maday e.ə. VI əsrin sonlarında qüvvətlənərək məşhur Midiya dövlətini qurmuşdur. Qədim tarixçilərin verdikləri - məlumata görə, bu dövləti ilk Hökmdar Dayakku təsis etmiş və o, II Hökmdar Fravartiş dövründə daha da möhkəmlənmiş, Kiaksar hakimiyyəti illərində isə (e.ə. 625-584) özünün ən əzəmətli dövrünü yaşamışdır. Lakin Astiaqın hakimiyyəti illərində (584-550) bu dövlət yıxılaraq, əvəzində həxamənişilər hökmranlığı başlamış və Cənubi Azərbaycan da bu dövlətin hakimiyyəti altına keçmişdir. İskəndər istilalarına qədər həxamənişilərin satrapı olan Atropaten İskəndərin ölümündən sonra (e.ə.323) istiqlaliyyət qazanmış və e.ə. 150-ci illərə qədər müstəqil dövlət kimi mövcud olmuşdur. Atropaten, əsasən Cənubi Azərbaycan ərazisini əhatə edirdi. Şimali Azərbaycan ərazisi isə Alban-Ağvan-Arran adlandırılırdı.

Qədim Azərbaycanın həm Atropaten, həm də Arran hissəsində yüksək inkişaf tapmış mədəniyyət mövcud olmuşdur. Həmin mədəniyyətin izləri özünü bir çox nümunələri hələdə qalmaqda olan maddi mədəniyyət abidələrində-dövrü üçün böyük əhəmiyyətə malik olmuş istehkamlarda, suvarma şəbəkələrində, şəhərlərin, məbədlərin, qalaların orijinal memarlıq nümunələrində göstərməkdədir.

Eranın əvvəllərində Alropatendə Pəhləvi yazısından istifadə edilirdi. Arranda isə sonrakı əsrlərdə 52 hərfdən ibarət xüsusi əlifba yaradılmışdı. Bu ərazidə bir sıra elmlər, o cümlədən astronomiya xeyli inkişaf etmişdi.

Ümumiyyətlə, bəşər xalqlarının qədim dövrdən bəri yaratdığı zəngin mədəni sərvət onun sonrakı inkişafı üçün əsaslı zəmin yaratdı. Həmin sərvət öz inkişafının sonrakı mərhələlərində əldə edilən uğurlaria daha dolğun məzmun kəsb etdi.

Bildiyimiz kimi, orta əsrlərdə feodalizm quruluşu Şərq ölkələrinə nisbətən Avropada bir neçə əsr gec formalaşmışdır. V-VI əsrlərdə Roma imperiyası süquta uğradıqdan sonra burada yaranan xırda feodal dövlətləri Avropada feodalizmin formalaşması üçün XI əsrə qədər zəmin rolunu oynadı.

Orta əsrlərdə siyasi hakimiyyəti öz əllərində cəmləşdirməyə çalışan kilsə mədəni-mənəvi və ideoloci-siyasi prosesləri özünün güclü təsiri altına almışdı. K.Marksın və F.Engelsin elmin ilahiyyatın quluna çevrilməsi haqqında məlum müddəaları da Avropa ölkələri üçün bu baxımdan səciyyəvidir.

İslam Şərqi ölkələrində isə vəziyyət tamamilə başqa şəkildə idi. Beiə ki, Avropa ölkələrinin çoxunda elm, din, fəlsəfə, siyasi ideyalar və s. əsasən kilsə xadimləri tərəfindən irəli sürülüb əsaslandırılırdısa, islam Şərqi ölkələrində bu problemlərlə məşğul olanların arasında təbiətşünaslar, həkimlər, sənətkarlar, səyahətçilər, tacirlər və s. olduğu üçün onların irəli sürdükləri idealar demək olar ki, dinlə bağlı olmurdu. Elə buna görə də islam Şərqi ölkələrində elmi-fəlsəfi fikir və müddəalar, azadlıq ideyaları və azadfikirlilik geniş intişar tapmışdı.

Ümumiyyətlə, islam Şərqi ölkələrində, eləcə də Azərbaycanda mədəni irsin inkişaf mərhələsini iki dövrə bölmək olar:

1. İslama qədərki dövr,

2. İslamın qəbulu və yayılmasından sonrakı dövr. İslama qədərki dövrdə xalqımızın dini görüşlərinə dair əlamətləri qəbirüstü yazılarda, daş kitabələrdə, arxeoloji qazıntılar nəticəsində tapılmış abidələrdə, dəfn mərasimləri ilə əlaqədar olaraq qəbirlərə qoyulmuş cürbəcür məişət əşyaları və digər alətlərdəki şəkillərdə və folklor nümunələrində görə bilərik. Məsələn, Qobustan qayaları üzərində həkk olunmuş qurban- kəsmək mərasimi, yallıyabənzər rəqs və digər rəsmlər, Orxon və Yenisey kitabələrində və oğuznamələrdə qorunub saxlanan dünyaduyumu xalqımızın qədim dövr mədəniyyəti və baxışları haqda dolğun məlumat verən əvəzsiz sərvətdir. Bu abidələrdə tanrıçılıq, dövlətçilik, məişət mədəniyyəti, ailə münasibətləri nəsillərarası sələf-xələflik əlaqələri, təbiət hadisələrinə bəslənən münasibət, çoxçeşidli mərasim və ayinlər özünün bədii-fəlsəfi əksini tapmışdır. Qeyd edək ki, ayrı-ayrı təbiət hadisələri (yazın gəlişi, qış, quraqlıq, yağış və s.) haqda, bitki və heyvanların müqəddəsliyinə dair yaradılan əfsanə, əsatir və rəvayətlər də milli-mədəni sərvətin tərkib hissəsidir.

Yeni eranın əvvəlindən VII əsrə qədər Azərbaycan mədəniyyəti müxtəlif inkişaf dövrləri keçirmişdir. Sasanilər dövründə, Azərbaycan xalqının şimal və cənub düşmənlərinə qarşı mübarizə illərində ölkəni müdafiə etmək üçün tikilən qalalar, çəkilən sədlər burada memarlıq işini sürətləndirmişdi. IV əsrdən başlayaraq xristianlığın Azərbaycanda qismən yayılması ilə əlaqədar tikilən kilsələr və xristianlıq təlimi zəminində təşəkkül tapan dünyagörüş ölkənin mədəni həyatına müəyyən dərəcədə təsir göstərmişdir. Bunu xristianlığın qəbul edildiyi yerlərdə Bizans təsirlərinin qüvvətlənməsində, yeni Alban əlifbasının yaradılması və yazılı ədəbiyyatın inkişafında da görə bilərik.

VII əsrdə Azərbaycanda müstəqil Alban dövlətinin yaranması ilə yüksələn mədəniyyət ərəb istilasına qədər inkişaf etmişdi.

Cavanşirin ölümünə məşhur Azərbaycan şairi Davdağın yazdığı mərsiyə dövrün gözəl ədəbiyyat nümunəsi olmaqla yanaşı, özündə VII əsrdə ərəb işğalçılarına və Sasani qəsbkarlarına uzun müddət müqavimət göstərən xalqımızın istiqlaliyyət mübarizəsini və azadlıq duyğusunu da əks etdirir. Xəyanətin qurbanı olan bu igid sərkərdənin tabutu önündə oxunan həmin mərsiyədə xalqımızın qəhrəmanın itkisindən doğan dərin kədər hissi də özünün bədii ifadəsini tapmışdır. Ağıdan gətirdiyimiz bir neçə səndə diqqət edək:

Ey ilahi kəlamları xəlq eyləyən ulu tanrı,
Özün nəğmə-ağı söylə, yad et bizim hökmdarı.
Elə nəğmə-ağı qoş ki, bu əvəzsiz itki üçün,
Gözümüzdən gecə-gündüz axsın odlu göz yaşları.
Görün kimlər əl qaldırdı o bahadır tacidara!
Atasından xəbərsiz, bic,...Zatıqırıq, özü gürzə.
Sürüm-sürüm qoy sürünsün, həsrət qalsın xoş bir üzə,
Qoy sülənsin bu dünyada Qabil kimi əsə-əsə...
Qonlarına yığsa belə min pəhləvan qüvvətini,
Çiçəkləri asta üzər, gülü ehmal dərərdi o.
Danışarkən göz qalardı o kəlamda, o xoş sözdə,
Əxlaqı saf, ruhu yüksək, könlü odlu bir həvəsdə.

Cavanşirin məziyyətlərini, ölkəsi və xalqı üçün əvəzsiz bir şəxsiyyət, müdrik insan, cəsur sərkərdə, yenilməz pəhləvan, eyni zamanda incə ruhlu insan olduğunu diqqətə çatdırdıqdan sonra Davdaq dərin bir yanığı ilə yazır: Mənim ağım nə qu quşu, nə də pəri nəğməsidir, Qatarından ayrı düşən bir durnanın naləsidir. Göründüyü kimi, sərkərdə və dövlət başçısının ölümü böyük bir ümumxalq fəlakəti kimi qarşılanır. Bu da türk (Azərbaycan) dövlətçilik ənənəsindən irəli qəlir. VII əsrdən başlayaraq ərəb istilası və xalqın bu istilaya qarşı mübarizə-

si, yeni şəraitdə ölkənin siyasi-iqtisadi həyatında baş verən dəyişikliklər mədəniyyətə də öz təsirini göstərdi.

Azərbaycanı istila etdikdən sonra ərəblər xristian xalqlara və yəhudilərə dini vergi (cizyə) vasitəsilə öz dinlərini saxlamaq imkanı verdikləri halda, atəşpərəstliyə qadağa qoyaraq burada islam dininin yayılması asanlaşdırmaq məqsədilə atəşpərəstliyin bütün nişanələrinin məhvinə çalışırdılar. Qədim Azərbaycan mədəniyyəti atəşpərəst məbədlərində,. atəşgədələrdə saxlandığı üçün yandırılan məbədlərin içərisində həmin mədəniyyət abidələri də məhv olurdu. Biz bu tarixi hadisələrin bədii əksi ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin "İskəndərnamə" əsərində də rastlaşırıq...

İslam dinini təbliğ etmək üçün ərəblər yerlərdə mədrəsələr açdılar. Ərəb dili rəsmi dövlət dili olduğu üçün elm və ədəbiyyatla yanaşı mədrəsələrdə təlim-tərbiyə işləri də ərəb dilində aparılırdı. Beləliklə, latın dilinin Qərbi Avropada oynadığı rolu, ərəb dili Yaxın Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında oynayırdı.

IX əsrdə Azərbaycanın həyatında baş verən ən mühüm hadisə Babək üsyanı olmuşdur. Xalq qəhrəmanı Babək 20 ildən artıq müddət ərzində xilafətə qarşı mübarizə aparmışdır. Bu xalq qəhrəmanının işğalçılarla inadlı vuruşları, mərdanə ölümü onun haqqında bir sıra ədəbi və tarixi əsərlərin yaranmasına səbəb olmuşdur...

Orta əsrlərdə İslam Şərqində mədəni-siyasi fikir əsasən bir-biri ilə bağlı olan iki istiqamətdə öyrənilir:

1. Ancaq siyasi problemlərin tədqiqi ilə məşğul olan professional alimlər tərəfindən.

2. Siyasi-ideoloci istiqamətdə, məsələn, islamilik, sufilik-hürufilik, işraqilik və s.

Bundan başqa məlum olduğu kimi, orta əsr islam Şərqi mütəfəkkirlərinin mövcud bədii yaradıcılığı da dövrün aparıcı ideya-fəlsəfi fikirlərini özündə əks etdirirdi. Buna

misal olaraq Nizami Gəncəvinin “Xəmsə”sində öz əksini tapan ideal dövlət haqqındakı fikirlərini göstərə bilərik.

Bütün islam Şərqində olduğu kimi, Azərbaycanda da orta əsrlərdə mövcud olan əsas mədəni-siyasi cərəyanların yaranıb inkişaf etməsində Hind-Çin, Roma, yunan mənbələri əhəmiyyətü rol oynamışdır.

Orta əsrlər şərq xalqlarının, o cümlədən azərbaycanlıların mədəniyyətində Əl Kindi, Əl Fərabi, Biruni, İbn Sina, Bəhmənyar, Söhrəverdi, Xaqani, Məhsəti, Şəbüstəri, Yusif Qarabağlı, Şah İsmayıl Xətai, Həqiqi, Həbibi, Rudəki, Firdovsi və digər mütəffəkirlərin elmi və ədəbi-fəlsəfi irsləri xüsusi yer tutur. Bu zəngin sərvətdən məlum olur ki, orta əsrlərdə İslam Şərqi xalqları öz mədəniyyətlərinin intibah dövrünü yaşamışlar. Bu mədəniyyətin əsasən ərəb və fars dillərində yaradılmasına baxmayaraq, onun zənginləşməsində ərəblərdən və farslardan başqa digər xalqların, o cümlədən azərbaycanlıların da mühüm rolu olmuşdur.

İslam mədəniyyəti Avropa mədəniyyətinə də güclü təsir göstərmişdir. U.Montqomerin, H.Bammatın əsərlərində bu fikir öz ifadəsini əhatəli şəkildə tapmışdır.

İslamdan sonrakı dövrdə Azərbaycan ziyalıları ərəb və fars dilləri vasitəsilə Şərq, eləcə də yunan mədəniyyəti ilə tanış olmuşlar. Əbu-Nəvas, İbn-Hani kimi ərəb şairləri, Rudəki, Dəqiqi, Firdövsi, Xəyyam, Fəxrəddin Gürgani kimi İran və Orta Asiyanm klassik şairləri Azərbaycan ziyalılarına yaxşı tanış idilər. Onlar öz müasirləri olan Əsiri Əxistəki, Rəşidəddin Vətvat kimi Orta Asiya şairləri ilə əlaqə saxlayırdılar.

Azərbaycan ziyalılarının əsas hissəsi ərəb və Orta Asiya alimlərindən Fərabinin, İbni Sinanın, İbni Bacənin, İbni Rüştün, qədim yunan filosoflarından Aristotelin, Platonun, Bəlinasın fəlsəfi əsərləri ilə tanış olur, Bəhmənyar kimi filosofların fəlsəfi sistemlərini maraqla öyrənirdilər.

Bəşər tarixinin inkişafında ən mühüm dövrlərdən biri intibah hesab olunur. Avropada feodalizmin dağılmağa başladığı və kapitalist münasibətlərinin, burjua cəmiyyətlərinin meydana çıxıb formalaşması ilə əlaqədar olan intibah "yeni tarixi dövr" adlanır.

İntibah fransızca "renesans" sözündən olub, mənası dirçəliş deməkdir. Onu da qeyd edək ki, almanlar bu dövrü özlərinə üz vermiş milli bədbəxtliyə görə "reformasiya", italyanlar isə "çingviçento" adlandırırlar. Lakin bu adlar bir növ şərti xarakter daşıyır. Ona görə ki, onların heç biri o dövrün dolğun məzmununu tam əhatə edə bilmir.

Avropada intibah təxminən XIV-XVI əsrlərdə İtaliyada, XV əsrin sonu XVI əsrdən isə digər ölkələrdə başlanmışdır.

Qədim latın və yunan dillərindən tərcümə olunmuş əsərlərin təsiri ilə yenilərinin yaranması cəmiyyətdə hökm sürən monarxiya, inzibati amirlik recimlərinin, kilsənin, feodal-patriarxal qayda-qanunlarının amansızcasına tənqidi ilə nəticələndi.

Məlumdur ki, bu dövrlərdə xristianlıq Qərbi Avropanın feodal cəmiyyətlərində ideoloji inteqrator funksiyasını yerinə yetirirdi. Roma katolik kilsəsi əvvəlcədən inteilektual təhsil üzərində hökmranlığı öz əlinə almışdı. Ancaq bütün bunlara baxmayaraq müxtəlif elm sahələri inkişaf edirdi, XII-XIII əsrlərdə Avropanın bir sıra şəhərlərində universitetlər təşkil olundu. 1200-ci ildə Fransada Paris universiteti açıldı, İtaliyada məşhur Boloniya hüquq məktəbi, Salerna tibb məktəbi fəaliyyətə başladı.

"Roland haqqında nəğmə" adlı fransız eposunun, "Nibulunqlar haqqında nəğmə" adlı alman qəhrəmanlıq eposunun geniş yayılması XII-X-III əsrlərdə Avropada xalq ədəbiyyatının inkişafından xəbər verir. Bütün bunlar isə intibah mədəniyyətinin yaranmasını şərtləndirmişdi. Uzun müddət Qərbin orta əsrlər mədəniyyətinin intibah mədəniy-

yətinə qarşı qoyulmasına baxmayaraq, əslində bu mədəniyyət (intibah mədəniyyəti) orta əsrlər mədəniyyəti zəminində yaranmışdı.

İntibah mədəniyyəti iki böyük mənbəyə-antik klassik irsə və orta əsrlərin mədəni irsinə əsaslanmışdır. Bu dövr belə bir müddəam irəli sürürdü ki, təbiət və mədəniyyət aləmləri genetik cəhətdən eynidir. Ümumiyyətlə, intibah dövrü mədəniyyətində insanm sərhədsiz qüdrətindən, qeyri-adi imkanlarından bəhs olunur. Qeyd etdiyimiz dövrdə kimya, astrologiya və hər cür magiya intibah cəmiyyətini aşağıdan yuxarıya kimi bürümüşdü. Bu vəziyyət elmdə induktiv metodun banisi sayılan Frensis Bekonun fəaliyyətində də özünü göstərirdi.

İntibah mədəniyyətinin şəhər tipi özünü bir sıra həyat hadisələrinə münasibətdə əks etdirirdi. Cəmiyyətin aşağı təbəqəsindən çıxan qəhrəmanlar qarşılaşdıqları maneələri asanlıqla dəf edir, qələbələr qazanırdılar. Belə qəhrəmanlara həsr olunmuş novellalarda eyni zamanda, o dövrün ictimai bəlaları tənqid olunur, xüsusilə ruhanilərin əxlaq düşkünlüyü, dindən sui-istifadə etmələrinin ifşası öz əksini tapırdı.

İntibah dövründə uzaq səyahətlərə çıxmaq, bir neçə dildə danışmaq, müxtəlif yaradıcılıq sahələrində fəaliyyət göstərmək bir növ ənənə şəklini almışdı. Hamımızın böyük bir rəssam kimi tanıdığımız Leonardo da Vinçi eyni zamanda riyaziyyatçı, mühəndis idi, nabelə fizikanın müxtəlif sahələrində mühüm kəşflər etmişdi. Aibrext Dürer nəqqaş, qravyor, heykəltaraş, arxitektor olmaqla yanaşı, istehkam sistemini icad etmişdi. Yeni burjua siyasi elminin banilərindən biri-14 il Florensiya Respublikasının daxili işləri ilə

lər dövrü kimi daxil olmuşdur. Tarixin bu maraqlı mərhələsi haqqında ən məqsədəuyğun, dolğun, əsaslandırılmış izahatı marksizm klassikləri vermişlər. Fikrimizə F.Engelsin "Təbiətin dialektikası" əsərinə yazdığı məşhur giriş parlaq misal ola bilər.

F.Engels Renesansı yalnız bir regionda, yəni Avropada deyil, müxtəlif regionlarda baş vermiş çevrilişlər sırasında müqayisəli şəkildə səciyyələndirərək yazır: "Bu, bəşəriyyətin o vaxta qədər gördüyü bütün çevrilişlər içərisində ən böyük bir mütərəqqi çevriliş idi, dahilərə ehtiyacı olan, öz təfəkkürü, ehtirası və xasiyyəti, kamilliyi və alimliyi cəhətdən dahilər yetirən bir dövr idi". Yəni bu dövrdə bəşəriyyətin ictimai həyatında, ictimai fikirdə, fəlsəfədə, incəsənət və poeziyada hansı dəyişikliklər baş vermişdisə, hansı mühüm yeniliklər meydana çıxmışdısa, bunların hamısı həmin çevrilişin məna və məzmununa daxildir. Eyni zamanda, onların hamısı mütərəqqi səciyyə daşımışdır. İctimai, siyasi və mənəvi həyatın, demək olar ki, bütün sahələrində baş vermiş bu oyanış nəticəsində tarixi inkişafın tələbləri və həyatın ehtiyacları, dahi şəxsiyyətlərə də ehtiyac yaratmışdır.

Müsəlman ölkələrinin mədəniyyət tarixinə nəzər salsaq, görərik ki, Yaxın və Orta Şərqdə də baş verən intibahla əlaqədar mövcudluğuna böyük ehtiyac duyulan dahilər meydana çıxmışdır. Həmin dövrdə Fərabilər, Birunilər, İbn Sinalar, Firdovsilər, Xəyyamlar, Xaqanilər, Nizamilər... yetişmişlər. Daha doğrusu, intibah bu şəxsiyyətlərlə bərabər adlarını çəkmədiyimiz digər dahilərin zəka işığında özünə yol tapmışdır.

Müsəlman ölkələrində də intibah birdən-birə yaranmamışdı. Bir tərəfdən Bizans, Suriya və Misir vasitəsilə qədim yunan və Roma mədəniyyəti, digər tərəfdən qədim İran, Hind, Orta Asiya və Ərəb mədəniyyəti də VIII-IX əsrlərdə müsəlman ölkələrində yeni intibah mədəniyyətinin yaranmasına təsir göstərmişdir. Xəlifə Məmunun dövründə

görülən tərcümə işiəri həmin mədəniyyətin təməlini qoymuşdu. Şərq intibahı elmdə və incəsənətdə, xüsusilə də poeziyaya sahəsində misilsiz nailiyyətlər qazanmış, təkrarolunmaz sənət abidələri yaratmışdı; bu dövrdə Firdovsinin "Şahnamə"si. Ömər Xəyyamın "Rübailəri", Nizaminin "Xəmsə"si, Hafizin və Füzulinin qəzəlləri, Caminin və Nəvainin ölməz poeziyası meydana çıxmışdı.

Yaxın və Orta Şərqdə VIII əsrin ortalarında Ərəbistandan başlanan bu böyük oyanış və tərəqqi XII əsrin axırlarında Azərbaycanda sona çatır. Ümumən Azərbaycanda XI əsrdə başlanan intibah öz inkişafında bir neçə mərhələdən keçərək, Nizami yaradıcılığında ən yüksək mərhələyə çatmışdır.

İstər Qərbdə, istərsə də Şərqdə intibahı şərtləndirən əsas əlamətlərdən biri də, F.Engelsin qeyd etdiyi kimi, "küsənin mənəvi diktatorluğunun sarsılması" idi. Əgər bu, Qərbdə islanatçılıqla, başqa sözlə, bir sıra ölkələrdə protestantlığın qəbulu ilə nəticələnmişdisə, Şərqdə müxtəlif təriqətlərin-sufizmin, əxiliyin, hürufiliyin meydana çıxması, "Ənəlhəq" ideyasının yayılması ilə müşahidə olundu. Təsadüfi deyil ki, "Ənəlhəq" deyən Mənsur Həllac və İmadəddin Nəsimi kimi böyük şəxsiyyətləri bədnam din xadimləri fitva verərək ağır işgəncələrlə cismən məhv etdirdilər. Ona görə ki, "Ənəlhəq" sədası orta əsrə qarşı yeni bir aləmin, intibah dünyasının sədası idi, coşğun inkişaf edən elm və ədəbiyyatın təsiri ilə oyanan, dünyanı və özünü yenidən kəşf edən insanın dini xurafata və onun ehkamlarına qarşı üsyanı idi.

Yuxarıda qeyd etdiyimiz məsələlər göstərir ki, həm ərbdə, həm də Şərqdə intibahın özgün tarixi-ictimai zənnini, siyasi, iqtisadi, mədəni əsasları, zamanın tələbi ilə müəyyənləşən xarakterik xüsusiyyətləri və mərhələləri olmuşdur.

"Ən yeni tarixi dövr" anlayışı ilə əlaqədar filosoflar və tarixçilər arasında bəzi fikir ayrılığı vardır. Belə ki, onların

bir qismi bu dövrün başlandığını 1789-cu il Böyük Fransa inqilabından (burjua dövrü kimi), bir qismi isə 1871-cı ıl Paris Kommunasından (proletar dövrü kimi) hesab edirlər.

İntibahın xarakterik xüsusiyyətlərindən biri də onun bəşəriyyət tarixinə maarifçilik dövrü kimi daxil olmasıdır. Maarifçilik kapitalizmə keçid dövründə yaranmaqda olan burjuaziyanın və xalq kütlələrinin feodalizmin buxovlarından çıxmaq cəhdləri ilə bağlı olan hərəkatdır. Bu termini elmdə ilk dəfə F.Volter və İ.Q.Herder işlətmişdir. 1874-cu ildə isə Alman filosofu İ.Kant “Maarifçilik nədir?” adlı məqaləsində maarifçiliyin mahiyyətini elmin, insan təfəkkürünün cəmiyyətin tərəqqisində istifadə olunmasında görürdü. Hələ o dövrdən maarifçiliyin mərkəzində insan zəkası, elmin tərəqqisində onun rolu və imkanı dayanırdı.

Tarixi “əxlaq və siyasət məktəbi” hesab edən maarifçilər o zamanın texnologiya mövqeyindən izahı əleyhinə çıxır və orta əsrləri nadanlıq, fanatizm, dini xürafat, zülm dovru adlandırırdılar. Onlar tərəqqiyə inanır və tarixi inkışafın qanunauyğunluğunu qəbul edirdilər. Ancaq ictimai inkişaf məsələlərində tarixilik prinsipini nəzərə almadıqlarından idealist mövqedə dururdular.

Kapitalizmə bütün ölkələrdən əvvəl qədəm qoyaraq inkişaf edən İngiltərə Avropada maarifçiliyin vətəni hesab olunur. Bu ölkədə maarifçiliyin ilk nümayəndələri Con Lokk və Con Toland olmuşdur.

İngiltərədə maarifçilik fəlsəfəsinin ən görkəmli nümayəndəsi olan C.Lokk vətəndaşlıq hüququ prinsiplərini işləyib hazırlamışdır. O, “İnsan zəkası haqqında təcrübə” əsərində göstərir ki, insana üç əsas hüquq verilməlidir: yaşamaq, azadlıq və mülkiyyət hüququ. C.Lokka görə insanın əməyinin yüksək qiymətləndirilməsi mülkiyyət huququ ilə bağlıdır.

XVIII əsrdə Fransada siyasi ideologiyanın əsas istiqamətlərindən birini maarifçilik təşkil edirdi. Maarifçilik cərə-

yanına F.Volter, Ş.Monteskye, C.C.Russo, habelə fransız materialistlərindən C.Lametri, D.Didro, K.A.Helvetsi, P.A.Holbax və digər mütəfəkkirlər daxil idi. Bu mütəfəkkirlərin siyasi baxışlarında əsaslı fərqlərin olmasına baxmayaraq, onları feodalizmə qarşı mübarizə birləşdirirdi.

XVII əsrdə Avropanın başqa ölkələrində olduğu kimi Almaniyada da maarifçilik dövrü başlanmışdı. Lakin ilk vaxtlarda alman maarifçiləri müstəqil fəaliyyət göstərə bilmirdilər və buna görə də onlar İngiltərə və Fransa mütəfəkkirlərinin ictimai-siyasi və fəlsəfi ideyalarını Almaniyanın ictimai həyatına uyğunlaşdırmağa çalışırdılar. Alman maarifçiləri öz fəaliyyətlərini sonralar bu əsasda genişləndirdilər.

Maarifçilik Azərbaycan ictimai-mədəni fikir tarixinin də mühüm bir mərhələsini təşkil etmişdir. Belə ki, XVII əsrin ortalarında yalnız Şamaxıda 40 ibtidai, 7 orta tipli məktəb fəaliyyət göstərirdi. Təbrizdə isə 600 ibtidai və 47 orta təhsil verən məktəb var idi.

XVII əsrdə Azərbaycan ədəbi dili də getdikcə formalaşaraq və inkişaf edirdi. Şah İsmayıl Xətai tərəfindən əsası qoyulmuş saray kitabxanası bu dövrdə ən böyük və zəngin kitabxanalardan birinə çevrilmişdi. Suraxanıdakı Atəşgah, Gəncə məscidi, Şamaxıda Şeyx İbrahimin məqbərəsi və s. həmin dövrün yadigarlarıdır.

Tarixdən bəllidir ki, XVIII əsr Azərbaycanda feodal pərakəndəliyi - xanlıqlar dövrüdür. Lakin bunlara baxmayaraq bütövlükdə ölkə ərazisində elm, incəsənət, ədəbiyyat inkişaf edirdi. Azərbaycanın görkəmli coğrafiyaşünası Zeynalabdin Şirvani Şərq Ölkələrinə səyahətə çıxır və gördüklərini qələmə alırdı. Nişat Şirvani, Şakir Şirvani, Arif Şirvani, Ağa Məsih Şirvani və onlarla Azərbaycan şairi bu dövrdə yazıb-yaratmışdılar.

XVIII əsrin böyük şairlərindən olan Molla Vəli Vidadi və Molla Pənah Vaqif nəinki Azərbaycanın, bütövlükdə

türk dünyasının qüdrətli sənətkarlarından hesab olunurlar. Şair və müdrik siyasi xadim olan M.P.Vaqifin dəyərli məsləhətləri XVIII əsrdə Qarabağ xanlığının möhkəmlənməsinə xeyli dərəcədə kömək etməklə bərabər, onun poeziyası Azərbaycan ədəbi dilində və bədii düşüncəsində xəlqilik keyfiyyətlərini əhəmiyyətli dərəcədə qüvvətləndirmişdir.

Ümumiyyətlə, xanlıqlar dövründə Azərbaycanda xalq musiqisi, memarlıq və incəsənətin digər sahələri inkişaf etmişdir. Şəkidəki Xan sarayı, Qarabağdakı Şuşa, Əsgəran və Bayat qalaları, Şuşa məscidi və s. XVIII əsrin layiqli tarixi mədəniyyət abidələridir.

Azərbaycan tarixinin faciəli dövrlərindən biri də XIX əsrdir. Ona görə ki, Rus-İran müharibələri və 1813, 1828-ci illərdə bağlanan Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Araz çayı sərhəd olmaqla Azərbaycan iki yerə bölürdü. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra burada maarif sahəsində yeni dövr başlandı. Zəngin nıədəni irsə malik olan xalqımız dünya mədəniyyəti xəzinəsindən bəhrələnərək öz mədəniyyətini daha da inkişaf etdirdi. A.Bakıxanov, M.F.Axundov, H.Zərdabi, N.Vəzirov, S.Ə.Şirvani, S.Ünsizadə, C.Ünsizadə kimi maarifpərvərlər Azərbaycanda maarifin inkişaf etdirilərək xalqın savadlanması, onun səviyyəsinin yüksəldilməsi yolunda çalışmağa başladılar.

XIX əsrdə Şamaxı quberniyasında 4700 nəfərin təhsil aldığı 299 məktəb və mədrəsə var idi. Onlardan 262-si kəndlərdə, 37-si isə şəhərdə idi. Bununla kifayətlənməyən Azərbaycan maarifçilərinin səyi ilə ölkədə Azərbaycan-rus məktəbləri də yaradıldı. Bu tipli ilk məktəblər XIX əsrin 30-cu illərində Şuşada, Şəkidə, Bakıda, Gəncədə, Şamaxıda və Naxçıvanda açılmışdı. Əsasən varlıların uşaqları təhsil alan həmin tədris müəssisələrində rus və Azərbaycan dilləri, coğrafiya və şəriət fənləri tədris olunurdu. Bu məktəblərin

məzunlarının çoxu Azərbaycan mədəniyyətinin, maarifinin inkişafında mühüm rol oynamışdır.

Ölkədə digər sahələrlə yanaşı, tarix elmi də inkişaf edirdi. Mirzə Adıgözəl bəy, Mirzə Camal, Kərim ağa Fateh və başqalarının qələmindən çıxan əsərlər fikrimizə sübutdur. Həmin müəlliflərin gərgin və məqsədyönlü əməkləri nəticəsində tariximizin bir sıra qaranlıq səhifəsinə müəyyən aydınlıq gətirilmişdir. Məsələn, A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində Şirvanın tarixi qədim dövrdən başlamış XIX əsrin əvvəllərinə qədər öz əksini tapmışdır. A.Bakıxanov eyni zamanda pedaqogika, fəlsəfə, psixologiya, məntiq, coğrafiya, astronomiyaya aid əsərlər də yazmışdır.

Azərbaycanın bir çox görkəmli alimləri-Mirzə Cəfər Topçubaşov, Mirzə Kazım bəy Azərbaycandan kənarda fəaliyyət göstərirdilər. Onların hər ikisi bir neçə xarici ölkə akademiyalarının və kral cəmiyyətinin üzvü olmuşlar.

XIX əsrin II yarısında Azərbaycanda maarif və mədəniyyət, elm və ədəbiyyat daha da inkişaf etmişdir. Bu dövrdə Bakı iri sənaye şəhərinə çevrilməklə yanaşı, eyni zamanda, mədəniyyət mərkəzi olmuşdu. Məktəblərdə həm rus, həm də Azərbaycan dillərində dərslər keçirilirdi.

Azərbaycanda müəllim kadrların hazırlanmasında 1876-cı ildə açılmış Qori müəllimlər seminariyasının Azərbaycan (tatar) şöbəsinin də böyük rolu olmuşdur. C.Məmmədquluzadə, N.Nərimanov, Rəşid bəy Əfəndiyev, H.Mahmudbəyov, F.Köçərli, Ü.Hacıbəyov və başqaları həmin seminariyada təhsil almışlar.

Dövrün maarif və mədəniyyət obyektləri sırasında Bakı və Gəncə realnı məktəblərini, 1896-cı ildə Bakıda H.Z.Tağıyev tərəfindən açılan qızlar seminariyasını, 1894-cü ildə N.Nərimanovun açdığı ilk kütləvi kitabxana-qiraətxananı göstərə bilərik.

Məlumdur ki, Azərbaycan mətbuatının banisi maarifpərvər xadim Həsən bəy Zərdabi olmuşdur. O, 1875-1877-ci illərdə Bakıda ana dilində "Əkinçi" qəzetini nəşr etmişdir.

Bütün millətlər kimi azəri türkilərinin də milli-mədəni intibahında başlıca rol oynayan amillərdən biri də milli mətbuat orqanlarıdır. Bu baxışdan milli-mənəvi oyanma və tərəqqi ideyaları ilk mətbuat orqanımız "Əkinçi"də, həm də maarifçilik ideyalarının təbliği fonunda hazırlanıb intişar tapmışdı. Bu vəziyyət dövrün tələbindən irəli gələrək, istehsal münasibətlərinin sürətli inkişafı, elm və texnikanın uğurlarına yiyələnən millətlərin tarix səhnəsində irəli çıxıb başqa xalqlar üzərində hökmranlıq etmələri qabaqcıl görülüşlü vətənpərvər ziyalılarda vəziyyətdən çıxmaq üçün ilk növbədə xalqı savadlandırmaq qənaəti doğurmuşdu.

"Əkinçi"nin təsisisi və baş redaktoru H.Zərdabi də vətəndaşlıq yanğısı ilə öz millətdaşlarını və millətpərvərlərini ayıqlığa, təşəbbüskarlığa, fəaliyyətə çağıraraq deyirdi: "Ey müsəlmanlar, heç mürvətdirmi ki, tamam dünya bizim qonşularımız ilə belə elm təhsil etməyə səy etsinlər ki, zindəganlıq cəngində düşmənə faiq gəlsinlər, amma bizlər Allahdan buyruq, ağzıma quyruq deyib duraq? Ey müsəlmanların millət təəssbü çəkən kəsləri, bir açın gözünüzü, dünyaya tamaşa edin..."

Bu çağırış belə bir qənaətdən hasil olurdu ki, "cəhalət bir atəşi-suzandır ki, şəxs öz cəhalətinin oduna yanar və onu anlamaz..." Ona görə də H.Zərdabi və məsləkdaşları öz həmvətənlərini başa salırdılar ki, dünya işlərindən, təsərrüfat və dolanışıq məsələlərindən baş çıxarmaq üçün oxumaq lazımdır. Çünki, elmsiz heç bir uğur qazanmaq, fabrik və zavodların, maşınların "dilini" başa düşmək mümkün deyil. Ona görə də "insana vacibdir ki, elm ilə işlərə iqdam və ciddi-cəhd etsin ta əməl fayda versin və hər bir tayfada olan yaxşı elmləri öyrənsin."

Dövrün mütərəqqi ruhlu ziyalıları elm və maarifə işıqlı sabaha çıxmaq, zülmdən qürtülmaq vasitəsi kimi baxırdılar. Ona görə də bu hərəkatın simasını maarifçilik müəyyənləşdirirdi. Tərəqqipərvər ziyalılar xalqı işıqlı sələcək uğrunda mübarizəyə səfərbər etmək üçün maarifə xalqın əql və şüurunun elm nuru ilə ziyalandırılmasında ilkin və əsas hazırlıq mərhələsi kimi baxırdılar. Odur ki, XIX əsr Azərbaycan maarifçiliyini səciyyələndirən əsas cəhət mübarizənin despotizmin, özbaşnalığın, fiziki və mənəvi zülmün əleyhinə, eləcədə xalqın, millətin iqtisadi və mədəni əsarətdən azad olması səmtinə yönəldilməsidir.

Azərbaycan maarifçiləri xalqa elmin, texnikanın sirlərinə yiyələnməyi, maariflənməyi təbliğ və təlqin etməklə öz işlərini bitirməyib, bu vəzifənin həyata keçirilməsinin yol və üsullarını da görüb göstərməyə, əməli fəaliyyətə çalışırdılar. Onların haqlı qənaətinə görə, savadsız, elm və texnikanın nailiyyətlərindən bixəbər olan hər kəs və millət ac-yalavac qalıb sərgərdan olmağa, başqalarının əlinə möhtac olmağa məhkumdurlar. Ona görə də, xalqın istehdad və qabiliyyətinə, öyrənmə bacarığına dərin inam bəsləyən Azərbaycan maarifçiləri onun savadlanmasına çalışmırdılar.

Azərbaycan maarifçiləri ədəbiyyat və incisənətə də xalqı maarifləndirmək, milləti tərəqqi və inkişafa sövq etmək vasitəsi kimi baxır və ondan ilk növbədə elə bunu da tələb edərək yazırdılar:

“Hər tayfanın və millətin keçmişdən olan yaman və yaxşı günlərini şərh edən mahnıları olur ki, bu mahnılar ağızdan-ağıza düşüb milləti birləşdirməyə bais olur...”

Maarifçilər bədii ədəbiyyatdan da tələb edirdilər ki, zamanın tələbinə uyğun olaraq, xalqı oyatmaqla onu tərəqqiyə işıqlı gələcəyə çıxmaq uğrunda mübarizəyə səfərbər etsin. Onlar milli gerilik və ətalətdə ədəbiyyatın da böyük məsuliyyət daşıdığını qeyd etməklə heç olmasa indi

xalqı mənəvi oyaqlığa, fəaliyyətə, öz güc və qüdrətinə inandırmaq üçün bədii sənət adamlarını, şair və yazıçıları bütün güclərini səfərbər etməyə çağırırdılar.

Maarifçilər öhdələrinə düşən tarixi vəzifəni həyata keçirmək üçün öz müəllimlərinin - H.Zərdabinin çağrışına qoşularaq mümkün olan bütün vasitə və imkanlardan istifadə edərək məktəb, kitabxana-qiraətxana açır, müsamirələr təşkil edir, "Əkinçi" səhifələrində dərs proqramı və dərsliklərin yenidən tərtib məsələsini qaldıraraq, orada dünyəvi elmlərin əsas yer tutmasını vacib sayırdılar.

"Əkinçi"nin uğrunda mübarizə apardığı ideyalar ondan sonra meydana çıxan milli mətbuat orqanlarımız - "Ziya (Ziyayi-Qafqasiyyə)", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi", "Açıq söz", "Dirilik", "Azərbaycan" və s. tərəfindən davam və inkişaf etdirildi. Milli mətbuat xalqımızın milli özünütəsdiq ideallarının ifadəçisi rolunu bu gün də ləyaqətlə oynamaqdadır.

İncəsənət tarixində ən böyük hadisələrdən biri də Azərbaycan milli teatrının yaranması idi. Belə ki, 1873-cü il martın 22-də Novruz bayramı günü Bakı realnı məktəbində H.Zərdabi və N.Vəzirovun səyi ilə M.F.Axundovun "Hacı Qara" komediyası tamaşaya qoyulmuş, on il sonra isə xalqımızın maariflənməsində xüsusi rolu olan H.Z.Tağıyev teatr binası tikdirmişdi. Bu hadisə Bakıda teatr sənətinin inkişafına təkan vermiş, tezliklə böyük dramaturqlar və artistlər nəslinin yetişməsinə səbəb olmuşdur.

Çarizmin Azərbaycanın mədəni inkişafına əhəmiyyət verməməsinə baxmayaraq - XX əsrin əvvəllərində burada məktəblərin sayı artmaqda davam edirdi. "Molla Nəsrəddin" və "Füyuzat" jurnalları ilə yanaşı digər mətbuat orqanlarının nəşri isə nəinki Azərbaycanda, hətta İranda da böyük tərpənişə səbəb oldu.

Bildiyimiz kimi, Azərbaycanın musiqi mədəniyyətinin inkişafında Ü.Hacıbəyov və M.Maqomayevin əvəzsiz xidmətləri olmuşdur. 1908-ci ildə Şərqdə ilk dəfə “Leyli və Məcnun” operası tamaşaya qoyularkən Məcnun rolunun ifaçısı dahi sənətkar H.Q.Sarabski olmuşdur. Bu operadan sonra Ü.Hacıbəyov 1909-1916-cı illər ərzində daha beş opera və üç musiqili komediya yaratmışdır. Bütün bunlar Azərbaycanda qeyd etdiyimiz dövrlərdə milli mədəniyyətin əldə etdiyi nailiyyətlərin göstəriciləridir.

XX əsr tarixin yaddaşında həm də Asiya ölkələrində, xüsusən də Çində, Hindistanda, Əfqanstanda, İranda və Türkiyədə, eyni zamanda Azərbaycanda baş verən milli azadlıq hərəkatları, rus imperiyasının dağıdılması kimi qalacaqdır. Bu ölkələrdə baş verən ictimai-siyasi hadisələr elm və mədəniyyətə də öz təsirini göstərdi.

Rəsmən ikiyə bölünsə də, qəlbləri bir olan Azərbaycanın XX əsr çərçivəsində həm o tayının, həm də bu tayının elm və mədəniyyət sahəsindəki uğurları üzərində bir qədər ətraflı dayanmağı lazım bilirik.

1905/11-ci illərdə İran inqilabı-Səttarxan hərəkatı dövründə Cənubi Azərbaycanda 37 milli məktəb (Təbrizdə 22), 1911/25-ci illərdə isə 50-dən çox məktəb (Təbrizdə 29) açılmışdı. Bu məktəblərdə Azərbaycan və fars dillərindən əlavə ərəb, fransız və rus dilləri də tədris olunurdu.

Cənubi Azərbaycanın mətbuat tarixi XIX əsrin ikinci yarısından başlanır. Burada ilk nəşr edilən mətbu orqan fars dilində “Azərbaycan” qəzeti olmuşdur. Bundan sonra 1905/11-ci illər inqilabına qədər Cənubi Azərbaycanda 18 adda qəzet və jurnal buraxılmışdır.

1905/11-ci illər Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda ilk dəfə ana dilində bir sıra qəzet və jurnal Azərbaycan”, “Ana dili” işıq üzü gördü. Azərbaycan əyalət əncüməninin fars və Azərbaycan dillərində nəşr etdiyi “Naleyi-millət”, “Molla Nəsrəddin” yayılmağa başlandı. Maraq-

lıdır ki, bu dövrdə Azərbaycanda çıxan qəzet və jurnalların əsas hissəsini inqilabi hərəkatın qələbəsinin tərəfdarı olan demokratik mətbuat təşkil edirdi. İran tədqiqatçılarının məlumatına görə, Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda 50-yə yaxın müxtəlif adda qəzet və jurnal nəşr edilmişdir.

Məşrutə inqilabının məğlubiyyətindən sonrakı dövr (1913-1917) ərzində Cənubi Azərbaycanda mədəniyyətin Tehran hakim dairələri tərəfindən sıxışdırılması nəticəsində nəşr olunan qəzet və jurnalların sayı xeyli azaldı. Nəticədə nəşrini davam etdirən mətbu orqanlar arasında nəinki Azərbaycan, hətta bütövlükdə İranda demokratik yönümlü qəzet və jurnal tapmaq mümkün olmadı.

1917-ci ildən sonra isə yenidən Cənubi Azərbaycanda mətbuat tərəqqi etməyə başlayır. Bu da İranın qonşusu olan Rusiyada baş vermiş fevral və xüsusilə oktyabr inqilabi hadisələri ilə əlaqədar olmuşdur. Həmin dövrdə Cənubi Azərbaycanda çıxan qabaqcıl ruhlu qəzetlərdən biri Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi ilə nəşrə başlayan və qısa fasilələrlə 1921-ci ilə qədər çap olunan "Təcəddüd" idi.

Cənubi Azərbaycanda M.F.Axundov komediyalarının bilavasitə təsiri altında ilk dəfə Mirzağa Təbrizinin yazdığı dram əsərləri ədəbiyyat aləmində hadisə idi. M.F.Axundovun davamçıları Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" və Ə.Talıbovun "Pak adamın məsləkləri" əsərləri 1905-1911-ci illər inqilabının ideoloji və siyasi cəhətdən hazırlanmasında mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində ictimai-siyasi publisistika ("Molla Nəsrəddin"çi nəsr) ədəbiyyatın aparıcı janrlarından biri kimi geniş vüsət aldı. Bu tipli əsərlər içərisində Əbülziya Şəbüstəri və Seyid Hüseyn Ədalətin "İrane-nou", "Ana dili", "Ədalət" qəzetlərindəki felyetonlarını, Cəmşid Əfşarın pamflet və ədəbi fəlsəfi esse xarakterli yazılarını qeyd edə bilərik.

Teatr sahəsində isə ilk əhəmiyyətli addımlar yalnız 1905-1911-ci illər inqilabı dövründə atıldı. Bu işdə də Şimali Azərbaycanın mədəniyyət xadimlərinin köməyi və şəxsi iştirakı mühüm rol oynayırdı. 1909-1916-cı illər ərzində Azərbaycanın görkəmli aktyorları Sidqi Ruhulla, Abbas Mirzə Sərifzadənin rəhbərliyi altında Bakı teatr truppaları dəfələrlə İrana getmiş, Tehranda, Təbrizdə, Rəştdə, Qəzvində və s. şəhərlərdə tamaşalar vermişlər. Onların repertuarı əsasən Ə.Haqverdiyevin, N.Vəzirovun və N.Nərimanovun, həmçinin Qərb dramaturqlarının əsərlərindən ibarət idi.

1916-cı ildə Təbrizdə ilk teatr binası tikilmişdir. Beləliklə, Cənubi Azərbaycanda qısa müddətdə milli teatr yaradılmasının təməl daşı qoyuldu. Teatr tamaşaları ana dilində verildiyindən xalq tərəfindən tez qavranılır və eyni zamanda Azərbaycan əbəbi dilinin formalaşmasında, mədəniyyətin inkişafında mühüm rol oynayırdı.

XX əsr Azərbaycan tarixində və bütün türk dünyasında Azərbaycan Demokratik Respublikası kimi respublika tipli ilk demokratik bir dövlətin yaranması ilə də səciyyəvidir.

Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişafında ADR və onun öndərlərindən olan M.Ə.Rəsulzadənin misilsiz xidmətləri olmuşdur. Onun "Əsrimizin Səyavuşu", "Azərbaycan cümhuriyyəti" və s. əsərləri xalqımızın zəngin mənəvi, siyasi və fəlsəfi dünyasının öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Milli siyasətdə dostluq və qardaşlıq münasibətlərinə əsaslanan M.Ə.Rəsulzadə Azərbaycan parlamentindəki 1918-ci il 7 dekabr tarixli çıxışında deyirdi: "... bu Qafqaz millətləri ruhunda, hər zaman hürriyyət və istiqlal fikri olmuşdur. Hürriyyət fikrinin rəmzi olan Prometey Qafqaz dağlarında zəncirbənd edilmişdi. O, daima zəncirlərini qıraq təşəbbüsündə idi. Prometeyin ruhu Qafqazın bütün

millətlərində vardır. Qafqaz millətlərinin istiqlalı və bərabərlikdə müstəqil yaşamaları bir xəyal deyildir”.

Həqiqətən də müstəqillik ideyaları xəyal olaraq qalmadı, neçə-neçə illər sonra reallaşdı. Bu gün biz də bunun şahidiyik.

XX əsr Azərbaycan tarixində yurd-yuvalarından didərgin düşən minlərlə qaçqın soydaşımızın taleyi də öz əksini tapacaqdır. Düşmən əlində əsir qalan yüzlərlə soydaşımız, ərazimizin erməni qəsbkarları tərəfindən işğal edilmiş 20 faizdən artıq sahəsi dağıdılmış və talan edilmiş, maddi-mədəniyyət abidələrimiz bu dövrün yaddan çıxmaz acılarıdır.

Biz Azərbaycan mədəniyyətinin müxtəlif tarixi dövrlərə bölünən zəngin və çoxsahəli keçmişinə qismən də olsa nəzər salmağa çalışdıq. Məqsədimiz bu idi ki, Azərbaycan mədəniyyətinin müxtəlif dövrlərində müxtəlif sivilizasiyaların nailiyyətlərindən bəhrələnməsi və eyni zamanda onların bəzilərinin beşiyi başında dayanması barədə müəyyən təsəvvür yaradaq. Yadda saxlamaq lazımdır ki, uzun illər məqsədli şəkildə aparılan imperiya siyasəti bizim millətdə milli unutqanlıq yaratmağa çalışmış, düşmənlərimizi bizə dost kimi təqdim etmişdir. Buna görə də zəngin adət-ənənəmizin bir sıra mühüm məqamları və xüsusiyyətləri unudulmuş, milli mədəniyyətimiz təhrif olunmuşdur.

Qədim tarixi köklərə malik olan milli mədəniyyətimizi öyrənmək, onu öyrənib daha da inkişaf etdirmək, zənginləşdirmək hər birimizin vətəndaşlıq vəzifəmizdir.

## *§ 12. MƏDƏNİYYƏT SİSTEMİNDƏ ELMİN YERİ VƏ ROLU*

İctimai şüur formalarından biri olan elm insanın əməli və nəzəri fəaliyyətinin mühüm bir sahəsidir. Elm eyni zamanda təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Qədim Şərq ölkələrində-Bablistanda, Misirdə, Hindistanda, Çində meydana çıxan ilk biliklər elmlərin ilk təməli oldu. Həyat haqqında abstrakt fikirlər söyləyən qədim yunan mütəfəkkirləri dünyanın yaranışının təbii qanuna-uyğunluqlarını aydınlaşdırmağa çalışırdılar. Həmin dövrdə müxtəlif bilik sahələrinin naturfəlsəfədən ayrılma prosesi başlanır. Belə ki, Ellinizin dövründə həndəsə, mexanika və astronomiyanın əsası qoyulur. Orta əsrlərdə Ərəb Şərqi və Orta Asiya mütəfəkkirləri (İbn Sina, İbn Ruşd, Biruni və s.) qədim yunan elimi ənənələrini daha da zənginləşdirirdilər. Avropada bu ənənə xristianlığın təsirinə məruz qalan elmlərin xüsusi forması olan sxolostikanı yaratmışdır. XVI-XVII əsrlərdə elm kapitalist istehsal üsulunun tələbatı nəticəsində formalaşmağa başladı. İntibah dövründə isə elm mənəvi həyatın müstəqil amilinə çevrilir. Bunu Leonardo da Vinçinin, Koltenberinin, N.Kopernikin yaradıcılığında görmək mümkündür.

Yeni dövr elmlərində eksperiment mühüm tədqiqat metodu olmuş, nəzəri fikirləri təbiəti dərk etmək prosesi ilə əlaqələndirmişdir. F.Enqels yazırdı: “ insanın zəkası da, onun təbiyəti dəyişdirməyi öyrənməsinə müfaviq surətdə inkişaf edirdi”.

Dindən, incəsənətdən fərqli olaraq elm öz məlumatlarının həqiqliyini sübut edən obyektiv, məntiqi biliklər sistemidir. O elməqədərki təfəkkürə aid olan emprik və adi şüur səviyyəsindən fərqlənir. Elmin yaranmasından əvvəl də mövcud olan hadisələrin səbəbinin və qanunauyğunluğunun müəyyənləşdirilməsi məhz elmin naliyyətidir.

Elm insanlara dünyaya münasibət onu bəşər tarixinin bütün əvvəlki dövrlərində buxovlamış olan təbiət məhdudiyyətindən və sosial məhdudiyyətdən azad münasibət tərbiyələndirmək imkam verir. O, sadəcə olaraq məhsuldar qüvvə deyil, insanların öz qüvvələrinin və münasibətlərinin universal inkişaf tələblərinə uyğun daha universal məhsuldar qüvvədir. Keçmişdə insan yalnız şüurunda özünü universal varlıq təsəvvür edə bilirdisə, əslində öz həyatını təsadüfü və nəzarət olunmayan vəziyyətindən asılı qalırdı. İnsan elm sayəsində dünyaya özünün həqiqi münasibətində universal varlıq olmaq üçün real qabiliyət qazanır.

Doğrudur, insanın praktik universallaşması prosesində yalnız elm iştirak etmir. Elmlə yanaşı, burada mənəvi əməyin başqa növlərinin də əhəmiyyəti böyükdur. İnsanların tarixi yaradıcılıq prosesində iştirakı elmin kütlələrin ictimai özfaliyət şərtinə, onların şüurlu və məqsədəyönlü fəaliyyətinin zəruri vasitəsinə çevrilməsi deməkdir.

Bildiyimiz kimi, təxminən XIX əsrin ortalarında başqa ucqarlarda olduğu kimi Azərbaycanda da kütləvi savadsızlıq hökm süsürdü. Çar höküməti 1830-1855-ci illər arasında, yəni 25 il ərzində Azərbaycanda cəmi 8 ibtidai məktəb açmışdı ki, burada da əsasən rus məmurlarının, yerli bəy və xanların övladları oxuyurdu. 1914-15-ci iliərdə Azərbaycanda cəmi 976 məktəb mövcud olduğu halda 2 mindən çox məscid var idi. Yəni şəhərlərin "mədəni" simasını müəyyən edən əsas əlamət məscidlər sayılırdı.

Bu vəziyyəti nəzərə alaraq, 1921-ci il may ayında keçirilən I Ümumazərbaycan Sovetlər qurultayı mədəni quruculuğa maksimum diqqət verməyi və maarif idarələrinin ehtiyaclarını bir qayda olaraq ilk növbədə ödəməyi bütün dövlət orqanlarına tapşırdı. Ondan bir il sonra, 1922 - ci

ilin may ayında keçirilən II qurultay isə xalq marifi işini ən zəruri iş hesab etmək haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Nazirlər Soveti həmin qərarları rəhbər tutaraq mədəni quruculuq işinə mövcud imkan daxilində daha çox vəsait ayırırdı.

Belə ki, 1923-cü ildə respublika büdcəsinin 40%, 1925-ci ildə 58,5% həmin sahəyə ayrılmışdır. 1924-1929-cu illər arasında xalq maarifinə sərf edilən vəsait 261 % artmışdır. Azərbaycanda xalq maarifinə sərf edilən vəsait əhalilin hər nəfəri hesabı ilə Ümumittifaq səviyyəsindən xeyli yüksək idi. Bu fakt xalqımızın milli mədəniyyətini inkişaf etdirməyə münasibətin parlaq ifadəsi olmaqla keçmişdə geri qalan xalqların mədəni səviyyəsinin sürətlə yüksəldilməsində mühüm rol oynadı.

Mədəniyyət həmişə müəyyən konkret formada olur, milli formasız mədəniyyət yoxdur. Hər bir xalqın milli mədəniyyəti uzun tarixi inkişafın nəticəsidir. Xalqın tarixi inkişaf xüsusiyyətləri onun mədhniyyətinin milli formasını müəyyən edir. Milli forma bir xalqın mədəniyyətini digərindən fərqləndirir.

Ümumiyyətlə əhalinin savadlılığı öz növbəsində mədəniyyətin qələbəsi xalqla elm arasında keçmiş cəmiyyətlərin yaratdığı uçurumun aradan qaldırılmasında həlledici əhəmiyyətə malikdir.

İnsanın elmə münasibəti haqqında bütün dövrlərə elmi təsirin mədəni dəyəri barədə məsələ həmişə dərin fəlsəfi mənalı problem olmuşdur.

İnsanların təsil fəaliyyətinin xarakteri forması və məzmunu nəticə etibarilə, onların bir başa maddi fəaliyyətinin xarakteri ilə, insanın bu fəaliyyət çərçivəsində yaranan biliklərlə qarşılıqlı münasibəti ilə müəyyən edilir. Elmin insan üçün birinci dərəcəli əhəmiyyətə malik olmasının dərk edilməsi, müəyyən məsələlər barədə mühakimə yürütmək, hər şeyi elmlə ölçmək meyili

cəmiyyətmizdə kütləvi xarakter almış və bir növ əqidəyə çevrilmişdir. İnsanların şüurunda elmin belə yüksək avtoriteti onu göstərir ki, cəmiyyətimizdə elm mühüm mədəni sərvətə çevrilmişdir. O mühüm dərəcədə insanların məqsəd və maraqlarının mənəvi-praktiki, yaradıcı dünya görüşü təlabatının bütün kompleksi ilə bağlıdır.

Elmi biliklərin istehsalat prosesində rolunun artması insanların bütün həyat sferalarına, müasir işçinin şəxsiyyət tipinin özünə onun intelektual və mədəni simasına təsir göstərir, əmək və ictimai fəallığı yüksəldir. İnsanların bilik səviyyəsinin yüksəlişi həyat mövqeyi və ideyaları sferasında əhəmiyyətli irəliyyəşinə davranış normalarının həyat tərzinin dəyişilməsinə səbəb olur.

Cəmiyyətdə elmin insana hər tərəfli təsiri yalnız onun bir başa istehsalat fəaliyyəti ilə məhdudlaşmır. Bu tesir insanın həyatınm bütün aspektlərini bütün sosial və əxlaqı formalarını əhatə edir. İnsanları ictimai şüurunu formalaşmasında, onlarda yüksək ideyallılıq və şüurluluq tərbiyə olmasında elmi rolu artır. İnkişaf etmiş cəmiyyətdə elm daha çox insanın həm peşə mədəniyyətinin həmdə ümumi mədəniyyətinin elementi olur, onun bir şəxsiyyət kimi həyat fəaliyyətinin xarakterini müəyyən edir elm insana onun qarşısında duran həyatın məsələlərin həllinə nəzəri əsaslarla yanaşmaq qabiliyətini tərbiyəndirməyə şərait yaradır. O, geniş düna görüşünə, öz fəaliyyətinində səmərəli düşündürülmüş və daha məqsədə uyğun iş usulları ilə əlaqələndirmək bacarığı qarşılamağa imkan verir. Nəticədə yeni tibb şəxsiyyətin formalaşması və inkişafı prosesində mədəniyyətin ümumi təşəkkül prosesində elmin yeri və rolu müəyyən edilir.

# II FƏSİL

# MƏDƏNİYYƏT VƏ DÖVLƏT

## *§ 1. MƏDƏNİYYƏT, DÖVLƏT VƏ VƏTƏNDAŞ*

Mədəniyyətin inkişafında dövlətin rolu onun maarifin, elmin, bədii mədəniyyətin tərəqqisinə yönəldilmiş fəaliyyətində özünü konkret şəkildə göstərir. Mədəniyyət sahəsində dövlətin nəzəri, təşkilati və əməli fəaliyyəti elm və mədəniyyətin nailiyyətlərindən bütün insanların istifadə imkanlarının təmininə cəmiyyətin hər bir üzvünün hərtərəfli, harmonik inkişafı üçün şərait yaradılmasına istiqamətləndirilməlidir.

Mədəniyyətə dövlətin rəhbərliyi aşağıdakı əsas məsələlərin həllinin təmin edilməsinə yönəldilir: mədəniyyətin inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi.

Bu isə aşağıdakı məsələləri əhatə edir:

1. Mədəniyyətin nəzəri əsaslarının inkişaf etdirilməsi, mədəniyyətin idarə olunmasının forma və metodlarının təkmilləşdirilməsi,

2. Ziyalı kadrların formalaşması, mənəviyyat tərbiyəsi, yaradıcılıq ittifaqlarının işinə dövlət qayğısı,

3. Vətəndaşların ölkəmizin və dünya mədəniyyətinin sərvətlərindən faydalanması üçün şərait yaradılması,

4. Gənclərin mədəni prosesə cəlb edilməsi, istedadların inkişafı üçün əlverişli şəraitin təşkil edilməsi,

5. Mədəniyyətin maddi bazasmm inkişaf etdirilməsi.

Yuxarıda qeyd etdiyimiz kimi dövlət öz vətəndaşlarının mədəni sərvətlərə yiyələnməklə, yaradıcı qüvvələrini, bacarıq və qabiliyyətlərinin real imkanlarını genişləndirməkdə mədəniyyətin sosial rolunun artması üçün lazımi şərait yaradılmasını təmin etməlidir.

Dövlət müntəzəm olaraq vətəndaşlarının mənəvi-estetik tərbiyəsi, onların mədəni səviyyəsini artması üçün

mənəvi sərvətlərin qorunmasına, artırılmasına və geniş istifadə olunmasına imkan yaradır.

Azərbaycan dövləti elmin, təhsilin, incəsənətin inkişafını planlaşdırdığı və təşkil etdiyi zaman onu əsas götürür ki, mədəniyyətin bu komponentləri, hər şeydən əvvəl onun mədəni-tərbiyəvi funksiyasının həyata keçirilməsinə, yeni insanın formalaşdırılmasına xidmət etsin. Çap məhsullarının daim artması, mətbuatın, radio-televiziya kanallarının çoxalması və əhatə dairəsinin genişlənməsi, geniş mədəni-maarif şəbəkələri-klublar, mədəniyyət sarayları və s. sayəsində dövlətin milyonlarla insana tərbiyəvi təsir göstərmək onların intellektual və mənəvi inkişafına, vətənpərvərliyinin və sosial məsuliyyət hissinin artmasına şərait yaratmaq imkanı vardır.

Dövlətin bu fəaliyyətinin humanist xarakteri özünü aydın göstərir, çünki inkişafda olan müstəqil dövlətimizdə birinci dərəcəli problem sosial tərəqqinin əsasını və məqsədini təşkii edən insan şəxsiyyəti məsələsidir. Şəxsiyyətin hərtərəfli tam inkişafı müstəqil dövlətimizin idealı və məqsədi, bununla birgə mədəniyyətin tərəqqisinin əsas xarakteristikasıdır. Bu tərəqqi yalnız mədəni sərvətlər xəzinəsinin zənginiəşməsində deyil, vətəndaşların mədəni fəaliyyətinin artmasında, yayılmasında da öz əksini tapır.

## *§2. HÜQUQ MƏDƏNİYYƏTİ*

Hüquq qaydalarını daha da möhkəmləndirmək, vətəndaşları müəyyən olunmuş qayda-qanunlara əməl etmək ruhunda tərbiyələndirmək, qanunların pozulması cəhdlərinə qarşı qəbuledilməzlik hissi aşılamaq işində hüquq mədəniyyətinin rolu böyükdür. Dövlət və hüquq quruculuğu kimi qanunların hazırlanması və əməli şəkildə tətbiqi elm və mədəniyyətin nailiyyətlərinə əsaslanır. Vətəndaşların yüksək mədəniyyəti, şüurluluğu və mütəşəkkliyi

eyni zamanda dövlət qanunlarının tələblərinə ciddi münasibət göstərməyin, demokratiya prinsiplərini həyata keçirməyin əsas şərtlərindəndir.

Qanunçuluqla demokratiya, o cümlədən mədəniyyət arasında qarşılıqlı rabitə və asılılıq vardır. Yüksək səviyyəli hüquq mədəniyyəti yalnız qanunları formalı şəkildə bilməkdən ibarət olmayıb, həm də onlara hörmət etmək, qanunları tətbiq etməyi, icra etməyi bacarmaq deməkdir. Cəmiyyətdə hüquqi qaydaların möhkəmliyi cəmiyyət üzvlərinin qanunlara və qanunçuluğa hörmətlə yanaşmasına şərait yaradır, hüquq mədəniyyətinə, hüquqi biliklərə yiyələnmək hüquqa inamın formalaşması prosesini sürətləndirir. Buradan da cəmiyyətin mənəvi mədəniyyətinin mühüm elementi olan hüquq mədəniyyəti xüsusi əhəmiyyət daşıyır.

Hüquq mədəniyyəti cəmiyyətin ictimai-siyasi təşkili ilədə bağlıdır. Yüksək hüquq mədəniyyətinin olduğu mühit siyasi sistemin normal fəaliyyət göstərməsi üçün şərait yaradır. Bu sistemin hər bir sahəsi elə fəaliyyət göstərməlidir ki, qanuna tam müvafiq olsun, demokratiyanın yaratdığı imkanlardan məqsədyönlü istifadə etsin.

İnsanların hüquqa, mövcud hüquq normalarına münasibətinin toplusu hüquq mədəniyyəti adlanır. Hüquq normalarının tələblərinə əməl etməyin vacibliyini insanlar şüurlu şəkildə dərk etməlidirlər. Deməli, hüquq mədəniyyətinin səviyyəsi həm vətəndaşların hüququ bilmək, başa düşmək dərəcəsindən, həm də bunu yerinə yetirməyin vacibliyini dərk etmələrindən asılıdır.

- Hüquq mədəniyyəti hüquqi fikrin yüksək inkişaf səviyyəsində olduğunu təsdiq edir. Cəmiyyət üzvlərinin ümumi mədəniyyəti bu baxımdan hüquq mədəniyyəti qanunçuluğun vəziyyətinə, hüquq normalarına hörmətlə yanaşılmasına, vətəndaşların öz hüquqlarından istifadə

etmələrinə və öz vəzifələrini yerinə yetirmələrinə əhəmiyyətli təsir göstərir.

Qanunçuluğu möhkəmləndirməyin əsas amili hüquq mədəniyyətinin yüksəldilməsidir. Hüquq mədəniyyətinin yüksəldilməsi neqativ halların aradan qaldırılmasının ən mühüm vasitələrindən biridir. Hüquq mədəniyyətinin bu istiqamətdə inkişafı cinayət cəza tədbirlərinin getdikcə ictimai təsir tədbirləri ilə əvəzlənməsinə şərait yaradar.

Qüvvədə olan qanunvericiliyin daha da təkmilləşdirilməsi, dövlət təşkilatları tərəfindən qanunçuluğa riayət olunmasının səviyyəsi, vətəndaşların pozulmuş hüquqlarının vaxtında və əsaslı şəkildə bərpası, hüquq qaydalarının sabitliyi, hüquq təhsilinin və tərbiyəsinin vəziyyəti, eyni zamanda qanunvericiliyin təbliği problemləri müasir dövrdə hüquq mədəniyyətinin əsas şərtlərindəndır.

Hüquq mədəniyyətinin inkişafı formalizm, süründürməçilik və s. kimi mənfi halların da aradan qaldırılmasına öz təsirini göstərir. Bununla bağlı mövcud qanunların təsır gücünün artırılması da aktual məsələlərdəndir. Qanunvericilikdə öz əksini tapmış məsələlər nə qədər məntiqli və əsaslı olsa da çox vaxt praktikaya tətbiq olunmur və hiss olunmadan dondurulur. Hüquq normalarının təsir gücünü artırmaq üçün, onların yerinə yetirilməməyinin səbəblərini müəyyənləşdirmək üçün bu vəziyyəti yaradan səbəblər: öyrənmək lazımdır. Bunun üçün hüququn insanların davranışına təsir metodlarını bilmək vacibdir. İctimai, iqtisadi, mədəni, psixoloji və digər amillərlə bağlı olan bu metodların işlənib hazırlanması muasir dövrün ən aktual problemlərindən biridir.

Qarşıya çıxan problemlərin təxirəsalınmadan yerinə yetirilməsi dövdət icra orqanlarının işinin yaxşı qurulmasından da asılıdır. Eyni zamanda vəzifəli şəxslərin hüquq mədəniyyətinin yüksəldilməsinin də böyük əhəmiyyəti vardır. Bunun üçün hüquq mədəniyyətini yüksəltmək istiqamətində dövlət aparatı ilə ictimai təşkilatların əlaqəli

fəaliyyəti zəruridir. Müasir dövrdə dövlət idarəetmə orqanlarının qarşısında çox mühüm və böyük vəzifələr dayanır. Belə ki, bir milyondan artıq qaçqını və torpağının 20 faizindən çoxunun işğal altında olan ölkədə hüquq mədəniyyətini yüksəltmək ölkənin bütün ehtiyat qüvvələrindən düzgün və yerində istifadə olunmasına şərait yaradar. Bunun üçün idarəetmə aparatı hüquq mədəniyətinin bütün elementlərindən istifadə edərək, əlaqədar orqanları, hüquq statusu ilə bərabər, həm də idarəetmə prosesini nizamlamalı, idarəetmə orqanlarının fəaliyyəti üçün sabit optimal bir rejim yaratmalıdır. Əsaslandırılmamış qərarların verilməsinə müxtəlif orqanların vəzifələrində təkrarlara yol vermək olmaz. İdarəetmə aparatında hüquq mədəniyyətini daha da inkişaf etdirməyə, bunun tətbiqinin yeni forma və metodlarını artırıb tapmağa təşəbbüs göstərilməlidir. Xüsusi olaraq nəzərdə saxlanılmalıdır ki, hüquq mədəniyyətini yüksəltməyin bütün məsələləri kadrların hüquq hazırlığı ilə sıx bağlıdır. İdarəetmə aparatının rəhbərləri iqtisadiyyat, istehsalın təşkili, informatika və s. məsələlərdən əlavə hüququn əsaslarını da yaxşı bilməlidir. Çünki mövcud qanunların düzgün tətbiqi bundan, bu biliklərdən asılıdır. Belə olarsa, düzgün olmayan qərarların qəbul edilməsinə də yol verilməz.

Son zamanlar iqtisadi göstəricilərin hüquqi baxımdan təhlili yonlarının təkmilləşdirilməsi getdikcə daha aktuallıq kəsb edir. İdarəetmə aparatı rəhbərlərinin hüqüq mədəniyyətini artırmaqla qarşıya çıxan problemlərin hüquqi baxımdan təhlili və iqtisadi baxımdan məzmunu metodlarını əlaqələndirmək mümkündür. Bunun üçün iqtisadyönümlü ali məktəblərdə son vaxtlar tədris olunan "Hüququn əsasları", "İqtisadiyyatın hüquqi tənzimlənməsi" fənlərinin mühüm elmi-nəzəri və praktiki əhəmiyyəti vardır. Cəmiyyətin həyatında mühüm rol oynayacaq savadlı kadrların hazırlanması dövlətçiliyimizin ali məqsədlərindən biridir.

## §3. AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

Hələ qədim zamanlardan bütün nüfuzlu dövlətlərin özünəməxsus fərqləndirici əlamətləri-simvol və rəmzləri olmuşdur. Bütün bunlar emblem, bayraq, gerb, orden, medal, pul və s. ibarət olub. Əsrlərdən bəri Azərbaycanda maddi, mənəvi və bədii mədəniyyətimizin zənginliyini, rəngarəngliyini ifadə edən heraldika və rəmzlər sistemi mövcud olmuşdur. Bunlara misal olaraq folklor və ədəbiyyatda, arxeoloji, etnoqrafik, dekorativ və təsviri sənət abidələrində at, maral, qurd, əjdaha, qartal, şir, simurq və s. kimi heyvan və quş, sərv, palıd, nar, lalə, nərgiz, qızılgül və s. kimi ağac və çiçək təsvirlərini göstərə bilərik. Həndəsi və nəbati naxışlarla həkk olunmuş bu obrazlar simvolik məna kəsb etmiş, milli təfəkkürün, xalqımızın bədii zövqünü, estetik və əxlaqi təsəvvürlərinin rəmzi mahiyyətini daşımışdır. Azərbaycan xalqının qəhrəmanlıq tarixi, azadlıq, istiqialiyyət naminə mübarizəsi, milli dövlətçilik meylləri qədim mifoloji təsəvvürlərdə, folklor qaynaqlarında, feodalizm dövrü dövlət qurumlarının bayraq, nişan, emblem və digər rəmzlərində ifadə olunmuşdur. Hətta kiçik dövlət qurumları sayılan xanlıqların da özünəməxsus simvolları olmuşdur.

Həm tarixi mənbələr, həm də maddi mədəniyyət və incəsənət abidəiəri göstərir ki, qədimdə Azərbaycan ərazisində yerləşən dövlətlərin müxtəlif rəmzləri və emblemləri, ərəb hərfləri ilə yazılmış xəttatlıq nümunələri - "tuğra"ları olmuşdur. Məsələn, görkəmli dövlət xadimi və sərkərdə, istedadlı şair Şah İsmayıl Xətainin yaratdığı Səfəvilər dövlətinin 12 qırmızı zolaqlı baş geyimi rəsmi fərqlənmə nişanı kimi qəbul olunmuşdur. Bununla bərabər "Qırmızı taclı", "qızılbaş şahı"nın özünəməxsus gerbi də olmuş - "Simurq quşu ilə əjdahanın döyüşünü təsvir edən "tuğra"sı dövlətin rəsmi rəmzi, bir növ emblemi xarakteri daşımışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, hökmdarlara məxsus belə rəmzlər xanlıqlar dövründə də geniş yayılmışdır.

XIX əsrdə Azərbaycanda Rusiya imperiyasının hökmranlığı dövründə Bakı, Gəncə, Şamaxı, Quba, Dərbənd, İrəvan və digər Azərbaycan şəhərlərinin gerbləri təsdiq olunmuş və bunlar maddi mədəniyyət abidələrində, rəsmi sənədlərdə müəyyən iz qoymuşdur.

Bakıda İçərişəhərin qala divarlarında, Şamaxı darvazası üzərində daş lövhəyə həkk olunmuş buğa kəlləsi ilə qoşa şirin təsviri də Şirvanşahlar dövlətinin qüdrətindən xəbər verən monumental emblemdir.

Azərbaycan Xalq Cümhuriyyəti qədim diyarımızda milli hüquqi dövlətçiliyimizin əsasını qoymuşdur.

Yaxın Şərqdə, islam aləmində və türk xalqları arasında ilk dəfə bəşəri və milli əsaslara istinad edən müstəqil demokratik dövlətin qurulması xalqımızın milli azadlıq, milli istiqlal naminə apardığı mübarizəsinin misilsiz qələbəsidir. Qısa dövr ərzində Azərbaycan hökuməti tərəfindən ali dövlət orqanları yaradılmış, türk (Azərbaycan) dili rəsmi dövlət dili elan edilmiş, siyasi, iqtisadi, hərbi və mədəni quruculuq sahəsində bir sıra islahatlar aparılmışdır.

Azərbaycan dövlətçiliyi bərpa olunan kimi onun yaradıcıları dövlətin milli əlamətlərini əks etdirəcək özünəməxsus rəmzlərin təxirəsalınmadan yaradılması işinə başladılar.

Milli dövlətçiliyin istiqlaliyyətini, varlığını, xalqın ən ülvi arzularını lakonik, bədii obrazlı dildə ifadə edən mühüm amillər-rəmzlər, bayraq, gerb və himndir. Bundan başqa dövlətin pulu, həmçinin təsis etdiyi orden və medallarda onun atributları hesab olunur. Biz isə burada hələlik dövlət rəmzlərindən bəhs edəcəyik.

## *AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI*

Dövlətin rəsmi fərqləndirici əlamətlərindən biri dövlət bayrağıdır və onun təsviri, əsasən konstitusiyada qanunvericiliklə təsbit olunur. Dövlət bayrağı eyni zamanda, məxsus olduğu dövlətin suverenlik rəmzidir.

Azərbaycan Respubiikasının Dövlət bayrağı 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan milli dövlət atributlarındandır.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Tiflisdə Azərbaycan İstiqlal Bəyannaməsini qəbul edərək, onun müstəqilliyini elan etdi. Bakı şəhəri bolşevik-daşnak qruplaşmalardan ibarət Bakı Xalq Komissarları Sovetinin əlində olduğu üçün həmin il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyətinin ilk Milli Hökuməti və Milli Şurası Gəncədə yerləşdirilir. Qeyri-sabit siyasi vəziyyətlə bağlı 1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının yeddinci iclasında onun buraxılması, bütün qanunverici və icra hakimiyyətinin Azərbaycanın Müvəqqəti hökumətinə verilməsi haqda iki qərar qəbul edilir.

Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Müvəqqəti Hökumətinin 24 iyun 1918-ci il tarixli qərarı ilə üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilir.

Türkiyə ilə Antanta dövlətləri arasında Birinci Dünya müharibəsinin sonuna yaxın 1918-ci il oktyabrın 30-da imzalanan Mudros (Mondros) müqaviləsinə əsasən türk qoşunları Azərbaycanı tərk etməli və müttəfiq qüvvələri tərəfindən Bakının tutulmasına mane olmamalı idilər.

Azərbaycan ərazisi üzərində səlahiyyət mandatı almış ingilislər isə ilk bəyanatlarında Azərbaycan hökumətini tanımadıqlarını bildirdilər və bu hökuməti Türkiyənin intiri-

qasından yaranmış bir qrum kimi qiymətləndirdilər. Bunun qarşısını almaq və milli hökumətin tanınmasına nail olmaq üçün Dövlət bayrağının dəyişdirilməsi qərara alındı. 1918-ci il noyabrın 9-da Bakı şəhərində Fətəli Xan Xoyskinin sədrliyi ilə Nazirlər Kabinetinin iclası oldu və burada onun milli bayraq haqqında məruzəsi dinlənildi. Həmin iclasda dövlət bayrağı haqqında aşağıdakı qərar qəbul edildi:

"Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkiz guşəli ulduzdan ibarət olan bayraq milli bayraq hesab edilsin".

Azərbaycan Respublikasının müstəqillik qazanmasından xeyli əvvəl, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş və 28 aprel rus işğalından sonra 1920-ci il mayın 3-də endirilmiş müqəddəs bayrağımız 70 il sonra 1990-cı il noyabrın 17-də qədim Azərbaycan diyarı Naxçıvanda XX əsrin böyük siyasət və dövlət xadimi prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilərək, yüksəklərə qaldırıldı.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respubükasının Qanunu"nu qəbul etdi. Bu Konstitusiya qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi və bu istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı.

Bu gün milli tərbiyə və təhsilimizin, milli ideologiyamızın qarşısında duran ən vacib məsələlərdən biri prezident H.Əliyevin "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" sərəncamına uyğun olaraq milli bayrağımızın tarixini, onun rəng palitrasının və üzərindəki simvonların məna və funksiyalarını təbliğ etməkdən ibarətdir.

Azərbaycanın Dövlət bayrağı "Trikolor" ("üç rəngli bayraq") bayraqlar sırasına daxildir. Dünyada ilk trikolor XVI əsrdə Holandiyada yaradılmış və qırmızı, ağ, mavi rəngli üç üfüqi zolaqdan ibarət olmuşdur. Müasir dövrdə bir çox dövlətlərin də bayraqları trikolordur. Lakin bizim milli bayrağımız dünyada mövcud olan trikolorlardan rəng düzümü ilə bərabər, üzərində digər simvonların olmasına görə fərqlənir. Onu da qeyd etmək lazımdır ki, müxtəlif dövrlərə və dövlətlərə məxsus bayraqlardakı eyni rəng müxtəlif məna və funksiya daşıya bilər.

Dövlət bayrağımızda üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini bildirən "türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir. Onun fikrincə, TÜRKLƏŞMƏK milli ənənələrin dirçəlməsi, milli dilin, ədəbiyyatın, tarix və mədəniyyətin yüksəldilməsi, İSLAMLAŞMAQ islamda milli dini-əxlaqi və ümumbəşəri dəyərlərin inkişaf etdiriiməsi, AVROPALAŞMAQ isə Avropa elm və texnikasının nailiyyətlərini öyrənib onun nəticələrini öz milli elm və mədəniyyətinin inkişafına istiqamətləndirmək, Qərb demokratiyası ənənələrindən istifadə etmək deməkdir.

Dövlət bayrağımızdakı qırmızı zolaq üzərindəki rəngli aypara və ağ rəngü səkkizguşəli ulduz rəmzləri Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il iyunun 21-də Gəncədə qəbul etdiyi qırmızı rəngli və üstündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan dövlət bayrağının üçrəngli milli bayrağımızda kiçildilmiş formasından ibarətdir. Bu simvol Azərbaycan bayrağına əski Osmanlı İmperatorluğunun bayrağından götürülməklə, özündə əsgi türk mifalogiyalarından gəlmə türkün tanrı ilə bağlılığını ifadə edir.

Hələ Demokratik respublika dövründə görkəmli şairlərimiz milli bayrağımıza ideya-məzmun və bədii sənətkarlıq cəhətdən diqqəti cəlb edən şerlər həsr etmişlər.

1919-cu ilin aprel ayında Parlament binası üzərində dalğalanan üçrəngli bayrağa həsr etdiyi "Azərbaycan bayrağına" adlı şerində görkəmli şairimiz Əhməd Cavad yazmışdır:

*Allahın yıldızı, o gözəl pəri,*
*Sıqınmış qoynunda Aya, bayrağım!*

Cümhuriyyətin dövlət atributlarına, o cümlədən milli bayrağımıza xalqın qəlbində məhəbbət hissi oyadaraq təsəvvürlərdə, şüurlarda onların müqəddəsləşdirilməsi, daha doğrusu, bu müqəddəsliyin milli varlığımıza hopmasına nail olunması cəhdi dövrün ictimai-bədii fikrini düşündürən məsələlərdən idi. Qəhrəmanlar oylağı, igidlər yatağı, məzlumlar pənahı olub, yeraltı və yerüstü sərvətlərinin zənginliyi coğrafı mövqeyinin əiverişliliyi ilə seçilən gözəl bir diyarın başı üzərində onun öz milli simvolu olan bayrağın dalğalanması şair və yazıçılarımızın vətəndaş qəlblərini fərəhlə doldurur və onlar bu bayrağı qəlbən vurulduqlan sevgililərinə tay tuturlar. Bu hal Cəfər Cabbarlının şerlərində də diqqəti cəlb edir. O, "Azərbaycan bayrağına" yazdığı "Sevdigim" şerində Dövlət bayrağının çoxmənalı rənglərini belə təsvir edir:

*...Can alıcı bir görkəmlə dağ başında durduqca*
*Oxşadıqca baharyeli açıq-dağınıq tellərin.*
*Nazlı yelin omuzunda saçlarına vurduqca*
*Birər-birər oxşayırsan bütün Turan ellərin.*
*Altun köksün hilal-yıldız, işıqları öpüncə,*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdigim.*
*Altaylardan, Altundağdan doğma səslər gəliyor,*
*Yaşıldonlu, mavigözlü, al duvaqlı sevdigim.*

*Qollarilə türk ellərin bütün qucmaq istiyor,*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdigim.*

Beləliklə, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda müstəqillik uğrunda xalq hərəkatının gücləndiyi bir dövrdə - 1990-cı il noyabrın 29-da respublika Prezidenti tərəfindən “Azərbaycan SSR-in adının və Dövlət bayrağının dəyişdirilməsi haqqında” fərman verilmişdir. Həmin fərman 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin növbəti çağırışının ilk sessiyasında təsdiq olunmuşdur.

Fərmana müvafiq olaraq “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında əsasnamə”də tərtib və təsdiq olundu.

Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında

## *ƏSASNAMƏ*

l. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir.

2. Azərbaycan Respublikasının Dövlət bayrağı eni bərabər olan üç üfqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir; üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır. Bayrağın eninin uzununa nisbəti l:2-dir.

Ayparanın və səkkizguşəli ulduzun təsvirləri tərəflərinin nisbəti 3:4 olan düzbucaqlının içərisində yerləşir; düzbucaqlının diaqonalı bayrağın eninin 1/2-nə bərabərdir.

Ayparanın təsviri konsentrik (eyni mərkəzli) olmayan iki dairənin hissələri şəklindədir; böyük dairənin diametri xarici düzbucaqlının eninə, kiçik dairənin diametri isə bayrağın eninin 1/4-ə bərabərdir. Kiçik dairənin mərkəzi bayrağın həndəsi mərkəzindən sol tərəfdə, bayrağın eninin 1/60 bərabər olan məsafədə yerləşir.

Səkkizguşəli ulduzun təsviri ayparadan sağda yerləşir, ulduzun xarici dairəsinin diametri bayrağın eninin 1/6-ni, daxili dairəsinin diametri isə 1/12-ni təşkil edir.

3. Azərbaycan Respublikasının Dövlət bayrağı aşağıdakı yerlərdə qaldırılır:

a)Azərbaycan Respublikası Ali Sovetinin,

Azərbaycan Respublikası Milli Məclisinin.

Naxçıvan Muxtar Respublikası Ali Sovetinin,

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin.

Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin, Azərbaycan Respublikası rayon, şəhər, şəhərdə rayon, qəsəbə və kənd xalq deputatları Sovetinin İcra hakimiyyəti və bələdiyyə orqanlarının.

sessiyalarının keçirildiyi binaların üzərində-bütün sessiya dövründə;

b) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Sovetinin,

Azərbaycan Respublikası Milli Məclisinin.

Azərbaycan Respublikası Nazirlər Sovetinin,

Azərbaycan Respublikası Nazirlər Kabinetinin.

Naxçıvan Muxtar Respublikası Ali Sovetinin və Nazirlər Sovetinin,

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin.

Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin və Azərbaycan Respublikası yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin

İcra hakimiyyəti və bələdiyyə orqanlarının.

binaları üzərində-daim asılır;

v) dövlət orqanlarının və ictimai orqanların, müəssisələrin, idarələrin və təşkilatların binaları, habelə yaşayış evləri üzərində-martın 8-də, martın 21-də, aprelin 28-də, mayın 1-də və 2-də, mayın 9-da, mayın 28-də, noyabrın 7-də.

Qeyd edək ki, tarixi inkişafımızın sonrakı mərhələsində oktyabrın 18-i, noyabrı 12-i, noyabrın 17-i və dekabrın 31-nin bayram elan edilməsi ilə əlaqədar olaraq həmin günlər də Dövlət bayrağının ucaldılması siyahısına daxil edilmiş və

Azərbaycana aidiyyəti olmayan günlərdə-aprelin 28-i, mayın 1-i və 2-i, mayın 9-u, noyabrın 7-i Dövlət bayrağının ucaldılması günləri siyahısından çıxarılmışdır.

Yuxarıda göstərilən binalar üzərində Azərbaycan Respublikasının Dövlət bayrağını başqa bayram və xatirə günlərində də qaldırmağa icazə verilir.

q) rəsmi şəxs sifəti iiə Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Baş Nazirinin və ya digər rəsmi (vəkil edilmiş) şəxslərin mindikləri hava gəmilərində (Dövlət bayrağının gəmidə təsvirləri), dəniz gəmilərində, daxili su yonlarında üzən gəmilərdə və başqa nəqliyyat vasitələrində-göstərilən şəxslərin razılığı ilə;

d) Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisi sədrinin və Azərbaycan Respublikası Baş Nazirinin təqdimatı ilə Azərbaycan Respublikasının Dövlət bayrağı dövlət orqanlarının, ictimai və dini orqanların, müəssisələrin, idarələrin və təşkilatların keçirdikləri mərasimlər zamanı, digər təntənəli və bayram tədbirlər: zamanı da qaldırıla bilər.

4. Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı

Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bir vaxtda; qaldırılarkən Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağının ölçüsü Azərbaycan Respublikasının Dövlət bayrağının ölçüsündən iri ola bilməz.

5. Azərbaycan Respublikasının Dövlət bayrağı və onu təsviri ölçülərindən asılı olmayaraq bu Əsasnaməyə əlavə edilən rəngli və sxematik təsvirlərə həmişə dəqiq uyğun gəməlidir.

6. Azərbaycan Respublikasının gerbi və himni kimi, Azərbaycan dövlətinin suverenliyi rəmzi olan Azərbaycan Respublikasının Dövlət bayrağı da müqəddəs rəmzdir və onun hər cür təhqir edilməsi qanuna əsasən cəzalandırılır.

7. Bu Əsasnamənin tətbiqi qaydalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir.

Dövlətin möhürlərdə, pul nişanlarında, blank və başqa rəsmi sənədlərdə təsvir olunan fərqləndirici nişanı Dövlət gerbidir.

Dövlət bayrağından fərqli olaraq, ADR dövründə digər rəmzlər rəsmi şəkildə qəbul olunmamış, yalnız onların qəbul ediləcəyi barədə 1920-ci il yanvar ayının 30-da hökumət tərəfindən müsabiqə elan edilmişdir. Müsabiqənin müddəti 1920-ci il mayın 1-də qurtarmalı idi.

Müsabiqə Xalq Cümhuriyyətinin rəmzlərinin, orden və medallarının ilk nümunələrinin meydana çıxmasını sürətləndirdi. Həmin rəmzlərin bədii həllində zamanın nəfəsi, əsrin əvvəllərində yaşayıb-yaratmış “Molla Nəsrəddin”çi rəssamlardan Ə.Əzimzadənin, O.Şmerlinqin, İ.Rotterin, R.Telinqaterin yaradıcılığına xas üslub xüsusiyyətləri diqqəti cəlb edir.

1991-ci ildə Azərbaycan Respublikasının yeni milli gerbinin yaradılması üçün müsabiqə elan olundu. Lakin təqdim olunan gerb esgizləri Milli Məclis üzvlərini qane etmədiyi üçün vaxtilə mövcud olmuş gerb layihəsini bərpa etmək məqsədəuyğun hesab edildi.

Qəbul olunmuş Azərbaycan Respublikasının gerbi Xalq Cümhuriyyəti dövrünün 1920-ci ildə yaradılmış gerbinin təkrarıdır. Onun kompozisiyası ilk orijinalda olduğu kimi saxlanılmış, yalnız bəzi detallar-alovun, palıd yarpaqları və sünbüllərin təsviri rəssam R.Məmmədov tərəfindən bir qədər təkmilləşdirilmişdir.

Dövlət gerbində verilmiş rəmzi elementlər milli və bəşəri dəyərlərə əsaslanır. Səkkizguşəli ulduz Azərbaycanın memarlıq, şəbəkə sənətində geniş istifadə olunan ornament növlərindəndir. Memar Əcəminin yaratdığı abidələrdə, Bakı Şirvanşahlar sarayındakı divanxananın plan quruluşu və or-

namentlərində, Pirsaat çayı üzərindəki Xanəgahın mayolika naxışlarında ulduz təsvirləri vardır.

Qalxan dünya heraldika sənətində ölkənin hərbi qüdrətini, xalqın qəhrəmanlıq əzmini ifadə edir.

Palıd yarpaqları və sünbüllər şöhrət çələngini, qüvvəti, bolluğu ifadə edən ənənənin simvonlarındandır.

Gerbimizin mərkəzində şölə saçan alovun mahiyyəti M.Ə.Rəsuizadənin Milli Cümhuriyyət Parlamentinin ilk açılışındakı nitqində aydın ifadə olunmuşdur: “Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər, bir şöleyi-ümid və inam təşkil eyləmişdir... Qəni bir atəş. Azərbaycan övladının sinələrinə düşən milyonlar ilə börkü yaxan bu atəş əbədiyyən sönməz bir məşələ təşkil edib də hüriyyət və istiqlala doğru getdiyimiz maneəli yolları işıqlandırsın!”

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 19 yanvar tarixli Konstitusiya qanunu ilə Azərbaycan Respublikası Dövlət gerbinin rəngli və ağ-qara təsviri təsdiq edildi. 1993-cü il fevralın 23-də isə Azərbaycan Respublikası Dövlət gerbi haqqında əsasnamə təsdiq edildi.

Azərbaycan Respublikasının Dövlət gerbi haqqında

## *ƏSASNAMƏ*

1.Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir.

2.Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Azərbaycan Respublikası Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır".

3. Azərbaycan Respublikası Dövlət gerbinin qabarıq təsviri vurulur:

a) Azərbaycan Respublikası parlamentinin binasına, iclas salonuna və parlament sədrinin xidməti kabinetinə;

b) Azərbaycan Respublikası prezidentinin iqamətgahına və xidməti kabinetinə;

v) Azərbaycan Respublikasının bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi və Ali Arbitraj Məhkəməsi sədrlərinin xidməti kabinentlərinə;

q) yerli nümayəndəli dövlət orqanlarının binalarına və iclas salonlarına;

d) Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlət orqanlarının binalarına;

e) Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin, konsulluq idarələrinin binalarına;

4. Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə olunur:

a) Azərbaycan Respublikası Dövlət möhüründə, bütün dövlət orqanlarının möhürlərində;

b) Azərbaycan Respublikası qanunlarının, parlamentin qərarlarının, prezidentin fərman və sərəncamlarının blanklarında;

v) bu əsasnamənin 3-cü maddəsində göstərilən dövlət orqanlarının sənədlərinin blankında (binalarının lövhələrində);

q) Azərbaycan Respublikası Milli Bankının biletlərində və milli pul vahidlərində, Azərbaycan Respublikasının qiy-

mətli kağızlarında, dövlət istiqrazlarında və lotereya biletlərində;

d) Azərbaycan Respublikası vətəndaşının pasportunda, Azərbaycan Respublikası vətəndaşına verilən diplomatik və başqa xarici pasportlarda;

e) Azərbaycan Respublikası parlamentinin rəsmi nəşrlərində;

ə) Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş hallarda Dövlət sərhəd nişanlarında;

5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikası Dövlət gerbinin təsvirinin mütləq vurulmalı olduğu başqa hallar da nəzərdə tutula bilər.

6. Bu əsasnamədə göstərilən hallardan başqa Azərbaycan Respublikası Dövlət gerbinin təsvirindən istifadə etmək hüququ Azərbaycan Respublikasının parlamenti tərəfində verilə bilər.

7. Azərbaycan Respublikası Dövlət gerbinin təsviri olan möhürlərin və sənəd blanklarının hazırlanması, istifadə olunması, saxlanılması və məhv edilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

8. Azərbaycan Respublikası Dövlət gerbinin verilən təsviri bu əsasnaməyə əlavə edilən rəngli və ya ağ-qara təsvirə ölçüsündən asılı olmayaraq, həmişə dəqiq surətdə uyğun gəlməlidir.

## *AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ*

28 may 1918-ci il tarixdə Azərbaycan istiqlaliyyəti elan olunduqdan sonra ADR-in Dövlət bayrağı və Dövlət gerbi ilə bərabər Dövlət himninin də yaradılması və qəbul edilməsi məsələsi qarşıya çıxdı.

"Himn" yunanca "təntənəli nəğmə" deməkdir. O, siyasi təbliğatda mühüm vasitə olmaqla müəyyən mütəşəkkillik və səfərbərlik rolu da oynayır. Himnin ifası əsasən bayram şən-

likləri, siyasi nümayişlər, rəsmi dövlət qəbulları, hərbi paradlarda nəzərdə tutulur.

Dövlət himninin mətni və melodiyası xalqın bütün sosial təbəqələrinə asan anlaşılmalıdır.

ADR dövründə dahi bəstəkarımız Ü.Hacıbəyov iki marş yazmışdır. Onların hər ikisi 1966-cı ildə türk musiqişünası Etem Üngörükün Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında çap olunmuşdur.

Dövlət himnimizin qəbulu məsələsi ortaya çıxanda əksəriyyət Ü.Hacıbəyovun həmin marşlarından birini oranjiman etməklə himn kimi qəbul edilməsi fikrini müdafiə etdi. Beləliklə, yeni dövlət himnimizin musiqisi yenə Ü.Hacıbəyovun oldu. Mətnin isə görkəmli şairimiz Əhməd Cavada məxsus olduğu qeyd edilir. Lakin son zamanlar Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun alimləri himnin mətninin müəllifliyi barədə apardıqları tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1919-cu ildə Bakıda nəşr olunmuş "Milli nəğmələr" məcmuəsində himnin sözləri "Cəmo bəy" imzası ilə çap olunmuşdur. Bu imza isə ADR dövründə həm parlament, həm də hökümət üzvü kimi fəaliyyət göstərmiş publisist və şair Cəmo bəy Hacınskiyə məxsusdur.

Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikası Dövlət himni haqqında əsasnamə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət himni haqqında

## ƏSASNAMƏ

1.Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir.

Azərbaycan Respublikasının Dövlət himninə dərin ehtiram bəsləmək onun hər bir vətəndaşının vətənpərvərlik borcudur.

2.Azərbaycan Respublikasının Dövlət himni aşağıdakı hallarda ifa olunur:

a) dövlət bayramlarına həsr olunmuş təntənəli yığıncaqların və iclasların açılışı və bağlanışı zamanı;

b) Hər gün Azərbaycan Respublikası milli televiziya və radio verilişlərinin əvvəlində və axırında;

v) Azərbaycan xalqının və dövlətinin həyatında çox mühüm tarixi hadisələr münasibətilə, Azərbaycanın görkəmli siyasi, dövlət, hərbi xadimlərinin, milli qəhrəmanlarının, elm, ədəbiyyat və incəsənət xadimlərinin şərəfinə abidələrin və lövhələrin açılışı zamanı;

q) Dövlət və ictimai orqanlar, müəssisələr, idarələr və təşkilatlar tərəfindən keçirilən mərasimlər və digər təntənəli tədbirlər zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılarkən;

ğ) Azərbaycan Respublikasına rəsmi görüşə gələn xarici ölkələrin dövlət və hökumət başçıları qarşılanarkən və yola salınarkən-müvafiq ölkənin Dövlət himni ifa olunduqdan sonra.

3. Azərbaycan Respublikasının Dövlət himni orkestr, xor, orkestr-xor tərəfindən, yaxud başqa vokal üsulla və alətlər vasitəsilə ifa olunur. Bunun üçün səsyazma vasitələrindən də istifadə edilə bilər.Bütün hallarda Azərbaycan Respublikasının Dövlət himni tam ifa olunur.

4. Azərbaycan Respublikasının Dövlət himni "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Azərbaycan Respublikasının 1992-ci il 27 may tarixli Qanunu ilə təsdiq edilmiş mətnə və musiqi redaksiyasına tam müvafiq surətdə ifa olunmalıdır.

5. Azərbaycan Respublikasının Dövlət himni camaat qarşısında ifa olunarkən oradakılar himni ayaq üstə dinləməli və ya oxumalıdırlar.

6. Hərbi hissələrdə, hərbi gəmilərdə, daxili işlər və milli təhlükəsizlik orqanlarında Azərbaycan Respublikasının dövlət himninin ifa olunması, habelə himn ifa edilərkən hərbi qulluqçuların, daxili işlər və milli təhlükəsizlik orqanlarının sıravi və rəis heyətinə aid şəxslərin əsgəri rəsmi təzim etməsi hərbi nizamnamələrlə və Azərbaycan Respublikasının müdafiə naziri, daxili işlər naziri və milli təhlükəsizlik naziri tərəfindən müəyyən edilən qaydalarla tənzimlənir.

7. Azərbaycan Respublikasının Dövlət himninin musiqisi və mətni əlifba kitabının birinci səhifəsində dərc olunur.

Ümumtəhsil məktəblərində, texniki-peşə, orta ixtisas məktəblərində, ali məktəblərdə və başqa tədris müəssisələrində yeni dərs ilinin birinci dərsi Azərbaycan Respublikasının Dövlət himninin öyrənilməsinə və ifasına həsr edilir.

8. Respublika və beynəlxalq idman yarışları keçirilərkən Azərbaycan Respublikasının Dövlət himninin ifa olunması qaydası respublika və beynəlxalq idman təşkilatlarının mövcud praktikası nəzərə alınmaqla müəyyən edilir.

9. Respublika idarələri və təşkilatları xarici dövlətlərin ərazisində təntənəli tədbirlər keçirərkən Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müəyyən etdiyi qaydalara müvafiq surətdə, onların olduqları ölkənin praktikası və yerli adətləri nəzərə alınmaqla ifa edilir.

10. Azərbaycan Respublikasının Dövlət himninin daxili işlər və milli təhlükəsizlik orqanlarında, tədris müəssisələrində, idman yarışları zamanı, habelə Azərbaycan Respublikasının idarələri və təşkilatları tərəfindən xarici dövlətlərin ərazisində tədbirlər keçirilərkən ifa olunması qaydaları bu Əsasnamənin tələbləri əsas götürülməklə müəyyən edilir.

11. Bu Əsasnamənin dəqiq yerinə yetirilməsinə nəzarət etmək dövlət orqanlarının, müəssisələrin, idarələrin, təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqlarının və digər ictimai qurumların rəhbərlərinə həvalə olunur.

## *AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ*

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağınla məsud yaşa!*
*Minlərlə can qurban oldu!*
*Sinən hərbə meydan oldu!*
*Hüququndan keçən əsgər,*
*Hərə bir qəhrəman oldu!*
*Sən olasan gülüstan,*
*Sənə hər an can qurban!*
*Sənə min bir məhəbbət*
*Sinəmdə tutmuş məkan!*
*Namusunu hifz etməyə,*
*Bayrağını yüksəltməyə*
*Cümlə gənclər müştaqdır!*
*Şanlı Vətən! Şanlı Vətən!*
*Azərbaycan! Azərbaycan!*

Keçən əsrin sonunda milli dövlətçiliyimiz dirçəlmiş, müstəqil Azərbaycan Respublikası dünya dövlətləri sırasında layiqli yer tutmuşdur. Bayrağımız, gerbimiz, himnimiz ictimai-siyasi və mədəni həyatımızın bütün sahələrində geniş yayılmış, Konstitusiya qanununun tələblərinə uyğun respublikamızın bütün ərazisində və beynəlxalq miqyasda bərqərar olmuşdur.

Azərbaycan Respublikası dövlət rəmzlərinin statusu 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında müəyyənləşdirilmişdir:

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri.

l. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan

Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzununa nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

Maddə 75. Dövlət rəmzlərinə hörmət.

Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə-bayrağına, gerbinə və himninə hörmət etməlidir.

**Azərbaycan Respublikasının Konstitusiyası.**

## *§4. MƏDƏNİYYƏTDƏ MİLLİLİK VƏ BEYNƏLMİLƏLÇİLİK*

Mədəniyyətin inkişafı cəmiyyətin obyektiv qanunlarına əsaslanır. Bu baxımdan mədəniyyət spesifik, xüsusi və ümumi qanunlar əsasında inkişaf edir. Spesifik qanunlar yalnız cəmiyyətin müəyyən mərhələsində mövcud olan mədəniyyətdə, xüsusi qanunlar məzmun baxımından yaxın olan mədəniyyət tiplərində, ümumi qanunlar isə bəşər mədəniyyətinin inkişafı prosesində fəaliyyət göstərir. Qeyd etdiyimiz qanunlar öz inkişafında bir-biri ilə vəhdət təşkil edir. Qanunların belə vəhdəti müxtəlif tipli mədəniyyətlər arasında da əlaqəyə səbəb olur. Nəticədə mədəniyyətin inkişafında təkcə, xüsusi və ümuminin əlaqəsi meydana çıxır. Bu nöqteyi-nəzərdən mədəniyyətin milli xüsusiyyətlərinin və beynəlmiləl xarakterinin öyrənilməsi müəyyən mənada xü-

susinin ümumiyə, ümuminin isə xüsusiyə münasibətindən, nisbət və vəhdətindən asılıdır.

Hər hansı milli mədəniyyət digərindən özünəməxsus xüsusiyyətlər və spesifik cəhətlərlə fərqlənir. Lakin milli mədəniyyətlərin fərqlərinə baxmayaraq onların arasında ümumi qanunauyğun əlaqə mövcuddur. Bu əlaqə müxtəlif dövrlərdə müxtəlif şəkildə üzə çıxır.

Mədəniyyətin milli və beynəlmiləl xüsusiyyətlərinin izahına keçməzdən əvvəl "millət", "millilik", "xalq" və "xəlqilik" anlayışlarının şərhi zəruridir.

Məlumdur ki, insanların etnik birliyinin formalarına qəbilə, xalq və millət daxildir ki, bunlar həmin "birlikdə" müəyyən mərhələləri təşkil edir. Bütün ictimai-iqtisadi formasiyalarda bu "etnik birlik" müxtəlif səviyyələrdə mövcud olmuşdur. Dil, ərazi, şüur, iqtisadi əlaqə birliyi insanların müəyyən qruplarını ayrı-ayrılıqda birləşdirir ki, bu birləşmələr tarixən qəbilə, xalq və millət anlayışları şəklində təkmilləşir.

İnsanlar qəbilə birliyindən xalq, sonra isə millət birliyinə keçərkən xarakterik əlamətlər-ümumi dil, etnik ərazi, şüur itirilmir və davamlı xüsusiyyətlər kimi nəsillərdən-nəsillərə ötrülür.

Millət müxtəlif insan qruplarının bəzi fərqləndirici əlamətlərini özündə əks etdirən ən yüksək birlik formasıdır. İnsanların etnik ümumilliyi o zaman millət halında formalaşır ki, buradakı fərdlərin vəhdəti eyni dildə danışan əhalinin mərkəzləşmiş bir dövlət çərçivəsindəki, həyatı və fəaliyyəti ilə şərtlənir.

"Xalq" əslində millətdən əvvəlki mərhələdir. Müasir mənada isə "millət" anlayışından genişdir. Xalqın millət kimi formalaşmasında mühüm əlamətlərdən sayılan milli xarakter, iqtisadi həyat birliyi müxtəlif ictimai-siyasi şəraitdən asılı olaraq dəyişikliyə uğrayır.

Elmi mənbələrdə bəzən xəlqilik milliliyin sinonimi kimi işlədilir. Fəlsəfi ədəbiyyatlarda da çox istifadə olunan bu ifadələrin mahiyyətcə bir-birinə yaxınlaşdığı və uzaqlaşdığı məqamlar diqqətdən yayınır.

Millilik anlayışında ümumən millətə aid olan struktual cəhətlər öz əksini tapır.

Xəlqilik isə ümumən xalq kütlələrinin mənafeyini, millətin bu çoxluq təşkil edən mütərəqqi hissəsinin əhval-ruhiyyəsini özündə toplayır.

Klassik ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərində millilikdən daha çox xəlqilik diqqəti cəlb edir. Əlbəttə, sənətdə xəlqilik daha geniş anlayışdır. Lakin xalqın həyatını, onun çalarlarını əks etdirən hər bir əsəri xəlqi adlandırmaq olmaz. Xəlqilik sənətkarın xalqa, onun taleyinə münasibətindən, o cümlədən üslubundan asılıdır. Hakim siniflərdən, saray həyatından, cəngavərlərdən, fatehlərdən bəhs edən əsərlərdə də xəlqilik ifadə oluna bilər. Belə ki, Nizami Gəncəvinin "İsgəndərnamə", "Xosrov və Şirin", "Yeddi gözəl" əsərləri əsasən hökmdarların, hakim zümrənin mühitini əks etdirsə də, buradakı ümumxalq əhəmiyyətli problemlərin-ədalətli şah, azad məhəbbət, qəhrəmanlıq-yüksək sənətkarlıqla, xalq təfəkkürünə əsaslanan bədii vasitələrlə əksi məhz xəlqilik prinsiplərindəndir. Müasir milli mədəniyyətin siması isə orta əsr Azərbaycan intibahının ən əlamətdar xüsusiyyətlərinin belə eyni deyil, bəlkə tarixən dəyişilə-dəyişilə, yeniləşə-yeniləşə gələn, əsasını o dövrlərdən götürən estetik təsəvvürlər sistemi ilə cilalanmış bir keyfiyyətdir. Buna görə də kökü xalq tarixinin dərin mənəvi qatlarına bağlı olan bir məfhumu itirmək, unutmaq doğru deyildir. Milli mədəniyyətlərdə unudulmuş, potensial hala keçmiş elə qiymətli demokratik meyllər də var ki, bunları araşdırıb meydana çıxarmaq lazımdır.

Beynəlmiləlçilik milli zəmində yaranır, ona məxsus olan həmrəylik, əməkdaşlıq, bərabərlik, qarşılıqlı yardım,

dostluq və s. prinsiplər millilik vasitəsilə təzahür edir. Beynəlmiləlçilik prinsipiərinin mahiyyəti bütün millətlər, xalqlar üçün vahiddir. Lakin hər bir millət və xalq bu prinsipləri öz spesifık xüsusiyyətlərinə və həyat tərzinə uyğun olaraq qəbul edir.

Millilik əsasən millətdaxili münasibətlərdə, beynəlmiləlçilik isə millətlərarası münasibətlərdə özünü göstərir.

Milli xüsusiyyətlərin beynəlmiləl cəhətlərə çevrilməsi qanunauyğun bir prosesdir. Lakin hər cür milli xüsusiyyət deyil, yalnız mütərəqqi xüsusiyyətlər beynəlmiləl cəhətlərə çevrilir. Mütərəqqi xüsusiyyətlər inkişaf edərək beynəlmiləl prinsiplərə doğru gedir və bu prinsiplərlə qovuşur. Millətlərin mədəni inkişafının ümumi qanunauyğunluqları milli mədəniyyətlərin yaxınlaşmasına və inkişafına kömək edir. Bu, milli inkişafın beynəlmiləl forması kimi özünü göstərir.

Millilik beynəlmiləlçiliyi əks etdirdiyi kimi, beynəlmiləlçilik də milliliyi əks etdirir və onun inkişafına səbəb olur. Milliliklə beynəlmiləlçiliyin dialektikasının əsas cəhətlərindən biri onların nisbətinin düzgün müəyyənləşdirilməsidir, Millətlərin həyatında milliliklə beynəlmiləlçiliyin nisbəti mütləq deyil, nisbi xarakterlidir.

Mədəniyyətin milli xüsusiyyətləri ilə beynəlmiləl mahiyyəti arasındakı vəhdət onda öz ifadəsini tapır ki, milli xüsusiyyətlər, milli forma məzmunla uyğunlaşır, onunla şərtlənir. Mədəniyyətin beynəlmiləl xarakterinin milli xüsusiyyətlərə təsiri isə onunla şərtlənir ki, milli xüsusiyyətlər təkmilləşərək öz inkişafında beynəlmiləl cəhətlərlə zənginləşir. Əsl milli sərvətlər, mütərəqqi cəhətlər həmişə beynəlmiləl keyfiyyətlərlə uyğunlaşır.

Millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi əsasında formalaşan xüsusiyyətlərindən ən başlıcası milli hisslərdir. Milli psixologiyanın əsas ünsürlərindən biri olan milli hisslər bir tərəfdən millətin həyat şəraitinin, digər tərəfdən isə insanların xalq birliyinə xas olan hisslərinin qanuna-

uyğun pilləsi kimi formalaşır. Birinci halda milli hisslər millətin ictimai, iqtisadi inkişafına, mədəni məişət xüsusiyyətlərinə emosional münasibəti kimi, ikinci halda isə insan hisslərinin millətə xas olan qanunauyğun varisi kimi çıxış edir.

Milli hisslər, milli xarakter bir növ adət-ənənələr vasitəsilə təzahür edir.

Bütün tarixi mərhələlərdə hər hansı bir etnosun həyat tərzində əsas yer tutan adət-ənənələr, ümumiyyətlə, əxlaq normaları ictimai şüurun təzahürü kimi fəaliyyət göstərir.

Müəyyən kollektivdə (tayfa, xalq, millət) və ya ictimai qrupda gözlənilən, onun hər bir üzvü üçün adi əxlaq normasına çevrilən irsi davranış qaydası isə adət adlanır.

Bütün tarixi dövrlərdə insanların məişətində adət-ənənələr tənzimləyici rol oynamışdır. Həyat tərzinin tarixi inkişaf prosesində yaranmış adətlərə əməl edilməsi hamının vətəndaşlıq borcudur.

Adət-ənənələr nəsillər arasında mənəvi sərvətlərin varisliyinə əsaslanır. Həyat tərzinin qayda-qanunları kollektiv sosial yaradıcılığın genişlənməsini tələb edir. İnsanların ictimai və şəxsi həyatında hamı tərəfindən riayət edilən qaydalar müstəqil dövlət quruculucuna və demokratiyanın genişlənməsinə imkan yaradır.

Cəmiyyətin sosial-iqtisadi sahəsində meydana çıxan yenilik adət-ənənələrin məzmununda müəyyən dəyişiklik yaradır. Varislik əlaqəsi isə mühüm qanunauyğunluq kimi həyat tərzinin tərkib hissəsi olan adət-ənənələrin inkişafında özünü göstərir.

Adət-ənənələr ictimai şüurun ancaq müəyyən formalarında özünü göstərən sadə normalardır. Adətlərin sosial funksiyaları onların insanlararası münasibətləri, gündəlik həyat qaydalarını qoruyub saxlamasıdır. Adət-ənənə eyni zamanda həyat tərzinin və onun yaratdığı sosial, mənəvi və estetik ideallarını, davranış normalarının, əmək və məişət

münasibətlərinin möhkəmləndirilməsi və nəsildən-nəsilə keçirilməsinin spesifik formasıdır.

Ənənə (latınca mradito) yaradılmış adətlərin, yaşayış tərzlərinin məcmusu kimi meydana çıxır. İbtidai icma quruluşunda da insanların ictimai davranışları ənənə vasitəsilə tənzim olunurdu.

Adət-ənənə cəmiyyətin maddi və mənəvi mədəniyyət ünsürlərini birləşdirərək, həyat tərzinin mühüm cəhətlərini özündə əks etdirir.

"Adət" və "ənənə" anlayışlarının oxşar və fərqli cəhətləri də vardır. Belə ki, "ənənə" anlayışı daha geniş məzmuna malik və sabit olmaqla ictimai həyatda fəal rol oynayır. Adətlər isə tarixi inkişaf nəticəsində sabitləşir, davamlılığı nəticəsində ənənəyə çevrilir. Adətlər, yuxarıda qeyd etdiyimiz kimi, insanların məişət və həyat tərzindəki normaların məcmusu kimi özünü göstərir.

Ayinlər, mərasimlər o zaman xalqa mənsub olur ki, ənənəyə əsaslanır. Xalqımızm adət-ənənələri tarixi köklərə malik mənəvi sərvətlərdir. Həyat tərzində müasir dövrədək yaşayan mərasimlərdən biri də Xızır-İlyas mərasimidir. Əxlaqi dəyərlərə malik olan bu mərasim yazın gəlişi, torpağın, təbiətin oyanışı ilə əlaqədardır.

Məlumdur ki, Novruz bayramı islam dinindən əvvəl yaranmışdır. Dini bayram və mərasimlərin çoxu milli ənənə, milli bayramlarla birləşir, əxlaqın zəruri cəhətinə çevrilir.

Mərasimləri yaradan, yaşadan, nəsildən-nəsilə ötürən xalqdır. Mərasimlər cəmiyyətin həyat tərzinin bədii, simvolik, psixoloji ifadəsi olmaqla, həm də tərbiyəvi əhəmiyyətə malikdir. Meydana çıxan hər bir yeni ictimai tarixi quruluş adət-ənənələrdə də əsaslı dəyişiklik yaradır.

Hal hazırda respublikamızda aşağıdakı bayram mərasimləri həyata keçirilir:

I. İctimai-siyasi mərasimlər: 8 mart, 28 may, 18 oktyabr, 17 noyabr, 31 dekabr.

İctimai-siyasi bayramlar cəmiyyətdə ümumi siyasi fəallıq, vahid davranış, ictimai qruplar arasında əlaqə yaradır, insanlarda mənəvi borc, məsuliyyət hisslərini inkişaf etdirir.

II. Mövsüm mərasimi: Novruz bayramı mart ayının 20-21-də keçirilir. Bu bayram insanlarda həyat əzmini, xoşbəxt yaşamaq arzusunu gücləndirir.

III. Elm və mədəniyyət xadimlərinin, yazıçı və şairlərin yubileylərinin keçirilməsi.

IV. Vətənpərvərlik mərasimləri: Milli ordu gününün qeyd olunması, Vətən uğrunda həlak olan milli qəhrəmanların adlarının əbədiləşdirilməsi, şəhidlər xiyabanının kütləvi şəkildə ziyarət edilməsi gənclərin əxlaqi tərbiyəsində mühüm rol oynayır.

V. Gənclik mərasimləri: İlk zəng, əlifba bayramı, uşaqların beynəlxalq müdafiə günü (1 iyun), ümumtəhsil məktəblərində son zəng, peşə, orta ixtisas və ali məktəblərə qəbul, əmək ənənələri və s.

VI. Ailə-məişət mərasimləri: Toy-nigah, ad günləri, yas və s.

VII. Dini adət-ənənələrlə bağlı mərasimlər: Müqəddəs yerlərin ziyarəti, dini ayinlərin icrası. Azərbaycan respublikası Nazirlər Kabinetinin qərarı ilə Ramazan, Qurban bayramları istirahət günü elan edilmişdir.

Tarixən meydana gəlib formalaşan adət-ənənələr iki növdür: keçmişlə bağlı adət-ənənələr və yeni adət-ənənələr Xalqımızın mənəvi simasını əks etdirən adətləri xalq əsrlər boyu yaşatmışdır. Bunlar insanların həyat və məişət şəraitini, onlar arasındakı münasibətləri və davranışındakı xüsusiyyətləri əks etdirir. Məsələn, qonaqpərvərlik, böyüklərə hörmət, qonşuluq, dostluq, qarşılıqlı kömək, əməksevərlik və s. xalqımızın ənənəvi adətlərindəndir.

Azərbaycan xalqı tarixi, milli, mədəni dini adət-ənənələrinə görə inkişaf etmiş xalqdır. Müstəqil Azərbaycan Respublikasının bugünkü mənəvi həyatı xalqımızın etnoqrafik amillərinin təsirilə yaranan milli adət-ənənələrin varisliyinə əsaslanmaqla daha da zənginləşir.

## *§ 5. AZƏRBAYCANIN MADDİ VƏ MƏNƏVİ MƏDƏNİYYƏTİ*

Azərbaycan bəşər mədəniyyətinin ilkin məskənlərindən biridir. Bu ərazidə hələ iki milyon il bundan əvvəl insanın yaşaması üçün əlverişli şərait olmuşdur. Azərbaycan xalqı da bu yerdə bərqərar olmuş, özünün təsərrüfat həyatını, maddi-mənəvi mədəniyyətini yaradaraq dünyanın ən qədim və mədəni xalqlarından biri kimi tanınmışdır.

Hər bir xalq üçün öz ölkəsinin tarixi, keçdiyi inkişaf yolu, mədəniyyəti maraqlıdır. Çünki, keçmiş nəsillərin nailiyyətlərini bilmədən yenilərini yaratmaq çətindir. Əsrlər boyu nəsillərin öz təcrübələrini bir-birinə ötürmələri nəticəsində müxtəlif sahələrdə müvəffəqiyyətlər qazanılmışdır. Bu vəziyyət insan cəmiyyətinin bütün dövrlərində qanunauyğun şəkildə davam etmişdir.

Maddi-mədəniyyət abidələrinin qalıqları əsasında o dövrün müxtəlif sahələri haqqında fikir söyləmək mümkündür. Hər bir daş alət, saxsı, dəmir, tunc əşya qalıqları ətrafında alimlərin apardıqları elmi araşdırma və mübahisələri məsələlərə aydınlıq gətirməyə qadirdir.

Dünyada mövcud olan yazılı mənbələrin tarixi beş min ildən artıq deyildir. Lakin Azərbaycan ərazisində yaşamış ən qədim əhalinin tarixi iki milyon ilə çatır.

Bəzən yazılı abidələrdə söylənilən fikrin maddi mədəniyyət qalıqları əsasında səhv olduğu aydınlaşdırılır. Mənbələrdə yol verilən bu cür təhriflər adətən qədim və orta əsr tarixçilərinin qulluq etdikləri hökmdarların hakimiyyətini həddindən artıq şişirtmələrindən və s. irəli gəlir.

Eramızdan əvvəl I əsrin axırında və eramızın I əsrində yaşamış yunan coğrafiyaşünası Strabonun da albanlar haqqın mülahizələrini albanlar yaşayan ərazidən tapılan mədəniyyət qalıqarı təkzib edir. Belə ki, Strabonun firinə görə, ulu əcdadlarımız olan albanlar yüzdən çox saya bilmə-

miş, pul tanımamış, ticarət etməyi bacarmamışlar. Lakin Şamaxı rayonunun Dərə Xınıslı kəndi yaxınlığında 1958-ci ildə üzümlüklər salmaq məqsədilə aparılan təsərrüfat işləri nəticəsində aşkar edilən "Xınıslı dəfinəsi" Strabonun fikrinin yanlış olduğunu sübut etdi. Tədqiqat nəticəsində 300-dən artıq sikkə əldə edildi ki, onların ən qədimi Lisimaxın (e.ə.323-281) adından Frakiyada zərb edilən Tetradraxana, ən axırıncısı isə III Fratın (e.ə. 70 (69-58) 57) Arşaki draxmasıdır. Ehtimala görə dəfinə eramızdan əvvəl təqribən I əsrin III rübündə basdırılmışdır. Burada eyni zamanda küllü miqdarda bənzətmə alban sikkələri də vardır.

Bu dəfinənin aşkar edilməsi bir çox məsələlərə aydınlıq gətirdi. Sikkələr əsasında həm əvvəllər ayrı-ayrı yerlərdən tapılmış naməlum pullar haqqındakı elmi təsəvvürlər genişləndi, həm də e. ə. Albaniyada yerli sikkələr kəsildiyi və geniş pul-əmtəə tədavülü olduğu müəyyənləşdirildi. Dəfinədə aşkar edilən müxtəlif formalı, zövqlə bəzədilmiş keramika şüşə qablar və metal məmulatı şəhərdə sənətkarlığın, Ön Asiya, Roma və qonşu ölkələrdən gətirilmiş müxtəlif əşyalar isə geniş iqtisadi və mədəni əlaqələrin olduğunu göstərir.

Maddi-mədəniyyət abidələri ölkəmizin lap qədimdən qonşu və xarici dövlətlərlə dostluq, düşmənçilik münasibətlərini də əks etdirə bilir. Arxeoloji qazıntılar zamanı tapılan skiflərə məxsus ox ucluqlar eramızdan əvvəl kimmeri və skif tayfalarının Azərbaycandan keçmələri, müqavimətə rast gəlmələri haqqında müəyyən təsəvvür yaradır.

Qobustanda-Böyükdaş dağının ətəyində tapılan latın dilindəki kitabə isə romalıların Zaqafqaziyaya yürüş etmələri barədə məlumat verir.

Beləliklə, məlum olur ki, minilliklər ərzində insanların yaratmış olduğu maddi-mədəniyyət qalıqları tariximizin öyrənilməsində əvəzsiz mənbədir.

Azərbaycanın maddi-mədəniyyət abidələri ilə zəngin olması antik tarixçiləri, coğraliyaşünasların və səyyahların ölkəmizə xüsusi maraq göstərməsinə səbəb olmuşdur. Lakin onların verdiyi məlumatlar XIX əsrə qədər tarixçilərin diqqətini özünə cəlb etməmişdir. Azərbaycanın Rusiya ilə birləməsindən sonra bu ölkəyə diqqət xeyli artmışdır.

1829-cu ildə Rusiya İmperator Arxeologiya komitəsi tərəfindən Azərbaycana ezam edilən rus arxeoloqu A.Yanovski qədim Yunan tarixçisi Böyük Plininin "Təbiətin tarixi" adlı əsərində göstərdiyi toponimlər əsasında 1846-cı ildə "Qədim Qafqaz Albaniyası" adlı yazı çap etdirdi. 1862-ci ildə fransalı şərqşünas səyyah A.Berje Muğandakı yerüstü tarixi abidələr haqqında məlumat verdi. Göründüyü kimi rus arxeoloqları ilə yanaşı, əcnəbi həvəskarlar da Azərbaycanın maddi sərvətlərinə maraq göstərmişlər. Lakin onların bu maraqları Azərbaycan tarixini araşdırmaq, aydınlaşdırmaq məqsədilə deyil, sadəcə olaraq asan yolla qiymətli əşyalar əldə etmək məqsədi daşımışdır. Belə ki, 1884-cü ildə fransız səyyahı Dübua de Manpera Xanlar rayonu ərazisində qazintı işi aparmış və əldə etdiyi tunc əşyaları, qara rəngli boyalı qabları öz ölkəsinə göndərmişdir.

XIX əsrin II yarısından başlayaraq Gədəbəy mis mədənləri xarici kapitalistlərin diqqətini cəlb edir və onlar büraya gələrək misəridən zavodlar inşa etməyə başlayırlar. Bu zaman aşkar olunmuş maddi mədəniyyət abidələrindən çaxmaq daşından hazırlanmış 38 daş aləti Berlinə göndərirlər. Ümumiyyətlə, 1888-1889-cu illər ərzində alman kapitalistləri V.Belk və Virxov Şamxor ərazisində əksəriyyəti daş qutu tipindən olan 800-ə yaxın qəbir açdılar ki, oradan əldə etdikləri mədəniyyət abidələrini Almaniyanın Hamburq və Münhen muzeylərinə satdılar.

Qeyd edək ki, XIX əsrin 30-cu illərindən 70-ci illərinə qədər aparılan arxeoloji qazıntılar kortəbii xarakter daşımışdır.

Ancaq 1871-ci ildə Tiflis şəhərində təsis edilən Qafqaz Arxeoloji Komitəsi 1872-ci ildə Qafqaz arxeologiya həvəskarları cəmiyyəti adlandırıldı. Bu cəmiyyətin 1881-ci ildə çağırılmış qurultayı Qafqazın arxeoloji baxımdan tədqiqini zəruri hesab etdi. Azərbaycan ərazisinin nisbətən sistemli tədqiqi də o zamandan etibarən başlandı. Ancaq mədəniyyət sərvətlərimizin talanması yenə ara vermədi. 1896-cı ildə Moskva Arxeoloji cəmiyyətinin üzvü A.A.İvanovski və Şuşa realni məktəbinin alman dili müəllimi Emil Resler Gədəbəy və Qalakənd ərazisində 72 daş qutu qəbir aşkar etdilər və oradan çıxarılan maddi-mədəniyyət abidələrini Moskva Dövlət Tarix Muzeyinə göndərdilər.

1901-ci ildə Tiflisdə yaradılan Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsi də Azərbaycanın arxeoloji baxımdan öyrənilməsində mühüm rol oynadı. Belə ki, tədqiqatlar nəticəsində əldə edilən maddi-mədəniyyət abidələri yuxarıda qeyd etdiyimiz şöbənin arxivində mühafizə olunmağa başlandı.

1908-1920-ci illər ərzində Gəncəçay ərazisində arxeoloji kəşfiyyat aparan V.Ter-Qukasov Azərbaycanın tunc dövrünə aid aşkar etdiyi maddi-mədəniyyət abidələrini 1920-ci ildə yaradılan Azərbaycan Tarix Muzeyinə vermişdir.

Azərbaycanın arxeoloji cəhətdən inqilaba qədər tədqiqi və təhlili göstərir ki, ilk dövrlərdə qazıntı işləri aparan şəxslər qiymətli hesab etdikləri nümunələri götürmüş, qiymətsiz bildiklərini isə özləri də bilmədən məhv etmişlər.

Onu da qeyd etmək lazımdır ki, "İnqilaba qədər Azərbaycanda ölkənin tarixini tədqiq etməyə qadir olan xüsusi hazırlıqlı peşəkar tarixçi və mütəxəssis yox idi".

1923-cü ildə təşkil edilən "Azərbaycan Arxeoloji komitəsi" Azərbaycan arxeologiyasının planlı şəkildə öyrənilməsində xüsusi xidmət göstərdi.

1925-1926-cı illərdə Dağlıq Qarabağ, Qəbələ, Naxçıvan ərazilərində aparılan ekspedisiyalar nəticəsində ilk arxeoloji xəritələr tərtib edilərək 29 qədim maddi-mədəniyyət abidəsi qeydə alındı.

Azərbaycanın arxeoloji cəhətdən ardıcıl öyrənilməsində 1927-ci ildə yaradılan "Azərbaycanın Tarix, İncəsənət və Təbiət Abidələrini qoruyan Komitə" də mühüm rol oynadı.

1920-1930-cu illər ərzində Azərbaycan ərazisində aparılan arxeoloji qazıntıların nəticələri haqqında arxeologiya komitəsinin elmi əsərlərində maraqlı yazılar dərc olundu ("Azərbaycan Arxeologiya Komitəsinin əsərləri" 1925/26, "Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin xəbərləri" 1926/29, "Azərbaycanın Tarix, İncəsənət və Təbiət Abidələrini Qoruyan komitənin xəbərləri" 1927/29 və s.).

30-cu illərin əvvəllərindən başlayaraq arxeoloji qazıntılarla məşğul olan mərkəzlər öz fəaliyyət dairələrini xeyli genişləndirirlər. Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyətin bazası əsasında Azərbaycan Elmi-Tədqiqat İnstitutu yaradılır. Cəmiyyətin tarix-etnoqrafiya şöbəsi də bu institutun tabeliyinə verilir. Həmin şöbə Azərbaycan etnoqrafiyasının öyrənilməsində mühüm rol oynayır. Bundan sonra Azərbaycanın arxeoloji baxımdan öyrənilməsi pərakəndə şəkildə müxtəlif qurumlar tərəfindən deyil, elmi şəkildə, xüsusi planla Elmi-Tədqiqat İnstitutu tərəfindən həyata keçirilmişdir.

Yuxarıda qeyd etdik ki, Azərbaycan çoxəsrlik zəngin bir tarixə malikdir. Bu tarixin izləri şifahi xalq yaradıcılığında, yazılı və tarixi mənbələrdə öz əksini tapmışdır. Həmin yadigarların bir hissəsi yerin altında və üstündə mühafizə olunaraq bugünkü nəsillərə gəlib çatmışdır. Bu abidələr insan cəmiyyətinin lap əvvəllərindən ulularımızın irsini özlərində yaşatmışlar.

Tariximizin və mədəniyyətimizin nadir şahidləri olan maddi-mədəniyyət abidələrini xronoloji ardıcıllıqla aşağıdakı kimi qruplaşdırmaq olar:

l. Qədim və Orta əsrlər tarixi abidələri.

2. İnqilabi mübarizə abidələri.

3. Sovet Azərbaycanının tarixi abidələri.

4. Müstəqil Azərbaycanın mübarizə dövrü abidələri.

Növlərinə görə isə bu abidələr belə ayrılır: qədim yaşayış yerləri, qəbirstanlıqlar, orta əsrlər şəhər və kənd xərabələri, qaya rəsmləri, menqerlər (dik daşlar), məbədlər, dəfinələr və s.

Bəzən ibtidai insanlar öz məskənlərində uzun müddət yaşamamışlar. Lakin buna baxmayaraq təsərrüfat və əmək qalıqlarının bu yaşayış yerlərində müəyyən iziəri qalmışdır. Getdikcə ilk insan məskənləri uzun müddətli yaşayış yerlərinə çevrilmişdir. Arxeologiyada mədəni təbəqə adlandırılan torpaq qatı insanların həyat və təsərrüfat fəaliyyətindən əmələ gəlmişdir.

İbtidai insanların ilk sığınacaq yerləri təbii mağaralar olmuşdur. Kiçik və Böyük Qafqaz, Talış dağlarının ətəkləri belə mağaralarla zəngindir. Tədqiqat zamanı bu mağaralardan daş dövrü insanlarının istifadə etdikləri alətlər və s. tapılmışdır. Bu dövrdə insanlar əsasən çaxmaq, kvasid, dəvə-gözü və başqa bərk daşlardan istifadə etmişlər.

Azərbaycanda düzənliklərdə salınmış yaşayış yerləri də az deyildir. Bu yerlərdə əmələ gəlmiş mədəni təbəqənin qalınlığı yaşayış müddəti ilə bağlıdır. Müxtəlif səbəblərə görə, yəni hücum və yanğın zamanı, təbii hadisələr vaxtı insanlar öz məskənlərini tərk etdiklərinə görə boş qalmış binalar toz-torpaqla örtülmüş və yerin altında qalmışdır. Naxçıvan şəhəri yaxınlığında yerləşən Kültəpə, Qazax rayonunun qərbindəki Sarıtəpə belə abidələrdəndir. Bu növ təpələr Mil və Muğan düzənlərində də mövcuddur.

Onu da qeyd etmək lazımdır ki, ictimai quruluşun dəyişməsi yaşayış məskənlərinin forma və quruluşunun da dəyişməsinə səbəb olmuşdur.

50-ci illərin sonlarında Qazax rayonunun Sarıtəpə adlanan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində Qafqazda ilk dəfə olaraq eramızdan əvvəl I minilliyə aid aşkar olunmuş məbəddə büt hesab olunan heyvanların gildən düzəldilmiş təsvirləri tapılmışdır. Geniş bir evdən ibarət olan məbədin içərisində dini xarakter daşıyan tikililər də diqqəti cəlb edir. Bu bina xarakterinə görə Bakının Suraxanı rayonu ərazisində yerləşən Atəşgahı xatırladır.

Maddi mədəniyyət abidələrinin dövrlərə görə bölünməsi tarix və etnoqrafiya elminin müştərək fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Qədim və Orta əsrlər tarixi abidələri sırasına aid edilən Qobustan Bakının 60 kilometr cənubunda, Xəzər dənizindən 3 kilometr aralı bir məsafədə yerləşir. Qobustan ərazisində Böyükdaş, Kiçikdaş, Yazılı təpə və başqa qaya silsilələri ucalır. Bu qayalıqlar üzərində iki mindən artıq nəsli kəsilmiş heyvan təsvirlərinə, ən ibtidai geyim və müxtəlif dini ayin səhnələrinə təsadüf edilir. Bu təsvirlərin ən qədimləri 3-4 min il bundan əvvələ aiddir.

Azərbaycanın məşhur tarixi abidələrindən biri də XII əsrdə tikilmiş Qız qalasıdır. Bu qalanı memar Məsud Davud oğlu tikmişdir. Abidənin hündürlüyü 28 metr, diametri isə 16-16,5 metrdir.

Bakı şəhər dumasının 1914-cü il 15 mart tarixli iclası ında Azərbaycanın möhtəşəm abidələrindən olan Qız qalası barədə qaldırılan bir məsələ xüsusilə diqqəti cəlb edir. İclasda Qız qalası yerləşən ərazinin satılması və bu qalanın sökülməsi məsələsi müzakirə olunmuşdur. Burada liman binası və 100 nəfər adam yerləşən kazarma tikintisi nəzərdə tutulurdu. Dumada olan xalq "nümayəndələrindən" biri isə bu məsələyə haqq qazandıraraq demişdir:

“Abidələr nədir? Bütpərəstlikdən başqa heç nə! Qız qalası bizə nə verir? Zərər və təmir üçün xərclərdən başqa heç bir şey! Birdən uçsa, bədbəxt hadisəsiz də keçməyəcək. Qalanın əvəzinə bizə qiymətli torpaq sahəsi təklif edirlər ki, bunun da küllü miqdarda pul dəyəri vardır. Onun üçün ağlamağa dəyməz... Tək tarixlə yaşamaq olmaz!”

Lakin müzakirənin sonunda yekdil fikrə gələ bilmədikləri üçün təsadüf nəticəsində Qız qalası uçurulmaqdan xilas olur.

Azərbaycanın görkəmli memarı Əbubəkir Əcəminin memarlıq tarixində əvəzsiz xidmətləri vardır. O, XII əsrdə Naxçıvanda yaşamış və memarlığımızın layiqli incilərindən sayılan Atababa və Mömünəxatun məqbərələrini yaratmışdır.

Dəyərli memarlıq abidələrindən biri olan Şəki Xan sarayı 1797-ci ildə memar Hadəli Zeynalabdin tərəfindən tikilmişdir.

Çar hökuməti zamanı Şəki Xan sarayında bir dəfə bərpa işləri aparılmışdır. Lakin bu, abidəni mühafizə etmək məqsədilə deyil, Qafqaz Canişininin həkimlərin məsləhəti ilə yayı Şəkidə keçirmək qərarına görə yerinə yetirilmişdir.

Qədim və Orta əsrlər abidələri haqqında danışdıqlarımızla yekunlaşmır. Bu abidələrin sırasına azərbaycanlıların “Dəmir qapı Dərbənd” (Dərbənd sözü fars dilində bağlı qapı deməkdir) səddi, Şirvanşahlar sarayı, Cin məscidi (1376-cı ildə tikilmiş bu məscid kasıb əhaliyə məxsus olduğu üçün memarlıq baxımından bir o qədər də zəngin deyildir), Sınıq-Qala (1723-cü ildə I Pyoturun qoşunları Bakını atəşə tutduqları zaman minarə çatlamış və sonradan bu adı qazanmışdır), Cümə məscidi (XIV əsr), Mərdəkanda yerləşən dəyirmi qüllə (Bu qülləni 1233-cü ildə Şirvanşah II Mənuçöhrin oğlu I Fərrux Yəzdin əmrinə əsasən memar Əbülməcid ibn Məsud tikmişdir. Qüllənin hündürlüyü 12 metrdir.)

və Azərbaycanın digər bölgələrində aşkar edilmiş tarixi abidələr daxildir.

İnqilabi mübarizə abidələrinin yaranması isə XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir.

Rusiya inqilabı tarixində görkəmli rol oynamış gizli "Nina" mətbəəsi V.İ.Leninin göstərişi ilə Bakıda təşkil olunmuşdur. Sabunçuda "Elektriçeskaya sila", "Neft sənaye fəhlələri ittifaqı", "Qudok" qəzeti redaksiyası (1907) və s. inqilabi mübarizə abidələridir.

Bakıdakı Lenin muzeyi (indi İstiqlal muzeyi adlandırılır.), Gəncədə dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi, Nizami muzeyi və s. isə Sovet Azərbaycanının abidələri sırasına daxildir.

Müstəqil Azərbaycanın tarixi abidələrinə isə xalqımızın qan yaddaşı olan "Şəhidlər xiyabanı", müstəqilliyimiz uğrunda döyüşlərdə həlak olmuş milli qəhrəmanların abidələri və s. aiddir.

Maddi mədəniyyət abidələri, yəni memarlıq abidələri bəşər mədəniyyətini nəsillərdən nəsillərə sözsüz, əlyazmalar, kitablar isə sözlə ötürür. Dünyanın bütün xalqları bəşər dühasının yaratdığı əsas sərvəti yazılarda qoruyub saxlamış, bu günkü nəsillərə çatdırmışdır. Zəngin mədəniyyət ocaqlarımızdan biri olan Azərbaycan Əlyazmaları institutunda minlərlə əlyazma saxlanılır. Bu institut 1924-cü ildə Ümumazərbaycan Diyarşünaslıq muzeylərinin I qurultayında yarandı. Azərbaycan SSR Nazirlər Sovetinin 12 oktyabr 1950-ci il qərarına əsasən o, müstəqil elmi-tədqiqat müəssisəsinə çevrildi. Buradakı yazılı abidələr müxtəlif elm sahəsini əhatə edir.

Belə yazılı abidələrdən biri də Yaxın Şərq, eyni zamanda Azərbaycan mədəniyyətinin ən qədim abidəsi olan "Avesta"dır. Bu abidə atəşpərəstlərin qanunlar məcəlləsi olub b.e. 9-6 əsr əvvəl Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda yaranmışdır. Bir neçə əsr ərzində

yaranmış “Avesta”da əks olunan dünyabaxışında İran, Azərbaycan və onlarla həmsərhəd olan ölkələrdəki qədim insanların kainat və dünya haqqındakı təsəvvürləri öz əksini tapmışdır.

“Avesta” Avropaya XVIII əsrdə məlum olmuşdur. Fransız alimi Anketil dü-Perron 1771-ci ildə “Avesta”nı fransız dilinə tərcümə etmişdir. Elə o zamandan bütün Qərb dünyası bu qədim mədəniyyət abidəsi ilə maraqlanmağa, onu tədqiq etməyə başlamışdır.

Yuxarıda qeyd etdiyimiz kimi “Avesta” müxtəlif dövr və ərazilərdə tədricən formalaşan və hər dövrün ictimai-siyasi, dini, mədəni dünyagörüşlərini özündə əks etdirən bir abidədir.

Mənbələrdə “Avesta”nın 21 kitabdan ibarət olması haqqında məlumat verilir. Əslində isə “Avesta” hər biri 7 kitabdan ibarət üç hissəyə bölünmüşdür:

l. Qasanik-Qatlar və onlara aid olan məntlər.

2. Hatak-Manearik-elmi sxolastikaya aid mətnlər.

3. Datik-Hüquqi mətnlər. Xüsusi qanunlardan ibarət və kahinlər üçün nəzərdə tutulur.

Orta əsr fars dilli mənbələrdə (“Denkart”) bu kitablar (Nask) haqqında belə məlumat verilir:

I-Xeyirxahlıq və alicənablıqdan bəhs olunur.

II-Dini mərasimlər.

III-Mazdayasna dini və onun doktrinası.

IV-Dünyanın yaranma tarixi, yaşadığımız dünya və axirət, qiyamət günü haqqında.

V-Astronomiya haqqında.

VI-Paklaşma mərasimi qaydaları haqqında.

VII-Kahinlərin həyatı haqqında.

VIII-Hüquqi təlimatlar.

IX-Viştaspın hakimiyyəti, Zaratuştranın təliminin qəbul edilməsi

XII-Bəşəriyyətin tarixi (əsasən İran şahlarının genetik hakimiyyəti)

XIII-Zaratuştranın həyatı haqqında.

XV-Ədalətli və pak işlər haqqında

XVI-Cinayət, vətəndaşlıq və hərbi hüquq. Nigah qaydaları haqqında.

XVII-Mərasimlərdə kahinlərin rol və vəzifələri. Onların savadı haqqında.

XVIII-Mülki və ailə hüququ.

XIX-Vendidat.

XX-Xeyirxahlıq və ruhun axirətdə taleyi haqqında.

XXI-Ahura Məzda və Ameşa Spentaların tərifi

Ərəb istilası nəticəsində "Avesta" mətnlərinin böyük bir hissəsi məhv olmuşdur. Ancaq onun əsasını təşkil edən mətnlər xüsusi vasitələrlə qorunub saxlanmışdır. Sonralar Zərdüştilərin bir hissəsi Hindistana getmiş və "Avesta"nı öz müasir pazend dilinə tərcümə etmişlər. Zərdüştilik təlimi və onun ənənələri sonrakı dövrlərdə İslam mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Türkdilli xalqlara məxsus qədim yazılı abidələrdən biri də 7-11-ci əsrlərə aid olan Orxon-Yenisey abidələridir.

Orxon-Yenisey əlifbası ilə daş, bəzək, məişət əşyaları, kağız və s. üzərində yazılmış bu abidələrdən ilk dəfə XII əsrdə tarixçi Alaəddin Ata Məlikin "Cüveyni tarixi cahan-güşa" adlı əsərində məlumat verilir. Lakin bu faktlar avropalılara çatmadığından uzun müddət diqqətdən kənar qalır. Avropalılar Orxon-Yenisey abidələri haqqında ilk məlumatı Niderlandın paytaxtı Amsterdam şəhərinin burqomistri Nikolay Vidzendən almışlar. Onun 1692-ci ildə çapdan çıxmış "Nord and Oost Tartarye" kitabında abidələr barədə məlumat verilir.

N.Vidzendən sonra Tobol boyarlarından birinin oğlu Semyon Remezov Orxon-Yenisey abidələrindən bəhs edir.

Bu şəxs 1696-cı ıldə I Pyotrun əmri ilə "Sibirin bütün şəhər və torpaqlarının xəritəsi" və "Bütün susuz və çətin keçilən daşlıq çol torpaqlarının xəritəsi" adlı iki xəritə tərtib edərək 1697-ci ildə onları çap etdirmişdir. O, bu xəritələrdə Talas çayı sahilində, Qırğızıstan, Talas şəhərinin yanında topoqrafik işarə olaraq "Orxon daşı" işarəsini qoymuşdur.

Məlumdur kı xeyli sonralar 1896-1897-ci illərdə V.Kallaur və Q.Heykel bu işarənin qeyd edildiyi yerdə qədim türk əlifbası ilə yazılmış və türkologiyada Talas kitabələri adı ilə tanınmış qədim türk abidələrini tapmışdır

Ümumiyyətlə, nə N.Vidzen, nə də S.Remezov qədim turk Orxon-Yenisey abidələrı haqqında elmi baxımdan əhəmiyyətlı bir fikir söyləməmişlər. Əsasən XVIII əsrdən başlanaraq bu abıdələr haqqında elmi fikir formalaşmağa başlayır.

1793-cü ildə akademik Pallas Orxon-Yenisey abidələrindən bir neçəsinin mətnini nəşr etdirir. Qədim türk abidələrinindaha geniş öyrənilməsi XIX əsrdən başlanır. İlk dəfə1892-ci ildə abidənin əlifbasını açmış, V.Radlov isə 1894-cü ildə abidədəki mətnləri oxumuş, almancaya tərcüməsi ilə birgə 1895, 1897, 1899-cu illərdə Peterburqda çap etdirmişdir. Orxon-Yenisey abidələri tapıldığı əraziyə əsasən yeddi qrupa bölünür:

l) Şimali Monqolustan,
2)Yenisey,
3) Lena-Baykal,
4) Altay,
5) Şərqi Türkmənistan,
6) Orta Asiya,
7) Şərqi Avropa.

***Orxon- Yenisey abidələri janrına görə belə qruplaşdırılır:***

a)tarixi-bioqrafik daşüstü yazılar (Monqolustanda);

b)epitafik (qəbirüstü) poetik yazılar (Yenisey və Sesireçye (Cetısu) çayları vadisində);

v)Hüquq sənədləri, dini sehirbazlıq abidələri (Şərqi Türküstan) və s.

Orxon çayı hövzəsində 2 abidə tapılmışdır. Onlardan biri türk şahzadəsi Gültəkinə həsr olunmuşdur. İkincisi isə onun böyük qardaşı Bilgə xaqanın hərbi yürüşlərindən, mübarizliyindən bəhs edir.

Qədim türk xaqanlığının tarixini öyrənmək baxımından bu gün də hər hansı bir türk xalqı, türk milləti üçün əhəmiyyətli olan bu abidələr yüksək kamillik zirvəsinə yetmiş türk mədəniyyətinin, dövlətçilik tarixinin və türk hərb sənətinin qan yaddaşıdır.

XI-XII əsrlərə aid edilən qədim yazılı abidələrimizdən "Kitabi Dədə Qorqud" isə elm aləminə XIX əsrdə məlum olmuşdur. Dastanın XV-XVI əsrlərdə yazıya köçürülmüş iki əlyazmasından Drezden nüsxəsi bir müqəddimə 12 boydan, Vatikan nüsxəsi isə həmin müqəddimə 6 boydan ibarətdir.

Bu qədim abidə haqqında ilk məlumat alman alimi F.Dits tərəfindən verilmişdir. O, 1815-ci ildə "Təpəgöz" boyunu alman dilinə tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. 1894-1904-cü illərdə isə V.V.Bartold abidənin dörd boyunu rus dilinə çevirərək çap etdirmişdir. Bu tərcümə H.Araslı və M.H.Təhmasibin redaktəsi ilə 1950-ci ildə Bakıda, 1962-ci ildə isə Moskvada nəşr olunmuşdur.

Dastandakı hadisələrin əksər hissəsi Dəmir qapı Dərbənd, Bərdə, Gəncə, Əlincə, Qaradağ, Göyçə gölü və s. yerlərdə cərəyan edir.

"Kitabi-Dədə Qorqud"u yazıya köçürən şəxs Dədə Qorqudu həm dastanın yaradıcısı, həm də iştirakçısı kimi təqdim edir. Bayat elindən olan bu alimnüma oğuzun gərginliklərin aradan qaldırılmasında, gələcəyə dair fikirlər söyləməsində böyük ustalığı göstərilir.

“Kitabi-Dədə Qorqud” türkdilli xalqların müştərək abidəsidir. Dastanda yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. barədə tarixi-etnoqrafik məlumatlar da vardır. Burada etik davranış normaları, ailə-məişət məsələləri də öz əksini tapmışdır.

Türk millətinin bədii təfəkkür abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanının poetik dili bədii təsvir vasitələri ilə zəngindir. Burada yeri düşdükcə atalar sözündən, idiomatik ifadələrdən məharətlə istifadə edilmişdir.

Dastanda oğuz bəylərinin düşmən qəbilələri ilə mübarizə səhnələri də təsvir olunmuşdur. Lakin çox maraqlıdır ki, onların bu mübarizələri təcavüzkarlıq deyil, intiqam xarakteri daşıyır; Qazan xan döyüş meydanında “qaçanı qovmur”, “aman diləyəni öldürmür”. Bu, soy kökümüzdəki alicənablıqla, xeyirxahlıqla bağlı xüsusiyyətdir.

Oğuz türklərinin tarixini özündə əks etdirən monumental epik abidələrdən olan “Kitabi-Dədə Qorqud” dastanı, yuxarıda qeyd etdiyimiz kimi, elmə məlum olduğu vaxtdan diqqət mərkəzindədir. Lakin buna baxmayaraq, bu mənəvi mədəniyyət abidəsinin özündə əks etdirdiyi məna və məzmun dərinliyi, türk xalqlarının milli-etnik fikir yaddaşı, milli təfəkkürünün və dünyagörüşünün formalaşma prosesi tamamilə aydınlaşdırılmamışdı. Bütün bu məsələlər və abidənin Azərbaycan türklərinin tarixində tutduğu əvəzsiz mövqeyi nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi haqqında 20 aprel 1997-ci il tarixli fərman imzalamışdır. Bu fərman abidənin daha əhatəli şəkildə tədqiq olunmasma şərait yaratdı.[1]

[1] Qeyd: ("Orxon-Yenisey abidələri" və "Kitabi-Dədə Qorqud" dastanı haqqında "Din və mədəniyyət" mövzusunda daha geniş bəhs olunur.)

Maddi-mədəniyyət abidələrinin mühafizə olunması zaman-zaman müxtəlif dövlət strukturları tərəfindən, tam qənaətbəxş olmasa da, yerinə yetirilib.

1918-ci il aprelin 14-də Xalq Komissarları Soveti V.İ.Leninin imzası ilə "Respublika abidələri haqqında" xüsusi dekret vermişdir. 1920-1921-ci illərdə Azərbaycanın bölgələrində olan abidələr qeydə alınmış, onların mühafizəsi üçün bəzi tədbirlər müəyyənləşdirilmişdir.

1932-ci ildə Mədəniyyət Abidələrini Mühafizə edən xüsusi Komitə yaradılmışdır.

Müharibədən sonra abidələrin mühafizəsinə daha yaxşı fikir verildi. Bu məqsədlə 1948-ci il oktyabr ayının 14-də SSRİ Nazirlər Sovetinin "Mədəniyyət abidələrinin mühafizə edilməsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı verildi. Bu qərarla birlikdə "Mədəniyyət abidələrinin mühafizə edilməsinə dair əsasnamə"də təsdiq edildi.

SSRİ Nazirlər Sovetinin qərarına müvafiq olaraq, Azərbaycan SSR Nazirlər Soveti 1948ci il dekabrın 2-də "Mədəniyyət abidələrinin mühafizəsini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar verdi.

1951-ci ildə isə Azərbaycan SSR Ali Sovetının Rəyasət Heyəti mədəniyyət abidələrinin qorunması, bərpa edilməsi və öyrənilməsi haqqında xüsusi qərar qəbul etmışdır. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ılə böyük tarixi əhəmiyyəti olan mədəniyyət abidələrı-Şirvan-şahlar sarayı, Şəkidəki Xan sarayı, Naxçıvandakı Yusif ibn Qüseyr və Mömünə xatun məqbərələri, Bərdə, Gəncə, Qobustandakı qaya rəsmlərinin yerləşdiyi sahə, tarixi qəbirstanlıqlar, məbədlər digər abidələr xüsusi nəzarətə gotürülmüşdür.

1978-ci ilin iyalunda Azərbaycan SSR Ali Soveti "Tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə" haqqında qanun qəbul etmişdir. Elə həmm ıl Bakıda "Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Mühafizə

Edən Cəmiyyət" yaradılmışdır. Bu cəmiyyətin fəaliyyətindən məqsəd xalqın zəngin mirasını gələcək nəsillər üçün qoruyub saxlamaq, zəhmətkeşlər arasında, böyüməkdə olan nəsil arasında vətən tarixinin öyrənilməsi işində bu qeyri-adi təbliğat vasitələrindən səmərəli istifadə etməkdir.

Tarix və mədəniyyət abidələrinə göstərilən qayğı Vətənimizə, qəhrəmanlıqla dolu tariximizin, keçmişimizin bu nadir şahidlərinə hörmət və məhəbbətin ifadəsidir.

Abidələr nəinki tarixi keçmişimiz və dünyada şöhrət qazanan mədəniyyətimiz barədə maraqlı məlumat verir, biliyimizi artırır, onlar həm də gənclərin vətənpərvərlik tərbiyəsində bizə yaxından kömək edir.

Azərbaycan Respublikasınınm 1995-ci il 27 noyabr tarixindən qüvvədə olan Konstitusiyasında da bu məsələyə xüsusi diqqət verilir.

“Mədəniyyət hüququ”adlı 40-cı maddənin II bəndində deyilir:

“Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 77-ci maddəsi isə tamamilə Tarix və mədəniyyət abidələrinin qorunmasına həsr edilib. Burada deyilir: “Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsm borcudur”.

Maddi-mədəniyyət abidələrini gələcək nəsillərə çatdırmaq üçün onları yalnız mühafizə etmək deyil, həm də müxtəlif qüvvələrin dağıdıcı təsirlərinə məruz qalanları yenidən bərpa etmək lazımdır. Bu məqsədlə son illər vətənimizdə müharibə davam etməsinə baxmayaraq məqsədyönlü tədbirlər görülmüşdür.

Maddi-mədəniyyət abidələri tarix elminin xəzinəsi hesab olunur. Ona görə də bu yadigarları mühafizə etmək, onlara həssaslıqla yanaşmaq hər bir Azərbaycan vətəndaşının borcudur.

## *§ 6. AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN XARİCDƏ TƏBLİĞİ MƏSƏLƏLƏRİ*

Dünya mədəniyyəti xəzinəsinin zənginləşməsində bütün dünya xalqları bu və ya başqa şəkildə iştirak edir. Bu zaman mədəniyyətlərin qarşılıqlı inkişafı ilə yanaşı, bir xalqın mədəniyyəti digərinə öz təsirini də göstərir.

Azərbaycan xalqı qədim tarixə, güclü yaradıcı potensiala malikdir. Odur ki, dünya mədəniyyəti xəzinəsinə onun verdiyi tövhələr əvəzsizdir. Respublika prezidenti Heydər Əliyev 1997-ci il dekabrın 31-də "Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə bütün soydaşlarımızı təbrik edərkən bu barədə demişdir:

"Azərbaycan xalqı dünya mədəniyyətində öz dəsti-xətti ilə seçilən xalqlardandır. Onun əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Xalqımızın "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları kimi möhtəşəm sənət abidələri dünya sivilizasiyası tarixində silinməz iz qoymuş, Nizami Gəncəvi, Əfzələddin Xaqani, Xətib Təbrizi, Məhəmməd Füzuli kimi korifeylərinin yaradıcılığı bəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideralların bərqərar olmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.

Xalqımızın dünya elminə bəxş etdiyi tövhələrələ fəxr etməyə haqqı var. Nəsirrəddin Tusinin, Əbülhəsən Bəhmənyarın, Mirzə Fətəli Axundovun, Abbasqulu ağa Bakıxanovun və digər mütəfəkkirlərin adları dünya elm aləminə yaxşı tanışdır..."

Bütün bunlar Azərbaycan xalqının intelektual səviyyəsinin yüksəkliyini göstərən amillərdən olmaqla öz mövqeyini bu gün də saxlamaqdadır. Xalqımızın mənəvi

intelektual sərvəti sırasında onun elmi potensialı ayrıca yer tutur.

Belə ki, Azərbaycan alimlərinin dünya miqyasında əldə etdikləri uğurlardan bütün bəşər xalqları faydalanmırlar. Məsələn, əslən azərbaycanlı, Bakıda dünyaya göz açıb, bir neçə il burada yaşadıqdan sonra valideynləri ilə xaricə köçmüş Lütvi-Zadə dünya miqyaslı alimlərdəndir. Bütün dünya sivilizasıyasının müasir mənzərəsində, elm və texnikanın inkişafında əvəzsiz yeri olan kompüter texnologiyasının korifeyi sayılan bu azərbaycanlı alimin kəşfləri dünyanın əksər ölkələrində - Yaponiyada, Amerikada, Almaniyada, Fransada və s. ölkələrdə istehsalata uğurla tətbiq olunmaqdadır. Onun yarätdığı "qeyri-səlis məntiq nəzəriyyəsi"nin kopmüter texnologiyasına tətbiqi nəticəsində dördüncü, beşinci və altıncı "kompüter nəsli" yaradılmışdır.

Lütvi-Zadənin nəzəriyyəsinə görə, hər şeyin doğruluğu və səhvliyi mütləq deyil, nisbidir, qeyri-səlisdir. Eyni zamanda dünyada olan hər bir rəngin qırmızılığı, yaşıllığı, ağlığı, qaralığı və s. də nisbidir. Yəni, hər bir rəngdə bir bozluq var. Bir sözlə, hər hansı əşyanın və əmsalın dəyişgənlik əmsalı qeyri-səlisdir.

Bu nəzəriyyənin əsasında Lütvi-Zadə linqvistik dəyişənlər nəzəriyyəsi yaratmaqla, mürəkkəb şəraitdə qərar qəbuletmənin və təqribi həll tapmanın da əsasını qoymuşdur. Onun qeyri-səlis məntiq və qeyri-səlis məntiq nəzəriyyəsinin əsasında dünyanın əksər ölkələrində elm məktəbləri (istiqamətləri) fəaliyyət göstərir, elmi jurnallar və kitablar nəşr olunur.

Lütvi-Zadə haqqında Azərbaycanda bir sıra məqalələr yazılılmış, Bakı Dövlət Universitetinin professoru Fərhad Tağıyevlə jurnalist Şamxəlil Məmmədovun birlikdə yazdıqları "Müasir elmin korifeyi" Bakı, "Azərbaycan" nəşriyyatı 1997/ adlı elmi-kütləvi kitab nəşr olunmuşdur.

Bundan əlavə onun haqqında Azərbaycanda sənədli televiziya filmi çəkilmişdir. Lütvi-Zadə adına Elmlər Akademiyası (ictimai əsaslarla) fəaliyyət göstərir. Bu akademiyada ölkəmizin müxtəlif elm sahələrində çalışan alimləri təmsil olunmuşdur. Bu azərbaycanlı alim dünyanın bir çox Elmlər Akademiyalarının həqiqi və fəxri üzvüdür. Hazırda Amerikanın Kaliforniya ştatının Berqli universitetinin professoru kimi fəaliyyət göstərir onun nəzəriyyələri əsasında süni intelektin yaradılmasının prinsipləri araşdırılır. Həmin nəzəriyyənin müddəaları humanitar elmlər sahəsinə və tədrisə də tətbiq olunur. (testlər, şablonlarla imtahan və s.)

Fizika-riyaziyyat elmləri doktoru, professor Faiq Nağıyev isə kompüter texnoloqiyası sahəsində qazandığı elmi uğurların nəticəsi olaraq BMT yanında Beynəlxalq Kompüter Akademiyasının həqiqi üzvü seçilmişdir. F.Nağıyev bu akademiyaya üzv seçilən ilk azərbaycanlı alimdir.

Tibb elmləri doktoru, professor Paşa Musayev Amerika Oftolmologiya Akademiyasına, professor Bəhram Əliyev suvarma sistemləri sahəsində qazandığı uğurlarına görə Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasına və Rusiya Mühəndislər Akademiyasına həqiqi üzv seçilmişlər. Əldə edilən elmi nailəyyətlərin müqabilində çox cüzi olan bu siyahı Azərbaycan xalqının elmi intelektual potensiyasının müasir səviyyəsi haqqında müəyyən təsəvvür yarada bilir. Bütün bu uğurlar, beynəlxalq elmi simpoziumlarda və elmi-nəzəri seminarlarda əzərbaycanlı alimlərin çıxışları onların elmi məqalə və ixtiralarının yayılması və ayrı-ayrı ölkələr tərəfindən alınaraq istehsalata tətbiq edilməsi, həm də Azərbaycan varlığının, Azərbaycanın mədəni və elmi intelektinin təbliği deməkdir.

Azərbaycan mədəniyyətinin xaricdə təbliğində dövlət başçımızın xarici ölkələrə etdiyi diplomotik səfərlər də müsbət rol oynayır. Belə ki, bu səfərlər zamanı nümayəndə heyətinin tərkibində elm, mədəniyyət və incəsənət xadimləri də olur. Onlar bəzi rəsmi görüşlərin bədii hissələrində verilən konsert proqramlarında çıxış edərək Azərbaycan incəsənətinin gözəlliklərini xarici diplomatlar qarşısında nümayiş etdirirlər.

Mədəniyyətin təbliğində xüsusi tutumu olan incəsənət insan şüurunda reallığın əyani şəkildə əks olunmasıdır. Dünyanı, həqiqəti dərk etməkdə mühüm rol oynayan incəsənətin siyasi, mənəvi və bədii təbliğatda həlledici yeri vardır. İncəsənətin əsas xüsusiyyəti ondadır ki, o həqiqi, reallığı quru sözlərlə deyil, bədii şəkildə əks etdirir.

Respublika Prezidentinin səfər etdiyi dövlətlərin başçılarına Azərbaycan xalqının bədii və elmi yaradıcılığının rəngarəng məhsullarından hədiyyə etməsi də Azərbaycan mədəniyyətinin təbliği deməkdir.

Məlumdur ki, xalqımızın mifodloji görüşlərinin, bədii zövqünün, elmi dünyagörüşünün bir çox cəhətləri onun əsrlərdən gələn qədim xalçaçılıq sənətinin ilmələrində əksini tapmışdır. Lakin digər milli sərvətlərimizlə yanaşı, bu kamil sənət nümunələrimizə sahib çıxmaq istəyən ermənilər Azərbaycan xalçasının bir çox nümunələrini öz adlarına çıxmağa çalışaraq, bununla özlərinin yüksək bədii və mifoloji, fəlsəfi və elmi potensiala malik xalq olmalarını nümayiş etdirmək istəyirlər. Onların bu hərəkətləri 1988-ci ildən sonra daha geniş və məkrli xarakter almışdır. Odur ki, Azərbaycan xalçalarının məhz Azərbaycan xalqının estetik, milli-mifoloji təsəvvürlərinin, fəlsəfi və etnik dünyabaxışının məhsulu olmasını, Azərbaycan xalqının milli sərvətinin nümunəsi olmasını dünyaya nümayiş etdirmək son dərəcə vacibdir. Heydər Əliyevin xarici ölkə başçılarına, ayrı-ayrı elm və sənət adamlarına, tanınmış siyasi xadimlərinə

Azərbaycan xalçaçılıq sənətinin nümunələrini hədiyyə etməsi bu işdə-Azərbaycan xalçalarının beynəlxalq aləmdə təbliğində özgün rol oynayır.

Azərbaycan kino sənətinin bir əsrə yaxın tarixi vardır. Bu dövr ərzində kinomuzun bir çox nümunələri – "Arşın mal alan", "Məşədi İbad", "Nəsimi" və s. xarici ölkələrdə, o cümlədən Qərbi Avropada nümayiş etdirilərək uğur qazanmışdır. Son illər keçid dövrünün və Qarabağ müharibəsinin yaratdığı problemlərin kino sənətimizin inkişafına da özünün mənfi təsirini göstərməsinə baxmayaraq, milli kino xadimlərimiz bir sıra uğurlu nümunələr yarada bilmişdir. Həmin kino fılmləri "Özgə vaxt" "Yaramaz", "Ölü zona", "Ölsəm...bağışla!", "Qəzəlxan", "Müqəddəs torpaq", "Adəmin yaranmısı", "O dünyadan salam", "Nakəs", "Yarasa", "Fəryad", "İstintaq" və s. beynəlxalq festivallarda yüksək mükafatlara layiq görülmüşlər. Təkcə onu demək kifayətdir ki, Äzərbaycanın istedadlı kino rejisoru Ayaz Salayevin çəkdiyi və 19 beynəlxalq kino festivalında yüksək qiymətləndirilmiş "Yarasa" fılmi 1997-ci ilin axırlarında "Gecəyarısı çıxan günəş" devizi ilə keçirilən beynəlxalq kino festivalında da mükafat qazanmışdır. Bundan başqa "Fransız", "Hər şey yaxşılığa doğru" və başqa ekran əsərlərinin beynəlxalq festivallarda iştirak etmək hüququ qazanması da Azərbaycan kinosunun xaricdə təbliğində xüsusi rol oynayır.

Bütün bunlar göstərir ki, bu gün Azərbaycan kinosu xaricə daha çox öz gücü və potensial imkanları hesabına çıxır. O, festivallarda yer tutub mükafat alarkən, təbii ki, bu filmlər haqqında xarici mətbuatda müxtəlif səpgili yazılar da dərc olunur. Çalışmaq lazımdır ki, Azərbaycan kinosunun xaricdə təbliği bununla məhdudlaşmasın. Bu sahədə kino tənqidçilərimizin, sənətşünasların, Azərbaycan kinostudiyası rəhbərliyinin də öhdəsinə mühüm vəzifələr

düşür. Yaxşı olardı ki, kinomuzun ayrı-ayrı uğurlu nümunələri haqqında, habelə kino sənətkarlarımızın yaradıcılıq yoluna həsr olunmuş müxtəlif səpgili məqalə, oçerk və kitabçalar, müxtəlif xarici mətbuat orqanları, informasiya vasitələri və nəşriyyatlar vasitəsi ilə dünyaya daha yaxından tanıdılmasında müəyyən rol oynasın.

Azərbaycanın bir çox xarici ölkələr, o cümlədən İtaliya ilə mədəni əlaqələrinin tarixi qədimdir. Bu əlaqələr mədəniyyətin müxtəlif sahələrində özünün parlaq əksini tapmışdır. Hələ XV əsrdə şair Caşanşah Həqiqi görkəmli italyan şairi, məhşur, "İlahi komediya" əsərinin müəllifi Danteyə şer həsr etmiş, italyan ədəbiyyatşünasları XI əsr Azərbaycan yazılı ədəbiyyatının incilərindən olan "Kitabi-Dədə Qorqud"un iki əlyazmasından birini bu günədək hifz edib saxlamışlar. İtalyan alimi Ettore Qosse bu abidəyə dair xüsusi əsər və əlyazmasının surətini nəşr etdirmişdir.

Müasir İtaliya alimi Bombaçço XIV əsr böyük Azərbaycan şairi İ.Nəsiminin yaradıcılığını tədqiqata cəlb etmişdir.

Hələ 50-ci illərin axırlarında XVI əsr Azərbaycan şairi Şah İsmayıl Xətainin lirik şerlərindən ibarət "Divan" Neapolda çap etdirilmişdir.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərindən bü günə qədər İtaliya Azərbaycanın musiqi həyatında mühüm rol oynamışdır. Məşhur opera müğənilləri Bülbül, Şövkət Məmmədova, M.Maqomayev, L.İmanovdan başlayaraq Fidan və Xuraman Qasımova bacıları da daxil olmaqla gənc müğənni Azər Zeynalova qədər musiqi təhsili əlaqələri bu gün də davam edir. Azərbaycan musiqiçiləri İtaliyada öz Vokal ustalıqlarını daim təkmilləşdirirlər.

Azərbaycan musiqisi öz rəngarəngliyi, dərin fəlsəfi və estetik tutumu, ifaçılıq sənətinin yüksəkliyi ilə bu gün də dünya musiqisevərlərinin rəğbətini qazanır. Bu sahədə

görkəmli müğənnimiz, mərhum Rəşid Behbudovun Nəzakət Məmmədovanın, Müslüm Maqomayevin, Qulu Əsgərovun, Azər Zeynalovun, Zeynəb Xanlarovanın, Fidan və Xuraman Qasımova bacılarının, Alim Qasımovun, Surxay Əsgərzadənin və başqalarının xidmətləri danılmazdır. Surxay Əsgərzadənin Amerika və Kanadada lazer diskinin bir milyon tirajla buraxılması, Briliyant Dadaşovanın Almaniyada diskinin hazırlanması, Alim Qasımovun Parisdə uğurlu çıxışları, İsrailin Eylate şəhərində keçirilən caz festivalında dünyanın müxtəlif ölkələrini təmsil edən 36 iştirakçı arasında "Şərq cazının şahzadəsi" adlandırılan, Vaqif Mustafazadənin qızı Əzizə Mustafazadənin uğuru, Daşkənddə keçirilən musiqi festivalında gənc müğənni Simarə İmanovanın "Qran Pri" mükafatına layiq görülməsi və s. Azərbaycan musiqi sənətinin səviyyəsindən xəbər verməklə yanaşı, beynəlxalq aləmdə milli musiqimizin təbliği sahəsində də çox iş görür.

Azərbaycanın musiqi sənətinin xaricdə təbliği sahəsində aparılan əhəmiyyətli işlər çoxdur. Belə ki, İ.Əbilov adına Mədəniyyət evinin "Könül" folklor mahnı və rəqs ansamblı İraqın Babilistan şəhərində keçirilmiş beynəlxalq musiqi festivalında 6 konsert verərək xüsusi diploma layiq görülmüş, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının musiqi və rəqs kollektivi İsveçin Maloko şəhərində keçirilmiş dünya xalqlarının beynəlxalq folklor festivalında uğurla çıxış etmiş (Səfər "Vətən" cəmiyyəti xətti ilə həyata keçirilmiş və tədbiri İsveçdə fəaliyyət göstərən Azərbaycan mədəniyyəti ocağı təşkil etmişdir.) musiqiçilərimizin nümayəndələri Türkiyənin Bolu bölgəsində keçirilən Xalq kültürü və Koroğlu simpozimunda iştirak etmişlər.

"Bəri bax" ansamblının çıxışlarının rəğbətlə qarşılanması "Qaya" və "Sevil" fokal ansambllarının ənənələrinin yaşamasından və Azərbaycan vokal sənətinin imkanlarının tükənməzliyindən xəbər verir.

Bütün bunlar bir tərəfdən musiqi sərvətimizin zənginliyindən və ifaçılıq sənətimizin səviyyəsindən irəli gəlirsə, digər tərəfdən Azərbaycan bəstəkarlarının Tofiq Quliyevin, Arif Məlikovun, Oktay Rəcəbovun, Oktay Zülfüqarovun və başqalarının həm zəngin yaradıcılıq axtarışlarının, həm də vətəndaş pedaqoq kimi musiqi sənətimizin öyrədilməsi yolunda çəkdikləri zəhmətin nəticəsidir.

Musiqi sənətimizin inkişafında dövlət qayğısının, Respublika Prezidenti Heydər Əliyevin diqqətinin rolu da danılmazdır.

Son vaxtlar Fransanın Azərbaycandakı səfirliyinin köməyi ilə Azərbaycan musiqi mədəniyyəti Dövlət müzeyi ilə Paris musiqi muzeyi arasında əməkdaşlıq genişləndirilmişdir.

İraq Respublikasının Azərbaycandakı nümayəndəliyi ilə "Azərbaycan dünyası" beynəlxalq əlaqələr mərkəzinin prezidenti xalq şairi Nəbi Xəzri arasında görüş olmuş və ölkələrimiz arasında qarşılıqlı mədəniyyət günləri keçirilmək haqqında razılığa gəlmişdir.

Azərbaycan mədəniyyətinin xaricdə təbliğində beynəlxalq səviyyəli yubiley tədbirlərinin də böyük rolu vardır. Məsələn, 1996-cı ildə mütəfəkkir şairimiz Məhəmməd Füzulinin anadan olmasının 500 illiyinin dövlət səviyyəsində beynəlxalq miqyasda keçirilməsi həm də Azərbaycan mədəniyyətinin xaricdə təbligində əhəmiyyətli rol oynadı. Təkcə onu göstərmək kifayətdir ki, Məhəmməd Füzulinin 500 illik yubileyi İranda, İraqda, Türkiyədə, Ərəb ölkələrində qeyd olunmaqla yanaşı, Bakıda beynəlxalq Füzuli simpoziumu keçirildi. Bu yubiley tədbirləri və həmin silsilənin davamı olaraq Bakıda keçirilən beynəlxalq simpoziumda dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərin və sənət adamlarının iştirakı, habelə prezident Heydər Əliyevin fərmanı ilə ədəbiyyat, incəsənət sahəsində iki ildə bir dəfə verilən beynəlxalq Füzuli mükafatının təsis

edilməsi həm də Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə xidmət edir.

"Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyi haqqında olan fərman və bu yubileyin keçirilməsi ilə əlaqədar görülən çoxsahəli işlər "Dədə Qorqud" ensklopediyasının və digər nəşrlərin çapdan çıxması, Dədə Qorqud ünvanlı abidə kompleksləri və digər bu kimi işlər də Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə xidmət edir.

Son dövrdə Rəşid Behbudovun, Bülbülün, Tofiq Quliyevin, Müslüm Maqomayevin yubileyləri münasibəti ilə Azərbaycanla yanaşı Moskvada, Türkiyədə, Gürcüstanda, Dağıstanda təntənəli tədbirlər keçirilməsi də Azərbaycan xalqının dünyaya tanıdılması istiqamətində görülən uğurlu işlərdəndir.

Azərbaycan mədəniyyətinin təbliğində milli teleyiziyamızın göstərdiyi xidmətlər də xüsusi qeyd olunmağa layiqdir. Onu da qeyd etmək lazımdır ki, son vaxtlar milli televiziyamızın xarici ölkələrin telekanalları ilə əməkdaşlığı sayəsində Azərbaycan televiziyasının hazırladığı "Azərbaycan bu gün" proqramı vaxtaşırı dünyanın yüzdən çox ölkəsinə translasiya edilir. Bir qayda olaraq, bu proqramın mədəniyyət bölümü də olur. Həmin bölümdə indiyədək İsmayıl Şıxlı, Rəşid Behbudov, Nəsibə Zeynalova, habelə Azərbaycan folkloru (Əzizə Cəfərzadənin tştirakı ilə) və s. haqqında mükəmməl verilişlər dünya tamaşaçılarına təqdim edilmişdir. Bundan başqa, Azərbaycan televiziyasının əməkdaşlarının hazırlayaraq xarici ölkələrdə nümayiş etdirdikləri ayrı-ayrı proqramlar da Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə xidmət edir.

Azərbaycan mədəniyyətinin xaricdə təbliğində xaricdə indi-indi formalaşmaqda olan Azərbaycan diasporunun və şəbəkəsi getdikcə genişləndirilən Azərbaycan mədəniyyət mərkəzlərinin də rolu var. Bu mərkəzlər dünyanın bir çox ölkələrində, o cümlədən Amerikada, İsveçdə,

Almaniyada, Türkiyədə və başqa ölkələrdə fəaliyyət göstərir. İraqda Əbdüllətif Bəndəroğlunun Azərbaycan mədəniyyətinin təbliği istiqamətində gördüyü işlər daha genişdir.

Yuxarıda qeyd etdiyimiz məsələlər göstərir ki, Azərbaycan mədəniyyətinin xaricdə təbliği getdikcə genişlənməkdədir. Həmin işlərin sistemliliyinin və ardıcıllığının təmin edilməsi Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə daha yaxşı çatdırılması ilə nəticələnər və bundan həm xalqımız, həm də dövlətimiz yüksək uğurlar qazanar.

# *III FƏSİL.*

# *MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT*

## *§ 1. MƏDƏNİYYƏT VƏ TƏBİƏT-CƏMİYYƏT MÜNASİBƏTLƏRİ* [1]

Təbiət insanlar üçün yalnız xarici aləmdən-meşədən, bağdan, dənizdən ibarət deyildir. O, insanın yaranışdan məskəni, nəsildən-nəsilə keçən yurd yeri və mənəvi cəhətdən zövq aldığı bir sahədir. İnsanın həyat idealı, təhsili, mədəni səviyyəsi, xarakteri yaşadığı təbiətin qoynunda formalaşır. Lakin bütün bunlara baxmayaraq, insan təbiətə şüurlu və şüursuz münasibət göstərərək onu dəyişdirməyə çalışır. Əvvəllər təbiətin hökmranlığından asılı olan insan, sonralar bu asılılıqdan xilas olmaq üçün onu ram etməyə, ona dağıdıcı təsir göstərməyə başlayır. Təbii ki, bu da öz əks təsirini göstərir, təbiət tədricən öz qisasını almağa başlayır. Belə ki, təbiət-insan münasibətləri qlobal bir məna daşımağa istiqamətlənir. Bu zaman təbiətin qorunması, ona şüurlu münasibət göstərilməsi ümumbəşəri problemə çevrilir. Müasir dövrdə bəşəriyyət qarşısındakı yeganə yol "cəmiyyət-mədəniyyət-təbiət" nizamının əvvəlki dövrlərə nisbətən daha ciddi şəkildə gözlənilməsindən ibarətdir.

Qədim insanlar təbiətin sirlərinə bələd olmadıqları üçün təbiətin ecazkar qüvvələri qarşısında aciz qalaraq, onları fövqəltəbii kimi qəbul etmiş və müxtəlif təbiət qüvvələrini allahlar kimi fetişləşdirmişlər (Məsələn, Günəş allahı, Külək Allahı, Od Allahı və s.).

Orta əsrlərdə Avropa mədəniyyəti Xristian mədəniyyəti olsa da, eyni zamanda antik dövr mədəniyyətinin ruhunu

---

[1] Bu mövzu işlənərkən Ə.Tağıyev və Q.Əliyevin «Kulturologiya» (Bakı «Təbib», 1997) adlı dərs vəsaitindəki VII mövzu (səh. 42-55) əsas götürülmüşdür.

özündə saxlayırdı. Bu mədəniyyət təbiətə münasibətdə təbiət-allah tezisini əsas götürürdü. Xeyli sonra alimlər bu qarşılıqlı prosesdə maddi mədəniyyəti, yəni insanların əli ilə yaradılmış mədəniyyət nümunələrini tədqiq edərək onu sivilizasiya adlandırdılar. Ancaq insanın yaratdığı maddi mədəniyyət özü-özlüyündə mənəvi mədəniyyət olmadan yaşaya bilməzdi. Elə buna görə də təbiət maddi və mənəvi sərvətlərin beşiyi olub mədəniyyətin vətənidir. Təbiət ilə mədəniyyət arasında güclü əlaqə vardır. Təbiət mədəniyyətin yaranması, sonra mövcud olması və inkişafı üçün zəruri şəraitdir. Mədəniyyət isə insanla təbiət arasında bir növ vasitəçidir, onların qarşılıqlı təsirinin nəticəsidir. İnsan özündə bioloji xassələrlə sosial amilləri birləşdirir. Bunlardan birincisi təbiətlə, ikincisi isə cəmiyyətlə əlaqədardır. Deməli, insan biososial varlıqdır. Mədəniyyət ikinci təbiətdir. Elə buna görə də antik yunan filosofu Demokrit mədəniyyəti "ikinci natura" adlandırmışdır. İnsan əmək sayəsində ucalır. Əmək prosesində nəinki insanın özü təşəkkül tapmış, həm də təbiət onun tələbatına uyğun dəyişmiş, nəticə etibarilə mədəniyyət meydana çıxmışdır. Ancaq mədəniyyətin özünəməxsus, qeyri-bioloci yolla nəsidən-nəsilə ötürülən xüsusi xassələri sayəsində meydana gəlməsi ilə insan təbii mühitə uyğunlaşa bilmişdir. İnsanın qədim keçmişdə istifadə etdiyi yalnız bəzi çox primitiv əmək alətləri (ağac parçası, daş, balıqqulağı və s.) ilkin emaldan keçrilməyən təbii törəmələrdir. İnsanların tələbatını ödəmə vasitələrinin çoxunu başqa şəklə salınmış "mədəniləşdirilmiş" təbiət təşkil edir. İnsanların əli ilə yaranmış rnədəniyyət onların müxtəlif təbii şəraitə uyğunlaşmasına, xüsusən insan nəslinin təşəkkül tapdığı şəraitdən kəskin fərqlənən şəraitlərdə yaşamasına imkan yaradır. Təbiətin yaşaması insanın yaşaması üçün əsas şərtdir. "İki mədəniyyətin" birinci üzvünü təşkil edən təbiət onun ikinci üzvü olan insanın əli ilə məhv edilməməlidir.

Cəmiyyətin təbiətə münasibəti hər şeydən əvvəl istehsal əsasında qurulur. Yuxarıda qeyd etdiyimiz kimi, sosial varlıq olaraq, insanın özünün formalaşmasında əmək prosesi və istehsal həlledici rol oynayır. Hər bir insan təbiətlə qarşılıqlı əlaqəyə ictimai varlıq kimi daxil olur və bu əlaqəni başqaları ilə birlikdə yerinə yetirir.

İnsan cəmiyyəti ilə təbiət arasında daim maddələr, enerji və informasiya mübadiləsi gedir. Buna görə də təbiət və cəmiyyət arasındakı mübadilənin iki əsas növü vardır:

I.Təbii obyektlərin-havanın, suyun, bitki və heyvan mənşəli müxtəlif qida növlərinin, mineralların və s. insan tərəfindən bilavasitə mənimsənilməsi; (Təbiətlə maddi münasibətlərin bu növünün əsasını insan orqanizminə xas olan fizioloji funksiyalar təşkil edir).

II. İnsanın məqsədyönlü fəaliyyəti əmək vasitəsilə ifadə olunur. Bu münasibətlərin mahiyyəti ondan ibarətdir ki, insanlar ətraf mühitdə yaşamaq üçün münasib şərait tapmadıqları üçün onları məqsədəuyğun məhsuidar fəaliyyət vasitəsilə yaratmalı olurlar. Təbiətlə belə məqsədyönlü fəal qarşılıqlı münasibət bütün canlılar içərisində insana, bəşər cəmiyyətinə xasdır.

Cəmiyyətin təbiətə təsirinin nəticəiərindən biri də mədəni landşafdır, yəni insanın öz əli ilə dəyişdirdiyi təbiət. Mədəni landşaf iki hissəyə bölünür: aqrosfer və texnosfer.

Aqrosferə əsas etibarilə insanmcanlı təbiətə-torpağın bitki örtüyünə və heyvanlar aləminə təsirinin nəticələri daxildir (çəmənliklər, bağlar, heyvanların otlaq yerləri və s.).

İnsan tərəfindən cansız təbiətə gətirilmiş bütün maddi mədəniyyətin, orada tikilmiş qurğuların cəmi texnosferə daxildir (binalar, yollar, körpülər və s.).

Həqiqətən də müasir insan təbiətin mənimsənilməsində böyük nailiyyətlər qazanmışdır. Onun əmək alətləri ilə fəaliyyətinin genişliyi və energetika qüdrəti bunu bir daha

sübut edir. İnsanın təsiri ilə çaylar öz axın istiqamətini dəyişir, şoran torpaqlar yuyulur və s.

İnsanın təbiətə təsir miqyası nə qədər böyük olsa da, o, təbiət üzərində mütləq hakim deyil. Bunu təbiət təbii fəlakətlər göstərməklə bizə xatırladır (yanğın, daşqın, zəlzələ, quraqlıq və s.). Düzdür bu fəlakətlərin gücünü insan az və ya çox dərəcədə nisbətən azalda bilir, lakin tam aradan qaldırmağa qadir deyil. Müxtəlif tarixi mərhələlərdə insanın təbiətlə vasitəli və vasitəsiz qarşılıqlı təsirinin nisbəti dəyişməz qalmamışdır. Hər bir mərhələnin spesfik cəhətləri olmuş, keyfiyyətcə bir-birindən fəfqlənmişdir. V.Y.Kelle və M.Y.Kovalzon kimi alimlərin fikrincə, “bir pillədən digərinə keçid cəmiyyətin məhsuldar qüvvələrində baş vermiş inqilabi dəyişikliklərlə müşayiət olunur”. Bəşər cəmiyətinin inkişafında isə tarixən üç belə çevriliş məlumdur:

1.Neolit inqilabı-əkinçiliyin meydana çıxması, yığıcılıqdan, təbiətdə olan hazır məhsulları mənimsəməkdən istehsala keçid;

2.Sənaye inqilabı-kustar əmək alətlərindən maşma keçid;

3.XX əsrin 30-cu illərindən başlayaraq hələ də davam edən elmi-texniki inqilab.

Göstərdiyimiz bu inqilablar cəmiyyətin təbiətə münasibətinin dörd mərhələsini müəyyənləşdirmişdir:

I mərhələ şüurlu insanın yaranmasından başlayaraq əkinçilik və maldarlığın meydana gəlməsinə qədər davam edir. Bu dövrdə insanlar ovçuluqla, balıqçılıqla, yığıcılıqla məşğul olurlar. Onlar təbiətə daha yaxm olurlar, lakin eyni zamanda ona təsir etməyə başlayırlar.

II mərhələdə istehsalm əsas növü maldarhq və əkinçilik olur, qalan sahələr onlardan asılı vəziyyətə düşür. Bu dövrdən başlayaraq insan təbiətə müdaxilə edərək (fəal şəkildə) ona dağıdıcı təsir göstərməyə çalışsa da, özü hələ təbi-

ətin təsiri altında qalır. Dövrün sonlarına yaxın insanın təbiətdən ayrılması prosesi insanın təbiətə qarşı qoyulması şəklini alır.

III mərhələ. XVIII əsrdə İngiltərədə sənaye inqilabının başlanması cəmiyyətlə təbiətin qarşılıqlı inkişafında yeni mərhələnin başlancığını qoyur. Bu dövr insanla təbiət arasındakı ziddiyyətlərin çoxalması ilə xarakterizə olunur. Elmin, texnikanın qüvvəsindən istifadə edən insanın təbiətə dağıdıcı təsiri artır.

IV mərhələ. XX əsrin ortalarmdan başlayaraq elmlə texnikanın nailiyyətləri birləşir və təbiət-insan münasibətlərindəki ziddiyyətlərin dərinləşməsi böhranlı vəziyyətin yaranmasına səbəb olur. Bəşəriyyət təbiətə münasibətdə öz hərəkətlərinə fikir verməyə, münasibətləri nizamlamağa başlayır. İnsan yenidən təbiətə qovuşmağa meyl edir. Çünki, əvvəllər təbiətə qarşı düşünülməmiş münasibət sonralar insanın özünə qarşı çevrilir və insan nəslinin yaşamaq ehtimalı heçə enir. Bunları dərk edən insan təbiətlə münasibətlərini tənzimləmək üçün yollar axtarır.

Biz burada insanın formalaşmasında əməyin rolu və ilk mədəniyyət nümunələrinə dair müəyyən təəssürat yaratmağa çalışdıq. Eyni zamanda cəmiyyətin təbiətə münasibətinin tarixi mərhələləri ilə də tanış olduq.

İndi isə müasir dövrün qlobal ekoloji və sosial-siyasi-mədəni problemlərinə və onların həlli yonlarına diqqət yetirək.

Bildyimiz kimi, müasir dövrdə qlobal ekoloji və sosial-siyasi-mədəni problemlər qarşılıqh şəkildə əlaqədədirlər. Bu dövrün özünəməxsus cəhətləri aşağıdakılardır:

Birincisi, müasir keçid dövrü qlobal xarakter daşıyır. Ona görə ki, ayrı-ayrı ölkələrdə sosial durum dəyişir, eynı zamanda bütün dünya ölkələri elmi-texniki tərəqqi yolu ilə irəliləyir. Əgər əvvəllər bu vəziyyət dünyanın bir hissəsində

müşahidə olunurdusa, indi bu proses bütün dünya ölkələrini əhatə edir.

İkincisi, dünya elə bir inkişaf səviyyəsinə və dövrünə gəlib çatmışdır ki, onun sosial təkamülündə yalnız siyasi və sosial-iqtisadi amillərlə kifayətlənmək mümkün deyildir.

İndi insan-təbiət münasibətlərində yeni formaların tətbiqi zərurəti yaranmışdır. İnsan öz problemlərini nizama salmaq lüçün nəinki sosial-siyasi ziddiyyətlərin həll olunmasına, eyni zamanda ətraf aləmdə yaranan anormal proseslərin aradan qaldırılmasına da hazır olmalıdır.

Üçüncüsü, müasir keçid dövründə bəşəriyyəti gözləyən və izləyən sosial-siyasi və ekoloji təhlükə müxtəlif ölkələri, xalqları, millətləri və sinifləri bu sosial bəlaların qarşısını almaq üçün öz qüvvələrini birləşdirməyə təhrik edir. Bütün bu problemləri həll etmək üçün insan istəsə də, istəməsə də, həmin proseslərin gedişinə müdaxilə etməli olur.

Bütün yuxarıda qeyd etdiklərimizin nəticəsi budur ki, ceçid dövrü yeni sosial, iqtisadi, siyasi, ekoloji problemlərin ziddiyyətlərinin, cəmiyyətin və təbiətin "bəlalarının" bir təfəfdən öz kulminasiya həddinə çatması ilə, digər tərəfdən isə onların təsiri altında yeni sosial münasibətlərin yaranması, yeni cəmiyyətin, sosial həyatın yeni şəraitinin və tiplərinin formalaşması ilə xarakterizə olunur. Gərgin ekoloji duruma malik olan respublikamız üçün insan-təbiət münasibətlərinin fəlsəfi təhlili, ekoloji böhranı aradan qaldırmaq üçün şüuru və tərbiyəni məqsədəuyğun istiqamətləndirmək təxirəsalınmaz vəzifələrdəndir. Ekoloji tərbiyə vəzifələri isə ekoloji şüurun formalaşdırılması şəraitində həyata keçirilməlidir.

Müasir dövrün və dünyanın qlobal problemlərini belə qruplaşdırmaq olar:

l.İstilik nüvə müharibəsi və onunla əlaqədar meydana çıxan problemlər.

2.Ekoloji problemlər-atmosferin, ətraf mühitin və yer təkinin çirklənməsi.

Bu problemlərin həll olunması bəşəriyyətin gələcək inkişafında başlıca rol oynayar. Doğrudur, dünya ilk dəfə deyildir ki, belə böhranlarla qarşılaşır. XX əsrə qədər bunlar kortəbii qüvvələr - zəlzələ, sel, quraqlıq və s. şəkildə meydana çıxırdı. Lakin bunlar məkanca məhəlli, zamanca məhdud xarakter daşıyırdı. XX əsrin son illərində də biz təbii böhranların şahidi olur və görürük ki, bu tipli fəlakətlər dünyanın müxtəlif ölkələrində baş verir. Nəticədə minlərlə insan məhv olur, yurdsuz-yuvasız qalır. Xalqlar, millətlər bu bəlalardan çıxmaq üçün bir-birlərinə humanitar yardımlar göstərirlər. Respublikamızda da Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin sərəncamı ilə “Fövqəladə hallar komissiyası” yaradılmışdır. Bu komissiya vətənimizdə baş verən təbii fəlakətlərin səbəblərini tez bir zamanda araşdırır və onun nəticələrinin aradan qaldırılmasını dövlət səviyyəsində həll edir.

Ekoloji problemlərin aşağıdakı növləri vardır:

1. Əsasən cəmiyyətə və insana aid olanlar;
2. Əsasən təbiətə aid olanlar;
3. Həm cəmiyyətə, həm də təbiətə aid olanlar.

Ekoloji böhran halları da üç qrupa bölünür:

1. ətraf mühitin çirklənməsi;
2. ehtiyatların tükənməsi;
3. əhali çoxluğu (demoqrafik böhran və şəhərlərin böhranı).

Müasir dünyanın məruz qaldığı sosial-iqtisadi, siyasi-mədəni ziddiyyətlər öz əksini milli sahədə də tapır. Son illərin hadisələri bizə yaxşı tanışdır. Bədnam qonşularımızın məqsədyönlü fəaliyyəti nəticəsində minlərlə soydaşımız öz yurdlarından didərgin düşdü. Hansı ki, həmin torpaqlar qədim Azərbaycan torpaqları olmuşdur. Qarda, çovğunda yüzlərlə insan yollarda, dərələrdə dondu, uçruma düşdü,

məhv oldu. İndi çadırlarda ermənilərin günahı ucundan öz qaçqın taleyini yaşayan insanlar müxtəlif yoluxucu xəstəliklərə düçar olur, əzab çəkirlər. Dövlət öz imkanı daxilində onlara kömək göstərir. Lakin ərazimizin 20 faizə qədəri düşmənlər tərəfindən zəbt olunduğu bir şəraitdə müəyyən bir ərazidə əhali sıxlığının yaranması istər-istəməz böhrana səbəb olur. Elə ona görə də bu problem bütövlükdə bəşəriyyətin həll etməli olduğu məsələlər sırasına daxildir. Bəşəriyyət öz inkişafında elə bir mərhələyə çatmışdır ki, o, bir yandan nəhəng məhsuldar qüvvələr yaratmış, o biri yandan da onun doğurduğu ciddi nəticələrlə üzləşmişdir. Elmi texniki tərəqqi və insan idrakının qüdrəti bizə əvəzsiz töhfələr bəxş etsə də, ətraf mühitin qorunması, müharibələrin qarşısının alınması və s. kimi problemlər də meydana çıxarmışdır. Bu problemlərin qlobal adlandırılmasının aşağıdakı səbəbləri vardır:

a) Onlar hədsiz dərəcədə kəskin və aktual problemlər olduğu üçün ictimai tərəqqini ləngidib, sivilizasiyanı məhv etməyə qadirdir.

b) Onlar mahiyyətcə qarışıqdır, özündə ictimai və təbii prosesləri birləşdirir.

v) Onlar bütün ölkələri və bölgələri əhatə edir, bəşəriyyətin mənafeyinə toxunur.

q) Bilavasitə insan həyatının əsaslarına toxunur, elə buna görə də onların həll olunması sivilizasiyanın xilası deməkdir.

ğ) Onların həll edilməsi bütün bəşəriyyət qüvvələrini birləşdirən qlobal strategiya hazırlanmasını zəruriləşdirir. Aydındır ki, müasir dünyanın qlobal problemlərinin hamısı bir-biri ilə qarşılıqlı şəkildə əlaqəlidirlər, bir-birlərinə təsir göstərirlər. Yəni, onların birinin kəskinləşməsi digərinə də dərhal təsir göstərir. Məsələn, hərbi təhlükənin güclənməsi, sürətlə silahlanma, iqtisadi ekoloji və digər problemləri qüvvətləndirir.

Qloballıq termini üç mühüm məna daşıyır:

l) miqyaslı, əhəmiyyətli, 2) əhatəli, hər yerdə olan, 3) ümumbəşəri, beynəlxalq.

Müasir dünyanın qlobal problemləri bəzi təzahür xüsusiyyətlərinə malikdir.

Birincisi, onlar daxili məntiqə malik olub qarşılıqlı əlaqəli bir sistem kimi meydana çıxır. Onun kompleks xarakteri buradan yaranır.

İkincisi, qlobal problemlər öz dinamizmi ilə fərqlənir, belə ki, onların kəmiyyət və keyfiyyət göstəriciləri sürətlə dəyişir.

Üçüncüsü, bu problemlər bütün xalqlar üçün mühüm əhəmiyyətə malik olduğuna görə onların həlli beynəlxalq əməkdaşlıq tələb edir.

Müasir dövrdə cəmiyyətin qarşısında duran təxirəsalınmaz vəzifələrdən biri də təbiətə əxlaqi münasibət hissi tərbiyə etməkdən ibarətdir. Bəzən iqtisadi amillər bioetik amilləri üstələyir və onların nəticəsi birbaşa insan həyatına istiqamətlənir. İnsanda həyata məntiqi münasibət, şəxsi məsuliyyət hissinin tərbiyə edilməsi təbiətə əxlaqi münasibəti gücləndirən xüsusiyyətlərdəndir. İnsanın təbiətlə qarşılıqlı münasibətlərini tənzimləmək üçün həyata keçirdiyi proqram ekoloji mədəniyyətdir.

Ekoloji problemlərin kəskinləşərək qlobal xarakter aldığı əşasən XX əsrin 40-cı illərindən başlayaraq hiss olunmağa başladı. İndi bir çox beynəlxalq təşkilatlar bu məsələlərin həlli ilə məşğul olur.

BMT-nin 1972-ci ildə Stokholmda keçirdiyi xüsusi konfrans ekoloji böhrandan çıxmaq üçün beynəlxalq əlaqələrin genişlənməsinə kömək etdi. Hazırda BMT-də qlobal ekoloji proqramlar həyata keçirmək üçün xüsusi nümayəndələr şurası fəaliyyət göstərir. Bu şuranın dünya dövlətlərindən əsas tələblərindən biri ekoloji problemlərin informativliyi ilə bağlıdır. BMT-yə görə “hökumətlər ətraf mühiti key-

fiyyətlə idarə etmək, təbiəti mənimsəmə biliklərinin öyrənilməsi və təbliği, mütəxəssislər hazırlanması, ətraf mühitin keyfiyyəti haqda düzgün məlumat verilməsi üçün məsuliyyət daşıyır, xalqlarım bu problemləri həll etməyə səfərbər edirlər.

İnsanın təbiəti mənimsəmə miqyası genişləndikcə ona kortəbii təsirin neqativ nəticələr törətməsi təhlükəsi daima artır. Radiasiya, ultrasəs, elektromaqnit sahələri kimi hadisələrin, yüksək dərəcədə toksik kimyəvi maddələrin insan orqanizminə bilavasitə təsir intensivliyinin getdikcə artması onun sağlamlığına mənfi təsir göstərir. Müasir insanın müxtəlif konserogen amillərlə təması güclənmişdir. Bütün bunların nəticəsində insanların genetik vəziyyətinin nizamının pozulması təhlükəsi yaranır.

Respublikamızda dəyişən radiasiya və elektromaqnit fonu insanların sağlamlığına mənfi təsir göstərir, ekoloji vəziyyəti kəskinləşdirir. Belə şərait yaradan hərbi obyektlərdən biri Sovet İttifaqı dövründə Qəbələ rayonunda tikilmiş Xüsusi Təyinatlı Radiolokasiya Mərkəzidir (XTRLM).

XTRLM-nin tikintisinə 1979-cu ildə başlanılıb 1984-cü ildə bitirilmişdir. Həmin obyekt fəaliyyətə 1985-ci ildən başlamışdır. Bütün obyektin fəaliyyət məsələlərini faktiki olaraq SSRİ, formal olaraq Azərbaycan həll etmişdir. Azərbaycanın Dövlət sanitar nəzarəti orqanları obyektin buraxılışında iştirak etməmişlər.

XTRLM-nin zərərli tibbi-ekoloji fəaliyyəti barədə respublika mətbuatında bir-birini inkar edən yazılar çap olunmuşdur. 1992-ci il mayın 5-də Milli Məclisdə bu məsələyə baxılıb 117 saylı qərar çıxarılmışdır. Həmin qərarı əsas götürən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya, İnfeksion Xəstəliklər, Peşə Xəstəlikləri Mərkəzlərinin, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya, Pediatriya, Hematologiya və Qanköçürmə İnstitutlarının mütəxəssislərindən ibarət komissiya yarada-

raq Qəbələ rayonundakı XTRLM-nin ətraf mühitə və rayon əhalisinin sağlamlığına vurduğu tibbi-ekoloji zərərləri öyrənməyi onun qarşısına məqsəd qoymuşdur. Bütün bunlara baxmayaraq bu məsələ hələ də öz həllini tapmamışdır.

Bütün yuxarıda qeyd etdiklərimiz, yəni sosial-siyasi, təbii-ekoloji problemlər xalqımızın, dövlətimizin qarşılaşdığı gerçəkliklərdir. Bu gərgin vəziyyətdən çıxıb xalqın sosial vəziyyətini yaxşılaşdırmaq üçün mövcud hərbi-siyasi məsələlər həll edilməli, əhalinin özünə və ətraf mühitə münasibəti dəyişdirilməli, insanlara kainatdakı həyatın yalnız ətraf mühitlə harmoniya şəraitində mövcudluğu fikri aşılanmalı, iqtisadi yüksəliş və milli mənafe yolu tutmaqla mükəmməl dövlətçilik siyasəti yeridilməlidir.

## *§2. DİL VƏ MƏDƏNİYYƏT*

Mədəniyyətin çox mühüm tərkib hissəsi dil mədəniyyətidir. Dil və mədəniyyət məsələsi zaman-zaman həm dilçilikdə, həm də fəlsəfi elmlərdə (etika, estetika, məntiq, mədəniyyətşünaslıq və s.) tədqiq olunsa da, fundamental şəkildə araşdırılmamışdır.

Azərbaycanın coğrafi mövqeyi, burada qədim şəhər mədəniyyətinin mövcudluğu, hələ miladdan əvvəl Azərbaycanda Manna, Midiya dövlətlərinin yaranması, Azərbaycan torpaqları uğrunda Assuriya və Urartu dövlətləri arasında uzun sürən müharibələr və s. Azərbaycanda miladdan əvvəl genetik və tipoloji cəhətdən müxtəlif dillərdə danışan tayfa və xalqların yaşaması haqqında fikir söyləməyə əsas verir. Həmin tarixi hadisələr araşdırıldıqda məlum olur ki, bu ərazidə şəhər mədəniyyətinin binası qoyulduğu zamandan Azərbaycanda çoxdillilik mövcud olmuşdur. Azərbaycan ərazisində qədimdən yaşayan müxtəlif mənşəli etnoslar (türklər> iranlılar, iber-qafqazlar və s.) öz dillərini, adət-ənənələrini

indiyə qədər mühafizə etmələrinə baxmayaraq ölkədə aparıcı etnokulturoloji mövqe hələ orta əsrlərdən etibarən məhz Azərbaycan türklərinə məxsusdur. Məsələ elə burasındadır ki, həmin türk etnosları Azərbaycana təxminən min beş yüz illik bir dövr ərzində tədricən gəlib məskunlaşmış, xalq olaraq məhz burada (Azərbaysanda!), qeyri-türk etnoslarının əhatəsində formalaşmışdır. Müasir Azərbaycan dilinin xüsusilə Şimal regionlarında hun-qıpçaq tayfa dillərinin element mövcudluğu bunu təsdiq edir. Və buraya həmin regionlarda bu günə qədər mühafizə olunan bir sıra qədim hun-qırçaq antroloji, etnoqrafik etnopstxoloji göstəricilərini də əlavə etmək olar. Azərbaycanda (xüsusilə onun Cənubunda) axırıncı türk məskunlaşmaları orta əsrlərin sonuna təsadüf edir.[1]

Beləliklə, deyilənlərdən aydın olur ki, Azərbaycanın türkləşməsi prosesi iki mərhələdən ibarətdir:

I mərhələ (eramızın əvvələrindən I minilliyin axırlarına qədər olan dövr) hun-qıpçaq mərhələsi;

II mərhələ (I minilliyin sonu II minilliyin əvvələrinə qədər olan dövr) oğuz-səlcuq mərhələsi.

Azərbaycanın Şimalında əsasən hun-qıpçaqlar, Cənubunda isə oğuzlar məskuniaşmışlar. III-IV əsrlərdə cənubdan Sasanilər Azərbaycanı İşğal edərək iqamətgahlarını Təbrizə köçürürlər. Bir qədər sonra isə müxtəlif Şimali Qafqaz tayfaları Şimaldan hunlar və xəzərlərin Qafqaz Albaniyasını ələ keçirməsi Azərbaycanda çoxdilliliyin daha geniş yayılmasına səbəb olur.

İslamın meydana çıxması ilə Sasani sülaləsi hakimiyyətinə son qoyulur. Atlantik okenından Hindistana və Çinə qədər geniş bir ərazidə yayılan ərəb xəlifəliyi islam dini ilə birlikdə ərəb dilini də Azərbaycana gətirdi.

---

[1] Nizami Cəfərov. Azərbaycanşünaslıq məsələləri. Bakı, BDU nəşr.2001. Səh.4.

Məlumdur ki, VIII əsrdən etibarən Azərbaycanda islam, zərdüştlük və xaçpərəstlik dinlərinə etiqad olunurdu. Buna görə də əsasən Azərbaycan, fars və ərəb dilləri əsas ünsiyyət vasitəsi idi. Azərbaycanın Bərdə, Şamaxı, Gəncə, Naxçıvan, Ərdəbil, Marağa, Təbriz və s. şəhərlərində ticarətin genişlənməsi, mədəniyyətin tərəqqisi Hindistan, Rusiya, Orta və Ön Asiya, Suriya, İraq, Misir, Kiçik Asiya ölkələri ilə ticarət münasibətlərini gücləndirir. Bu isə ölkədə çoxdilliliyin inkişafına imkan verir.

Bildiyimiz kimi, VIII-X əsrlərdə Azərbaycanda ərəb dili elm, fars dili şer, Azərbaycan dili isə ümum ünsiyyət dili funksiyasını daşıyırdı. VII-IX əsrlərdə ayrı-ayrı köçəri ərəb tayfa və qəbilələrinin Azərbaycana gəlməsi, bəzi İran dilli xalqların azərbaycanlılarla isti münasibətləri Azərbaycan dilinin ümumünsiyyət funksiyasına bir o qədər də təsir edə bilməmişdir. Orta əsrlərdə müsəlman mədəniyyətinin və idelogiyasının dili kimi tanınan ərəb dilinin, poeziyaya xüsusi ahəng verən fars dilinin ziyalılar içərisində geniş yayılması üçün real şərait yarandı. Lakin buna baxmayaraq, nə VII-IX əsrlərdə Azərbaycanın bəzi rayonlarına-Bərdəyə, Qazaxa, Qəbələyə, Şamaxıya və s. köçmüş ərəblər, İrandan və Şimaldan gələrək Azərbaycanda məskunlaşmış bəzi irandilli qəbilələr, nə də müxtəlif dillərdə danışan yerli cammaat, o cümlədən albanlar nəinki Azərbaycan dilinin unudularaq aradan çıxmasına, hətta ərəb, İran və albandilli xalqlar asanlıqla öyrəndikləri Azərbaycan dilində danışmaqla ölkəmizdə çoxdilliliyin inkişafında xüsusi rol oynadılar.

Miladın II-III əsrlərindən ölkəmizin ərazisində Azərbaycan dilinin ümumünsiyyət dili olmasına baxmayaraq XI-XII əsrlərdə oğuzların, səlcuqların və qıpçaqların Azərbaycana kütləvi gəlişi fars dilinin rəsmi dövlət dili qəbul edilməsinə səbəb oldu. Bu dövrdə fəaliyyət

göstərən mədrəsələrdə dərslər əsasən fars və ərəb dillərində aparılırdı.

Türk yazılı ədəbi dillərinin, o cümlədən Azərbaycan yazılı ədəbi dilinin inkişafı XIII əsrlə əlaqədardır. Türk ədəbi dillərinin məhz XIII əsrdə inkişafının aşağıdakı səbəbləri var:

1) Türk dillərinə aid ümumtürk yazılı abidələrinin mövcudluğunun qədimliyi,
2) İslam dini ehkamlarının xalqa türk dillərində çatdırılmasının zəruriliyi,
3) Fars və ərəb dilli ədəbiyyatın təsiri.

Məlumdur ki, 1259-cu ildə Xacə Nəsrəddin Tusi (1201-1274) Marağa rəsədxanasının əsasını qoymuş və 400000 nüxsədən artıq kitab fondu olan kitabxana yaratmışdır. Şərq ölkələrinin mədəniyyət tarixində orta əsrlərin ən böyük rəsədxanası olan bu rəsədxanada azərbaycanh Fəxrəddin Marağayi və Şəmsəddin Şirvani Şərq ölkələrinin bir çox alimləri ilə birgə fəaliyyət göstərmişlər. Xacə Nəsrəddin Tusi bununla bərabər müxtəlif elm sahələrini tədqiq və tədris edən böyük bir akademiya, Təbrizdə Darüş-Şəfa adlı tibb akademiyası yaratmışdır. Zəngin kitabxanaya, mədrəsəyə, rəsədxanaya və xəstəxanaya malik olan bu akademiya şərq ölkələrinin mədəniyyətinin tərəqqisində mühüm rol oynamışdır. Burada həm işləyən, həm də təhsil alanların əksəriyyəti üç dil-ərəb, fars və Azərbaycan dilini mükəmməl bilmişlər. Ümumiyyətlə, Həsənoğludan, Nəsimidən və Qazi Bürhanəddindən başlamış XIX əsrin I yarısına kimi Azərbaycanın mədəniyyət və ictimai fikir tarixində elə ziyalımız olmamışdır ki, ərəb, fars və Azərbaycan dillərini bilməsin. Elə Həsənoğlunun dövrümüzə gəlib çatmış üç qəzəlindən biri fars, ikisi isə azərbaycan dilindədir. Bu qəzəllərə diqqətlə nəzər saldıqda şairin ərəb dilinə də bələdliyini görmək olar. Nəsiminin fars və azərbaycan dillərində "Divan"ının və ərəb dilində

qəzəllərinin olması onun da üç dili yaxşı bilməsini söyləməyə əsas verir. Qazi Bürhanəddinin ancaq Azərbaycan dilində yazdığı qəzəl, rübai və tuyuqlarında ərəb və fars dillərinə məxsus elə birləşmələr vardır ki, belə birləşmələrdən ancaq üç dili (azərbaycan, fars, ərəb) sərbəst bilən şəxs istifadə edə bilər.

Tarixdən məlumdur ki, 1501-ci ildə Azərbaycanda ilk mərkəzi feodal dövləti yaratmış Səfəvilər sülaləsi meydana gəlir. Elə həmin il Təbrizdə Azərbaycan şahı elan olunan I Şah İsmayıl Xətainin tarixdə ən böyük xidməti odur ki, o Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırıb. Bir sıra Avropa dövlətləri ilə siyasi əlaqələr yaradan Şah İsmayıl özü də Azərbaycan və fars dillərində gözəl poeziya nümunələri yaratmışdır.

XVI əsrdə bu üç dildən böyük məharətlə istifadə edən dahi şairimiz Məhəmməd Füzulidir. O, azərbaycanca, farsca, ərəbcə bir çox bədii və fəlsəfi əsərlərin müəllifidir.

1587-ci ildə I Şah Abbas Səfəvi hakimiyyətə gəlir və paytaxtın Qəzvindən İsfahana köçürülməsi Azərbaycan dilinin nüfuz dairəsini daha da genişləndirir. Onun hakimiyyəti ərzində yalnız Azərbaycanda deyil, hətta İranda da hakimlik edən səfəvilərin Avropa ölkələri və Rusiya ilə əlaqələri daha da möhkəmləndi, "Buna görə də XII əsrdə Avropaya köçmüş yarıac, dərvişvari həyat sürməyi əsas tutan karmaletlərin, Avropa səyyahlarının və missionerlərinin Azərbaycana və İrana güclü axını XVI-XVII əsrlərə təsadüf edir. Səfəvilər hökumətində ikidilliliyin canlı şahidi olan bu səyyah və missionerlər İsfahanda, Təbrizdə, Ərdəbildə və Şamaxıda fars dili ilə yanaşı, Azərbaycan dilinə də böyük həvəs göstərirdilər".

XVII əsrdə Saib Təbrizi, Qövsi Təbrizi, Fədai, Məhəmməd Əmani, Məsihi və başqa şairlər, XVIII əsrdə Nişat Şirvani, Şakir Şirvani, Zülali, ədəbi poetik dili xalq dilinə uyğunlaşdırmaqda xüsusi rol oynamış Molla Vəli

Vidadi, Molla Pənah Vaqif Azərbaycan dilinin inkişafında, zənginləşməsində əvəzsiz xidmətlər göstərmişlər.

Beləliklə, demək olar ki, IX əsrin əvvəllərindən başlayaraq XIX əsrin əvvələrinə qədər həm Azərbaycanda, həm ərəb ölkələrində, həm də İranda bəzi mədrəsələrdə təhsil alan hər bir azərbaycanlı ərəb, fars və Azərbaycan dillərini yaxşı bilmişlər. Azərbaycan hüdudlarında yaşayan başqa xalqların nümayəndələri isə (albanlar, ərəblər, ruslar, ləzgilər və b.) öz ana dillərindən əlavə Azərbaycan dilini də bilmişlər. Hətta VIII-IX əsrlərdə Azərbaycana köçürülmüş ərəblər, daha sonralar bəzi irandilli xalqlar, albanlar öz ana dillərini unudaraq, bütünlüklə Azərbaycan dilində danışmışlar.

XIX əsrin əvvələrində Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsindən sonra əhalinin ziyalı təbəqəsi ərəb, fars dilləri ilə yanaşı rus dilini də öyrənməyə həvəs göstərdilər. Doğrudur, yuxarıda qeyd etdiyimiz kimi hələ səfəvilər dövründən azərbaycanlı diplomatlar, tacirlər və səyyahlar arasında rus dilində danışanlar olmuşdur, lakin rus dilinin Azərbaycanda daha geniş yayılması məhz XIX əsrin əvvəllərindən başlanır. Bu dövrdə Tiflisdə, Bakıda və Zaqafqaziyanın digər şəhərlərində Rusiya imperiyası tərəfindən açılan müxtəlif idarələrdə tərcüməçilərə böyük ehtiyac yaranır. Fars, ərəb, rus dillərini mükəmməl bilən Abbasquluağa Bakıxanov Qüdsi 1819-cu ildə general Yermolov tərəfindən Tiflisə dəvət oiunur. O, (A.Bakıxanov) İ.İ.Qriqoryevlə birlikdə 1852-ci ildə Azərbaycan dilinin rusca müntəxəbatını tərtib etmiş və 1855-ci ildə azərbaycanca-rusca oxu və tərcümə kitabını hazırlamışdı.

Tiflis gimnaziyasının müəllimi, Azərbaycanın böyük Şairi Mirzə Şəfi Vazeh Azərbaycan, fars, ərəb, türk və rus dillərini mükəmməl bilmiş və 1855-ci ildə nəşr etdirdiyi dərsliyin sonunda azərbaycanca-rusca lüğət də vermişdir.

XIX əsrdə neft səneyesinin inkişafı Bakını Rusiyanın böyük sənaye mərkəzinə çevirdi. Əhalinin milli tərkibi zənginləşdi. O dövrdə, azərbaycanda 30 millətin nümayəndəsi yaşayır və fəaliyyət göstərirdi. Yalnız neft sahəsində işləyənlərin elə 25 faizi ruslardan ibarət idi.

XX əsrin əvvəllərində Bakıda rus və Azərbaycan dillərində müxtəlif mətbuat orqanlarının fəaliyyət göstərməsi, Azərbaycanın iri sənaye şəhərlərində müxtəlif ruhlu dərnəklərin, qrupların fəaliyyəti, Rusiyanın bir çox şəhərlərinə təhsil almaq üçün gedən ziyalıların fəaliyyəti nəticəsində dil ilə birgə mədəniyyətimiz də zənginləşir, inkişaf edirdi.

Bütün bu yuxarıda danışdıqlarımızdan bir daha aydın olur ki, dil ictimai hadisədir. Onun meydana çıxmasında əsas yeri bioloji amillərin tutmasına baxmayaraq, dilin sonrakı inkişafı ictimai amillərlə bağlıdır. Dil mədəniyyətin ən mühüm vasitəsi və aparıcısı olmaqla onun bütün sahələrini əhatə edir.

Dünyada mövcud olan 3000-dən çox dildən yalnız 250-si ədəbi dil kimi istifadə olunur. Qeyd olunan 3000-dən çox dilin «...4-ündə 100 ınilyondan çox, 6-da 50 milyonadək, 50-də 1 milyondan 10 milyonadək, qalan dillərdə isə 10 mindən 1 milyonadək adam danışır. Belə ki, bütün dünyada öz yazısı olan cəmi 250 ədəbi dil vardır. Amma bu dillərin zəngin folklor materialları mövcuddur. Dünya dilləri içərisində cəmi 5 dil BMT-nin rəsmi dili kimi qeydə almmışdır. Onlar aşağıdakılardır: ingilis, rus, fransız, ispan və çin.

...Dünyada ən çox yayılmış 13 dil mövcuddur ki, onlar da dünyanın 65 ölkəsinin dövlət dilidir. Dünyanın 20-dən çox ölkəsində ispan, 15 ölkəsində ingilis, 13 ölkəsində ərəb, 9 ölkəsində fransız, 3 ölkəsində alman, 2 ölkəsində

partagiz dili dövlət dilidir. Deməli dünyanın 60 ölkəsi cəmi beş dildə danışır”[1]

Dünyada ən çox yayılmış dillərdən biri rus dilidir. Bu dil keçmiş sovetlər birliyi, indiki MDB ölkələrində geniş yayılmış, çox vaxt rəsmi dövlət sənədləri belə rus dilində tərtib olunmuşdur. Azərbaycan müstəqilliyinin qazandıqdan sonra bütün dövlət strukturlarında yazışmalar öz doğma ana dilimizdə aparılır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin sərəncamı ilə 1 avqust 2001-ci il tarixdən isə latın əlifbasına keçilmişdir. Bütün bu deyilənlərdən bir daha aydın olur ki, dil və yazı mədəniyyət sistemində özünəməxsus yer tutur. Belə ki, müasir dövrün mühüm şərtlərindən biri insanların elmi-texniki biliklərə yiyələnməsidir ki, bu da ancaq təhsil vasitəsilə həyata keçirilir. Təhsil isə dilin və yaxud dillərin öyrənilməsindən başlayaraq, onunla da davam və inkişaf Dilin mədəniyyətlə əlaqəsinin digər mühüm bir cəhəti də onun mənəvi sərvətləri maddiləşdirilib qoruması funksiyasıdır. Məlumdur ki, bir çox insan nəslinin əməyi ilə qazanılmış nailiyyət sonra asanlıqla hətta uşaqlar tərəfindən mənimsənilir və tərəqqinin mahiyyəti də elə bundadır. Lakin unudulur ki, insan bunun üçün məhz dilə borcludur.[1] Mədəniyyətin tarixi inkişafının ayrı-ayrı mərhələləcində insanın təfəkkür və ünsiyyət fəaliyyətinin ehtiyaclarına uyğunlaşdıqca dil də inkişaf edir, zənginləşir, dolğunlaşır insan fəaliyyətinin bütün əsrarəngizliyini və əlaqəsini, tarixən qazanılmış mədəniyyətin anlamlar xəzinəsi, insan mənəviyyatının sonsuz zənginliyini əks etdirmək ehtiyacı ədəbi dili, onun funksional üslublarını, ifadə imkan və vasitələrini daima təkamülə, inkişafa məcbur edir.

---

[1] Ə.Tağıyev. Q.Əliyev Kulturologiya (dərs vəsaiti) Bakı. Təbib - 1997 səh. 39

## *§3. DİN VƏ MƏDƏNİYYƏT*

Cəmiyyətdə mövcud olan hər hansı bir ideologiyanın, o cümlədən dini ideologiyanın insanla əlaqədar mürəkkəb sosial-iqtisadi, mədəni-tarixi və mənəvi kökləri vardır. Bizim üçün əhəmiyyətlisi budur ki, o, insanların sosial-mənəvi ideyaları, adət-ənənələri, məişəti, arzu və inamları ilə birləşir, onları özünəməxsus halda ifadə edir. Ümumiyyətlə, məlumdur ki, bütün dinlər, o cümlədən hazırda sitayiş etdiyimiz islam dini də yarandığı gündən müasir dovrə kimi böyük təkamül yolu keçmişdir.

Bir neçə il öncə ali məktəblərdə tədris olunan "Dinşünaslıq" fənni ibtidai dinlərdən başlayaraq dünya dinləri də daxil olmaqla gənclərə din haqqında zəruri məlumatlan çatdırmaq, bu prosesdə adət-ənənələrimizlə, dövlət bayrağında öz əksini tapmış müsəlmançılığımızla bağlı bilgilər verməк baxımından əhəmiyyətli idi. Lakin son illər bu fənnin tədris planmdan çıxarılmasını nəzərə alaraq, "Mədəniyyətşünaslıq" fənnindən tərtib etdiyimiz proqramda öz əksini tapmış "Mənəvi Mədəniyyət və Din" mövzusunu bir qədər əhatəli şərh etməyi məqsədəuyğun bildik.

Mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri də dindir. O, insan şüurunun müəyyən inkişaf səviyyəsi ilə əlaqədar təbii və ictimai ehtiyac baxımından yaranan sosial tarixi və mənəvi hadisə, tarixi kateqoriyadır. Din ictimai şüur formalarından biridir. Dinin əsasında obyektiv gerçəkliyin insan şüurunda əksolunması dayanır.

Məlumdur ki, ictimai şüur formaları olan elm, əxlaq, fəlsəfə, siyasi ideologiya və s. hər biri gerçəkliyin müxtəlif xüsusiyyət və tərəflərini insan şüurunda əks etdirirlər. Dinin fərqləndirici xüsusiyyəti isə ondan ibarətdir ki, o, obyektiv reallığı fövqəltəbiiliyə əsaslanmaqla şüurda əks etdirir. Din təbiət-cəmiyyət hadisələrinin baş veməsini, inkişafını, bütün

dəyişiklikləri fövqəltəbii qüvvələrin təsiri ilə əlaqələndirir, onların fəaliyyətinin nəticəsi kimi izah edir.

Ərəb dilindəki "dinun" sözündən yaranan "din" termininin mənası "inam", "etiqad" deməkdir. "Din" termini dilimizə Azərbaycanda islamın yaranması ilə əlaqədar keçmişdir.

Dinin mənşəyi və qədim formaları haqqında müxtəlif mənbələrdən məlumat almaq mümkündür:

1. Təbiət və ictimai elmlərin-xüsusilə, fiziologiya, tarix, psixologiya və etnoqrafiya elmlərinin bu istiqamətdə qazandığı uğurların elmi-fəlsəfi təhlili;

2. Arxeoloji tədqiqatlar nəticəsində üzə çıxarılmış müxtəlif nümunələr;

3. Müasir dövrdə sivilizasiyadan kənar həyat tərzi yaşayan qəbilə və tayfaların həyat tərzi. Məsələn, Avstraliya, Qərbi Afrika və bəzi Şimal xalqlarının həyat tərzi.

4. Şifahi və yazılı abidələr; (Bu barədə "Orxon-Yenisey abidələri" və "Kitabi-Dədə Qorqud" dastanlarında məlumat verilir).

5. Bu gün də yerinə yetirdiyimiz ayin və mərasimlər. Onlarda ibtidai dini təsəvvürlərin izləri vardır. Məsələn, qurban kəsmək, ehsan vermək, bəzi xalqların dəfn mərasimi və s.

Məlumdur ki, insanın yaranmasında və onun şüurunun formalaşmasında əmək prosesi mühüm rol oynamışdır. Ehtiyac üzündən fəaliyyətə başlayan insanın ilk əcdadı bu prosesdə müəyyən vərdişlər qazanmış və getdikcə şüur, təfəkkür, nitq və s. də yavaş-yavaş meydana çıxmışdır.

İctimai inkişafın aşağı səviyyədə olması, insanınm kortəbii qüvvələr qarşısında acizliyindən irəli gələrək onun şüurunda allah, axirət, ruh və s. kimi anlayışları yaratması ibtidai icmada müxtəlif dini təsəvvürlərin meydana çıxmasına səbəb oldu.

Yuxarıda qeyd etdik ki, din tarixi-ictimai hadisədir. Qədim maddi və mənəvi abidələr göstərir ki, dinin yaranması və formalaşması milyon illərlə davam etmişdir. Bəşəriyyətdə dinsizlik dövrü də mövcud olmuşdur. Bunu müasir etnoqrafiya elmi bir çox faktlara əsaslanmaqla sübuta yetirir.

Müəyyən şüura malik insanın təqribən 2,5-3,5 milyon il bundan əvvəl yaranmasını, yer üzərində ilk dini təsəvvürlərin eramızdan 40 min il əvvəl, yuxarı paleolit dövründə meydana çıxmasını elm artıq təsdiq etmişdir.

Dinin mənşəyi və mahiyyəti əsasında ictimai və mənəvi təlabat dayanmış, ehtiyacdan din tarixi yaranmışdır. İnsanların şüurunda obyektiv gerçəkliyin dini əksi nəticə etibarilə onların maddi istehsal fəaliyyətinin məhdudluğu və bununla əlaqədar ictimai münasibətlərin tarixi məhdudluğu ilə bağlıdır. Kortəbii qüvvələr insanlarda qorxulu, sirli, anlaşılmaz hisslər yaradır. Onların şüurunda allahlar, hər şeyə qadir ruhlar, fövqəltəbii qüvvələr haqqında təsəvvürlər yaradır. Sonrakı mərhələlərdə ilkin ictimai-iqtisadi formasiyalarda isə əməksevər kütlələrin ictimai zülm-kütləvi işsizlik, aclıq, xəstəlik və s. fəlakətlər qarşısında acizliyi də onlarda dini təsəvvürləri daha da gücləndirir. Lakin bütün bunlarla bərabər ibtidai insan ətrafında baş verən, ona aydın olmayan hadisələrin, yaranan vəziyyətin səbəblərini öyrənmək istəyi ilə, nə qədər ləng olsa da, inkişafa doğru irəliləyir.

Yer üzündə mövcud olmuş və hal-hazırda da mövcud olan dinlər tarixi-təkamül baxımından belə qruplaşdırılır:

1. Sinifli cəmiyyətdən əvvəl mövcud olan dinlər.

"İbtidai dinlər" adlandırılan bu ilkin din formalarına animizm, totemizm, magiya, fetişizm, sehrbazlıq, əcdad kultu, atəşpərəstlik, bütpərəstlik və s. daxildir.

2. Sinifli cəmiyyətdə mövcud olan dinlər.

Yayılma dairəsinə görə də onlar iki qrupa bölünür:

a) Milli dövlət dinləri.

Buraya iudaizm, induizm, sintoizm, çaynizm, konfusiqilik, daosizm və s. daxildir. Müəyyən bir və ya bir neçə dövlətin ərazisində yayılan bu dinlərə, əsasən bir və yaxuda da bir neçə millət və xalq etiqad etmişdir.

b)Dünya dinləri.

Buraya buddizm, xristianlıq və islam daxildir. Onlar daha geniş miqyasda bir çox millətlər və xalqlar arasında yayılmışdır. Sinifli cəmiyyətdə mövcud olan dinlər müasir dinlər də adlandırılır. Xristianlıq, islam, iudaizm, buddizm, induizm və s. belə dinlərdəndir.

İbtidai icma qurluşunun sonlarında artıq ibtidai insanın şüurunda əsaslı şəkildə dəyişikliklər oldu. Maddi həyat tərzində yaranan köklü dəyişikliklər insanların dini təsəvvürlərində, şüurlarında da dəyişikliklərin meydana çıxmasına səbəb oldu.

Dini şüur iki şəkildə özünü göstərir:

l) dini psixologiya əsasmda yaranan adi dini şüur;

2) həm ictimai mühitin, həm də dini idealogiyanın təsiri ilə formalaşan, lakin dini təlimin mahiyyətinə bələd olmayan dindar şəxsin şüuru.

Dinin məzmununa dini şüur, dini münasibətlər, dini fəaliyyət və dini təsisatlar daxildir. Dini təşkilatlar, dini orqanlar, dini cəmiyyətlər, bırliklər, dini icmalar, kilsə, məscid və s. dini təsisatlardır. Onların aparıcı qüvvəsi ruhanilərdir. Dini təsisatlar müəyyən etiqad, inam zəminində birləşən dindar insanların fəaliyyətini təşkil edir, əlaqələndirir və istiqamətləndirir.

Din ilə əxlaq, fəlsəfə, elm və incəsənət arasında da əlaqə mövcuddur. Əxlaq insanların bir-birinə və cəmiyyətə olan münasibətlərini tənzimləyən davranış normaları və qaydaları toplusu olmaqla dindən xeyli əvvəl meydana çıxmışdır. Din öz mövqeyini möhkəmləndirmək, əhatə dairəsini genişləndirmək məqsədilə ən sadə əxlaq normalarından belə yetərincə faydalanmışdır.

Dinlə incəsənət arasında da sıx əlaqə vardır. Belə ki, əsl incəsənət spesifik formada, bədii obrazlar vasitəsilə gerçəkliyin düzgün inikasını verir və dünyanı dərk etməkdə insanlara kömək edir. Buna görə də din həmişə insanlara dini-tərbiyəvi təsir göstərmək məqsədilə incəsənətdən istifadə etməyə, estetik təsir vasitələrindən dini etiqadın möhkəmləndirilməsi və yayılması üçün onun ideya-estetik təsir gücündən faydalanmağa çahşmışdır. Qabaqcıl incəsənət həmişə ictimai tərəqqiyə, insanların estetik-əxlaqi tərbiyəsinə xidmət etmişdir. İncəsənət insanın mənəvi təkamülündə milli-dini mənəvi sərvətlərə yiyələnməsində, bütövlükdə mənəvi-estetik tərbiyəsində çox mühüm vasitədir. İbadətgahlarda, məscid və kilsələrdə incəsənətin müxtəlif növlərindən, rəssamlıqdan, heykəltəraşlıqdan, memarlıqdan və s. istifadə edən din insanlara güclü emosional təsir etməyə nail olmuşdur. İnsanların şüurunda yaranan inam onların yaratdıqları dastanlarda, nağıllarda və digər ədəbi-bədii nümunələrdə öz əksini tapmışdır.

Belə ədəbi nümunələrdən biri də Orxon yazılı abidələridir. Bu abidələr qəbirüstü kitabə olması baxımından Yenisey abidələri ilə birləşir. Lakin Orxon kitabələri həcminə, yazılış tərzinə və məzmununa görə Yenisey abidələrindən fərqlənir. Belə ki, burada bir qayda olaraq türk tarixi, türk xalqlarının formalaşma və məskunlaşma dövründə apardıqları müharibələr, qarşılıqlı tayfa münasibətlərinin formalaşması və s. məsələlər barədə dərin ideya-fəlsəfi tutuma malik məlumatlar verilir. Bütün bunlarla bərabər türklərin qəhrəmanlıq ənənələri, tanrı ilə türkün ruhi bağlılığına, "qohumluq əlaqələrinə", dövlətçilik və məişət məsələlərinə aid fikir və düşüncələr də öz əksini tapmışdır.

Qeyd etdiyimiz kimi, türklər özlərininin tanrı ilə möhkəm, qırılmaz "qohumluq münasibətlərinə" dərin inam bəsləyirdilər. Bunu "Gültigin" kitabələrindən gətirdiyimiz nümunələr də təsdiq edir:

“Tanrıtək göylərdə doğulmuş türk müdrik xaqanı bu vaxt taxta oturdum”[1].

“Türk xalqanın adı, şöhrəti yox olmasın deyə, atam xaqanı, anam xatunu yüksəltmiş tanrı, türk xalqının adı, şöhrəti yox olmasın deyə, özümü tanrı xaqan oturtdu".[2]

Gördüyümüz kimi, bu nümunələrdə türkün tanrı övladı olması inamı və türk etnosunun tanrı himayəsində yaşaması etiqadı özünün bədii əksini tapmışdır.

Türk etnosunun tanrı tərəfindən qorunması inamı əsrlərlə türk xalqlarının şüurunda möhkəmlənmişdir. Təsadüfi deyil ki, türk etnosunun yer üzündən silinib yox edilməsinə razı olmayan tanrının daima çətin anlarda bu etnosun qayğısına qalaraq onu hifz etməsi "Gültəkin" abidələrində belə əks olunmuşdur:

“Türk xalqı yox olmasın deyə, xalq olsun deyə atam İltəris xaqanı, anam İlbikə xatunu tanrı təpəsində tutub yuxarı qaldırmış”.

Türkün tanrı himayəsində olması qənaəti ona alplıq, ərənlik, qəhrəmanlıq keyfiyyətləri də qazandırır. Türk xalqları daima dörd tərəfdən əhatə edilmiş yağılarla gərgin mübarizə, ağır döyüş şəraitində artmış, möhkəmlənmiş və formalaşmışdır. Bu xarakterik xüsusiyyətlərin türklərdə formalaşmasına səbəb olan amillərdən biri də onların özlərini yer üzünün ən qədim, ilkin sakini hesab etmələridir.

Türk xalqlarında tanrı yazısına, taleyə inam da onların tanrıçılıq düşüncələri və inamları ilə bağlıdır. Ümumiyyətlə, türk epik ədəbi nümunələrində insanların tanrı tərəfindən yaradılması və onun ölümsüzlüyü (cismən vəfat etsə də ruhən yaşaması) inamı da öz bədii əksini tapmışdır. Orxon ədəbi abidələrində də ruhların varlığına, kainatın ruhu

---

[1] Rəcəbov Ə.Məmmədov Y.Orxon-Yenisey abidələri. Bakı, Yazıçı 1993,səh. 77.

[2] Yenə orada, səh. 80.

olduğuna və bu ruhun əbədiləşməsinə bəslədikləri inam, onların səmaya meylli, tanrıya yaxın olmaları, özlərini digər xalqlardan fərqləndirmələri  müqəddəsliklərinə bəslədikləri dərin inam və bu təsəvvürlərdən irəli gələn türk etnosunu qorumaq üçün xalqın ruhuna təsir edib, onu riqqətə gətirərək fəaliyyətə sövq etmək cəhdi öz əksini tapmışdır.

Qədim türklər yerin, göyün, suyun, türk ruhunun əbədi təminatçısı olması inamı ilə həmişə bol suyu, zəngin təbiəti olan yerlərə meylli olmuşlar. Onu da qeyd edək ki, Orxon ədəbi abidəbrinin konkret olaraq yazılma tarixi və müəllifi (Yolluq tikin) məlumdur. Ümumiyyətb, həm Gültəkin, həm Bilgə xaqan, həm Tonyukuk, həm də digər Orxon-Yenisey abidəbrindən türk epik təfəkkürünün və ideya-bədii dünyadüyümünün estetik ifadə notları müasir ədəbi ictimai düşüncəmizə qədər öz izlərini və etnokulturoloji təsir gücünü qoruyub saxlamışdır. Biz bunu ayrı-ayrı adət-ənənələrdə, mərasimlərdə görür, həm də eyni zamanda ayrı-ayrı bədii nümunələrdə, folklor abidələrində də qədim türk epik təfəkkürünün, ideya - mövzu və estetik təsir gücü özünü göstərir. (Y.V.Çəmənzəminlii “Qıziar bulağı”, Ç.Aytmatov. “Çingiz xanın ağ buludu”, “Əlvida Gülsara”, “Hörmüz və Əhriman” və s.).

Müsəlmanların müqəddəs dini olan “İslamın öhdəsindən gələ bildiyi xalqların qarşısındakı böyük mədəni xidməti onun qanunlarınn və ehkamlarının sadəliyi və aydın olmasıdır”.[1]

Məlumdur ki, islamın formalaşması Məkkədə olan Qüreyş əyanları ilə qeyri-bərabər mübarizə şəraitində getmişdir. Onun banisi Məhəmməd monoteist dinin təbliğinə ərəbləri birləşdirən bir vasitə kimi baxmış, kütlələrin şüuruna dini vasitələrlə təsir göstərərək onların əməli fəaliyyətini islamın izlədiyi əsas istiqamətə yönəltmişdir.

---

[1] Veliçko V.L. Qafqaz. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995, səh. 131.

İslam dininin bir üstün cəhəti ondan ibarətdir ki, o, insanın mənəvi kamilliyini, əxlaqi saflığını ön plana gətirməklə mühüm əxlaqi-tərbiyəvi məzmun kəsb edir.

Oğuz türklərinin tarixini özündə əks etdirən monumental epik abidəbrdən olan “Kitabi-Dədə Qorqud”da da islami görüşlər öz ifadəsini tapmışdır.

Dastanı nəzərdən keçirərkən oğuzlarda islami fikir və düşüncələrin dərin kökləri, bu köklərin qədimliyi, bəşəriliyi, təbiiliyi, türklərin genetik düşüncələri ilə qaynayıb qarışdığı aydın görünür. Dastanın Müqəddiməsi “Rəsuləleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud ata derlər bir ər qopdu”cümləsi ilə başlayır.

Bildiyimiz kimi türklər islam dinini qəbul edənə qədər şamançılıqla bərabər bütpərəstlik, zərdüştilik, manilik, xristianlıq və hətta yəhudiliyə etiqad etmişlər. Ərəbistana gedənə qədər oğuzlar adına “Oğuznamələr” qoşan şaman-ozan Qorqud Ata İslam dinini qəbul etdikdən sonra şaman-ozan Fdeyil, türk tayfaları-oğuzlar arasında İslamın yayılmasında dərviş-ozan olaraq fəaliyyət göstərir. Eyni zamanda abidədən məlum olur ki, oğuz yurdlarındaä başqa qəbilə, tayfa, sonrakı dövrlərdə formalaşan xalq və millət olmamışdır. Bu ərazidə yaşayanlar müsəlman dinini qəbul edən və etməyən oğuzlar olmuşlar. Dastanda yağı düşmən sözündən daha çox asi, kafir kimi təqdim olunan oğuz düşmənləri onların çox ciddi tarixi rəqibləri olan qıpçaqlardır. Asi deyimi itaət etməyənlərə, kafir isə islam dininə inanmayanlara aiddir. Həqiqətən də Qıpçaqlar oğuzlardan çox sonra, XII əsrin II yarısından etibarən islamı qəbul etmişlər.

“Kitabi-Dədə Qorqud” mübarizə, döyüş səhnələrini əks etdirən qəhrəmanlıq eposudur. Oğuz sərhədlərində və yaxud onlarla bir ərazidə yaşayan kafirlərlə cəng eposun ümumi süjetində aparıcılıq təşkil edir. Buradakı 12 boyun səkkizində oğuz bəylərinin qarşılaşdıqları, mübarizə apardıqları kafirlərdir. Bu səkkiz boyun hamısında Oğuzlar bir

olan tanrının himayəsinə sığınmaqla, ondan yardım diləməklə düşmənlərə qalib gəlirlər. Oğuz qəhrəmanlarının uzaq səfər, yaxud ağır döyüş qabağı qıldıqları namazlar, söylədikləri dualar islami inamdan irəli gəlir. Dastanın IX boyu olan "Bəkil oğlu Əmran boyunda da Əmran kafirlərlə qarşılaşanda "ucalardan uca tanrı"ya üz tutub ondan kömək diləyir. Kafir isə "Oğlan alındınsa tanrınamı yalvarırsan? Sənin tanrın varsa, mənim 72 bütxanam var, - deyə lovğalanır. Əmran isə "Sən bütlərə yalvararkən mən aləmləri yoxdan var edən tanrıma sığındım", - cavabını verir. Burada qeyd olunan "bir tanrı" məsələsi ümumtürk inamında başlıca səciyyə daşıyır.

Mənbələrdən məlumdur ki, Məhəmməd peyğəmbərin islam dinini qəbul etmiş bir türk ordusu olmuşdur. O, tanrıya müraciətlə "Ulu tanrım mənim bir ordum var. Ona Türk adını verdim, Şərqdə yerləşdirdim. Bir qövmə qızarsam o qövm üzərinə salar, müsəllat edərəm," - deyir. Sonra isə öz" dindaşlarına "Türk dilini öyrənin. Zira onların uzun sürəcək hakimiyyətləri vardır", tövsiyəsini edir.

Dastanın VII boyunda "Qazılıq oğlu Yeynəyin boyu"nda isə Allahın vəsfinə həsr olunmuş belə bir poetik parça var:

Ucalardan ucasan, uca tanrı!
Kimsə bilməz necəsən, görklü tanrı!
Sən anadan doğmadın,
Sən atadan olmadın,
Kimsə rizqin yemədin,
Kimsəyə güc etmədin,
Qamu yerdə əhədsən,
Allahü-Səmədsən.

Bu şer tamamilə "Quran"ın 112-ci "Əl-İxlas" surəsindəki dördüncü ayə ilə həmahəngdir. Yəni "Qulhuvəllahü əhəd, Allahüssəməd. - O allah birdir, heç bir şəriki yoxdur.

Allah heç kəsə, heç nəyə möhtac deyildir! Hamı ona möhtacdır. O əzəli və əbədidir.

"Kitabi-Dədə Qorqud"da bilavasitə Məhəmməd peyğəmbərin adı ilə bağlı olan iki müqəddəs şəhərin də adı çəkilir. "Tanrı evi"-Məkkənin adı ilə abidədə iki dəfə Mədinə , şəhərinin adı ilə bir dəfə qarşılaşırıq. Dastanın II boyunda kafirlər Uruzu dardan asmaq istədikdə o, asılacağı ağacı tərifləyərək ona Məkkə və Mədinənin qapısı ağac" - deyə müraciət edir. Dastanda islam dininin mühüm bir ənənəsindən, imkanı olan hər bir müsəlman üçün icrası vacib olan həcc ziyarətindən danışılır və bunun Məkkə şəhəri ilə bağlılığı bu şəkildə nəzərə çatdırılır:

Alçaq yerdə yapılıbdır tanrı evi Məkkə görklü,
O Məkkəyə sağ varsa, əslən gəlsə sidqi, bütün hacı görklü.

Məlum olduğu kimi, tanrı bütün peyğəmbərlərə onların öz adı ilə müraciət etdiyi halda həzrəti Məhəmmədə Həbibim-deyə xitab edir. "Kitabi-Dədə Qorqud"dakı Oğuz elləri də islamı qəbul edib peyğəmbərə inam gətirdikləri üçündür ki, bütün əməllərində allahdan sonra məhz bu müqəddəs şəxsə arxalanırlar. Abidənin 12 boyundan 11-nin sonunda dualar "Günahınızı adı görklü Məhəmməd Mustafa üzü suyuna bağışlasın", sözlərilə bitir.

Bildiyimiz kimi, islam dininin bünövrəsi, dayağı, bir kimsənin müsəlmanlığını sübuta yetirən "Kəlmeyi-şəhadətdir. İslamın beş fəqərə sütunlarından-şərtlərindən ilki plan Kəlmeyi şəhadət Allahın tək, Məhəmməd peyğəmbərin onun rəsulu-elçisi olmasından, Həzrəti Əli əleyhissəlamdan bəhs edir. "Kitabi-Dədə Qorqud"da da bu cəhətə xüsusi diqqət yetirilir, kafirlərin islam dinini qəbul etmələrinə, müsəlman olmalarına xüsusi səy göstərilir. Əvvəldə adını çəkdiyimiz "Bəkil oğlu Əmranın boyun"da da ölüm təhlükəsi qarşısında qalan Əmran Kəlmeyi şəhadəti dilinə gətirərkən ona ilahidən qeyri-adi güc verilir və o, kafirə qalib

gəlir. Bunu görən kafir heyrətlənir və deyir: "Yigit aman! Sizin dinə nə derlər. Dininə girdim Barmaq götürüb, şəhadət gətirib müsəlman oldum." Din tarixindən o da məlumdur ki, islami qayda-qanuna görə, aman diləyən, kəlmeyi-şəhadəti dilinə gətirən kəs bağışlanır. Bu, elə əslində islamın əsas ideoloji silahlarındandır.

"Kitabi-Dədə Qorqud"da islamla bağlı məqamlarla tez-tez qarşılaşmağımıza baxmayaraq, boyların heç birində islamın əsas təriqətlərinin və cərəyanlarının izlərinə təsadüf olunmur. Bundan belə nəticəyə gəlmək olar ki, bu möhtəşəm abidə həqiqətən də islama qədər və islamın yarandığı ilk dövrlərin məhsuludur. Burada buyruğu qəbul edilən, sözü tutulub tamam edilən pir, övliya ucalığına yüksələn Dədə Qorqud insanları mənəvi birliyə, yüksəlişə səsləyir.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev də dinin mənəviyyatla bağlı məzmununa böyük diqqət yetirir, adamları dinin mənəvi dəyərlərindən faydalanmağa çağırır və göstərir ki, "Müstəqil Azərbaycan Respublikasının ağır, çətin keşməkeşli günündə hər bir azərbaycanlı, hər bir müsəlman ilk növbədə islam dininin tövsiyələrindən istifadə edərək öz mənəviyyatını yüksəltməlidir. Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda, müsəlmanda Vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi tərbiyə edə bilsək, Azərbaycan bu ağır böhran dövründən, çətinliklərdən tezliklə və müvəffəqiyyətlə çıxacaqdır."

Ümumiyyətlə, "islam millətlərinin hamısının-ərəblərin, türklərin, farsların və başqalarının birlikdə yaratdıqları böyük islam mədəniyyətinin digər millətlərin mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri olmuşdur. Belə ki, "Beş əsr boyunca islam elmləri, yüksək mədəniyyəti və qüvvəti ilə cahana hökm etdi. Yunan fəlsəfəsi və elm xəzinələrinin varisi olmaq etibarilə müsəlmanlar bu xəzinələri islami fikirlərlə zənginləşdirdikdən sonra Qərbi Avropaya nəql etdilər.

Bu surətlə Orta çağda islamiyyət, Avropanın mədəni üfiqlərini genişlədib insanların fikir və həyatında dərin bir təsir buraxdı".[1]

İslam mədəniyyətinin yəhudilərə də böyük təsiri olmuşdur. "Orta çağdakı bütün yəhudi ədəbi sənəti islam mədəniyyətinin bir in"ikasından ibarətdir. Gerçəkdən yəhudi ədəbi sənəti xristian mədəniyyətindən daha çox müsəlmanların dualarına çox yaxındır".[2]

Həqiqətən də müsəlmanların müqəddəs kitabı olan Quranda bəşəri, humanist çağrışlı çoxlu ayələr, sünnə və hədislər, rəsmi şəriət normaları vardır. Bütün bunlar insanın mənəvi təkamülündə, daxilən saflaşmasında, onun həyat məqsədi və mənəvi idealının formalaşmasında, yaxşını pisdən seçməsində, ədalətli və xeyirxah mövqe tutmasında böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, insan haqqında islam nəzəriyyəsində insanı faydalı əməyə çağırmaq, fiziki və əqli cəhətdən inkişaf etdirmək, dindarları milli istiqlaliyyət uğrunda mübarizəyə ruhlandırmaq, bütövlükdə cəmiyyətdə olan qayda-qanunları sosial tələbatı araşdırmaq və digər xüsusiyyətlər mühüm yer tutur. İslam dini insanları, bəzilərinin başa düşdüyü kimi, kortəbii ibadətlə, haqsızlıqla razılaşmağa deyil, ictimai qaydalara əməl etməyə səsləyir. "İslam dininin insan haqqında konsepsiyasında onun insanlar arasındakı adət-ənənələrin, ailənin hifz edilməsi sahəsindəki rolu da müəyyən yer tutur. İslam dini, xüsusilə onun ayinçilik sistemi bütün milli məişət ənənələri, mütərəqqi bayram və mərasimlər, milli münasibətlərlə çulğalaşaraq, milli-mütərəqqi ənənə, bayram və mərasimlərin də yaşadılıb nəsildən-nəsilə verilməsində təsirli vasitə olmuşdur".

---

[1]Bammat H. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı, Azərnəşr, 1994, səh.15.

[2] Yenə orada. səh.23.

İslam dinində onun insanın zehni fəaliyyətilə, yaradıcılığına, elmi idrakına münasibət məsələləri də öz əksini tapmışdır. Məhəmməd Peyğəmbərin hədislərindən birində qeyd olunur ki, elm uğrunda cəhd etmək müsəlmanın əsas vəzifələrindən biridir. "İnsan anadan olandan qəbir evinə qədər bilik arxasınca getməlidir. Bu yolda heç bir çətinlikdən qorxmamalıdır. Elm hətta ən uzaq ölkələrdə, Çində belə olsa da, onun arxasınca getməlidir".

Qurani-Kərimdə və hədislərdə əlilm istilahı altında daha çox iman, təqva və salehlik nəzərdə tutulsa da, bu istilah dünyəvi bilik mənalarını da qoruyub saxlayır. İslamın bu mənbələri elə bir psixoloji, mənəvi və intellektual ab-hava təlqin edir ki, burada həm dini, həm də dünyəvi elmlərə təhrik vardır. İslamda yalnız fərd və cəmiyyət baxımından faydalı olan elmlər təqdir edilir.[1]

Şərq alimləri uzun əsrlər islam dininin elmə olan müsbət münasibətinə dair öz əsərlərində də bəhs etmişlər. İslam cəmiyyətində ziyalı şəxs insanlar tərəfindən məhəbbətlə qarşılanmış, hörmət edilmişdir. Məhəmməd Peyğəmbərə aid hədislərdən birində deyilir ki, Peyğəmbər dindarlarla söhbət edərkən demişdir: "Elm öyrənmək yolunda atılmış hər bir addım, Bədr vuruşması vaxtı həlak olmuş müsəlmanların şəhidliyi qədər müqəddəsdir. Alim və abidin nisbəti müqayi-səsizdir; alim günəşdirsə, abid ulduzdur".

Məlumdur ki, mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri də adət-ənənələrdir. Din və adət-ənənələr tarixi inkişaf prosesində bir-biri ilə elə qarşılıqlı münasibətlərdə olmuşlar ki, onların hər birində olan müəyyən xüsusiyyətlər birləşərək nəsildən-nəsilə ötürülmüşdür. Müsəlmanlar tərəfindən islam ayinlərinin icra olunması, şəriət normalarına əməl edilməsi, qadağa və haramlardan qaçıl-

[1] Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm. Bakı, "Elm və həyat" nəşriyyatı 1998, səh.5.

ması nəticəsində dindarlıq özü də milli xüsusiyyət əxz etmiş, sabitləşərək bir nəsildən digərinə verilmişdir. Bu zaman ayrı-ayrı xalq və millətlərə məxsus adət-ənənələr, mərasim və normalar da islam dini, xüsusilə onun ayinçilik sistemi ilə birləşərək milli-dini məzmun kəsb etmişdir. Onlara əməl edilməsi isə həm etnik-milli adət, həm də dini borc kimi qəbul olunmuşdur. Məhz bu milli dini xüsusiyyət yəni adət-ənənələr və din bir-birinə təsir göstərərək onları yaşatmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi dini adət-ənənələrin emosional tərəfi dini hissin yaranmasında mühüm rol oynayır. Ümumiyyətlə, dini hissin, dini həyəcanın adi hisslə bir çox oxşarlığı vardır. Belə ki, dini hiss özü də emosiya, əhval-ruhiyyə, mənəvi həyəcan və sairlə bağlıdır. Məsələn, din xadimləri dini hiss yaratmaq üçün emosional təsir gücünə malik olan bədii obrazlı sözlərdən istifadə edirlər. Eyni zamanda bu məqsədlə müəyyən vaxtlarda "kilsə özü... incəsənətdən qüdrətli bir silah kimi istifadə edirdi, ən gözəl arxitekturanı inkişaf etdirirdi, təntənəli surətdə nəğmə oxumağı, gözəl adətləri həyata keçirirdi, o, həm də rəssamlığı və heykəltəraşlığı özünə tabe etməyə müvəffəq olurdu, bir sözlə sanki, bütün incəsənət kilsəyə xidmət edirdi. Kilsə bununla da insan ürəyini çox yaxşı fəth etməyi bacarırdı.[1]

Dini ənənələr də, milli ənənələr də hiss yaratmaq qabiliyyətinə malikdir. Lakin bu hisslərin məzmunu müxtəlifdir. Eyni zamanda, dini və milli ənənələr mənşəcə də bir-birindən fərqlənirlər. Çünki, milli adət-ənənələr mənsub olduğu millətin qədim tarixi, onun arzu və istəkləri zəminində formalaşaraq onun inkişafı ilə zənginləşmişdir. Tarix onu yaradan xalqı yaşadır. Bu baxımdan xalqımızın yaddaşına həkk olunmuş, yüzillər ərzində qorunub saxlanmış Novruz bay-

[1] Лунарски А.В. Религийя и просвешение. М., 1954, стр. 6-7.

ramı mütərəqqi milli ənənəmizdir. Yəni, mütərəqqi adət-ənənələrin ən yaxşı xüsusiyyətlərini özündə əks etdirən xalq mərasimlərindən biridir. Belə mərasimlər xalqın, millətin yaratdığı maddi və mənəvi sərvətləri özündə birləşdirərək gələcək nəsillərə çatdırır. Tarixin müxtəlif mərhələlərində bu bayram fərqli münasibətlərlə qarşılansa da, xalq öz adətinə dönük çıxmamış, Novruz bayramını ulu əcdadlarının ruhuna hörmət əlaməti kimi yaşatmışdır. Axı, Novruz bütövlükdə orta Şərq, o sıradan türk təfəkkür tərzinin, mənəviyyat və psixologiyasının tarix boyunca qorunub yaşadılan, bu günə çatdırılan böyük bir yadigarıdır.

İslam ayinlərinin isə yaranma və formalaşma tarixi məlumdur. Bu ayinlər VII əsrdə bütövlükdə ərəb cəmiyyəti üzvlərinin həyat tərzi, həyat ukladı əsasında yaranmış, sonradan müxtəlif xalqların islamı qəbul etməsi ilə həmin xalq və millətlər içərisində də yayılmışdır. Müsəlman ayinləri milli ənənələrlə vəhdətdə isiam dini etiqadının möhkəmlənməsi məqsədinə xidmət etmiş, xalqın mənəvi paklığında və dindarlığında təsirli vasitə olmuşdur.

Müstəqil Azərbaycan Respublikasının dinə münasibəti Milli Məclisin 1992-ci il avqustun 21-də qəbul etdiyi “Dini stiqad azadlığı haqqında” Qanunda öz əksini tapmışdır. Bu, respublikamızın tarixində dinə münasibətdə ali qanunvericilik səviyyəsində qəbul olunmuş ən demokratik və humanist bir sənəddir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında əhalinin dini etiqad, mənəviyyat və vicdan azadlığlına tam təminat verən əsas prinsiplər belə ifadə olunmuşdur:

“Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır" (maddə 7,1). Yəni, respublikamızda Din dövlətdən ayrıdır" (maddə 18;1). Yəni, hakimiyyət dinə və yaxud hər hansı bir dini təşkilata deyil, xalqa məxsusdur. Dini təsisatlar dövlətdən ayrıdır. Nə dövlət dinin, nə də din dövlətin daxili işlərinə qarışmır. Dini təşkilat və onların

rəhbərləri ancaq dini-mənəvi tərbiyə fəaliyyəti ilə, dini ayinçilik məsələləri ilə məşğul olmalı, dini təhsili həyata keçirməlidir. Din cəmiyyətin sosial-mədəni, mənəvi tərəqqisinə, cəmiyyət üzvlərinin bəşəri dəyərlər və hümanizm ruhunda tərbiyələnməsinə, xeyriyyə tədbirlərinin təşkilinə kömək etməli, Vətənin ərazi bütövlüyü və suverenliyinin qorunub saxlanlmasında fəal iştirak etməlidir.

Azərbaycanda "dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır" (Maddə 18;111). Yəni, dini təhsil, dini məktəblərin fəaliyyəti dövlətdən ayrıdır. Dövlət dini təhsil üçün maddi yardım etsə də, dini təhsil məsələlərinə qarışmır.

"Din və dövlət" adlı 18-ci maddəyə görə "Bütün dini etiqadlar qanun qarşısında bərabərdir". Bütün dinlər, məscid və kilsələr bərabərhüquqludur.

Konstitusiya üzrə vətəndaşlar dini əqidəsinə heysiyyatına görə toxunulmazdır. "Heç bir halda heç kəs din, vicdan. fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz. (Maddə 71; IV).

Konstitusiya dini ayinlərin və mərasimlərin azad şəkildə icrasına təminat verərək, göstərir ki, "dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir". (Maddə 48, III).

Bütün bu deyilənlərdən aydın olur ki, siyasi müstəqilliyini qazandıqdan sonra demokratik, hüquqi və dünyəvi dövlətini qurmaq əzmində olan Azərbaycan xalqının öz mədəni irsinə, dininə, əsrlərdən bəri faydalandığı mənəvi dəyərlərinə qayıtması təbiidir. Müstəqillik milli-mədəni və dini ənənələrin dirçəldilməsi üçün şərait yaradır. Ona görə də bu gün cəmiyyətimizin yaşadığı keçid dövrü, onun mürəkkəb xarakteri din və mənəvi dəyərlər məsələsinə münasibət də dəqiq, aydın və perspektivli bir proqramın işlənib hazırlanmasını aktuallaşdırır. Belə bir proqrama olan ictimai tələbat öz növbəsində xalqın əsrlər boyu bu sahədə topladığı təcrübəyə, ənənələrə münasibət məsələsinin əhəmiyyətini bir

qədər də artırır, keçmişin mədəni və mənəvi irsinin bütün mənfi və müsbət cəhətləri ilə təhlilini, obyektiv və zamanm mhuna uyğun şəkildə qiymətləndirilməsini zəruriləşdirir. Bu, ona görə vacibdir ki, irsdən, keçmişdə artıq müəyyən nəsillərə xidmət etmiş dəyərlərdən müasir nəsillər üçün yeni cəmiyyət quruculuğunda labüd təməl kimi istifadə olunsun. "Çünki, cəmiyyətin topladığı təcrübənin mənimsənilməsi bu cəmiyyətin tarixinə yeni daxil olan hər bir nəslin təfəkkür və davramş mədəniyyətinin təşəkkül prosesidir.

## *§4.ƏXLAQ MƏDƏNİYYƏTİ*

Əxlaq ictimai şüurun ən qədim formalarından biridir. O, insanların həm cəmiyyətə, həm dövlətə, həm də bir-birinə olan münasibətlərini nizamlayır. Cəmiyyətin tələbatından yaranan əxlaq onun üzvlərinin davranışlarını tənzim edən qaydalardan irəli gəlir.

Məlumdur ki, bəşəriyyətin inkişafının ilk mərhələlərində insanlar arasında müəyyən adətlər, davranış qaydaları, ünsiyyət formaları mövcud olmuşdur. İnsanlar öz davranışlarında yaxşının və pisin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışmışlar. Cəmiyyət siniflərə bölündükdən sonra isə əxlaq qaydaları da sinfi mahiyyət kəsb etməyə başlayır. Hər sinfin özünəməxsus əxlaq qaydaları yaranır və onlar bu qaydaları öz mənafelərini ifadə edən davranış normalarına çevirirlər.

Əxlaq haqqında təlim etika adlanır. Bu, "Ethos" yunan sözündən olub, bizim dilimizdə adət mənasını ifadə edir. Etika əxlaqı, insanların mənəvi dünyasını, onun mahiyyətini tədqiq edir.

Etik davranışlar cəmiyyətin tələbatından, insanların öz davranışlarında müəyyən qaydalara əməl etməsindən irəli gəlir.

İnsan şüurunun inkişaf mərhələlərində əxlaq təlimi həmişə fəlsəfənin bir hissəsi kimi təqdim olunmuşdur. Nəticədə müxtəlif fəlsəfi baxışlar müxtəlif əxlaq nəzəriyyələrini meydana çıxarmışlar. Buna misal olaraq, Aristotelin, fransız materialistlərinin, Kantın və digər fılosofların əxlaq nəzəriyyələrini göstərmək olar. Onların çoxunun əxlaq nəzəriyyəsi onların fəlsəfələrinin əsas hissəsi, dünyagörüşünün əsas cəhəti olmuşdur. Bununla birlikdə əxlaqi ideyalar, əxlaq təlimləri də ictimai şüur formalarıdır.

Cəmiyyətin iqtisadi həyatı dəyişdikcə əxlaq da bir şüur forması olmaqla dəyişir və yeni məna daşıyır. Fəlsəfi nəzəriyyələr tarixinin inkişafı göstərir ki, əxlaq haqqında nəzəriyyələr də etika-fəlsəfə ilə birlikdə inkişaf etmişdir. B.e.ə. 551-479-cu illərdə yaşamış qədim Çin filosofu Konfutsi də özünün fəlsəfi görüşlərində etik nəzəriyyəni əsaslandırmağa çalışmışdır. Onun etik nəzəriyyəsinin əsas məfhumunu “Jen” (humanizm) təşkil edirdi. Filosofun fikrincə, humanizm mənəvi prinsip olmaqla cəmiyyət və ailə üzvləri arasındakı münasibətləri müəyyənləşdirməkdə mühüm rol oynayır. O, yazırdı ki, vəzifə kürsüsündə elə şəxsiər oturmalıdır ki, onlar öz hərəkətləri ilə rəhbərliyində olanlara nümunə olmalıdırlar. Konfutsi öz nəzəriyyələrində göstərirdi ki, insanlar dünyaya eyni cür gəlirlər, lakin müəyyən dövrlərdə aldıqları tərbiyəyə görə bir-birindən ayrılırlar. İnsanları əhatə edən mühit onların bir şəxsiyyət kimi formalaşmasma əsaslı təsir göstərir. Lakin Konfutsinin etik nəzəriyyəsi bir çox məsələlərdə ziddiyyətli olduğu üçün onun bütövlükdə qəbul edilməsi məqbul deyildir.

Konfutsinin davamçıları olan Çin filosofları Syun-Tszının (b.e.ə. 298-238), onun tələbəsi Xan Feyin (b.e.ə. 280-230), antik yunan fılosoflarından Aristotelin, Platonun da əxlaqa dair müəyyən fikirləri olmuşdur və onlar bu fikirləri öz əsərlərində əks etdirmişlər. Lakin sinifli cəmiyyətdə yaranan belə əxlaq təlimləri ictimai xarakter daşıya-

raq, mövcud quruluşa xidmət edirdi. Ona görə də, hakim sinif mövcud iqtisadi quruluşu möhkəmlətmək üçün onun mənafeyini müdafiə edən əxlaq təliminə haqq qazandırır və onu mühafizə edərək möhkəmləndirməyə çalışırdı.

Etika haqqında nəzəriyyələr tarixin bütün mərhələlərində filosofların ictimai-siyasi görüşləri ilə bağlı yaranmışdır. Odur ki, bu nəzəriyyələr hakim siniflərin istək və arzularını əks etdirmiş, ictimai şüurun müxtəlif formalarına təsir göstərmiş və cəmiyyətdə ictimai münasibətlərin dəyişməsinə imkan yaratmışdır.

Əxlaq-cəmiyyətdə davranış qaydalarını nizamlayan mövcud normalar toplusudur. Davranış normaları insanların cəmiyyətə, ictimai quruluşa, əməyə və bir-birinə olan münasibətlərində özünü göstərir. İnsanlar hərəkətləri təhlil edərək bəzilərinə müsbət, bəzilərinə isə mənfi qiymət verirlər! Yəni, hər kəs etdiyi hərəkətə görə qiymətləndirilir. Səbəbsiz nəticə olmur.

Biz əvvəlki mövzularda da qeyd etmişdik ki, mədəniyyətin mühüm tərkib hissələrindən biri mənəvi mədəniyyətdir. Mənəvi mədəniyyət cəmiyyət üzvlərinin əxlaqi tələblərini-əxlaq normalarını, prinsiplərini, ideallarını və s. mənimsəmə səviyyəsini, şəxsiyyətin onlara yiyələnmə və öz rəftarında və hərəkətlərində əməli surətdə həyata keçirmə dərəcəsini səciyyələndirir. Bütün bunlar isə insanın başqalarına, bütövlükdə cəmiyyətə münasibətində, onun məqsədlərində, həyat planlarında, maddi-mənəvi sərvətlərə münasibətində özünü göstərir.

Mənəvi mədəniyyət praktik mənəviyyatı şərtləndirir. Mənəvi mədəniyyət cəmiyyətin, hər hansı sosial qrupun qazandığı mənəvi inkişaf ölçüsüdür. Bu ölçü mənimsənilmiş və insan fəaliyyətində realizə olunan mənəvi sərvətlərlə xarakterizə olunur. Mənəviyyat kimi mənəvi mədəniyyət də mənəvi şüuru, əxlaqi münasibətləri və mənəvi fəaliyyəti əhatə edir.

Mənəvi mədəniyyət bütün mənəvi təsəvvürlər və normalar sistemini deyil, cəmiyyətin insanlar tərəfindən mənimsədiyi mənəvi təcrübənin bir hissəsini, əxlaqi-etik biliklərin yalnız praktik olaraq həyata keçirilən həcmini əhatə edir.

Mənəvi mədəniyyətin bütöv bir sistem kimi struktur elementləri buniardır:

l) Etik təfəkkür mədəniyyəti (etik bilikdən istifadə etmək bu və ya digər həyat tərzi xüsusiyyətlərinə mənəvi normaları tətbiq etmək bacarığı və s.).

2) Hiss mədəniyyəti.

3) Davranış mədəniyyəti-dərk edilmiş mənəviyyat prinsip və normalarına uyğun olaraq davranmaq, hərəkət etmək bacarığı.

4) Davranış formasını və manerasını reqlamentləndirən etiket.

Mənəvi mədəniyyət subyekti, ictimai praktikanın (xalqın, sinfin, sosial qrupun, kollektivin, şəxsiyyətin) mənəvi sərvətlər sisteminin tarixi konkret fəaliyyətini əks etdirir.

Cəmiyyətin mənəvi mədəniyyəti məzmun baxımından təsbit olunmuş mənəvi sərvətlər və oriyentasiyalar sistemini şəxsiyyətin mənəvi mədəniyyətinə nisbətən daha dolğun və geniş əhatə edir. Şəxsiyyətin mənəvi mədəniyyətində bu sistemin komponentləri özünü təkrarolunmaz fərdi spesifika ilə göstərir. Şəxsiyyət cəmiyyətin mənəvi mədəniyyətinin nailiyyətlərini öz şüurunda və davranışında bu və ya digər dərəcədə və fərdi yeniliklərilə cəmləyir. Bu isə ona tez-tez təkrarlanan hallarda mənəvi cəhətdən düzgün hərəkət etmək imkanı yaradır, onun mənəvi şüurunun yaradıcı elementlərini fəallaşdırır, qeyri-standart vəziyyətlərdə düzgün mənəvi qərar verməsinə imkan yaradır.

Mənəvi mədəniyyətin bu iki səviyyəsi qarşılıqlı şəkildə əlaqədardır. Cəmiyyətin mənəvi inkişaf səviyyəsi bir çox hallarda şəxsiyyətin mənəvi mədəniyyətinin kamilliyi ilə

müəyyən edilir. Digər lərəfdən cəmiyyətin mənəvi mədəniyyəti nə qədər zəngin olursa, fərdin mənəvi mədəniyyətinin kamilləşməsi üçün bir o qədər çox imkan yaranır.

Əxlaq ümumbəşəri mədəniyyətin bir hissəsidir, eyni zamanda o, müasir sivilizasiyaya qarşı da etinasız deyildir. Şəxsiyyətin əxlaq mədəniyyəti müasir sivilizasiya problemini insanların fəaliyyətlərində aktuallaşdırır.

Əxlaq normaları, həmçinin əxlaqi əqidələr, əxlaqi hisslər və qiymətlər spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər əxlaqı bütün nizamlama formalarından, xüsusilə hüquqdan fərqləndirir. Hüquqi nizamlama kimi əxlaqi nizamlama da davranışa verilən sosial tələblərin fərd tərəfindən şüurlu surətdə mənimsənilməsini nəzərdə tutur. Əxlaqi nizamlama şəxsiyyətin şüurlu iradəsinə, onun ictimai borca şüurlu əməl etməsinə əsaslanır. Əxlaqi tələb hər bir fərd tərəfindən irəli sürülür və onun vicdanının səviyyəsi ilə müəyyənləşir. Əxlaqi münasibət isə obyekt münasibətidir ki, burada şəxsiyyət ictimai əxlaq normalarını gözləyir və eyni zamanda həmin normalara yeniliklər əlavə edir.

Əxlaqi borc-doğma vətənimizin tərəqqisi uğrunda mübarizə zərurətindən yaranan və yüksək şüurluluq, dərin daxili tələbat qüvvəsi ilə yerinə yetirilən əsas ictimai vəzifələrin məcmusudur. Onun məzmununa həm cəmiyyətin öz üzvləri qarşısında irəli sürdüyü vəzifələr, həm də adamların cəmiyyət qarşısında daşıdığı məsuliyyət hissi daxildir.

Hər bir cəmiyyətin inkişafının müxtəlif mərhələlərində onun qarşısında müxtəlif vəzifələr durur. Buna uyğun olaraq cəmiyyətin öz üzvlərinə olan tələbinin, eyni zamanda cəmiyyət üzvlərinin borcunun xarakteri dəyişir. Elə ona görə də ictimai inkişaf qanunlarını öyrənmədən, cəmiyyətin qarşılaşdığı vəzifələrin həllində iştirak etmədən şəxsiyyət öz əxlaqi borcunu dərk edə bilməz.

Əxlaqi borcun yerinə yetirilməsi şəxsiyyətin meylləri əqidəsi, iradəsi və xarakter xüsusiyyətlərindən, inam və vər-

dişlərindən də asılıdır. Şəxsiyyətin əxlaqi borca münasibətini aydınlaşdırarkən aşağıdakıları nəzərə almaq lazımdır:

a) Şəxsiyyət öz arzu və istəklərini təmin etməyə daha meyllidir, yoxsa ümumi mənafeyin tələbləri ilə razılaşmağa,

b) O, təmiz əqidəli, bütöv xarakterli şəxsiyyətdirmi?

v)Yerinə yetirəcəyi borcun düzlüyünə, gərəkliliyinə inanırmı?

q)Güzəştə getməyi, çətinliyə dözməyi bacarırmı?

ğ) Borca əməl etmək onun daxili istəyindən irəli gəlir, yoxsa vərdişdirmi?

Təlim-tərbiyə müəssisələri, kollektivlər tərbiyənin bütün metod və vasitələrindən istifadə edərək cəmiyyət üçün öz əxlaqi borcunu hərtərəfli dərk edən gənclər yetişdirməlidirlər.

## *§ 5. ESTETİK MƏDƏNİYYƏT*

Müasir dövrdə estetik mədəniyyət getdikcə daha böyük əhəmiyyət kəsb edir. Estetik mədəniyyət də cəmiyyətin ümumi mədəniyyətinin bir hissəsidir. Estetik mədəniyyətin spesifikası və funksiyası ondan ibarətdir ki, o subyektin dünyaya münasibətinm azad özünüifadəetmə formasıdır.

Bəs estetika nədir?

Estetika yunan sözüdür. "Aisthetiko" hiss edən, həssas mənasındadır. O, gözəllik qanunlarını, incəsənətin gerçəkliyə münasibətini, onun növ və janrlarını, bədii şüurun qanunauyğun inkişafının özünəməxsus xüsusiyyətlərini bədii yaradıcılıq metodunu öyrənən fəlsəfi elmdir.

Təxminən 8-10 il əvvəl respublikamızın demək olar ki, bütün ali məktəblərində bir fənn kimi tədris olunan estetika son illər tədris planından çıxarılmışdır. Yaranmış mövcud boşluğu az da olsa doldurmaq, müasir gənclərə bu mövzuda bilgilər vermək məqsədilə biz "Mədəniyyətşünaslıq" fən-

ninin mövzuları sırasına “Estetik mədəniyyət” mövzusunu da daxil etməyi lazım bildik.

Estetika termini elmə hələ XVIII əsrdə alman filosofu Aleksandr Qotlib Baumqarten (1714-1762) tərəfindən gətirilmişdir. O bu anlayışı gözəllik nəzəriyyəsi, “Hissi idrak elmi” adlandırmışdır. Onun estetik hadisəni idrak nəzəriyyəsi yönümündən işləməsinin alman klassik fəlsəfəsinin sonrakı inkişafı üçün böyük əhəmiyyəti olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, estetik fikrin tarixi daha qədimdir. Belə ki, 2500 il bundan əvvəl quldarlıq dövründə Misir, Babilistan, Hindistan və Çində yaranmış, Qədim Yunanıstan və Qədim Romada inkişaf etmişdir. Antik filosofların əsərlərində incəsənətin cəmiyyətdə rolu və onun insanın əxlaqına təsiri məsələlərindən bəhs olunmuşdur. Orta əsrlərin “İlahi gözəllik” haqqında mistik təlimlərində hər cür gözəlliyin mənbəyi və ali gözəlliyin təcəssümü allah hesab olunurdu.

Maarifçi estetikanın nümayəndələri E.Byerk, Hoqart, D.Didro, J.J.Russo, İ.İ.Vinqelman, İ.Herder və b., xüsusilə onların davamçıları F.Şiller və Göte incəsənətlə gerçəkliyin əlaqəsi ideyasını inkişaf etdirdilər.

Marksizm-leninizm klassikləri icə incəsənəti ictimai şüur formalarından biri və gerçəkliyin estetik dərk olunmasının spesifik forması kimi öyrənirlər. Gerçəkliyin estetik dərkinin isə üç tərəfi vardır:

l) Obyektiv gerçəklikdə estetiklik;

2) Subyektiv estetiklik;

3) İncəsənət-subyektiv və obyektiv estetikliyin vəhdəti.

Estetika bu tərəflərin mahiyyətini, qanunauyğunluqlarını və onların konkret təzahürlərini tədqiq edir.

Cəmiyyətin estetik mədəniyyətinə həm estetik şüurun (estetik biliklərin, estetik hisslərin, estetik zövqlərin, estetik ideaalların) məzmunu və inkişaf səviyyəsi, həm də insanların estetik yaradıcılığının xarakteri, istiqaməti və yayılma dərə-

cəsi daxildir. Eyni zamanda, estetik mədəniyyətdə estetik sərvətlərin insan tərəfindən mənimsənilmə formalarının rəngarəngliyi, bu sərvətlərdən insanın inkişafı, onun mənəviyyatının zənginləşməsinə görə humanist məqsədlərlə istifadə edilməsi də öz əksini tapır.

Göründüyü kimi, estetik mədəniyyətin xüsusiyyəti onun əsasını təşkil edən estetik fəaliyyətin spesifikası ilə müəyyən olunur. Estetik fəaliyyət mənəvi xarakterə malikdir. Onun predmeti gerçəkliyin bilavasitə dərk və ya təsəvvür edilə bilən hər hansı bir obyekti ola bilər. Məsələn, estetik informasiya daxil edilmiş bədii sərvətlər, etilitar təyinatı məhsulların estetik dəyəri ilə müşayiət olunan məqsədyönlü fəaliyyət məhsulları, insan əməyi ilə təbiiliyindən çıxmış və estetik mədəniyyət sisteminə daxil edilmiş təbiət nümunələri və s. Estetik baxımdan neytral olan, dəyəri fəaliyyət prosesində aktuallaşdırılan, yaxud təsbit edilən halların da estetik fəaliyyət predmeti olması mümkündür.

Estetik fəaliyyətin xüsusi maraq dairəsi həmişə insan aləmi olmuşdur. Müasir dövrdə də belədir. Ona ictimai-tarixi proses, insanların ictimai həyatı, sosial davranışı, daxili və mənəvi aləmi daxildir. İncəsənət sahəsində aparılan müşahidə və təcrübələr göstərir ki, elə bir təbiət və yaxud sosial gerçəklik halı yoxdur ki, o öz mahiyyətinə görə estetik fəaliyyət predmeti olmasın. Görkəmli rəssam Səttar Bəhlulzadənin yaradıcılığına, onun rənglər aləminə diqqət yetirsək, görərik ki, təbiətin hər bir hadisəsi, hər bir nümunəsi onun rəsmlərinin əşyası olmuşdur. Onun əsərlərində kiçik və ya böyük təbiət nümunəsi yoxdur. Rəssam təbiət nümunələrinin hər birinə eyni həssaslıqla, eyni sevgiylə yanaşır. S.Bəhlulzadənin rəsmlərində hər çiçəyin, hər yarpağın min çaları var. Lakin bu əsərlərdə təbiətdən götürülən hər hansı bir nümunə öz təbii mövcudluğundan da məhrum edilmir. Rəssam götürdüyü hər bir nümunəni öz şəxsi məntiqi və potensial yaradıcılıq imkanlarına uyğun şəkildə obrazlı verir,

ideala qədər ucaldır, mümkün qədər arzulanan təsəvvür səviyyəsinə qaldırır. Estetik baxımdan dəyişdirilmiş əşya bəşər mədəniyyəti xəzinəsinə daxil edilir, orada o, öz oricinallığını qorumaqla, estetik qiymət alır. Gördüyümüz kimi, burada estetik əşya insanın obyektiv aləmi ilə subyektiv aləmi arasında vasitəçi olur.

Estetik predmet özünə subyektin müəyyən münasibəti-ni, baxışını və iştirakını nəzərdə tutur. Bunlar obyektiv keyfiyyətlərlə yanaşı, onun dəyərini müəyyənləşdirir.

Estetik mədəniyyətin və fəaliyyətin subyekti ictimai varlıqdır. O, həyata qədəm qoyarkən yalnız hazır sosial münasibətlərlə deyil, eyni zamanda bir çox maddi və mənəvi dəyərlərlə, əvvəlki dövrlərdə yaradılmış estetik sərvətlərlə qarşılaşır. Bunlar insanın varlığının obyektiv şərtləri olur və onun estetik fəaliyyəti üçün əsas verir. Estetik fəaliyyətin obyektə uyğun şəkildə faydalı xarakteri əşyanın estetik dəyərinin təsdiqində realizə olunur. Əşyanm estetik dəyəri subyektin üzə çıxardığı və qiymətləndirdiyi obyektiv daxili və xarici əlaqələrin zənginliyi ilə müəyyənləşdirilir.

Estetik mədəniyyət özünəməxsus daxili qanunlar əsasında inkişaf edir.

Estetik mədəniyyətin əsas funksional struktur elementləri aşağıdakılardır:

l.İctimai idealın nizamlayıcısı kimi özünü göstərən estetik münasibət.

2.Bədii sərvətlərin ümumi toplusu.

3.Cəmiyyət üzvlərinin xüsusi bir hissəsi (professional səviyyədə bədii sərvətləri istehsal edən, həmçinin cəmiyyətdə onların fəaliyyətini təmin edən ziyalılar).

4.Bədii sərvətlərin toplanmasını və ötürülməsini, onların estetik münasibətlər sisteminə daxil edilməsini təşkil edən tirajlama və kommunikasiya vasitələri.

5.Dövlətin, ümumiyyətlə cəmiyyətin diqqət mərkəzində olan estetik mədəniyyəti və estetik tərbiyəni bölüşdürən və yenidən istehsal edən mexanizmlər və təsisatlar.

Ümumiyyətlə, hər hansı bir mədəniyyət nümunəsi heç də dərhal estetik mədəniyyət sisteminə daxil ola bilmir. Bu, onun insanların tələbatının ideya-bədii dəyərinə və estetik idrak səviyyəsinə uyğunluğundan asılıdır.

Bir anlığa təsəvvür edin ki, ucqar dağ kəndlərindən birində məşhur bir opera tamaşası göstərilir. Aktyorlar nə qədər böyük sənətkarlıqla çıxış etsələr də, kənd camaatı tərəfdən heç bir reaksiya nəzərə çarpmır. Deməli, nümayiş etdirilən əsərlə, ona tamaşa edən insanların arasında böyük bir uçurum vardır. Bu insanlar qarşılaşdıqları dünyaya daxil ola bilmirlər. Çünki, tamaşada əks etdirilən hadisələrin ifadə xüsusiyyətləri haqqında onların ən sadə təsəvvürləri belə yoxdur. Ona görə də, "incəsənətdən zövq almaq üçün bədii cəhətdən savadlı olmaq lazımdır". (K.Marks). Bu isə insanların ümumi mədəni səviyyəsindən, cəmiyyətin maddi vəziyyətindən, gərəkli vaxt ilə asudə vaxt arasındakı nisbətdən əhəmiyyətli dərəcədə asılıdır.

Estetik mədəniyyətin müstəqil funksional elementlərindən biri də bədii özfəaliyyətdir. O, xalq yaradıcılığı növüdür. Buraya teatr, musiqi, xoreoqrafiya, təsviri və tətbiqi sənət sahəsində geniş xalq kütlələrinin yaradıcılıq fəaliyyəti daxildir. Bədii özfəaliyyət kollektivlərinin professional səviyyəsinin yüksəlməsi nəticəsində həvəskar ifaçıların xalq teatrları, opera və balet studiyaları, xor kapellası və simfonik orkestrləri yaranır. Daha istedadlı özfəaliyyət iştirakçıları xüsusi təhsil almaqla professional kollektivlərdə peşəkar sənətkar zirvəsinə qalxırlar.

Azərbaycanda bədii özfəaliyyətin inkişafında Ü.Hacıbəyovun, H.Sarabskinin, Bülbülün, A.İsgəndərovun və b. böyük xidmətləri olmuşdur.

Bədii mədəniyyət cəmiyyətin estetik mədəniyyətinin ancaq bir hissəsidir. Estetik fəaliyyət estetik mədəniyyət sisteminə ictimai praktikanın müxtəlif sahələrini cəlb edir. Eyni zamanda elmi-texniki tərəqqinin estetik fəaliyyətlə qarşılıqlı təsir prosesini yaradır. Son zamanlar estetik fəaliyyətin maddi istehsal sistemində yeni növü-dizayn meydana çıxmışdır.

Dizayn müasir dövr estetik mədəniyyətinin mühüm elementidir. Onım məqsədi nəticə baxımından maddi sərvətlər istehsalıdır. Lakin bu sərvətlər xüsusi özfəaliyyət əsasında estetik dəyər alır. Dizayn eyni zamanda incəsənətlə istehsal arasında vasitəçidir.

Estetik mədəniyyətin mühüm bir elementi də estetik tərbiyədir. Cəmiyyətin estetik mədəniyyəti böyük tərbiyəvi əhəmiyyətə malikdir. Cəmiyyətin hər bir üzvünün, xüsusilə də gənclərin estetik mədəniyyətinin formalaşması mütəşəkkil və məqsədyönlü prosesdir. Buraya aşağıdakı vəzifələr daxildir:

1.Milli, ümumbəşəri ideyalar əsasında estetik zövqün formalaşdırılması:

2.İctimai praktikanın hər bir sahəsində, yüksək estetik fəaliyyət və tələbatın formalaşdırılması.

3.Bədii yaradıcılıq üçün vərdişlərin və qabiliyyətlərin təkmilləşdirilməsi və inkişafı.

Estetik tərbiyə sistemi təhsilsiz tam inkişaf edə bilməz. Çünki, onun əhəmiyyəti və məqsədi estetik sərvətləri dünya-görüşü səviyyəsinə qaldıraraq onu şəxsiyyətin həyata ümumi baxış sistemi ilə birləşdirməkdir.

Estetik təhsil alınan estetik informasiyalara şəxsiyyətin tənqidi münasibət bəsləməsinə imkan yaradır, hadisələrə, incəsənətə, həyata onun estetik qiymətinin yüksək ideya səviyyəsini şərtləndirir.

Beləliklə, gənclərimizdə gözəllik hissinin, estetik zövq və vərdişlərin formalaşması istiqamətində istifadə olunan

bütün vasitələr mütləq onlarda vətəndaşhq hissi, milli düşüncə tərzi tərbiyə edilməsi ilə əlaqələndirilməlidir. Belə ki, gözəllik anlayışı vətəndaşlıq probleminin bir hissəsi kimi dərk olunmah, yüksək zövqə malik gənclər yetişdirmək məqsədi ilə məhdudlaşmayıb, ləyaqətli gənclər tərbiyə etmək üçün vasitə olmalıdır. Sağlam və inkişaf etmiş zövqü olan yüksək mənəviyyatlı vətəndaşlar yetişdirilməsi estetik tərbiyənin ana xəttini təşkil etməlidir.

## *§6. MƏDƏNİYYƏTİN YAYILMA VASİTƏLƏRİ*

Cəmiyyətin mədəni inkişaf səviyyəsi onun yaratmış olduğu mənəvi sərvətlərin həcmi isə, yayılma miqyası və mənimsənilməsi ilə ölçülür. Mənəvi sərvətlərin yaranması, yayılması və istifadə olunması üsulları isə cəmiyyətin sosial-mədəni təşkilindən asılıdır. Mənəvi istehsalın dəyişməsi və inkişafı özünü ilk növbədə mədəni sərvətlərin yaradılması, mübadilə edilməsi bölgüsü və istifadə olunması üsullarının dəyişməsi və inkişafı kimi göstərir.

Cəmiyyətin mədəni inkişaf tempi, vüsəti və səmərəliliyi ona cəlb olunmuş insanların yaradıcı fəallığının dərəcəsindən, onların əhatə dairəsinin miqyasından asılıdır. Müasir dövrdə mədəni həyat insanların mənəvi sərvətləri fəal mənimsəməsini və ondan intellektual səviyyədə istifadə edilməsini, mədəni inkişafda kütlələrin geniş iştirakını nəzərdə tutur.

Mədəni tərəqqi özünü iki şəkildə əks etdirir:

1)İnsanın mənəvi cəhətdən dolğun həyatını, onun intellektual və emosional qüvvələrinin inkişafını təmin edən real şəraitdə;

2)Şəxsiyyətin mənəvi aləminin özündə, onun mənəvi təlabatının genişliyində və müxtəlifliyində, yaradıcılıq potensialında və istedadında.

Müasir dövrdə mədəni tərəqqinin mühüm səciyyəvi əlaməti onun kompleksliyidir. Bu kompleksliyə aşağıdakılar daxildir:

Maddi və mənəvi mədəniyyətin bütün sahələrinin tam qarşılıqlı inkişafı, cəmiyyətin mənəvi həyatının bütün sahələrinin daim keyfiyyətcə təkmilləşməsi, mənəvi mədəniyyətin fəaliyyət göstərməsi, onun daha da zənginləşməsi və inkişafı xalqın mədəni səviyyəsinin daim yüksəlməsi, onun mənəvi tələbatının, mədəni ehtiyaclarının mənəvi sərvətlərin bölgüsündə bərabərliyinin təmin edilməsi.

Mənəvi sərvətlərin yayılma və təbliği aşağıdakı şəkildə həyata keçirilir:

l)Təhsil sistemi:

2)Kütləvi-informasiya vasitələri;

3) Mədəniyyət müəssisələri vasitəsi ilə.

Təhsil sisteminin üç mərhələsi cəmiyyətin həyatında əsas rol oynayır.

1 )Məktəbəqədər uşaq müəssisələri. Bu müəssisələrdə kiçik yaş qruplarında biliklərin əsası həm oyun, həm də məşq vasitəsilə qoyulur. Məsələn, rəsm, musiqi və s. Orta hazırlıq qruplarında isə oxumaq, yazmaq, hesab və sairlə.

Təhsil sisteminin II mərhələsi isə müxtəlif tipli orta ümumtəhsil müəssisələrində həyata keçirilir. (kimya, riyaziyyat, təmayüllü məktəblər). Orta təhsildə peşə məktəblərinin də müstəsna yeri vardır. Bu tipli tədris müəssisələrində eyni zamanda həm təhsil, həm də müəyyən sənət verilir.

Təhsil sisteminin III mərhələsi isə orta ixtisas və ali məktəblərdə elmi biliklərin yüksəldilməsi, informasiyaların artırılması şəklində həyata keçrilir.

Mənəvi sərvətlərin yayılmasında kütləvi informasiya və kommunikasiya vasitələrinin də xüsusi rolu vardır. Bu vasitələrdən biri radio-informasiyanın müəyyən məsafəyə elektromaqnit dalğaları vasitəsilə verilməsi üsuludur.

Müstəqil bir dövlət kimi artıq XXI əsrə qədəm qoyan Azərbaycan Respublikası istiqlalını qorumaq, demokratik dövlət qurmaq, azad bazar iqtisadiyyatlı bir vətəndaş cəmiyyəti yaratmaq uğrunda irəliləyir. Bu yolda ən çevik informasiya kanalları olan radio və televiziyanın da özünəməxsus yeri var. Geniş auditoriya və güclü emosional təsirə malik olan radio və televiziya həm əhaliyə operativ informasiya çatdırmaq, həm də güclü ictimai rəy formalaşdıraraq insanları qlobal vəzifələrin həyata keçirilməsi uğrunda, mübarizəyə səfərbər etməkdə cəmiyyətin həyatında mühüm rol oynayır.

1895-ci ildə A.S.Ponov tərəfindən ixtira edilən, əvvəlcə rabitə məqsədilə, sonra isə hərbi işlərdə istifadə olunan radionun praktiki əhəmiyyəti 1900-cü ilin qışında Finlandiyada Livensaari gölündə fəlakətlə qarşılaşan balıqçıların xilasında bir daha dünyaya aydın oldu. Getdikcə radiosiqnalların əhatə dairəsi genişləndirilərək əvvəlcə ölkələri, sonra isə qitələri yaxınlaşdırdı. Beləliklə, radio güclü kommunikasiya vasitəsi olmaqla cəmiyyətin həyatına daxil oldu. Efirdə səslənən rəngarəng verilişlər sübut etdi ki, radio həm kütləvi informasiya vasitəsi, həm də mədəniyyətin yorulmaz təbliğatçısıdır. O, bəşər münasibətlərinə, mədəniyyət normalarına, həyat və fəaliyyətin hər bir sahəsinə mahiyyət etibarilə o qədər yenilik bəxş etdi ki, bu ilk zamanlarda həqiqətən də real möcüzə idi.

İlk dəfə Azərbaycan radiosu 1926-cı il noyabrın 6-da Respublika Elmlər Akademiyasının indiki İstiqlal küçəsində yerləşən binasından efirə çıxmışdır. “Danışır Bakı!” sözləri ilə ödkəmizdə radio verilişlərinin təməli qoyulmuşdur. 1927-ci ilin fevralında isə Bakıda radio verilişlərinə həsr olunmuş xüsusi müşavirə keçirilmiş, 1928-ci ilin aprelində respublikanın böyuk şəhər və rayonlarının radiolaşdırılması planı təsdiqlənmişdi. 1929-cu ilin axırlarından Bakıda yeni

RV-8 marşı (M.Maqomayev) radionun musiqi rəmzı olmuşdur.

Yarandığı ilk dövrdə gün ərzində yalnız yarım saat musiqi və xəbərlər verən Azərbaycan radiosu bu gün Azərbaycan, ingilis, alman, fransız, rus, ərəb, türk, fars, kürd, ləzgi, talış və gürcü dillərində gün ərzində 50 saata yaxın veriliş hazırlayır. Bu verilişlərin 18 saatını birinci proqram, 19 saatını "Araz" proqramı, 8 saatını isə xarici dillərdə verilişlər studiyası hazırlayır.

Azərbaycan radiosu ilk dəfə beynəlxalq efirə 1941-ci ilin avqustunda çıxmışdır. Almaniyanın SSRİ-yə qarşı başladığı işğalçı müharibə Moskvadan həm ölkə daxilində, həm də həmsərhəd olduğu qonşu dövlətlərdə ideoloji təbliğat işini qüvvətləndirməyi tələb edirdi. Buna görə də Avropa ödkələrinin verilişlərinin ümumi həcmini artıran ümumittifaq radiosu ölkənin cənub hissəsində bu vəzifəni Azərbaycan radiosuna həvalə etdi.

1941-ci ilin iyulunda Türkiyəyə və İrana sınaq verilişləri verildi. Avqust ayıdan isə beynədxalq dalğalarda "Bakının səsi" eşidildi. Avqustun 25-də iki ölkə arasında bağlanmış müqavilənin altıncı bəndinə əsasən sovet qoşunları İran ərazisinə daxil olmuşdu. SSRİ zahirən İrandan arxayın olsa da, Türkiyədən ehtiyat edirdi. Elə buna görə də Türkiyə və İrana yayımlanan verilişlərdə faşizmin bütün dünya, o cümlədən region üçün bir bəla olduğundan bəhs edilirdi. Eyni zamanda, "Bakının səsi"ndə sovet məlumat bürosunun xəbərləri, cəbhə xəbərləri səslənir və sovet xarici siyasəti təbliğ edilirdi. Müharibədən sonra isə bu radio uzun müddət dörd dildə Azərbaycan, türk, fars və ərəb dillərində verilişlər hazırlayaraq sovet həyat tərzini təbliğ etmişdir.

Azərbaycan müstəqillik qazandığı gündən Beynəlxalq Azərbaycan radiosunun da ideoloji məzmunu dəyişdi.

Bu, Azərbaycanı dünyaya tanıtmaq, xalqımızın zəngin tarixini, qədim mədəniyyətini, müstəqilik dövrünün nailiyyətlərini yaymaq, dünyaya bəyan etmək zərurətindən irəli gəlirdi. Bu radio dalğalarında xalqımızın istiqlal mübarizəsi tarixindən, dövlət quruculuğumuzun uğurlarından, cəmiyyətimizdəki demokratik dəyişikliklərdən, qədim tariximzdən və incəsənətimizdən bəhs edən verilişlər üstünlük təşkil edir. Eyni zamanda Qarabağ müharibəsi, Ermənistanın Azərbaycana təcavüzünü ifşa edən siyasi şərhlər də "Azərbaycanın səsi" radiosunun daimi mövzularındandır. Qeyd etdiyimiz bu vəzifələri yerinə yetirən radio iki istiqamətdə iş aparır:

1. Şərq ölkələrinə yayımlanan verilişlər (ərəb, fars, türk və Azərbaycan dillərində).
2. Qərb ölkələrinə yayımlanan verilişlər (ingilis, alman fransız və rus dillərində).

Təqdirəlayiq haldır ki, "Beynəlxalq Azərbaycan radiosu"nun nəzdində Güney Azərbaycan göstərir. Hələ 50-ci illərdən Azərbaycan Dövlət Radio Verilişləri Komitəsində fəaliyyətə başlayan "Cənubi Azərbaycana verilişlər" redaksiyası konkret prinsiplər əsasında fəaliyyət göstərib. Rusiya və İranın strateji maraqları üst-üstə düşdüyü üçün Qüzey Azərbaycanı tərəfindən Cənubi Azərbaycana yayımlanan verilişlər həmin maraqları ifadə edirdi. Beiə ki, sovet vətəndaşlarının real həyat tərzi şişirdilmiş bir şəkildə cənublu soydaşlarımıza çatdırıldı. Axı, belə verilişlərin məzmununu Moskvadan rus dilində göndərilən təlimatlar təşkil edirdi. Bunun əsas səbəblərindən biri Sovet-İran maraqlarını əks etdirən nizamlı siyasət yeritmək, tarixin amansız hökmü ilə ayrı düşmüş Qüzey və Cənub Azərbaycanının yaxınlaşması, vahid mədəni məkan yaratmaq problemini unutdurmaq idi. Belə ideoloji proqramlar əsasında hazırlanan verilişlərdə cənubda yaşayan soydaşlarımızın sosial həyat şəraitindən,

vətəndaşlıq hüquqlarının toxunulmazıığından, öz ana dillərində təhsil müəssisələrinin olmamasından, qəzet, jurnal və kitabların Azərbaycan dilində nəşr edilməməsindən bir qayda olaraq sükutla keçilirdi. Lakin buna baxmayaraq mütərəqqi ruhlu cənublu ziyalılarımız bu hərəkətin hansı vəziyyətdən irəli gəldiyini yaxşı anlayır və gələcəyə ümidlə baxırdılar.

1986-cı ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi "Güney Azərbaycanına verilişlər" redaksiyasının verilişlərinin saat həcmini artırmaq məqsədilə SSRİ Dövlət Televiziya və Radio Komitəsinə xüsusi məktubla müraciətdən sonra həmin ilin sentyabr ayının 30-da efir vaxtının artırılmasına icazə verilir. l987-ci ilin martın 1-dən bu verilişlərin saat həcmi iki saata çatdırılır. Buna, İrana farsca ünvanlanan verilişlərin efir vaxtının bir saat azaldılması hesabına nail olundu. l993-cü ildən sonra haqqında danışdığımız verilişin efir müddəti 2 saat 45 dəqiqəyə çatdırılır. Eyni zamanda "Güney Azərbaycanına verilişlər" redaksiyası ayrıca qurum kimi fəaliyyət göstərir. Redaksiyada aparılan struktur dəyişiklikləri nəticəsində iki şöbə-ictimai-siyasi və mədəniyyət şöbələri yaradılmışdır. İctimayi-siyasi şöbə hər gün 45 dəqiqə, mədəniyyət şöbəsi isə 2 saat həcmində verilişlər hazırlayaraq efirə verir.

Güney Azərbaycanına verilişlərin geniş dinləyici auditoriyası vardır. Belə ki, güneyli soydaşlarımızın müəyyən hissəsi dünyanın müxtəlif ölkələrinə yayılmışlar. Belə verilişlər onların həm Azərbaycanda gedən proseslərdən, burada baş verən ictimai-siyasi və mədəniyyət yeniliklərindən xəbərdar olmalarına, həm də Azərbaycan mədəniyyətinin, azərbaycançılıq ruhunun bütün dünyada yayılmasına səbəb olur. Ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlıların sayının dünya ensklopediyalarında öz əksini tapması da sevindirici haldır. Aşağıdakı rəqəmlərə

diqqət yetirin: “Avstraliya-8000, Avstriya-19000, Albaniya-12000, Əlcəzair-260000, Argentina-12000, Əfqanıstan-424600, Banqladeş-170440, Belçika-13000, Birma-76000, Bolqarıstan-64400, Braziliya-74000, Butan-1480, Böyük Britaniya-17000, Macarıstan-26000, Yunanıstan-12400. Danimarka-56000, Misir-844790, İsrail-12000, Hindistan-301146, İndoneziya-410940, İordaniya-44600, İraq-844000, İrlandiya-4000, İspaniya-14000, İtaliya-30000, Yəmən Ərəb Respublikası-32000, Kanada-174000, Çin Xalq Respublikası-30000, Küveyt-18000, Malta-2500, Meksika-26000, Monqolustan-4800, Yəmən Xalq Demokratik Respublikası-56000, Birləşmiş Ərəb Əmirliyi-55000, Norveç-50000, Oman-19000, Pakistan-654092, Polşa-10098, Portuqaliya-8000, Rumıniya-44000, Suriya-9240, Sudan-17050, ABŞ-2409000, Türkiyə-2460000, Finlandiya-11640, Fransa-65000, Almaniya-300000, Yuqoslaviya-5900 və Yaponiyada -10000 nəfər”[1]

Dünya azərbaycanlılarının ilk həmrəylik konfransı ilk dəfə 1947-ci ildə ABŞ-ın Los-Anjeles şəhərində, ikinci dəfə 1998-ci ildə Vaşinqtonda, üçüncü dəfə isə 1999-cu ilin oktyabrında AFR-in Köln şəhərində keçirilmişdir. Dördüncü konfransın isə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmisi planlaşdırılmışdır. Belə məclislərin keçirilməsində məqsəd dünya azərbaycanlılarının monolit birliyini yaratmaq, diaspora formalaşdırmaq və onların fəaliyyəti ilə Azərbaycanın mövcud problemlərinin kəskin şəkildə dünya ictimaiyyətinin nəzərinə çatdırılmasından ibarətdir.

Hazırda respublikamızda iki dövlət kanalından (birinci kanal və “Araz”) əlavə bir neçə özəl radio da fəaliyyət göstərir. Radio dalğalarında “Azad Azərbaycan”, ANS-İM-də səslənir. İndi hər bir vətəndaşımız

[1] Nizami Xudiyev. Radio, televiziya və ədəbi dil. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 2001, səh.88

əvvəllər Münhendən, indi isə Praqadan yayımlanan “Azadlıq” (1953-cü ildən), Londondan “Bi-Bi-Si” (1994) və Vaşinqtondan “Amerikanın səsi”nin (1982) Azərbaycanca verilişlərini maneəsiz dinləyə bilirlər. Bu isə o deməkdir ki, dünyanın müxtəlif düşüncə mədəniyyətinə malik olan radiolar Azərbaycan dilinin intelektual, informativ, emosional ifadə zənginliyini, çevikliyini, dinamizmini təmin edir.

Mədəniyyətin yayılma vasitələrindən biri də televiziyadır. Kütləvi informasiya vasitələri içərisində dilin informasiya, estetik, ideoloji funksiyaları daha çox televiziyada nəzərə çarpır. Televiziyada sosial, mədəni və təbliğati vəzifələr bir tərəfdən onun cəmiyyətin həyatındakı rolunu, ictimai statusunu,digər tərəfdən isə kütləvi informasiya vasitələrinin çox janrlığını müəyyənləşdirir.

Radionun kəşfi elektron dalğalarının uzaq məsafayə ötürülməsi, danışanın təsvirinin verilməsi və alınması sahəsində də eksperimentlər aparılması üçün zəmin yaratdı. Peterburq Texnologiya İnstitutunun professoru Rozinqin 1910-cu ildə icad etdiyi elektron - şüa aparatı bu sahədə ilk addım oldu. Oktyabr inqilabından sonra bu proses Rusiyada daha da sürətləndi və televiziyanın kəşfi ilə nəticələndi.

Azərbaycanda televiziya ilk dəfə 1956-cı ilin fevralında fəaliyyətə başlamış və ilk vaxtlar efirə həftədə bir saata yaxın verilişlər vermişdir. 1957-çi ildə həftədə beş gün iki saat beş dəqiqə həcmində verilişlər verən Azərbaycan televiziyası bu gün iki kanalla həftədə 100 saatdan çox veriliş hazırlayır. Gün ərzində ekrana çıxarılan orijinal verilişlərin həcmi 15 saatdan çoxdur. Eyni zamanda bu verilişlər rəngli təsvirlərlə verilir.

Televiziya vasitəsilə yayımlanan rəngarəng verilişlər içərisində maarifçilik verilişlərini xüsusi qeyd etməyi lazım bilirik. Çünki, belə verilişlərin ən mühüm cəhəti odur ki, onlar tamaşaçıya hər hansı konkret sahədə bilik verməklə

bərabər, onların ümumi dünyagörüşünün artmasına, bu və ya digər problemə münasibətində onun tərəddüdlərinin aradan qalxmasına kömək edir. Bu istiqamətdə televiziyanm "Elmi-kütləvi və tədris proqramları" redaksiyası əhəmiyyətli rol oynayır. Burada səhiyyə sistemindən başlamış dil öyrədilməsinə, müxtəlif elm sahələrinin problemlərinə aydınlıq gətirilir. Eyni zamanda hər bir məsələ maarifləndirici xarakter daşıyır. Xalqın milli-mənəvi dəyəri onun elm xəzinəsidir. Bu sərvət mühavizə olunmaqla araşdırılmalı və nəsildən-nəsilə ötürülməlidir. Bu məsələlər televiziyan "Əxlaq və mənəviyyat" şöbəsinin hazırladığı verilişlərdə geniş şəkildə öz əksini tapır.

Cəmiyyətin həyatının elə bir sahəsini göstərmək olmaz ki, televiziya oraya nüfuz etməsin. Bu mədəniyyətin yayılma vasitələri arasında radio və televiziyanın yerini və əhəmiyyətini bir daha aydın göstərir.

Məlumdur ki, radio 1895-ci ildə A.S.Popov tərəfindən ixtira edilmişdir. Radio verlişləri geniş dinləyici kütləsi üçün operativ informasiya və kütləvi təbliğat vasitələrindən biridir. Hazırda kommunikasiya vasitələri estetik səryətləri yaymaqda daha fəal və dinamik olub, cəmiyyətin mədəni həyatında böyük rol oynayır. Bu sahədə Azərbaycan radiosunun da xidmətləri böyükdür. Hazırda respublika radiosu efirə Azərbaycan dili ilə yanaşı, müxtəlif dillərdə hazırlanmış verlişlərlə çıxır.

Televiziya artıq cəmiyyətimizin mənəvi həyatının ayrılmaz hissəsi olmuşdur. Azərbaycan respublikasında televiziya verlişlərinə 1956-cı ildən başlanmışdır. Ayrı-ayrı tarixi dövrlərə, milli məktəblərə mənsub olan təsviri sənət və heykəltaraşlıq əsərləri televiziya vasitəsilə geniş kütlələrə, eləcə də ucqar bölgələrdə yaşayan adamlara çatdırılır.

Müxtəlif sənət əsərlərinin teleekranda böyük zövq və məharətlə canlandırılması, şərh edilməsi, müxtəlif tarixi

faktların şəxsiyyətlərin yada salınması və s. müyonlarla tamaşaçının estetik mədəniyyətinin inkişafına imkan yaradır.

Mədəniyyətin yayılmasında mətbuat da təsirli vasitələrdən biridir.

XIX əsrdə Azərbaycan dilində ilk mətbuat orqanlarının meydana gəlməsi xalqın mədəni inkişafında, milli jurnalistikanın və milli fikrin inkişaf tarixində mühüm əhəmiyyət kəsb etmişdir.

Bakı quberniya mətbəəsində general-qubernator Dmitri Semyonoviç Staroselskinin razılığı ilə nəşrə başlayan "Əkinçi" (1875-1877) qəzeti ilə Həsən bəy Zərdabi milli mətbuatımızın əsasını qoydu. Daha sonra "Ziya" (Ziyayi-Qafqasiyyə) (1879-1884), "Kəşkül" (1881-1891), XX əsrdə isə "Şərqi-Rus" (1903-1905), "Həyat" (1905-1906), "İrşad" (1906-1907), "Tərəqqi" (1908-1909), "Molla Nəsrəd-din" (1906-1925), "Zənbur" (1909-1910), "Tazə həyat" (1907-1908), "İttifaq" (1908-1910), "Açıq söz" (1915-1920) və s. qəzet və jurnallar cəmiyyətdə mədəniyyətin, ictimai-mədəni səviyyənin inkişafında və milli mənlik şüurunun formalaşmasında müstəsna rol oynadı.

Mətbuatın yaranması ilə bərabər, XIX əsrdə kitab nəşri sahəsində meydana çıxan yeniliklər getdikcə təkmilləşərək inkişaf edir. "Ziya" və "Kəşkül" mətbəələrinin kitab nəşri sahəsindəki işini XX əsrdə Tiflisdə "Qeyrət" mətbəəsi, Bakıda Orucov qardaşlarının və Haşım bəy Vəzirovun "Səda" mətbəələri davam və inkişaf etdirirlər. Qeyd edək ki, kitab mədəni irsin, xalqın mənəvi sərvətinin qiymətli bir hissəsi, siyasi-ideoloji mübarizənin qüdrətli vasitəsidir. Kitablar bizim müdrik babalarımızın yadigarı, tarixin canlı şahidləridir. Kitablar yazı və dilin, ədəbiyyat və incəsənətin, elm və texnikanın inkişafında əvəzsiz rol oynayır. Unutmaq olmaz ki, kitab çapı əlyazma, daş, ağac, gil üzərində yazı və s. olmaqla tarixən qədimdir.

Sonralar respublikamızda dövri mətbuatın nəşri genişlənmiş, tiraj vahidi xeyli yüksəlmişdir. Məsələn 1950-ci ildə cəmi 8 adda jurnal 323 min tirajla buraxılırdısa, 1980-ci il-də bu inkişaf 31 adda 14 milyon 427 min nüsxə olmuşdur. 1950-ci ildə 94 adda, 1980-ci ildə, 132 adda, 1990-cı ildə 211 adda qəzet çap olunmuşdur.

Mədəniyyətin inkişafında mədəniyyət müəssisələrinin də özgün yeri vardır. Bədii-tamaşa təşkilatları və mədəni - maarif ocaqları belə müəssisələrdəndir.

Bədii tamaşa təşkilatlarının aşağıdakı tipləri vardır: teatrlar, konsert qostrol birlikləri, sirk.

Bu təşkilatların vəzifəsi peşəkar sənət əsərlərini hazırlayaraq yaymaqdan ibarətdir.

Mədəni-maarif müəssisələrinə isə klublar, muzeylər, kitabxanalar daxildir. Bunlar isə aşağıdakı funksiyaları yerinə yetirir:

1) Mədəni-maarif işi vasitəsilə mənəvi sərvətləri yaymaq;

2) İnsanları müxtəlif formalarda yaradıcılığa cəlb etmək.

Mədəniyyətin belə mürəkkəb, çoxplanlı və müxtəlif səviyyəli strukturu ona cəmiyyətdə bir sıra sosial funksiyaları həyata keçirməyə imkan verir,

l. Dərketmə funksiyası. Mədəniyyət vəhdətdə götürülmüş bütün ictimai şüur formalarını əhatə edərək dünyanın dərk olunması və mənimsənilməsinin tam mənzərəsini yaradır. Cəmiyyət, sinif, millət özünü bütövlükdə mədəniyyətdə, onun bütün növlərində mədəniyyət vasitəsilə dərk edir.

2. Tarixi varislik, sosial təcrübənin ötürülməsi funksiyası. Bu, çox vaxt informasiya funksiyası da adlanır. Mədəniyyətin sayəsində sosial təcrübə həm bir nəsildən digər nəslə, həm də bir nəslin həyatı dövründə ölkələr və xalqlar arasında ötürülür.

3. Mədəniyyətin informasiya funksiyası onun kommunikativ funksiyası ilə bağlıdır. İnsan maddi və mənəvi mədəniyyət abidələrində həkk olunmuş informasiyanı dərk etməklə bu abidələri yaratmış insanlarla dolayı və ya vasitəli ünsiyyətə girir. Söz insanların ideoloji və mədəni fəaliyyətinin bütün proseslərini müşayət edir. Dil, ilk növbədə ədəbi dil bu və ya digər milli mədəniyyətə yiyələnmək vasitəsidir.

4. Mədəniyyət həm də cəmiyyətin müəyyən sinfinin normalar sistemi və adamların fəaliyyətinin bütün sahələrinə tələblər sistemi kimi çıxış edərək normativ funksiya yerinə yetirir.

5. Mədəniyyətin sosial mənasını əks etdirən əsas sistemyaradıcı cəhəti onun humanist funksiyasıdır. Bütün yuxarıda qeyd etdiyimiz funksiyalar bu funksiyaya tabedir. Mədəniyyətin vəzifəsi bu və ya digər sinfın, cəmiyyətin mənafeyinə və tələblərinə uyğun şəxsiyyət tipi formalaşdırmaqdır.

Mədəniyyət tarixi hadisədir və onun tarixi xarakteri tərəqqidə inkişafın aşağıdan yuxarıya doğru olmasındadır. Bu, bəşər mədəniyyətinin çoxəsrlik inkişaf mərhələlərində də görünür. Mədəniyyətin tarixi xarakteri yeni mədəniyyətin keçmişin nailiyyətləri ilə sıx əlaqəsində təzahür edir. Mədəniyyətdə belə varislik həmişə mövcud olan maddi istehsalın inkişaf varisliyinə əsaslanır. Eyni zamanda, mənəvi mədəniyyətin bütün formalarının tərəqqisində bu varisliyin mühüm əhəmiyyəti vardır.

Mənəvi mədəniyyətin unikal sərvətinin hamının malı olması üçün onu qoruyub saxlamaq vacibdir. Bununla arxivlər, muzeylər, kitabxanalar kimi mədəniyyət obyektləri məşğul olur. Mədəniyyətin inkişafı ilə bu müəssisələrin əməkdaşlarının yaradıcılıq işi, elmi iş elementləri: tarixi mədəniyyət abidələrinin tədqiq olunması, müəllifliyin müəyyən edilməsi, bərpaçılıq və s. getdikcə daha da çoxalır. Ha-

zırda mənəvi sərvətlərin qorunub saxlanılmasında texniki vasitələrdən istifadə olunur (çap, üzün çıxarılması).

Mənəvi sərvətlərin qorunub saxlanması yalnız onun fiziki cəhətdən korlanmasının unudulmasının qarşısını almaq məqsədi daşımır. Hər bir xalq, hər bir nəsil öz mədəniyyətini boş bir səhrada, heç nədən yaratmır. Hər bir mədəniyyət özündən əvvəlki mədəniyyətin əsasında yaradılır. Mədəni sərvətlər ilk növbədə xalq maarifinin ictimai sistemi vasitəsilə bölüşdürülür və yayılır. Ölkənin, cəmiyyətin mənəvi həyatının səviyyəsi tədris müəssisələrinin sayından, tədrisin keyfiyyətindən, müəllimlərin ixtisasından, geniş xalq kütlələrinin bütün təhsil növlərinə yiyələnmək imkanlarından asılıdır.

Maddi nemətlər kimi, mənəvi istehsal məhsulları, mədəni sərvətlər də insanların istifadəsi üçündür. Lakin mənəvi nemətlər istehlakı maddi nemətlər istehlakından xeyli fərqlənir. Belə ki, maddi nemətlər istehlakı prosesində məhsul aradan çıxır (Qida yeyilir, paltar köhnəlir). Ancaq mənəvi sərvətlərdən daha çox adam faydalanır. Çünki o, öz təbiətinə görə fərdi yiyələnmə obyekti deyil.

Mənəvi sərvətlər istehlakı şəxsiyyətin, sosial qrupun mənəvi tələbatının xarakteri ilə şərtlənir. Bu tələbat isə istehsalın inkişaf səviyyəsindən, ictimai-siyasi qurluşdan, şəxsiyyətin mənsub olduğu sinfin ideologiyasından, mühitdən (sosial-mədəni), həmçinin adamın özünün fərdi xüsusiyyətindən, onun zövqündən və vərdişlərindən asılıdır. Mənəvi tələbat adamları mövcud mənəvi sərvətləri mənimsəməyə və yenilərini yaratmağa sövq edir.

Mənəvi sərvətlərin istehsalı, qorunması, yayılması və istehlakı üçün cəmiyyətdə sosial təsisatlar müxtəlif mədəniyyət müəssisələri və təşkilatları yaradılır ki, onları funksional əlamətinə görə ayırmaq mümkündür. Bir sıra təsisatlar, yəni nəşriyyat, kinostudiya, yaradıcılıq birlikləri, dərnəklər və s. mənəvi istehsal üçün yaradılır. Digər təsisatlardan,

yəni kinoteatr, lektoriyalar, konsert birlikləri mədəniyyəti yaymaq üçün istifadə edilir.

Mədəniyyət, həmçinin insanın evristik məqsədlərinin yerinə yetməsinə: onun yeniliyi dərk etməyin daha məhsuldar formalarının axtarılmasına, yaşadığı həyatın yeni yonlarının və metodlarının tapılmasına, insanın təbiətin kortəbii qüvvələri üzərində hökmranlığının güclənməsinə kömək edir. Mədəni tərəqqi obyektiv tarixi qanunauyğunluğun mədəniyyət varisliyinin təsiri səbəbindən baş verir. O, ictimai-iqtisadi formasiyalar dəyişən zaman keçmiş dövrlərin mədəni nailiyyətlərinin qorunub saxlanmasını, yaradıcılıqla mənimsənilməsini və bunun da əsasında yeni ictimai tələblərə uyğun mədəniyyətin yaranmasını təmin edir.

Adamlarda keçmişin mədəni sərvətini bütünlüklə və hərtərəfli mənimsənilməsini tərbiyə etmək vacibdir. Mədəni irsin mənimsənilməsinin müasir mərhələsinin mühüm əlaməti ənənəçiliyin aradan qaldırılması, keçmişin mədəni sərvətiərinə obyektiv və yeni münasibət yaranmasıdır. Belə münasibət göstərilərkən keçmişin mədəni sərvətləri cansız, toxunulmaz xəzinə kimi qalmır. Qədim mədəniyyət formalarını olduğu kimi qorumaq, təzə formalara qarşı qoymaq niyyətində olunmur.

Ümumiyyətlə, mədəni irsə həmişə və hər yerdə müxtəlif şəkildə münasibət göstərilir. Mədəni irsin təhlili ilə məşğul olan hər bir şəxs (sənətşünas, rejissor, ifaçı və s.) bir tərəfdən keçmişin bu və ya digər mədəni hadisəsinin əvvəlki görkəmini və konkret tarixi koloritini maksimum saxlamağa, digər tərəfdən isə onu nisbətən müasirləşdirməyə çalışır. (Yəni müasir tamaşaçıya xoş gəlsin).

Mədəni irsin mənimsənilməsində tarixi həqiqətdən uzaqlaşmaq olmaz. Varislik o demək deyildir ki, keçmişdən bizə qalanları kortəbii surətdə götürüb istifadə edək. Varisliyin tənqidi təhlilə, keçmiş mədəni irsdən istifadədə yaradıcı dəyişikliyə ehtiyacı vardır.

Mədəniyyətin inkişafı təhlil olunarkən varisliyin xüsusiyyətləri, forma və xarakteri nəzərə alınmalıdır. Məsələn, varislik daimi və vaxtaşırı xarakterli, məzmunca yaxud formaca mütərəqqi və mürtəce ola bilər. Tarixi varislik mədəniyyətin inkişafında obyektiv qanunauyğunluq, onun tərəqqisinin əsas şərtlərindəndir.

Cəmiyyətimizin mədəni inkişaf vəzifələrinə uyğun gələn mədəniyyətin varislik üslubunun özünü həm ümumsosial səviyyədə, həm də şəxsi səviyyədə göstərməsi mədəniyyəti mənimsəmə prosesində hamının dünyanı dərketməsinin, bütün dərinliyi və zənginliyi ilə əks etdirilməsi, onun daha vacib hesab etdiyi mədəni sərvətlər cəminin mənimsənilməsinə ardıcıl, məqsədyönlü və tam münasibət bəsləmə dərəcəsinin izahı vacibdir. Keçmişin mədəni irsinə varisliyin yetkin üslubunu Azərbaycanın Q.Qarayev, F.Əmirov, A.Məlikov kimi bəstəkarlarının yaradıcılığında aydın görmək olar. Bu bəstəkarlar keçmişimizin musiqi mədəniyyətinin fundamental ideya-bədii ənənələrini inkişaf etdirərək, müasir dinləyiciyə Azərbaycan və dünya klassiklərinin əsərlərinin dərin vətəndaşlıq pafosunu və obrazlı kökünü musiqi vasitəsi ilə çatdırmışlar.

Forma baxımından müasir insanın keçmiş epoxaların mədəniyyətinə münasibətində əlamətdar hadisə mədəniyyət hadisələrinə qiymət verilməsində demokratizm və çeviklikdir.

Əgər varislik prosesinin inkişaf tempindən danışılırsa, onun genlilik əlamətləri göz önündədir.

Müasir insanın mədəni irsə münasibətinin təkmilləşdirilməsi mədəni sərvətlərin həm şüurlu surətdə, həm də kortəbii mənimsənilməsinin mahiyyətini və xüsusiyyətlərini dərk etmək tələblərini irəli sürür.

Mədəniyyətə kortəbii varislik neqativ nəticələr verir. Bu bir tərəfdən keçmişlə çoxcəhətli əlaqələrin pozulmasma, bir sıra mədəni hadisələr haqqında yaddaşlarda olanların it-

məsinə gətirib çıxarır, digər tərəfdən keçmişin mədəni potensialı ilə kortəbii ünsiyyət adamlarda mədəni irsə münasibətdə fetişizm ruhu doğurur. Bu vaxt mədəniyyətin həqiqi dəyərindən asılı olmayaraq, o səcdəyə, sitayiş əşyasına çevrilir.

Mədəni varisliyin idarə olunmasının sərhədlərini genişləndirmək, onu kortəbiilik dairəsindən çıxarmaq, maddi bazasını möhkəmləndirmək, mütəxəssislər hazırlayan müvafiq müəssisələr şəbəkəsi yaratmaq, mədəni sərvətləri və ənənələri qorumaqda ictimaiyyətin rolunu artırmaq hələ də kifayət səviyyədə deyildir.

Bəşəriyyətin indiyə qədər topladığı mədəni irs o qədər böyük və müxtəlifdir ki, onun geniş kütlələr tərəfindən dərk edilməsi üçün mədəni sərvətlərin tiraclanması və yayılmasının yeni forma və metodlarını tapmaq lazımdır.

Mədəni sərvətləri qorumaq, onu bərpa etmək sahəsində tərəqqipərvər qüvvələrin birgə fəaliyyəti, beynəlxalq mədəni mübadilə göstərir ki, mədəni varislikdə insanlar tarixi və etnik xüsusiyyəti nəzərə almalıdırlar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Dekorativ-Tətbiqi sənəti (tərtib edəni və mətnin müəllifi akad. Rasim Əfəndi), Bakı, 1998.
2. Azərbaycan Demokratik Respublikasının rəmzləri (fotoalbom) Bakı, İşıq nəşriyyatı, 1992.
3. Azərbaycan Etnoqrafiyası, I cild, Bakı, Elm, 1988.
4. Azərbaycan Ədəbiyyatı tarixi. Üç cilddə. Bakı, 1960.
5. Azərbaycan kitabı (biblioqrafiya). Üç cilddə, I cild Bakı, Azərbaycan SSR Kitab Palatası, 1963.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1996.
7. Azərbaycan Sovet Ensiklopediyası. X cilddə. I-X cildlər.
8. Babayev İ., Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1970.
9. Balayev M.A. İslam və onun ictimai-siyasi həyatda rolu. Bakı, 1991.
10. Bammat H. Qərb mədəniyyətinin inkişafında müsəlmanların rolu. Bakı, Azərnəşr, 1994.
11. Bayramoğlu A. Orxon ədəbi abidələrində kainat və insan haqqında düşüncələr. “Kainat” jurnalı, 2001 № l, səh.35-37.
12. Bayramov Q. Mənəvi həyatda millilik və beynəlmilçilik. Bakı, Gənclik, 1974.
13. Bayramov Q. Mənəvi həyatda millilik və beynəlmilçilik. Bakı, Gənclik, 1980.
14. Cəfərov N. Azərbaycanşünaslıq məsələləri. Bakı Universiteti nəşriyyatı 2001.
15. Cəfərov N. Türk dünyası: xaos və kosmos. Bakı Universiteti nəşriyyatı, 1998.
16. Gəvahirəl Nehru. Ümumdünya tarixinə nəzər. Bakı, 1998.
17. Çəmənzənli Y.V. Müstəqilliyimizi istəyiriksə... (toplama, ərəb qrafıkasından transliterasiya, tərtib, müqəddim və qeydlər Alxan Bayram oğlunundur.) Bakı, Gənclik, 1994.
18. Çərkəsov B. Azərbaycan ədəbiyyatında milli və beynəlmiləl cəhətləri vəhdəti. “Təşviqatı” jüri.,1971 № 16.
19. Çərkəsov B. Beynəlmiləl tərbiyə və incəsənət. Bakı, 1986.

20. Erivanski M. Qədim Yunanıstan tarixi. Bakı, 1963.
21. Əliyev Heydər. Ədəbiyyatm yüksək borcu və amalı. Bakı, “Ozan” 1999.
22. Əliyev H.Ə. Həyacan təbili. Bakı, 1983.
23. Əliyev R.Y. Heydər Əliyev, din və mənəvi dəyərlər. Bakı, 1998.
24. Əliyev Ə. İncəsənət və din, Bakı, 1966.
25. Əliyev Q.C., Tağıyev Ə.M., Bayramov M.İ. Mədəniyyətşünaslığın əsasları. Bakı, 1999.
26. Əliyev Ə. Mənəvi mədəniyyət və din. Bakı, Azərnəşr, 1981.
27. Əhədov A. Azərbaycanda din və təsisatlar. Bakı, 1991.
28. Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə. Bakı, Maarif, 1993.
29. Əsgərov M. Təbiətin mühafizəsi. Bakı, 1980.
30. Fərhadoğlu M. Dinşünaslığın əsasları. Bakı, 1998.
31. Göyalp Z. Türkçülüyün əsasları. Bakı, 1988.
32. Hacıyeva A. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı, “Azərbaycan Ensklopediyası” Nəşriyyat-Poliqrafiya Birliyi, 1988.
33. Həmədani Əhməd Sabiri. Xristianlığın mahiyyəti. Bakı, Sabah, 1996.
34. Hüseynzadə Ə. Qərbin iki dastanında türk. Bakı, “Ağrıdağ”, 1998.
35. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir. Bakı, 1996.
36. Xəlilov C.Ə. Maddi mədəniyyət abidələrinin əhəmiyyəti və mühafizəsi. Bakı, Azərnəşr, 1961.
37. Xudiyev N. Radio, telefiziya və ədəbi dil. Azərbaycan dövlət nəşriyyatı, 2001.
38. Kərimov N.C, Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti, Bakı, İşıq, 1992.
39. Qasımov M., Cəfərov C. Azərbaycanda estetik fıkir tarixindən. Bakı, 1964.
40. Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləlçilik. Bakı, Elm 1982.

41. Qasımzadə F., Hacıyev T. Avestadan bu günədək. Bakı, 1982.
42. Qaziyev S. Azərbaycaının qədim abidələri. Bakı, 1948.
43. Qubatoğlu B. Milli münasibətlərin təkmilləşdirilməsi və mənəvi mədəniyyətin tərbiyəvi rolu. Bakı, “Nurlan”, 2000.
44. Quliyev V. Mirzə Kazımbəy: Bakı, Yazıçı. 1987.
45. Qurana dair 101 sual. Bakı, 1992.
46. Mahmudov M. Piyada... Təbrizdən Şama qədər. Bakı, Yazıçı nəşriyyatı, 1982.
47. Mahmudov Y. Odlar yurduna səyahət. Bakı, Gənclik 1980.
48. Milli nəğmələr. Bakı, 1919.
49. Mirəhmədov Ə. Müqəddimə. Azərbaycan kitabı üç cilddə. I cild, Bakı 1963, səh. XIII-XLVIII.
50. Məmmədov Z. Azərbaycanın orta əsr filosof və mütəffəkkirləri. Bakı, 1989.
51. Məmmədzadə H. “Kitabi-Dədə Qorqud və soykökümüzün qaynaqları”. Bakı, “Ozan” 2000.
52. Mərdanov M., Quliyev Ə. Azərbaycan Respubliksının dövlət rəmzləri. Bakı, “Çaşıöğlu” 2001.
53. Musayev T. Azərbaycanla Hindistamn bəzi tarixi əlaqələri. Bakı, Azərnəşr, 1960.
54. Nəbiyev N.Ə. Təbii sərvətlər və istehsal. Bakı, 1983.
55. Nəsrəddin Tusi. Əxlaqi Nasiri. Bakı, Elm, 1989.
56. Nicat Əlisa. Dünya fəlsəfi irsindən yarnağlar. Bakı, Azərnəşr, 1991.
57. Nizami Gəncəvi almanaxı, Birinci kitab. Bakı, Elm 1984.
58. Nizami Gəncəvi almanaxı, İkinci kitab. Bakı, Elm 1991.
59. Onullahi S.M. Təbriz şəhəri 13-17-ci əsrlərdə. Bakı, 1982.
60. Paşayev S. Zəka işığında tərbiyə. Bakı, 1988.
61. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, Yazıçı, 1993.
62. Rzayev A.Q. Hüquq mədəniyyəti. Bakı, Elm, 1976.
63. Sadıqov Q. Etika. Bakı, Maarif, 1971.
64. Səfərov C. Babayev A. Şərəfli yol. Bakı, Azərnəşr, 1974.
65. Səfərov Y, Qədim Azərbaycan: nə bilirik. Bakı, 1991.

66. Şeyxüislam Allahşükür Paşazadə. Qafqazda islam. Bakı, 1991.
67. Şükürov Ə. Qədim türk yazılı abidələrinin dili. Bakı, Maarif, 1993.
68. Tağıyev Ə., Əliyev Q. Kulturologiya. Bakı, Təbib, 1997.
69. Vaşinqton İrvinq. Məhəmməd peyğəmbərin həyatı. Bakı, "Azərbaycan ensklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, 1996.
70. Veliçko V.L. Qafqaz. Bakı, Azərbaycan nəşriyyatı, 1995.
71. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, Azərnəşr, 1993.
72. Yadigar Türkel. İnsan, təbiət və cəmiyyət. Bakı, 1994.
73. Yadigar Türkel. İnsan, təbiət və cəmiyyət münasibətləri. Biososial və fəlsəfi aspektlər. Bakı, İşıq, 1998.
74. Yusifov X. Şərqdə intibah və Nizami Gəncəvi. Bakı, 1982.
75. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, BDU nəşr, 1993.
76. Ədəbiyyat məcmuəsi. Nizami adına Ədəbiyyat institutunun əsərləri. XVII cild. Bakı, 1999.
77. "Əl-nida". İmana çağırış, jurnal 2000 № 3.
78. "Dirçəliş. XXI əsr" jurnal 1998 № l səh. 60-67.
79. "İpək yolu" jurnalı 1998 № l,2.
80. Tarix və onun problemləri. Nəzəri-elmi, metodik jurnal. Bakı 1997. № 2.
81. Prof. Dr. Veli Osmanlı. Türk halkları edebiyatlarının ortak başlanğıcı. (VI-X Asırlar) Erzurum, 1996.
82. Алекперов А. К. Исследование по археологии и Этнографии Азербайджана. Баку, 1960.
83. История древного мира. Расцвет древных обществ. Москва, 1980.
84. История древного Мира. Част II. Гречия и Рим. Москва, «Просвещение», 1982.
85. История древного мира. Упадок древных обществ. Москва, 1989.
86. История Искусства народов СССР. В 9 томах, том 4 Москва «Изобратительное искусство», 1979.
87. Халилов Д. Материальная культура Кавказской Албании. Баку, 1985.

## MÜNDƏRİCAT

Xalqların milli mənlik siması-mədəniyyət…………………………...3
Giriş……………………………………………………………….5
**I FƏSİL. MƏDƏNİYYƏT VƏ TƏRƏQQİ**
§ 1. Mədəniyyətşünaslıq və onun bir elm kimi inkişaf xüsusiyyətləri……………………………………………………7
§ 2. Mədəniyyət və sivilizasiya……………………………...11
§ 3. Dünya və Azərbaycan mədəniyyəti. Şumer, Akkad mədəniyyəti…………………………………………….....16
§4. Qədim Misir mədəniyyəti…………………………………20
§ 5. Hett mədəniyyəti…………………………………………24
§ 6. Hind mədəniyyəti……………………………………....27
§ 7. Çin mədəniyyəti…………………………………………..33
§ 8. Yunan mədəniyyəti………………………………………..36
§ 9. Roma mədəniyyəti……………………………………...46
§ 10. Ərəb mədəniyyəti……………………………………..50
§11. Azərbaycan mədəniyyəti…………………………………56
§ 12. Mədəniyyət sistemində elmin yeri və rolu……………...........77

**II FƏSİL. MƏDƏNİYYƏT VƏ DÖVLƏT.**
§ 1. Mədəniyyət, dövlət və vətəndaş……………………………..81
§ 2. Hüquq mədəniyyəti………………………………………82
§ 3. Azərbaycan Resrublikasının dövlət rəmzləri……..…………………86
§ 4. Mədəniyyətdə millilik və beynəlmiləlçilik………………………103
§ 5. Azərbaycanın maddi və mənəvi mədəniyyəti…………………...110
§ 6. Azərbaycan mədəniyyətinin xaricdə təbliği məsələləri……………………………………………...126

**III FƏSİL. MƏDƏNİYYƏT VƏ CƏMİYYƏT.**
§ 1. Mədəniyyət və təbiət-cəmiyyət münasibətləri…………………..136
§ 2. Dil və mədəniyyət…………………………………………146
§ 3. Din və mədəniyyət…………………………………...........154
§ 4. Əxlaq mədəniyyəti……………………………………...........170
§ 5. Estetik mədəniyyət…………………………………………....175
§ 6. Mədəniyyətin yayılma vasitələri…………………………...181

# Mədəniyyətşünaslıq

Sədaqət Kamal qızı Məmmədovа


Nəşriyyatın müdiri: **Əhməd Əliyev**
Nəşriyyat redaktoru: Samir Əsədov
Kompüter və dizayn: **Əliyev Nizami**
Korrektor: **Ləman Məmmədova**

---

Çapa imzalanmış: 22.10.2001.
Kağız formatı 60x84 1/16
fiziki çap vərəqi 12,75.
Tirajı 500. Qiyməti müqavilə ilə

---

Kitab "Kooperasiya" nəşriyyatının mətbəəsində
yığılıb səhifələnmiş və ofset üsulu ilə çap olunmuşdur.

Ünvan: Bakı şəhəri, Nəcəf Nərimanov küç. $8^b$